# Heydər Əliyev

ŞƏXSİYYƏT VƏ ZAMAN

Həyat və fəaliyyətinin xronikası



IV HİSSƏ

# 1969-1989

Elmira Axundova

BAKI
2008

**Redaktor –** Nərgiz Qurbanova, Azərbaycanın əməkdar jurnalisti

**Rəssam –** İsmayıl Məmmədov, Azərbaycanın əməkdar rəssamı

**Tərtibçilər –** Elmira Axundova və Yelena Axundova

**Heydər Əliyev. Şəxsiyyət və Zaman. Həyat və fəaliyyətinin xronikası**
Bakı, «Ozan», 2008, 328 səh.

Tanınmış Azərbaycan yazıçısı, publisisti, ictimai xadimi Elmira Axundova Heydər Əliyevin ilk bioqraflarındandır. Onun dahi şəxsiyyətin siyasi bioqrafiyasının müxtəlif dövrlərini əks etdirən «Naşirin qətli» (2001), «Həqiqət anları» (2003), «Şüşə saray» kitabları ölkənin mədəni həyatında hadisəyə çevrilmişdir.

Elmira Axundova «Heydər Əliyev. Şəxsiyyət və Zaman» adlı çoxcildlik roman-tədqiqatını ömrünün ən mühüm layihəsi sayır. Beş ilə yaxın gərgin zəhmət, kitab qəhrəmanının uşaqlıq və gənclik dostları, qohumları və yaxınları ilə lentə alınmış yüzlərlə söhbət, tanınmış siyasi xadimlər və dövlət adamları ilə müsahibələr, DTK arxivlərində, Prezidentin şəxsi arxivində iş ulu öndərimizin ən dolğun və obyektiv bioqrafiyasını yaratmaq cəhdi olan romanın unikal sənədli əsasını təşkil edir. Kitab dərin təhlil və müəllif şərhləri ilə müşayiət edilən xeyli sayda az məlum olan fakt, epizod, eksklüziv informasiya ilə zəngindir. Yazıçının Heydər Əliyevlə şəxsi tanışlığı və dostluğu romana xüsusi emosionallıq və səmimiyyət gətirir.

Elmira Axundova respublikanın əməkdar jurnalisti, Milli Məclisin deputatı, H.Zərdabi, R.Rza, N.Nəcəfov adına mükafatların laureatıdır, «Şöhrət» ordeni ilə təltif olunmuşdur.

4702060204-54
A ------------------- 2008
On-047-08

© E.Axundova, 2008



# Böyük ömrün xronikası

Bu cild ümummilli lider Heydər Əliyevin 1969-cu ildən 1989-cu ilədək həyat və fəaliyyətinin iyirmi illik xronikasını əhatə etmişdir.

Kitabın yaranması barədə bir neçə söz. Çoxcildlik "Heydər Əliyev. Şəxsiyyət və zaman" roman-tədqiqatı üzərində çalışarkən mən qəzet və digər dövri nəşrlərdən, informasiya agentliklərinin lentlərindən həm respublikamızın, həm də bütövlükdə İttifaqın tarixindən qəhrəmanımın fəaliyyəti ilə birbaşa bağlı olan və ən əlamətdar mərhələləri səciyyələndirən hadisə və faktları yazıb götürürdüm. Növbəti dəfə bu yazıları gözdən keçirərkən başa düşdüm: elmi-obyektiv əsər kimi tarixi əhəmiyyət daşıya bilən, Heydər Əliyev ömrünün ən parlaq mərhələlərindən birinin bir növ salnamə-bioqrafiyası, aylara və illərə səpələnmiş tarix və hadisələrdən ibarət unikal xronoloji təqvim yaranmışdır. Bu qənaətə gələndən sonra mən salnamə ilə ciddi məşğul olmağa, onu yeni fakt və materiallarla zənginləşdirməyə, əldə olan məlumatları dəqiqləşdirməyə və bir daha yoxlamağa başladım. Bir çox şeyləri iyirmi ildə saralmış qəzet səhifələrini vərəqləyərkən aşkar edə bildim ("Bakinski raboçi", "Kommunist" (Azərbaycan dilində), "Pravda" və s.). Bir sıra, necə deyərlər, "mətbuat üçün nəzərdə tutulmayan" faktlar Prezidentin şəxsi arxivindən tapıldı, məsələn, fotoşəkillərin arxasındakı yazılar və qeydlər. Onların bir çoxu qəhrəmanımın öz əli ilə yazılmışdı.

20 il – əvvəlcə Sovet Azərbaycanının, sonra isə nəhəng

dövlətin rəhbərliyində – gərgin, yorulmaq bilməyən əməyin və az qala hər gün (istər növbəti obyektin işə salınması, abidənin açılışı, məhsul bayramında, yaxud beynəlxalq miqyaslı tədbirdə iştirak etmək olsun) nəsə bir mühüm hadisənin həqiqətən də möhtəşəm mənzərəsini ehtiva etmişdir. Heydər Əliyevlə bilavasitə əlaqədar olan külli miqdarda tarix və hadisə, görüşdüyü və qəbul etdiyi insanların sonu görünməyən siyahısı, ölkədaxili və xarici səfərlərinin geniş coğrafiyası – bir sözlə, yığcam xronika sətirlərinin əks etdirdiyi hər bir şey onun tükənməz enerjisi və inanılmaz iş bacarığının əyani göstəricisidir.

Bu salnamə həm də ona görə zəruridir ki, ümummilli liderin həyat və fəaliyyətinin son dövrü (1993-2003-cü illər) kifayət qədər ətraflı və dolğun tədqiq edilib, demək olar ki, günbəgün xronologiyanı əks etdirən biblioqrafik cildlər işıq üzü görüb və bu iş indi də davam etdirilir. Lakin ulu öndərin fəaliyyətinin bundan əvvəlki iyirmi ilinə nə səbəbdənsə bir o qədər müraciət olunmur və bu dövr əvvəlki kimi kölgədə qalır ki, bu da insafdan deyil: biz tarix üçün, bu böyük həyatın gələcək tədqiqatçıları üçün Heydər Əliyev haqqında mümkün qədər dolğun biblioqrafik məlumat külliyyatı və məxəzi yaratmalıyıq.

Əlavə edim ki, kitab üçün fotomateriallar çox diqqətlə seçilmiş, üstünlük raritet şəkillərə verilmişdir. Fotoşəkillərin əksəriyyəti ilk dəfə çap olunur. Bunlar əsasən H.Əliyevin şəxsi arxivindən olan şəkillərdir. Əlbəttə, bu Xronikanın ilk nəşridir, gələcəkdə kitab yeni, məlum olmayan faktlarla zənginləşəcəkdir; məsələn, mən Heydər Əliyevin nə vaxt və nə ilə əlaqədar Misirdə (yalnız bunun 1973-cü ildə olduğu məlumdur) və İtaliyada (1974-cü il) olduğunu dəqiqləşdirə bilmədim, bir daha dəqiq yoxlanılmağı və müvafiq şərhləri tələb edən xeyli digər faktlar da vardır. Bir müddət sonra Xronikanı tamamlayıb təkrar nəşr etmək ümidindəyəm.



İstənilən halda bu kitab binaya möhkəmlik gətirmək üçün betonla örtüləcək dəmir karkasa bənzəyir. Əminəm ki, onu təkmilləşdirməyə çalışan və ya öz layihələrini təklif edən professional inşaatçılar mütləq tapılacaqdır. Axı dahi insanların həyatı – bizə yaşamaq qüvvəsi bəxş edən tükənməz qaynaqdır.

*Elmira AXUNDOVA,*
*Azərbaycanın əməkdar*
*jurnalisti.*

# 13 il Azərbaycan rəhbərliyində

## 1969

**İyulun 14-də** Azərbaycan KP MK-nın Heydər Əlirza oğlu Əliyevi Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçdiyi plenumu oldu.

**Avqustun 5-də** Azərbaycan KP MK-nın plenumu oldu. H.Əliyev "V.İ.Leninin anadan olmasının 100 illiyinə hazırlıq haqqında" adlı məruzə ilə çıxış etdi.

Həmin tarixi məruzədən bəzi fraqmentlər:

"Bu gün Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumu respublikada Leninin yubileyinə hazırlığın gedişini hərtərəfli müzakirə etmək, bəzi yekunlar vurmaq və birinci dərəcəli vəzifələri müəyyənləşdirmək üçün toplaşmışdır...

1968-ci ildə respublika sənayesi məhsul satışı planını 100,8 faiz yerinə yetirmişdir. Kənd təsərrüfatının ümumi məhsulu 1967-ci ildəkinə nisbətən 4,4 faiz artmışdır. Dövlətə taxıl, üzüm, tütün, barama, çay, ət, süd, yun, yumurta satışı tapşırıqları yerinə yetirilmişdir.

Lakin belə düşünmək səhv olardı ki, bizdə bütün çətinliklər arxada qalmışdır və iqtisadiyyatın vəziyyəti bizi narahat etməməlidir.

Bir az əvvəl dedik ki, respublika sənaye üzrə yarımillik

planı artıqlaması ilə yerinə yetirmişdir. Lakin ümumi məhsulun artım sürətinə görə Azərbaycanın orta ittifaq göstəricilərindən və digər respublikaların göstəricilərindən xeyli geri qalması təşviş hissi doğurur.

Bunu nə ilə izah etmək olar? Təhlil göstərir ki, bir çox sahələr üçün səciyyəvi olan ümumi cəhətlər də az deyildir. Bu, hər şeydən əvvəl, etibar edilən iş sahəsi üçün bəzi rəhbərlərin məsuliyyət hissini itirməsindən ibarətdir. Tabelikdə olan müəssisələrə rəhbərliyin səviyyəsi aşağıdır, lazımi tələbkarlıq və intizam yoxdur.

Qeyri-ahəngdarlığın və işin pozulmasının ən ciddi səbəblərindən biri bizdə kök salmış yanlış qayda – il ərzində təsdiq olunmuş planların müntəzəm olaraq dəyişdirilib azaldılmasıdır. Keçən il 145 müəssisə, yəni bütün müəssisələrin təqribən 20 faizi məhsul satışı planını yerinə yetirməmişdir.

Əmək məhsuldarlığı ləng yüksəlir. Neftçıxarma, Neftayırma və Neft Kimyası Sənayesi nazirlikləri, Tikinti Materialları Sənayesi Nazirliyi, Sənaye Tikintisi və Kənd Tikintisi nazirlikləri üzrə əmək məhsuldarlığı xeyli aşağı düşmüşdür.

Müəssisələrin əksəriyyətində maşın və mexanizmlər yalnız birinci növbədə tam gücü ilə işləyir. İkinci növbədə avadanlığın yarısı boş dayanır. Bir sıra müəssisələrdə üçüncü növbə yalnız formal surətdə mövcuddur...

Respublikada mövcud olan əmək ehtiyatlarından hələ pis istifadə edilir. Bizdə heç yerdə işləməyən, ictimai-faydalı əməklə məşğul olmayan xeyli adam var. Bakıda 19 min məktəb məzunu işə düzəlməmişdir, Kirovabadda isə 15 mindən çox adam və ya bütün əmək qabiliyyəti olanların 20 faizi boşbekar gəzir.

Neft sənayesinin uzun müddətdən bəri geri qalması Azərbaycan KP MK-nı çox narahat edir. 21,7 milyon ton neft hasil olunmuş 1966-cı ildən bəri hasilat durmadan aşağı düşür. İlin əvvəlindən respublika neftçiləri təqribən 400 min ton, beşilliyin başa çatmış 3,5 ili üçün isə bir milyon tondan artıq yanacaq borclu qalmışlar.



Nəqliyyatda ciddi vəziyyət yaranmışdır. Bu il nəqliyyat nazirliklərinin və idarələrinin heç biri əsas göstəricilər üzrə planı yerinə yetirməmişdir... Gəmilərin boş dayanması hallarının çox olması, onların tonnajından kifayət qədər istifadə edilməməsi bununla nəticələnmişdir ki, Xəzər Dəniz Gəmiçiliyi İdarəsi keçən il planı yerinə yetirməmişdir.

1969-cu ildə tikintidə vəziyyət pisləşmişdir. 1968-ci ildə əsaslı tikinti üzrə əsas fondların istifadəyə verilməsi planın yalnız 76 faizini, bu ilin birinci yarısında isə daha az – 58 faizini təşkil etmişdir. Mənzil tikintisində də vəziyyət eynidir. İlk altı ayda inşaatçılar illik tapşırığın üçdə bir hissəsini yerinə yetirmişlər. Məktəblərin, məktəbəqədər tərbiyə ocaqlarının tikintisi üzrə tapşırıqlar ilbəil yerinə yetirilməmiş qalır. Məsələn, plana görə yarım ildə 11 məktəb tikilməli idi. Halbuki bir məktəb belə tikilib başa çatdırılmamışdır.

**Ticarət və məişət xidməti sahəsindəki vəziyyətdən əhali haqlı olaraq narazılıq edir** (seçmə bizimdir – ***E.A.***). Zəhmətkeşlər ölçüdə, haqq-hesabda və çəkidə aldatma hallarından, xidmət mədəniyyətinin aşağı səviyyədə olmasından, kolxoz bazarlarında qayda-qanunun olmamasından şikayətlənirlər. Kolxoz bazarlarında alverçilər və möhtəkirlər at oynadırlar.

Biz həll edilməmiş problemlərdən, respublika kənd təsərrüfatının ciddi surətdə geri qalmasından açıq danışmalıyıq. Xeyli müddətdir ki, bizdə dənli bitkilərin məhsuldarlığı ölkə üzrə orta səviyyədən aşağıdır, pambığın məhsuldarlığına görə isə biz axırıncı yerdəyik. Kartofun, tərəvəzin, meyvənin və üzümün məhsuldarlığı sahəsində də eyni vəziyyət mövcuddur.

Heyvandarlıq mədəniyyətinin aşağı səviyyədə olması, yem istehsalındakı bərbad vəziyyət nəticəsində biz əslində heyvandarlığın bütün göstəriciləri üzrə müttəfiq respublikalar arasında axırıncı yerləri tuturuq".

Partiyanın ideoloji və siyasi-tərbiyə işinə toxunan H.Əliyev, respublikanın həyatında baş verən və indiyədək bu ba-

rədə açıq danışmaqdan çəkindikləri bir sıra neqativ halları kəskin tənqid etdi.

Belə ki, ali məktəblərdəki vəziyyətlə bağlı H.Əliyev qeyd etdi:

"Hər il ali məktəblərə, texnikumlara qəbul imtahanları ərəfəsində ittifaq və respublika idarələrinə məktub və ərizə axını başlayırdı. Onlarda adətən deyilirdi ki, ali məktəbə və ya texnikuma daxil olmaq üçün rüşvət vermək lazımdır. Kurs imtahanları vaxtı müəllimlərə "hörmət" etmək lazım olduğu barədə də çox siqnallar olurdu... Biabırçı haldır, yoldaşlar! Yalnız 1968-ci ildə və 1969-cu ilin ilk dörd ayı ərzində ali məktəblərin 5 müəllimi cinayət məsuliyyətinə cəlb edilmişdir. Özü də qeyd etmək lazımdır ki, ali və orta məktəblərdə olan biabırçılıqlar, nöqsanlar, vəzifədən sui-istifadə halları təkcə bu faktlarla bitmir".

İnzibati orqanların fəaliyyəti üzərində dayanaraq, H.Əliyev ilk dəfə olaraq "rüşvətxorluq kimi son dərəcə qorxulu vəzifə cinayətindən" açıq danışır:

"Partiyanın Mərkəzi Komitəsinə və respublikanın digər orqanlarına bəzi dövlət idarələrində, milisdə, məhkəmələrdə, prokurorluqda, tədris müəssisələrində, hətta xəstəxanalarda məsələnin bu ya digər şəkildə həll olunması üçün müəyyən bəxşiş, başqa sözlə desək, rüşvət tələb olunması barədə çoxlu məktublar gəlir (zalda səslər: "doğrudur!")... Bu günlərdə məhkəmə işi başlayır, cinayət kürsüsündə digərləri ilə yanaşı rüşvətxorluğa görə məsuliyyətə cəlb olunmuş DİN-in keçmiş müstəntiqi Məşədizadə də vardır...

Azərbaycan KP Mərkəzi Komitəsi bu bəlaya, bu cür biabırçı hallara qarşı amansız mübarizə aparacaqdır.

Mərkəzi və respublika təşkilatlarına bəzən özləri qanunçuluğu və hüquq qaydalarını pozmaq yoluna düşən inzibati orqanların işçilərindən çoxlu şikayətlər gəlir. Bu işçilər, görünür, hesab edirlər ki, onlar qanunun qulu yox, ağasıdırlar və qanundan öz istədikləri kimi istifadə edirlər. Vətəndaşlar qanundan kənara çıxan hər bir belə hala qarşı haqlı olaraq hiddətlərini bildirirlər. İnzibati orqanların bəzi rəhbərləri isə bu cür faktlara liberal münasibət göstərirlər, çox zaman bu və ya digər pozuntunu partiya prinsipiallığı ilə pisləmək əvəzinə vəzifənin "şərəfini" qorumaq, günahkar işçini təmizə çıxarmaq barədə düşünürlər.

Qanunsuz saxlanılmalar, həbslər, hətta heç bir günahı olmayan vətəndaşların məhkum olunması, cinayətkarlara isə göz yumulması barədə bizə xeyli fakt məlumdur...

Bəzi vəzifəli şəxslərin davranışında olan əxlaq qaydalarına zidd, mənəviyyata sığışmayan hallardan yan keçə bilmərik. Biz işimizə ziyan vuran dedi-qoduçuları, böhtançıları, intriqabazları, karyeristləri ifşa etməliyik".

Sonra MK-nın birinci katibi kadrların seçilməsi və yerləşdirilməsi məsələləri üzərində dayandı:

"Hələ də elə faktlara təsadüf edilir ki, ayrı-ayrı partiya komitələri kadrların seçilməsi və yerləşdirilməsi prinsiplərinin kobudcasına pozulması hallarına göz yumur, bəzi rəhbər işçilərin şəxsi sədaqət, yerliçilik, qohumluq əlamətlərinə və ya dostluq münasibətlərinə görə adamları məsul vəzifələrə təyin etmək cəhdlərinin qarşısını almır, öz vəzifələrinin öhdəsindən gələ bilməyən işçilərin bir nomenklatura vəzifəsindən digərinə təyin edilməsi hallarına qarşı mübarizə aparmırlar".

MK-nın avqust plenumunda H.Əliyevin yekun sözündən parçalar:

"Beşilliyin üç ili ərzində respublikamızda sənayenin, kənd təsərrüfatının, tikintinin inkişafına nəzər yetirsək, əlbəttə ki, bəzi müsbət göstəriciləri görəcəyik, bu barədə məruzədə danışdıq.

Lakin mən plenum iştirakçılarının diqqətini ona yönəltmək istəyirəm ki, biz bu göstəriciləri ötən illə, yüksək göstəriciləri ilə fəxr edə bilmədiyimiz bir illə müqayisə edirdik, ancaq biz öz göstəricilərimizi bütövlükdə ölkə və digər respublikalar üzrə olan göstəricilərlə müqayisə etməliyik, çünki yalnız o zaman biz respublikadakı vəziyyət haqqında obyektiv fikir yürüdə bilərik.

Belə müqayisə isə respublika iqtisadiyyatının inkişafındakı ciddi gerilikdən və bizdə vəziyyətin açıq-aşkar yaxşı olmadığından xəbər verir.

Beşillik planın hesablamalarına görə 1968-ci ildə ümumi məhsul 1965-ci illə müqayisədə 24,7 % artmalı idi, lakin faktiki olaraq yalnız 19,7 % artmışdır, əgər son üç ildə ümumi məhsulun İttifaq üzrə artım göstəricisini götürsək, burada artım 29 % təşkil etmişdir, bizdə isə 19,7 %.

Kənd təsərrüfatı sahəsində. Hesablamalara görə üç il ərzində kənd təsərrüfatının ümumi məhsulunu 20,5 % artırmaq lazım idi, biz isə faktiki olaraq 13,6 % artırmışıq.

Respublika iqtisadiyyatını inkişaf etdirərkən biz daim yadda saxlamalıyıq ki, bu özlüyündə məqsəd deyil. Biz bununla yanaşı ilk növbədə adamlarımızın yaşayış səviyyəsinin yaxşılaşması, onların artan maddi və mənəvi ehtiyaclarının ödənməsi barədə düşünməliyik...

Mən artıq dedim ki, əhaliyə göstərilən xidmətin pis olması yalnız respublika təşkilatlarına deyil, ittifaq partiya, sovet və təsərrüfat orqanlarına ünvanlanmış çoxlu sayda şikayət və ərizələrə səbəb olur. Və bu şikayətlərin sayı, yoldaşlar, yüksək səviyyədə qalmaqda davam edir. İnsanlar ticarət təşkilatlarının yarıtmaz işindən, xidmətin keyfiyyətindən, alıcıların ölçüdə, çəkidə aldadılmasından, əhalinin gündəlik tələbat malları, meyvə və tərəvəzlə pis təchiz olunmasından, kolxoz bazarlarında qanunsuzluqlardan və qiymətlərin yüksək olmasından şikayət edirlər. Şəhər nəqliyyatının işindən şikayətlənirlər, burada da qarışıqlıq çoxdur. Tibbi xidmətdən şikayət çoxdur, pulsuz xəstəxanada yer almağın, cərrahiyyə yardımının və digər tibbi xidmətin mümkünsüzlüyündən şikayət çoxdur. Və nəhayət, inzibati orqanların: milisin, prokurorluğun, məhkəmələrin ünvanına xeyli şikayətlər vardır.

Bununla bağlı vəziyyət necədir? Düşünürəm ki, yoldaşlar, siz bütün bu şikayətlər üçün istənilən qədər əsas olduğu ilə razılaşarsınız. Bəs buna necə reaksiya verilir? Son dərəcə pis və son dərəcə qeyri-qənaətbəxş.



Bu yaxınlarda biz Kozlov və Qədirov yoldaşlarla bəzi kolxoz bazarlarında olduq, mağazaları gəzdik, Semaşko adına xəstəxanaya getdik. Təəssüratlar olduqca pisdir, yoldaşlar..."

Yekun sözündə H.Əliyev elmi kadrların hazırlanması məsələsinə toxundu və qeyd etdi ki, partiya və sovet orqanlarının rəhbərləri arasında istehsalatdan ayrılmadan namizədlik, hətta doktorluq dissertasiyası müdafiə etmək dəb halını almışdır.

"Özü də, təəssüflə etiraf etmək lazımdır ki, bir çox hallarda bu düzgün yollarla edilmir... Keçən il ali və orta ixtisas təhsili naziri Yelyutin yoldaş Azərbaycan KP MK-ya məktubla müraciət etməyi lazım bilmişdi. O qeyd etmişdi ki, Azərbaycandan olan bəzi dissertasiya işləri lazımi nəzəri səviyyədə yerinə yetirilməmişdir. Onun məktubuna bu işlərə 182 səhifədə rəylər əlavə olunmuşdu. İşlərin səviyyəsi haqqında bu rəylərdən gətirilmiş parçalardan çıxış edərək fikir yürütmək olar. Məsələn: "İlk növbədə söyləməliyik ki, iş nə elmi, nə də ki, praktik əhəmiyyət kəsb edir".

Digər ifadə: "Müəllifin bəzi müddəaları onun nadanlığından xəbər verir", "İş sıravi müəllim məruzələri səviyyəsində yazılmışdır".

Buradan hansı nəticə çıxır? Birincisi, nəticə budur ki, aspiranturaya və elmi kadrların hazırlanmasına münasibəti əsaslı surətdə dəyişmək lazımdır, aspiranturaya tanışlığa və ya qohumluq əlamətlərinə görə rəhbər və ya elmi işçilərin lazımi keyfiyyətlərə malik olmayan övladlarının qəbul olunması qaydası aradan qaldırılmalıdır.

Artıq əndazədən çıxan digər tendensiyanın – bəzi rəhbər partiya, sovet, təsərrüfat işçilərinin dissertasiya müdafiə etməyə meyl göstərmələrinin qarşısı alınmalıdır.

Bəzi rəhbər işçilər, onların bir çoxları yəqin ki, bu zaldadır, rəhbər işə keçən kimi daha çox dissertasiya haqqında düşünməyə başlayırlar. Elə adamlar var ki, bu vəzifədə namizədlik dissertasiyası müdafiə etməyə imkan tapıb, necə deyərlər, nəfəsini dərmədən, irəli, doktorluq dissertasiyasına

doğru addımlayırlar.

Əgər rəhbər işçilərin özləri dissertasiya hazırlayacaqlarsa, bu ya onların dissertasiyasına, ya da əsas işinə zərər gətirmək hesabına olacaqdır... Çox güman ki, bu, əsas işin zərərinə olur, çünki dissertasiya yazmaqda onların işləri yaxşı gedir.

Açıq danışaq: bu yoldaşlardan bir çoxu dissertasiyanı özləri yazmırlar, bu işə institutlardan bir sıra alimləri cəlb edirlər. Bu alimlərin dissertasiya hazırlayarkən hər hansı şəxsi maraqları olur, bunlar ödənir... Və bütün bunlar son nəticədə bizim kadrlarımızın mənən pozulmasına gətirib çıxarır".

MK-nın birinci katibi bəzi işçilərin zəhmətsiz gəlirlər hesabına şəxsi ev və bağ almağa can atdıqlarını da tənqid etdi.

"Məsələn, bir çox yoldaşlar bağ tikdirməyə başlamışlar. Abşeron şəraitində bu, etiraz doğura bilməz, çünki iqlim şəraiti elədir ki, bağın olması pis deyil. Lakin bəzi yoldaşlar sadəcə bağ tikmirlər, bir neçə otaqdan ibarət tikililər ucaldırlar, bu tikililərin qiyməti isə bu yoldaşların halal qazancları ilə heç cür uyğun gəlmir.

Bu məsələyə bizim rayon rəhbərlərinin də diqqətini cəlb etmək lazımdır. Əlbəttə, rayonlarda bağlar tikilmir, ancaq böyük evlər... tikirlər. Danışırlar ki, Kirovabadda şəhərin milis rəisi özünə böyük şəxsi ev tikmişdir. Sual olunur, şəxsi ev milis rəisinin nəyinə gərəkdir? Onun hər cür şəraiti olan kommunal mənzili vardır... Şəhər partiya komitəsi qayda-qanun yaratmağa başlayanda, o bir gecənin içində, ona qarşı iradlar az olsun deyə, öz adamlarını səfərbər edib böyük daş hasarı uçurub.

Bu yaxınlarda Xalq Nəzarəti Komitəsi Dəmir-Beton Məmulatı zavodunun direktoru Asfarovun yol verdiyi sui-istifadə hallarının yoxlamasını başa çatdırmışdır. Yoxlama göstərmişdir ki, o vəzifəsindən sui-istifadə edərək Nardaran qəsəbəsində sahəsi 220 kv. metr olan ikimərtəbəli şəxsi evinin tikintisinə zavoddan dəmir-beton məmulatları aparırmış.

Yoldaşlar! Hamınız yaxşı bilirsiniz ki, dəmir-beton məmulatlar ciddi fondlaşdırılır və şəxsi adamlara satıla bilməz. Lakin bu zavodda böyük miqdarda dəmir-beton məmulatları əsassız olaraq brak adı ilə hesabdan silinir və faktik dəyərinin 10%-nə şəxsi adamlara satılırmış.

Azərbaycan KP MK bütün bu pozuntulara qarşı barışmaz mübarizə aparacaq, daxil olan bütün siqnalları, o cümlədən rəhbər işçilərdən olan iradları, çox diqqətlə yoxlayacaqdır".



**Avqustun 6-da** yeddinci çağırış Azərbaycan SSR Ali Sovetinin sessiyası öz işinə başladı. Deputat H.Əliyev Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin üzvü seçildi, V.Axundov bu vəzifədən azad edildi.

**Sentyabrın 18-də** H.Əliyev "Kommunist" (Azərbaycan dilində) qəzetinin 50 illiyinə və Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunmasına həsr olunmuş təntənəli yığıncaqda çıxış etdi.

**Sentyabrda** H.Əliyevin təşəbbüsü ilə iki qonşu respublikanın münasibətlərində bəzi mübahisəli məsələləri müzakirə etmək üçün Azərbaycan KP MK-nın birinci katibi ilə Ermənistan KP MK-nın birinci katibinin görüşü oldu.

Sonralar H.Əliyev jurnalist Elmira Əhmədovaya verdiyi müsahibədə bu görüşü xatırlayırdı:

"1969-cu ilin sentyabrında mən Ermənistan KP MK-nın birinci katibi Anton Koçinyana zəng vurub onunla görüşmək istədiyimi bildirdim. Bizim görüşümüz Qazax və İcevan rayonlarının sərhədində baş tutdu. Mən məsələni qəti qoydum və Koçinyana təklif etdim ki, erməni millətçilərinin ərazi iddialarının qarşısını almaq üçün konkret tədbirlər görülsün. Məncə bu görüş xeyirli oldu. Çünki sonrakı dövrdə respublikalarımız arasında hər hansı həyəcan doğuran hadisə olmamışdı".

**Noyabrın 1-də** H.Əliyevin iştirakı ilə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin 50 illiyi təntənəli qeyd

olundu, ADU-nun bir qrup professor və müəlliminə fəxri adlar verildi.

**Noyabrın 3-də** Azərbaycan kolxozçularının III qurultayı oldu. H.Əliyev "Kolxozun yeni nümunəvi nizamnaməsinin layihəsi" adlı məruzə ilə çıxış etdi.

**Dekabrın 24-də** H.Əliyev Azərbaycan KP MK-nın plenumunda "Sov.İKP MK dekabr (1969-cu il) Plenumunun yekunları və respublika partiya təşkilatının vəzifələri" adlı məruzə ilə çıxış etdi.

**H.Əliyevin Azərbaycan KP MK-nın dekabr plenumunda çıxışından:**

Respublika partiya təşkilatının yaxın perspektiv vəzifələrindən danışan MK-nın birinci katibi vurğuladı: "Bu cür mühüm vəzifələrə 1970-ci ilin planının sözsüz yerinə yetirilməsi və ümumilikdə beşilliyin uğurla başa çatdırılması, möhkəm dövlət və partiya intizamının təmin olunması, hər cür israfçılığa qarşı mübarizə, təsərrüfatın idarə olunmasının təkmilləşdirilməsi, dövlət aparatı strukturunun və işinin yaxşılaşdırılması məsələləri aiddir".

Sonra Heydər Əliyev xalq təsərrüfatının bütün sahələrində mövcud vəziyyətin geniş tənqidi təhlilini təqdim etdi. Əsas diqqətin ictimai həyatın və kadrların fəaliyyətindəki əyintilərlə mübarizənin zəruriliyinə yönəldildiyi MK-nın avqust plenumu ilə müqayisədə, H.Əliyevin dekabr plenumundakı məruzəsinin əsasını daha dərin və sistemli iqtisadi təhlil təşkil edirdi.

Məruzədə o cümlədən qeyd olunurdu ki, "ümumi ictimai məhsul, milli gəlir, sənaye və kənd təsərrüfatı istehsalı artımı, mərkəzləşmiş kapital qoyuluşu və mal dövriyyəsi üzrə beşilliyin tapşırıqları yerinə yetirilmir.

Bu da nəticəsi. Ümumi sənaye məhsulunun artım sürətinə görə müharibədən əvvəlki 1940-cı illə müqayisədə respublikamız orta ittifaq göstəricilərindən xeyli geri qalmışdır. Bu, kənd təsərrüfatının ümumi məhsulunun artım sürətinə də



aiddir...

Heyvandarlıq son dərəcə geri qalmışdır, başlı-başına buraxılmışdır. Azərbaycanda hər inəyin orta sağımı 641 kiloqram təşkil edir, bu isə ölkədə ən aşağı göstəricidir.

Ötən illər ərzində xeyli miqdarda kapital qoyuluşu mənimsənilməmiş və respublika təsərrüfatı təxminən bir milyardlıq əsas fond ala bilməmişdir.

10 ildə planlarla müqayisədə 1,5 milyon kvadratmetr az mənzil sahəsi istifadəyə verilmişdir.

Bizdə 28 min yerlik məktəb tikilməmiş və biz nəinki məktəblərdə ikinci növbə dərslərini ləğv edirik, hələ üçüncünü də genişləndiririk".

Heydər Əliyevin çıxışının az qala, üçdəbir hissəsi yenə də aşkar olunan neqativ hallara və onlarla daha qətiyyətli mübarizə aparmağın vacibliyinə həsr olunmuşdu. O başa saldı ki, bu mübarizə birdəfəlik kampaniya deyil, daim və məqsədyönlü aparılacaqdır.

MK-nın birinci katibi belə faktlar gətirdi: Sabirabad rayonunda "Azkoopxoztorq" kolxozçulara satmaq üçün müxtəlif markalı 30 minik avtomobili alır. Ancaq bəlli olur ki, maşınların bir hissəsi icrakomun sədri və raykom katibinin icazəsi ilə kolxozla heç bir əlaqəsi olmayan və ya saxta kolxozçu olan şəxslərə satılmışdır.

O deyirdi ki, bir sıra nazirlər və müəssisə rəhbərləri hökumət hesabına öz kabinetləri üçün bahalı mebel, xalça, radioqəbuledici, televizor alırlar, konkret şəxslərin, respublika EA Genetika və Seleksiya institutunun direktorunun, həmçinin Sov.İKP XXII qurultayı adına zavodun rəhbərlərinin adlarını çəkərək, vurğulayırdı:

"Bəzi kommunistlər unudublar ki, dövlətin cibi fəhlə və kəndlilər tərəfindən doldurulur və bu vəsaitlərə qənaətcil, partiya münasibəti göstərmək lazımdır".

# 1970

**Fevralın 26-da** F.Dzerjinski adına klubda Azərbaycan Komsomolunun XXVII qurultayı açıldı. H.Əliyev qurultay iştirakçılarına respublika komsomol təşkilatlarının qarşısında duran vəzifələrə həsr olunmuş nitqlə müraciət etdi.

**Fevralın 27-də** H.Əliyev Azərbaycan Elmlər Akademiyasının böyük zalında giriş sözü ilə Oktyabr inqilabı rəhbərinin 100 illiyinə həsr olunmuş "V.İ.Lenin və Azərbaycan" adlı elmi sessiyanı açdı.

**Martın 2-də** H.Əliyev V.İ.Leninin 100 illiyinə həsr olunmuş respublika yubiley rəsm sərgisinə tamaşa etdi.

**Martın 3-də** H.Əliyev SSRİ xalq artisti, Lenin və Dövlət mükafatları laureatı İqor Moiseyevin rəhbərlik etdiyi Dövlət Akademik SSRİ Xalqları Rəqs Ansamblının yekun konsertində oldu. Dünya şöhrətli kollektiv Bakıya Ümumittifaq incəsənət bayramında iştirak etmək üçün gəlmişdi.

**Martın 20-də** H.Əliyev KP MK-nın plenumunda "Sov.İKP-nin XXIII qurultayının tələbləri ilə əlaqədar olaraq kommunistlərin avanqard rolunun daha da gücləndirilməsində Azərbaycan partiya təşkilatının vəzifələri" mövzusunda çıxış etdi.

Çıxışın böyük bir hissəsi "sənayedə, tikintidə, nəqliyyatda, kənd təsərrüfatındakı vəziyyətə mənfi təsir göstərən" nöqsanların təhlilinə həsr olunmuşdu.

MK-nın birinci katibi açıq söylədi ki, VIII beşillikdə dövlətə



neft, qaz, pambıq və digər məhsullar kəsirlə satılacaqdır. O, əsaslı tikinti və mənzil tikintisində geriliyi qeyd etdi. Yalnız Bakıda "ötən il 193 min kv. metr mənzil istifadəyə verilməmişdir, yəni plana ancaq 47,7 faiz əməl edilmişdir. Həm də Bakıda, 1966-cı ildən başlayaraq mənzil tikintisində sürətin artırılması deyil, əksinə, azaldılması meyilləri müşahidə olunur, baxmayaraq ki, bu məqsəd üçün ayrılan məbləğ durmadan artır.

Bu, yumşaq desək, qeyri-normal vəziyyətin səbəbi yalnız Bakı Baş Tikinti İdarəsi rəhbərlərinin yarıtmaz işində yox, onların şəhər zəhmətkeşləri qarşısında məsuliyyət hisslərini itirmələrindədir".

H.Əliyev zəhmətkeşlərin qayğılarına diqqətsizlik göstərildiyinə, partiya kadrlarının düzgün seçilib yerləşdirilmədiyinə, vəzifə mövqelərindən sui-istifadə edən, qeyri-qanuni varlanan, dövlət mülkiyyətini talan edən kommunistlərə liberal münasibətinə görə Bakı Soveti İcraiyyə Komitəsinin rəhbərini, rayon komitələrinin birinci katiblərini (bu zaman konkret ad və soyadlar çəkilirdi) tənqidə məruz qoydu.

MK-nın birinci katibi nazirliklərin məsul işçilərini iş vaxtının xeyli hissəsini müxtəlif arayışlar, təqdimatlar, göstərişlər tərtib etməyə sərf etdiklərinə, praktik işlə az məşğul olduqlarına görə kəskin tənqid edir. O, Ət və Süd Sənayesi Nazirliyinin ötən ilin 9 ayı ərzində bir dəfə də olsun rayonlarda yerləşən müəssisələrə baş çəkməyən aparıcı şöbə müdirlərinin adlarını çəkirdi.

H.Əliyev neft hasilatı üzrə 18 briqadadan 16-nın ötənilki tapşırıqların öhdəsindən gəlmədikləri üçün Əli Bayramlı şəhər partiya komitəsinin birinci katibi Kərimovu və "Şirvanneft"in təsərrüfat rəhbərlərini şəxsi məsuliyyətə cəlb etməyi təklif etdi.

H.Əliyev hesab edir ki, sənaye müəssisələrinin işinin qeyri-qənaətbəxş nəticələrinə görə Sumqayıt şəhər partiya komitəsi, onun birinci katibi Balakişiyev də məsuliyyət daşımalıdır.

H.Əliyev kadrların seçilməsi və yerləşdirilməsi təcrübəsində kök salmış yerliçilik, qohumbazlıq və ya tanışlıq prinsipini kəskin tənqid etdi. Kirovabad şəhər partiya komitəsinin sabiq birinci katibi Əlizadənin "şəxsi təvazökarlığı" itirməsindən, məsul vəzifələrə qohum və dostlarını irəli çəkməsindən, şəhərdə zəbt edilmiş dövlət torpaq sahələrində bahalı şəxsi evlərin geniş tikintisinin getdiyindən və s. danışdı. Əlizadə ilə bir yerdə şəhər müəssisələrinin bəzi rəhbərləri, məsələn, elmi-tədqiqat institutlarının direktorları vəzifələrindən azad edildilər.

Təsərrüfat planlarının pozulmasına, ticarət, ictimai iaşə, əhaliyə mədəni-məişət və tibbi xidmət sahəsindəki nöqsanlara görə MK Bürosu Cəbrayıl rayon partiya komitəsinin birinci katibi Əhmədovu vəzifəsindən azad etdi.

H.Əliyev bəyan etdi ki, kommunistin tənqidi fikir söylədiyinə görə təqib olunması yolverilməzdir. Belə hal Əli Bayramlı şəhərində, kommunist Cəbiyevin partiya və dövlət orqanlarına 2710-cu avtokolondakı sui-istifadə halları və rəis Bəşirovun qeyri-qanuni hərəkətləri barədə məlumat verdiyi zaman baş vermişdir. Respublika rəhbəri bəyan etdi ki, "tənqidə görə təqib edənləri partiyadan xaric edilməyə qədər ciddi cəzalandırmaq lazımdır". Sonda o, qəzetləri, mətbuatı, televiziyanı nöqsanları daha cəsarətlə aşkara çıxarmağa, bu bəlanın daşıyıcılarını ifşa etməyə və yaranma səbəblərini üzə çıxarmağa çağırdı.

**Aprelin 9-da** Sahil qəsəbəsindəki Mədəniyyət evində "Nərimanovneft"in qabaqcıl işçilərinə Lenin yubiley medalının verilməsinə həsr olunmuş təntənəli yığıncaq keçirildi. H.Əliyev yığıncaqda nitq söylədi.

**Həmin gün** H.Əliyev Respublika Elmlər Akademiyasında neft qvardiyasının veteranı, onun şanlı ənənələrinin daşıyıcısı Gülbala Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş yığıncaqda iştirak etdi.



**Aprelin 10-da** Azərbaycan KP MK-da partiya veteranları ilə görüş keçirildi. H.Əliyev qocaman kommunistləri hərarətlə qarşıladı və onlara "Rəşadətli əməyə görə" medallarını təqdim etdi.

**Aprelin 12-də** H.Əliyev Kuba Respublikasının müdafiə naziri Raul Kastronun şərəfinə təşkil olunmuş qəbulda iştirak etdi.

**Aprelin 16-da** H.Əliyev Azərbaycan KP MK və Azərbaycan SSR Ali Sovetinin V.İ.Leninin anadan olmasının 100 illiyinə həsr olunmuş təntənəli iclasında iştirak etdi. Məruzə ilə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin sədri Q.Xəlilov çıxış etdi.

**Aprelin 17-də** yeni yeraltı sarayın – metronun növbəti hissəsinin ("Ulduz" stansiyasının) istismara verilməsinə həsr olunmuş təntənəli mitinq keçirildi. H.Əliyev stansiyanı inşa edənlərə nitqlə müraciət etdi.

**Aprelin 28-də** kommunist əməyi müəssisəsi – "Leninneft"in səkkizinci mədənində seçkiqabağı iclas keçirildi. İclasın gedişində mədənin rəisi Sosialist Əməyi Qəhrəmanı M.Bayramov Azərbaycan KP MK-nın birinci katibi H.Əliyevin SSRİ Ali Sovetinə deputatlığa namizəd irəli sürülməsini təklif etdi.

**Mayın 7-də** H.Əliyev Azərbaycan KP Bakı şəhər komitəsinin təşkilat məsələsinə baxılan plenumunda iştirak etdi. Plenum başqa işə keçməsi ilə əlaqədar A.Qədirovu BK-nın birinci katibi vəzifəsindən və büro üzvlüyündən azad etdi və Ə.Kərimovu Bakı komitəsinin birinci katibi və büro üzvü seçdi.

**Həmin gün** H.Əliyev və Azərbaycan KP MK-nın Büro üzvləri Bakı HHM dairəsinin zabit və generalları ilə görüşdülər.

**Mayın 8-də** H.Əliyev Azərbaycan KP MK, respublika Ali Sovetinin Rəyasət Heyəti və Nazirlər Soveti adından veteranları Qələbə günü münasibətilə təbrik etdi.

**Mayın 9-da** H.Əliyev M.Əzizbəyov adına Dövlət Dram Teatrında keçirilən Qələbə gününün 25 illiyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**Mayın 22-də** H.Əliyev erməni dilində çıxan "Kommunist" qəzetinin 50 illiyinə, həmçinin onun Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunmasına həsr olunmuş təntənəli yığıncaqda nitqlə çıxış etdi. Bir qrup əməkdaşa fəxri adlar verildi. 30 nəfər respublika Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanları ilə mükafatlandırıldı.

**İyunun 4-də** "Leninneft" neftçıxarma idarəsinin Mədəniyyət sarayında SSRİ Ali Sovetinin İttifaq Sovetinə seçkilər üzrə Bakı-Lenin seçki dairəsi seçicilərinin dövlət hakimiyyətinin ali orqanına deputatlığa namizəd H.Əliyevlə seçkiqabağı görüşü oldu.

**İyunun 19-da** H.Əliyev Azərbaycan SSR Elmlər Akademiyası Rəyasət Heyətinin təşkilati məsələyə baxan iclasında çıxış etdi. Rəyasət Heyəti R.İsmayılovu səhhətinə görə Akademiyanın prezidenti vəzifəsindən azad etdi. H.Abdullayev Azərbaycan SSR Elmlər Akademiyasının yeni prezidenti seçildi.

**İyunun 23-də** H.Əliyev Qırmızı bayraqlı Zaqafqaziya hərbi dairəsi Hərbi şurasının iclasında iştirak etdi.

**İyulun 6-da** H.Əliyev yeddinci çağırış Azərbaycan SSR Ali Sovetinin VII sessiyasının işində iştirak etdi.

**İyulun 8-də** H.Əliyev Özbəkistan SSR meliorasiya və su təsərrüfatı naziri S.Mamarəsulovun başçılıq etdiyi Özbəkistan pambıqçılarının nümayəndə heyətini qəbul etdi.

**İyulun 24-də** H.Əliyev QXF-nin stadionunda keçirilən Qırmızı bayraqlı Xəzər flotiliyasının 50 illiyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**Avqustun 11-də** H.Əliyev Azərbaycan KP MK-nın növbəti plenumunda məruzə ilə çıxış etdi. Plenum kənd təsərrüfatında olan vəziyyəti hərtərəfli təhlil etdi, Sov.İKP MK iyul



Plenumunun, Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 23 iyul 1970-ci il tarixli "Azərbaycan SSR-də kənd təsərrüfatının inkişafına dair tədbirlər haqqında" qərarından irəli gələn vəzifələri müəyyən etdi.

H.Əliyev plenum iştirakçılarına bu qərarın necə qəbul edildiyi barədə danışdı. Əvvəlcə Sov.İKP MK-ya respublikanın kənd təsərrüfatında yaranmış həqiqi vəziyyət haqqında məlumat verilmiş və ittifaq orqanları tərəfindən Azərbaycana yardım göstərilməsinin vacibliyi əsaslandırılmışdır.

Sonra Azərbaycana Sov. İKP MK-nın məsul işçilərindən ibarət böyük komissiya gəlmiş və kənd təsərrüfatında olan problemlərlə yerində tanış olmuşdur. Nəhayət qərar qəbul edilmiş və orada kənd təsərrüfatı məhsullarının istehsalında geriliyi dəf etmək, təsərrüfatların səmərəliliyini artırmaq, heyvandarlıqda vəziyyəti yaxşılaşdırmaq vəzifəsi qoyulmuşdur. Qərarda taxıl istehsalının 900 min tona, pambığın 360 min tona, tərəvəzin 600 min tona, üzümün 720 min tona çatdırılması nəzərdə tutulurdu. 1971-1975-ci illərdə Azərbaycanın kənd təsərrüfatının inkişafına Moskva 1 milyard 290 mln. manat (ötən beşillikdəki 763 milyona qarşı) ayırmışdı. Həmin illərdə Azərbaycana 15 min traktor, 9 min yük maşını, 2 mindən çox ekskavator, 1,7 min buldozer, 3 mindən çox pambıqyığan kombayn, 950 min ton mineral gübrə göndərmək nəzərdə tuturdu. Meliorasiya, müasir suvarma sistemləri və su anbarları, şoran torpaqların bərpa olunması və yenidən istifadəyə verilməsi üçün böyük vəsait ayrılırdı.

Respublikaya 60 mindən çox cins mal-qara ayrılmışdı. 1970-ci ildən başlayaraq Azərbaycan üçün pambığın tədarük qiyməti 15 faiz artırılmışdı. Zərərlə işləyən təsərrüfatların SSRİ Dövlət Bankına kreditlərin qaytarılması müddəti uzadılmışdı. Respublika üzrə qırxa yaxın şərab zavodunun tikintisi nəzərdə tutulmuşdu.

H.Əliyev öz məruzəsində kənd təsərrüfatı istehsalının bütün sahələri üzrə mövcud vəziyyəti olduqca geniş və müfəs-

səl təhlil etdi və partiya aktivini Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin qərarında Azərbaycanın qarşısında qoyulmuş vəzifələrin yerinə yetirilməsinə yönəltdi.

Heydər Əliyev o məsələyə də toxundu ki, vəzifəsindən sui-istifadə etdiyinə, bəzi təsərrüfatlarda xüsusi mülkiyyətçilik meyillərini dəstəklədiklərinə və digər nöqsanlara görə Lənkəran rayon partiya komitəsinin birinci katibi Babayev, ikinci katibi Məmmədov, rayon icraiyyə komitəsinin sədri Rəhimov tutduqları vəzifədən azad edilmiş və partiya xətti ilə cəzalandırılmışlar. Bununla yanaşı MK-nın birinci katibi qeyd etdi ki, kənd təsərrüfatının geri qalmasına görə bu sahəyə uzun müddət kuratorluq etmiş Nazirlər Soveti sədrinin müavini A.Orucov və KP MK katibi Q.Kazımovun böyük günahı vardır. İşdə yol verdikləri ciddi nöqsanlara görə hər ikisi tutduğu vəzifədən azad edilmişdir.

**Avqustun 16-da** "Literaturnaya qazeta"da Azərbaycan KP MK-nın birinci katibi H.Əliyevin ittifaq auditoriyasına Sovet Azərbaycanının nailiyyətlərindən, respublikada beynəlmiləlçi tərbiyənin təcrübəsindən, bu mövzunun Azərbaycan yazıçılarının əsərlərində əks olunmasından söhbət açan "Bərabərlər İttifaqında" adlı müsahibəsi dərc olundu.

**Avqustun 18-də** H.Əliyev Kür su kəməri xətti boyu səfər etdi, ümumxalq tikintisinin bütün sahələrində oldu, fəhlə və mütəxəssislərlə söhbət etdi.

**Avqustun 26-28-də** H.Əliyev Alma-Atada Qazaxıstan SSR-in 50 illiyinə və respublika Kommunist Partiyasının yarıməsrlik yubileyinə həsr olunmuş təntənəli tədbirlərdə iştirak etdi.

**Sentyabrın 24-də** H.Əliyev respublika yaradıcı ittifaqlarının Azərbaycan SSR-in və Azərbaycan Kommunist Partiyasının 50 illiyinə həsr olunmuş birləşmiş plenumunda iştirak etdi.

Plenumu giriş sözü ilə SSRİ xalq rəssamı, SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü Mikayıl Abdullayev açdı.



"Sovet Azərbaycanının ədəbiyyat və incəsənəti kommunizm uğrunda mübarizədə" adlı məruzə ilə Azərbaycan Yazıçılar İttifaqının birinci katibi, xalq yazıçısı Mirzə İbrahimov çıxış etdi.

**Həmin gün** H.Əliyev Azərbaycan SSR-in və Azərbaycan Kommunist Partiyasının 50 illiyinə həsr olunmuş rəsm sərgisində oldu.

**Sentyabrın 27-də** H.Əliyev Kür çayının sahilindəki Talış kəndində ümumxalq tikintisinin iştirakçılarını salamladı, raport qəbul etdi və Kür su kəmərinin yeni magistralının birinci növbəsinin nasos qurğusunu işə saldı.

**1970-ci il sentyabrın 30-da Sov.İKP MK Baş katibi L.Brejnev Bakıya gəldi.** Həmin gün Brejnev, ittifaq respublikalarının rəhbərləri Şelest, Kunayev, Mjavanadze, H.Əliyev və Azərbaycan rəhbərliyi ilə birlikdə Dənizkənarı parkda açılmış "Azərbaycanın xalq təsərrüfatı 50 ildə" yubiley sərgisində oldular.

**Oktyabrın 2-də** L.Brejnev və H.Əliyev Azərbaycan KP MK və Azərbaycan SSR Ali Sovetinin M.F.Axundov adına Opera və Balet Teatrının binasında keçirilən təntənəli iclasında çıxış etdilər.

L.Brejnev Azərbaycan SSR-in bayrağına "Oktyabr inqilabı" ordenini sancdı.

**Elə həmin gün** "Pravda" qəzetində H.Əliyevin Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 50 illiyinə həsr olunmuş "Vahid cərgədə – yeni yüksəkliklərə doğru" məqaləsi dərc olundu.

**Oktyabrın 3-də** "Pravda" qəzetində H.Əliyevin Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 50 illiyinə həsr olunmuş təntənəli iclasda etdiyi məruzənin xülasəsi dərc olundu.

**Oktyabrın 4-də** Bakı aeroportunda Sov.İKP MK Baş katibi L.Brejnevin təntənəli yolasalınma mərasimi oldu.

**Oktyabrın 27-də** H.Əliyev Astara şəhərində İrana Transiran qaz xəttinin açılışına yollanan SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri N.Podqornını qarşıladı.

**Oktyabrın 28-də** N.Podqornı və H.Əliyev Astarada V.İ.Lenin adına subtropik bitkilər sovxozunda oldular.

**Oktyabrın 29-da** SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri N.Podqornı Lənkəran şəhərindən Moskvaya yola düşdü. Onu H.Əliyev və Azərbaycan rəhbərliyinin üzvləri yola saldılar.

**Noyabrın 6-da** Böyük Oktyabr Sosialist inqilabının 53-cü ildönümünə həsr olunmuş təntənəli iclas oldu. İclasda respublikanın rəhbəri H.Əliyev olmaqla MK-nın Büro üzvləri iştirak edirdilər.

Böyük Oktyabrın 53-cü ildönümü haqqında məruzə ilə Azərbaycan SSR Nazirlər Sovetinin sədri Ə.İbrahimov çıxış etdi.

**Noyabrın 10-da** H.Əliyev M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrında Azərbaycan milisinin 50 illiyinə həsr olunmuş təntənəli iclasda iştirak etdi.

**Noyabrın 11-də** H.Əliyev Ermənistan KP MK katibi Q.Arzumyanın rəhbərlik etdiyi Ermənistan SSR zəhmətkeşlərinin nümayəndə heyətini qəbul etdi. Həmin gün o Çexoslovakiya-Sovet dostluğu İttifaqı sədrinin müavini, Slovakiya Milli Şurasının sədri, ÇKP MK və Slovakiya ÇKP MK-nın Rəyasət Heyətinin üzvü Ondre Klokoçun rəhbərliyi ilə bu təşkilatın nümayəndə heyətini qəbul etdi.

**Noyabrın 20-də** M.F.Axundov adına Opera və Balet Teatrında Azərbaycan LKGİ MK və BK-nın Azərbaycan Komsomolunun 50 illiyinə həsr olunmuş təntənəli plenumu oldu. H.Əliyev plenumda böyük nitq ilə çıxış etdi.

**Noyabrın 27-də** H.Əliyev Yerevanda oldu, Ermənistan SSR-in və Ermənistan Kommunist Partiyasının 50 illiyinin bayram edilməsində iştirak etdi.



**Dekabrın 3-də** H.Əliyev Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin qərarlarının yerinə yetirilməsi üzrə respublika partiya təşkilatının vəzifələrini müzakirə etmiş və respublika iqtisadiyyatını dirçəltmək istiqamətində konkret proqram nəzərdə tutmuş Azərbaycan KP MK-nın plenumunda çıxış etdi.

H.Əliyev plenum iştirakçılarının nəzərinə çatdırdı ki, Azərbaycan KP MK Bürosu respublikanın sənaye istehsalı və bütövlükdə xalq təsərrüfatının vəziyyəti barədə Sov.İKP MK-ya obyektiv və açıq məlumat vermiş və kömək istəmişdir. Baş katib L.Brejnevin təşəbbüsü ilə Sov.İKP MK və SSRİ Nazirlər Soveti "Azərbaycan SSR-in xalq təsərrüfatının gələcək inkişafı tədbirləri haqqında" qərar qəbul etmişdir.

Sov.İKP MK və SSRİ Nazirlər Soveti İttifaq Plan Komitəsinə tapşırmışdır ki, 1971-1975-ci illər üçün SSRİ xalq təsərrüfatının inkişaf planı layihəsində cari beşilliklə müqayisədə respublika sənayesinin daha yüksək templə inkişafını, yeni müəssisələrin tikilməsini və köhnələrin yenidən qurulmasını, neft emalı sənayesinin, kimya sənayesi obyektlərinin yenidən qurulmasını və bir çox başqa məsələləri nəzərə alsın. H.Əliyev haqlı olaraq qeyd etdi ki, bu qərar – respublikada kənd təsərrüfatının inkişafına dair əvvəlki sənəd kimi – həqiqətən tarixi əhəmiyyətə malikdir və Azərbaycan iqtisadiyyatının inkişafı üçün böyük əhəmiyyət kəsb edir.

Müfəssəl məruzədə MK-nın birinci katibi sənaye və tikintinin ayrı-ayrı sahələrinin vəziyyətini təhlil etdi və xalq təsərrüfatının inkişafına, istehsalın səmərəliliyinin artırılmasına yönəlmiş bir sıra konkret tədbir təklif etdi.

Məruzəçi qeyd etdi ki, istehsalın bəzi növləri üzrə respublika ümumittifaq balansında mühüm yer tutur. Belə ki, avtomobil şini buraxılışı üzrə Azərbaycan ölkədə üçüncü yeri, qara metal prokatı üzrə – beşinci, polad boru istehsalı üzrə – üçüncü, adambaşına düşən elektrik enerjisi istehsalına görə – dördüncü yeri tutur və s.

Son illərdə neftçıxarma sənayesində olan xroniki geriləmədən danışan H.Əliyev, uzaqgörənliklə Azərbaycanın neft sənayesinin gələcəyini Xəzər akvatoriyasında yeni sahələrin açılmasında görürdü. H.Əliyev artıq o zaman başa düşürdü ki, neft hasilatının aşağı düşməsi obyektiv prosesdir, onun səviyyəsini yüksəltmək üçün "dənizin 150-200 metr dərinliklərini mənimsəməkdən ötrü zəruri olan texnikanın yaradılması, lazım gələrsə xaricdən alınması üçün tədbirlər hazırlanmalıdır".

Bununla yanaşı o, Azərbaycan iqtisadiyyatının inkişafı və struktur dəyişikliklərinin strategiyasını formalaşdırdı – iqtisadiyyat qısa müddətdə neftçıxarma sənayesinin üstünlük təşkil etməsi ilə əlaqədar öz birtərəfli inkişafını aradan qaldırmalı və həqiqətən çoxşaxəli olmalıdır. Bununla bağlı bir məqam diqqəti cəlb edir – Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin qərarında, heç şübhəsiz, respublika rəhbərliyinin təşəbbüsü ilə Azərbaycanda yeni, müasir, yüksək texnologiyalı sahələr üzrə müəssisələrin tikilməsi nəzərdə tutulurdu – cihazqayırma, radioelektron sənayesi və s. Qərarda fəaliyyətdə olan yüngül sənaye müəssisələrinin yenidən qurulması və yeni müəssisələrin tikilməsi öz əksini tapırdı. O vaxt respublikada artıq Lenin adına Toxuculuq kombinatı, Mingəçevir Pambıq-Parça fabriki, Bakı kamvol kombinatı fəaliyyət göstərirdi. Stepanakert ayaqqabı fabrikini, Ağdamda furnitur zavodunu işə salmaq, Naxçıvanda alt paltar trikotajı, Sumqayıtda üst paltar trikotajı, Lənkəranda ipək-toxuculuq, Tovuzda kamvol-əyirici, Kirovabadda ayaqqabı, Bakıda tikiş və s. fabrikləri tikmək nəzərdə tutulmuşdu. İttifaq səviyyəli qərar yeyinti sənayesində də əsaslı yenidənqurma işləri aparmağa böyük imkanlar yaradırdı. Burada söhbət ümumi gücü 120 mln şərti banka olan konserv zavodlarının, pivə zavodlarının, Zaqatalada tütün-fermentləmə zavodunun, Kirovabadda qənnadı və ət kombinatlarının, Bakıda çörək və pendir istehsalı zavodlarının, Astara və Lənkəranda çay fabriklərinin, makaron fabriki, süd zavodu və bir çox başqa obyektlərin tikilməsindən gedirdi.



Bu qərar faktiki olaraq respublikanın müasir emal sənayesinin yaradılması və inkişafının əsasını qoydu.

**Dekabrın 18-də** H.Əliyev M.F.Axundov adına Opera və Balet Teatrında keçirilən respublikanın AzFK–DTK-nın 50 illiyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi. Respublika təhlükəsizlik orqanlarının keçdiyi yarıməsrlik yol barədə Azərbaycan Nazirlər Soveti yanında DTK-nın sədri V.Krasilnikov məruzə etdi.

**Dekabrın 21-də** Azərbaycan KP MK-nın növbəti plenumu oldu. Sov.İKP MK-nın iyul (1970-ci il) Plenumunun qərarları işığında respublikada maldarlığın gələcək inkişafı tədbirləri barədə Azərbaycan KP MK katibi H.İbrahimov məruzə ilə çıxış etdi.

H.Əliyev plenumda yekun nitqi ilə çıxış etdi.

**Dekabrın 23-də** H.Əliyev yeddinci çağırış Azərbaycan SSR Ali Sovetinin səkkizinci sessiyasının üçüncü iclasında iştirak etdi.

Ali Sovet Azərbaycan SSR-in 1971-ci il üçün xalq təsərrüfatının inkişafı Dövlət Planı barədə Qanunu, Azərbaycan SSR-in 1971-ci il üçün Dövlət büdcəsinin icrası barədə hesabatı təsdiq etdi.

## 1971

**Yanvarın 19-da** H.Əliyev Kirovabadda Çini Qablar zavodunun açılışında iştirak etdi.

**Yanvarın 20-də** H.Əliyev Kirovabad ziyalılarının yığıncağında geniş nitqlə çıxış etdi.

**Fevralın 5-də** H.Əliyev 40-cı Bakı şəhər partiya konfransında çıxış etdi.

Respublikanın partiya lideri dedi ki, Bakı üçün ən kəskin və ciddi problem mənzil problemidir.

"Biz havası qazla çirklənmiş və mədən sahələrində, zirzəmilərdə, yarımzirzəmilərdə, qəza vəziyyətində və uçmaq təhlükəsi olan evlərdə yaşayanların hamısını köçürməliyik, bu ailələrə normal yaşayış şəraiti yaratmalıyıq. Bu problemi həll etməkdən ötrü 10 il ərzində təxminən 7 mln. kv. metr mənzil tikmək, yəni orta hesabla ildə 700 min kv. metr mənzil sahəsi istifadəyə vermək lazımdır". Nəzərə alınsa ki, bundan qabaqkı illərdə cəmi 300 min kv. metrdən bir qədər çox mənzil istifadəyə verilirdi, mənzil tikintisinin həcmi 2 dəfədən çox artırılmalı idi.

H.Əliyev daha sonra vurğuladı ki, ikinci ciddi problem – su təchizatıdır ki, bu işlə "uzun illər ərzində əslində məşğul olmayıblar. Onunla kifayətləniblər ki, Kür su kəmərinə dair qərarlar qəbul edilib, işin icrası isə başlı-başına buraxılıb. Ancaq şəhərə su lazım idi. Məhz buna görə də Azərbaycan KP MK Bürosu keçən il Kür su kəmərinin tikintisinin birinci növbəsi ilə ciddi məşğul olmağı vacib saydı və kəmər 4 aya tikildi".



H.Əliyev həmçinin Bakının yaşıllaşdırılmasının vacibliyini qeyd edərək, paytaxtın baş plana uyğun ağac əkilməli olan bütün ətrafını, bütün meydanları sektorlara, sektorları isə sahələrə bölməyi və onların hər birinin müəyyən zavoda, fabrikə, məktəbə, müəssisəyə təhkim olunmasını təklif etdi. Bakının hər sakininə iki ağac normasından çıxış edərək, işləyənlərin və oxuyanların sayına görə tapşırıq verilsin.

"Əgər hər sakin bir neçə il ərzində iki ağac əkib böyütsə, biz Bakı ətrafında nə qədər meşə və park salarıq!"

**Fevralın 12-də** H.Əlyiev S.M.Kirov adına Siyasi Maarif Evində keçirilən SSRİ Dövlət Tikinti Komitəsi yanında Dövlət Mənzil Tikintisi və Arxitektura Komitəsinin və Azərbaycan SSR Nazirlər Sovetinin Tikinti İşləri üzrə Dövlət Komitəsinin yığıncağında iştirak etdi.

**Fevralın 19-da** H.Əliyev M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında keçirilən SSRİ Dövlət Plan Komitəsinin və plan orqanlarının 50 illiyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**Martın 11-13-də** Azərbaycan Kommunist partiyasının XXVIII qurultayı oldu.

**Martın 11-də** H.Əliyev hesabat məruzəsi ilə çıxış etdi.

Aşağıda respublikanın xalq təsərrüfatı və ictimai həyatının bütün sahələri üzrə vəziyyətin dərindən və sistemli təhlili verən, qarşıda duran problemləri və onların həlli yollarını göstərən məruzənin əsas məqamları misal gətirilir:

H.Əliyev qeyd edirdi: "On ildən artıq bir müddət ərzində respublikamızın iqtisadiyyatı ləng, İttifaq göstəricilərindən çox geri qalan sürətlə inkişaf etmişdir. Sənaye və kənd təsərrüfatı istehsalının bir sıra əsas, həlledici göstəriciləri üzrə biz ölkədə axırıncı yerlərdən birini tuturduq. Məhz buna görə də beşillik tapşırıqlarının xeyli hissəsi yerinə yetirilməmişdir..."

Respublika məhsuldar qüvvələrinin ciddi geriliyini açıq bəyan edən Azərbaycan KP MK-nın avqust (1969-cu il) ple-

numundan sonra, Sov. İKP MK-da da bu problemlərə hərtərəfli baxıldı.

Nəticədə 1970-ci ilin iyulunda Sov.İKP Mərkəzi Komitəsi və SSRİ Nazirlər Soveti iki qərar qəbul etdi: "Azərbaycan SSR-in xalq təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında" və "Azərbaycan SSR-in kənd təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında".

Sov.İKP MK və SSRİ Nazirlər Soveti nəinki respublikanın qarşısında əzəmətli vəzifələr qoymuş, həm də bu vəzifələrin həyata keçirilməsini müvafiq maddi-texniki baza ilə təmin etmişdilər. Yeni beşillikdə Azərbaycanda 100-dən artıq və ya keçən beşillikdə olduğundan təxminən iki dəfə çox müəssisə, habelə mövcud müəssisələrdə 60 yeni istehsalat istifadəyə vermək planlaşdırılırdı. Respublikada maşınqayırmanın yeni sahələri yaradılacaqdır; neftayırma sənayesi, dəmiryol nəqliyyatı yenidən qurulacaq, kimya, yeyinti məhsulları sənayesinin və bir sıra başqa sənaye sahələrinin sürətli inkişafı təmin olunacaqdır.

Kənd təsərrüfatına əsaslı sərmayə qoyuluşu ötən beşillikdəki 661 milyon manat əvəzinə bir milyard 390 milyon manat olacaqdır. İrriqasiya tikintisinə və torpaqların meliorasiya vəziyyətinin yaxşılaşdırılması işlərinə çoxlu vəsait ayrılmışdır.

Azərbaycan respublikası üçün pambığın və tütünün satınalma qiymətləri artırılmışdır. Bunun nəticəsində elə 1970-ci ildə kolxoz və sovxozlarımız əlavə olaraq 30 milyon manat gəlir götürmüşlər. İqtisadi cəhətdən zəif olan bir çox təsərrüfatların dövlətə öz borcunu ödəməsi müddətləri bir neçə il uzadılmışdır.

Mənzil və mədəni-məişət tikintisini genişləndirmək, kurortları inkişaf etdirmək, Xəzər sahillərində və respublikanın digər rayonlarında istirahət zonaları yaratmaq sahəsində səmərəli tədbirlər müəyyən edilmişdir..."

Daha sonra H.Əliyev xalq təsərrüfatının digər sahələrində yaranmış vəziyyətin təhlilinə keçir.



## Sənaye və nəqliyyat

MK-nın birinci katibi qeyd etdi ki, sənaye sahələrinin çoxu beşillik tapşırıqların öhdəsindən gəlməmişdir, respublika sənayesinin əsas sahəsi olan neft sənayesində 1967-ci ildən etibarən istehsalın azalması müşahidə olunur. Başqa sahələrə nisbətən kimya sənayesinin ildə orta hesabla 10 faiz sürətlə inkişaf etməsinə baxmayaraq, 1970-ci il üçün nəzərdə tutulmuş kimya məhsulu buraxılışının həcmi təmin edilməmişdir.

Elektrotexnika sənayesinin inkişaf sürəti qənaətbəxş deyildir. Əvvəlki beşillikdəkinə nisbətən 1966 – 1970-ci illərdə bu sahədə artım sürəti bir dəfə yarım azalmışdır.

"...Partiyanın XXIV qurultayı direktivləri layihəsinə, Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin qərarlarına uyğun olaraq respublikamızda 1971-1975-ci illərdə sənaye məhsulu istehsalının həcmini 43-46 faiz artırmaq, maşınqayırmanı, kimya və yeyinti məhsulları sənayesini sürətlə inkişaf etdirmək nəzərdə tutulmuşdur. Sənaye istehsalının illik orta artım sürəti ötən beşillikdəki 6,5 faizin müqabilində təxminən səkkiz faizə bərabər olmalıdır".

İşin təşkilinin yaxşılaşdırılması, boşdayanma və işdən qalma hallarına qarşı mübarizə haqqında danışarkən, H.Əliyev sadə zəhmətkeşlərə qayğı nümayiş etdirir: "İş vaxtı itkisi çox zaman siyasi-kütləvi işin yarıtmaz aparılması, fəhlələrin məişət ehtiyaclarına kifayət qədər diqqət yetirilməməsi nəticəsində baş verir. Kadr axıcılığı bir qayda olaraq yüksək maaş ardınca qaçmağın nəticəsi deyildir. İş yerinin dəyişilməsi çox vaxt əməyin pis təşkil edilməsinin, ixtisası artırmaq perspektivinin olmamasının, fəhlənin məişət və mədəni tələbatının ödənilməsinə qayğı göstərilməməsinin nəticəsidir.

Respublikanın uzaq rayonlarında yerli sənayeni inkişaf etdirmək üçün mövcud olan çox böyük ehtiyat mənbələrindən pis istifadə edilir. Həmin rayonlarda kiçik mövsümi müəssisə-

lər açmaq, ev şəraitində iş görülməsini təşkil etmək, yerli tikinti materialları, suvenirlər, xalçalar, milli geyimlər, ayaqqabı, evdə və təsərrüfatda işlənən məmulat istehsal etmək, meyvə və tərəvəzi qurutmaq və konservləşdirmək olar.

...Qeyd etmək lazımdır ki, bizdə məhsulun keyfiyyəti müəssisənin fəaliyyətinə qiymət verilməsində əsas meyarlardan birinə çevrilməmişdir. İndiyədək respublikanın hələ heç bir sənaye məmulatı "Keyfiyyət nişanı"na layiq görülməmişdir".

## Kənd təsərrüfatı

"Yaşıl çay yarpağı və baramadan başqa, əsas kənd təsərrüfatı məhsulları istehsalına dair beşillik planlar yerinə yetirilməmişdir. Respublikanın kolxoz və sovxozları dövlətə pambıq, tərəvəz, kartof, meyvə və yumurta satışına dair tapşırıqların öhdəsindən gəlməmişlər".

H.Əliyev respublikada kənd təsərrüfatının aparıcı sahəsi olan pambıqçılığa daha çox diqqət yetirməyin vacibliyindən danışır. O hesab edir ki, "kolxoz və sovxozların iqtisadi vəziyyəti, kənd əməkçilərinin güzəranının yaxşılaşması pambıqçılığın müvəffəqiyyətlə inkişaf etməsindən xeyli dərəcədə asılıdır". Lakin son 10-15 ildə respublikada pambıq istehsalı nəinki artmamış, hətta xeyli azalmış və ötən beşillikdə 328 min ton olmuşdur. O, pambığın orta məhsuldarlığını respublika üzrə hər hektardan 20 sentnerə qaldırmaq və 1975-ci ildə pambıq istehsalını 380 tona çatdırmaq vəzifəsini qarşıya qoyur.

"Üzümçülük kənd təsərrüfatının son illərdə yüksək sürətlə inkişaf edən mühüm və çox gəlirli sahəsidir. Ötən beşillikdə bütövlükdə üzüm yığımı 2,6 dəfə artmışdır. Üzüm tədarükünə dair beşillik plan 109 faiz yerinə yetirilmişdir. Dövlətə 1 milyon tondan çox üzüm təhvil verilmişdir. Lakin üzüm istehsalının bu qədər artması başlıca olaraq sahələrin genişləndirilməsi hesabına təmin edilmişdir, halbuki onun məhsuldarlığı, demək olar, artmır. Cari beşillikdə 63 min hektar sahədə yeni üzümlüklər salınmalı, məhsuldarlıq xeyli yüksəldilməli və 1975-ci ildə ümumi yığım 720 min tona çatdırılmalıdır. Yaxın illərdə emal sənayesinin üzüm istehsalı və tədarükünün artımından geridə qalması halı aradan qaldırılmalıdır.

Beşillik ərzində tərəvəzçiliyi inkişaf etdirmək üçün bir sıra tədbirlər görülmüşdür. İxtisaslaşdırılmış sovxozlar yaradılmış, ümumi tərəvəz yığımı artmışdır. Ancaq tərəvəzçilər beşillik tapşırıqların öhdəsindən gələ bilməmiş, tapşırıqdan 203 min ton az tərəvəz təhvil vermişlər. İttifaq fonduna faraş tərəvəz yola salınmasına dair beşillik plan yerinə yetirilməmişdir... Vəzifə tərəvəz və kartof istehsal edən təsərrüfatların işini əsaslı surətdə yaxşılaşdırmaqdan, 1975-ci ildə bütövlükdə respublika üzrə məhsuldarlığı yüksəltmək hesabına tərəvəz istehsalını 600 min tona çatdırmaqdan ibarətdir".

H.Əliyev ictimai mal-qaranın səmərəliliyinin artırılması vəzifəsini qoyur: mal-qaranın yem bazasını təmin etmək, tərkib və cinsini yaxşılaşdırmaq, fermalarda çox zəhmət tələb edən işlərin mexanikləşdirilmə səviyyəsini yüksəltmək, heyvandarların əməyinin ödənilməsini təkmilləşdirmək, zoobaytarlıq xidmətini yaxşılaşdırmaq, ayrı-ayrı təsərrüfatlarda əsassız olaraq ləğv edilmiş qoyunçuluq, donuzçuluq və quşçuluq fermalarını bərpa etmək lazımdır.

H.Əliyev kənd təsərrüfatı istehsalında səmərəliliyin artırılmasının, zərərlə işləyən təsərrüfatların sayının azaldılmasının vacibliyinə diqqət yetirir:

"Yadda saxlamaq lazımdır ki, indiki şəraitdə əsas məsələ təkcə nə qədər məhsul istehsal olunmasında deyil, habelə bu məhsulun nəyin bahasına, nə kimi əmək məsrəfi ilə istehsal olunmasındadır. Kolxoz və sovxozların rentabelliyinin səviyyəsi həmin təsərrüfatların fəaliyyətinin qiymətləndirilməsi üçün meyar olmalıdır".

## Zəhmətkeşlərin maddi rifahının yüksəlməsi. Elm və mədəniyyət

"Milli gəlirin artması xalqın güzəranının yüksəlməsinin ümumiləşdirici göstəricisidir. Beş il ərzində Azərbaycan SSR-də milli gəlir 34 faiz artmışdır.

Ötən beşillikdə şəhərlərdə, fəhlə qəsəbələrində və sovxozlarda ümumi sahəsi 7,8 milyon kvadratmetr olan yaşayış evləri istifadəyə verilmişdir. Bu illər ərzində 966 nəfərin və ya respublika əhalisinin 19 faizinin yaşayış şəraiti yaxşılaşdırılmışdır".

Lakin H.Əliyev hesab edir ki, mənzil tikintisinin sürəti, xüsusilə də Bakıda, son dərəcə aşağıdır, bu səbəbdən də əhaliyə beşillik ərzində nəzərdə tutulduğundan 2 milyon kv. metr əskik mənzil sahəsi təhvil verilmişdir.

"Ötən il Bakının su təchizatının yaxşılaşdırılmasında mühüm müvəffəqiyyətlər qazanılmışdır. Kür su kəmərinin birinci növbəsi istifadəyə verilmişdir. Kəmərin ikinci növbəsi sürətlə çəkilir. İkinci növbə bu ilin yayında istifadəyə verilməlidir. 1976-cı ilədək üçüncü güclü Bakı su kəmərini çəkmək üçün böyük həcmdə iş görülməlidir. Lakin Bakı şəhərinin kanalizasiya sistemi bərbad halda olduğu üçün Kür su kəmərinin birinci növbəsi istifadəyə verildikdən sonra hətta çirkli suları da axıdıb apara bilməmişdir. Buna görə də kanalizasiya sistemi yenidən qurulmalıdır.

1972-ci ildə kolxoz və sovxozların elektrikləşdirilməsini başa çatdırmaq nəzərdə tutulmuşdur. Hazırda mənzil fondunun 60 faizi qazla təmin olunduğu halda, beşillik ərzində şəhərlərdə və şəhər tipli qəsəbələrdə mənzil fondunun 90 faizi qazla təmin ediləcəkdir. Qazlaşdırma respublikanın bütün kəndlərinin yarısını əhatə edəcək və ya beş dəfə artacaqdır".

Səhiyyə və təhsil problemləri üzərində dayanan H.Əliyev, rayonlarda ixtisaslı həkimlərin, kənd məktəblərində isə müəllimlərin çatışmadığından danışır. Uşaqların təxminən 23 faizi hətta səkkizillik təhsili də başa vurmayaraq məktəbdən yayınır. Çoxlu sayda şagird, xüsusilə qızlar, yuxarı siniflərdən də gedirlər.



Bununla yanaşı, respublikanın partiya rəhbəri ali təhsil sistemindəki uğurları qeyd edir: belə ki, ötən beşillikdə D.Bünyadzadə adına Xalq Təsərrüfatı İnstitutu yaradılmışdır, Naxçıvanda, Stepanakertdə, Kirovabadda, Sumqayıtda, Ə'. Bayramlıda, bir çox rayon mərkəzlərində Bakının bir sıra ali məktəblərinin filialları və yeni orta ixtisas məktəbləri yaradılmışdır. Mütəxəssislər hazırlanmasında respublikanın nailiyyətləri xaricdə də qiymətləndirilmişdir. İndi 36 ölkənin nümayəndəsi olan 840-dan artıq oğlan və qız Azərbaycanın ali məktəblərində təhsil alır.

Partiya intizamının möhkəmləndirilməsi, rəhbər kommunistlərin mənəvi simasının yaxşılaşdırılması məsələsinə toxunan H.Əliyev, öz vəzifəsindən sui-istifadə edənləri, özbaşınalıq edənləri, partiya aktivi ilə hesablaşmayanları kəskin tənqidə məruz qoydu.

"Qurultay nümayəndələrinə məlum olduğu kimi, Ali Sovetin Rəyasət Heyətinin və respublika Nazirlər Sovetinin rəhbərliyi gücləndirilmişdir (M.İsgəndərovu Q.Xəlilov, Ə.Əlixanovu Ə.İsmayılov əvəz etmişdi. Ə.Kərimov Bakı şəhər partiya komitəsinin birinci katibi olmuşdu – ***E.A.***)". İşdə ciddi nöqsanlara yol verdiklərinə görə Azərbaycan KP MK-nın katibi yoldaş Kazımov, Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavinləri Orucov və Sadıqov yoldaşlar vəzifələrindən azad edilmişlər. Daxili işlər, səhiyyə, sənaye tikintisi, sənaye tikintisi materialları nazirliklərinin, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin və digərlərinin rəhbərliyini möhkəmlətmək üçün tədbirlər görülmüşdür.

...Biz bu gün qurultaya respublikada təsərrüfat və mədəniyyət quruculuğuna rəhbərlikdə, kadrların seçilib yerləşdirilməsində V.Axundov, Ə.Əlixanov, M.İsgəndərov yoldaşların və Azərbaycan KP MK Bürosunun bəzi başqa üzvlərinin buraxdıqları ciddi nöqsan və səhvlərdən danışmağı lazım bilirik. Həmin nöqsan və səhvlər mənfi hallara səbəb olmuşdur ki,

indi partiya təşkilatı onların aradan qaldırılması üçün mübarizə aparır.

Azərbaycan KP MK-nın həyata keçirdiyi tədbirlər Sov.İKP Mərkəzi Komitəsi tərəfindən, L.İ.Brejnev yoldaşın Bakıdakı nitqində təqdir edilmişdir. O, qeyd etmişdir ki, bizim plenumlarımızda nöqsanların səbəbləri diqqətlə təhlil olunmuşdur. Kəskin, prinsipial, işgüzar söhbət aparılmışdır. Zənnimcə bu müzakirə respublika partiya təşkilatı üçün böyük və gərgin işin başlanğıcını qoymuşdur. Həmin iş mövcud nöqsanları qısa vaxtda aradan qaldırmağa imkan verəcəkdir".

Sonda H.Əliyev 1970-ci ilin, hakimiyyətdə olduğu ilk ilin yekunlarını vurdu:

"Keçən il respublikada milli gəlirin artım sürəti əvvəlki ildəkindən dörd dəfədən də yüksək və 1966-1969-cu illərdəki göstəricilərdən təqribən iki dəfə artıq olmuşdur. Sənaye istehsalı planı vaxtından əvvəl yerinə yetirilmiş və tapşırıqdan əlavə on milyonlarla manatlıq məhsul satılmışdır. Sənayedə istehsalın artımı son doqquz ildə ən yüksək səviyyəyə çatmış və 8,6 faiz olmuşdur.

Neftçıxarma sənayesi son dörd ildə ilk dəfə olaraq planı yerinə yetirmiş və plandan əlavə 87 min ton neft və 676 milyon kubmetr qaz vermişdir.

Bütövlükdə kənd təsərrüfatı məhsullarının istehsalı bir il ərzində 14 faiz artmışdır, halbuki ötən dörd il ərzində artım orta hesabla 1,3 faiz olmuşdur.

Pambığın məhsuldarlığı hər hektarda 17,4 sentnerədək, dənli bitkilərinki isə 12 sentnerədək artmışdır".

H.Əliyev qeyd etdi ki, respublikada son 13 ildə pambığın məhsuldarlığı, son 20 ildə isə dənli bitkilərin məhsuldarlığı hələ bu qədər olmamışdı.

*Ümumiyyətlə 1970-ci il, beşilliyin yekun ili, bütün SSRİ üçün uğurlu, məhsuldar olmuşdu. 1970-ci ildə sənaye bütün müharibədən əvvəlki beşilliklərdən iki dəfə artıq məhsul istehsal etmişdi. 1970-ci ildə SSRİ tarixində ən yüksək taxıl və pambıq məhsulu yetişdirilmişdi.*



**Martın 12-də** KP MK-nın təşkilat məsələlərinə həsr edilmiş plenumu oldu. Plenum H.Əliyevi MK-nın birinci katibi, S.Kozlovu ikinci katibi seçdi. H.Seyidov, H.İbrahimov, D.Quliyev MK katibləri seçildilər.

MK bürosunun üzvləri – H.Əliyev, D.Quliyev, Ə.İbrahimov, H.İbrahimov, İ.İbrahimov, Ə.Kərimov, S.Kozlov, F.Olifirov (Bakı HHM dairəsinin komandanı), H.Seyidov, Q.Xəlilov seçildilər.

V.Krasilnikov, Q.Melkumyan, Q.Əfəndiyev MK Bürosuna namizəd seçildilər.

KP MK-nın şöbə müdirləri: təşkilati-partiya işi – R.Məmmədzadə, təbliğat və təşviqat – T.Əliyev, kimya və neft sənayesi – R.Babayev, yüngül və yeyinti sənayesi – A.Eldarov, tikinti və şəhər təsərrüfatı – K.Bağırov, kənd təsərrüfatı – L.Rəcəbova, mədəniyyət – A.Şərifov, xarici əlaqələr – Ə.Cəbrayılov, ümumi şöbə – Y.Kirsanov, işlər müdiri – B.Mirzəcanov, Azərbaycan KP MK yanında Partiya nəzarəti komissiyasının sədri – İ.Əsgərov təsdiq olundular.

**Martın 19-da** M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Azərbaycan Teleqraf Agentliyinin 50 illiyinə həsr edilmiş təntənəli yığıncaq keçirildi. Yığıncaqda H.Əliyev iştirak edirdi.

**Aprelin 1-də** Azərbaycan KP MK-nın birinci katibi Kremlin Qurultaylar sarayında Sovet İttifaqı Kommunist partiyasının XXIV qurultayında çıxış etdi.

H.Əliyev öz çıxışında Sov.İKP Mərkəzi Komitəsinə respublika iqtisadiyyatının uzun sürən geriliyinin aradan qaldırılması istiqamətində əməli yardıma görə təşəkkürünü bildirdi və ittifaq rəhbərliyini əmin etdi ki, respublika partiya təşkilatı 1971-ci ilin və doqquzuncu beşilliyin planlarını artıqlaması ilə yerinə yetirmək üçün əlindən gələni əsirgəməyəcəkdir.

**Aprelin 6-da** H.Əliyev RKP Baş katibi, RSR Dövlət Şurasının sədri Nikolaye Çauşeskunun başçılıq etdiyi Rumıniya Kommunist partiyasının nümayəndə heyətini qəbul etdi.

**Aprelin 15-də** H.Əliyev respublikaya SSRİ Nazirlər Soveti və ÜİHİMŞ-in keçici Qırmızı bayrağının təqdim edilməsi mərasimində nitqlə çıxış etdi. 1970-ci ildə Azərbaycan kənd təsərrüfatı məhsullarının bütün əsas növləri üzrə dövlətə satış planlarını artıqlaması ilə yerinə yetirmişdi. 1970-ci ildə kənd təsərrüfatı məhsulunun ümumi həcmi 1969-cu illə müqayisədə, 1966-1969-cu illərdəki orta illik 6 faizə qarşı, 14 faiz artmış və Azərbaycan üçün rekord məbləğ – 856 milyon manat təşkil etmişdir.

**Aprelin 15-də** Azərbaycanda Gürcüstan SSR-in günləri açıldı.

**Həmin gün** H.Əliyev başda Gürcüstan KP MK-nın katibi N.Tsaxaya olmaqla Gürcüstan SSR zəhmətkeşlərinin nümayəndə heyətini qəbul etdi.

**Aprelin 17-də** H.Əliyev MK Bürosunun üzvləri ilə birlikdə M.F.Axundov adına Opera və Balet Teatrında Gürcüstan SSR-in və Gürcüstan Kommunist partiyasının yarıməsrlik yubileyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**Aprelin 21-də** H.Əliyev M.F.Axundov adına Opera və Balet Teatrında keçirilən milyardıncı ton neftin hasil edilməsinə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi. Məruzə ilə Azərbaycan SSR Nazirlər Sovetinin sədri Ə.İbrahimov çıxış etdi.

**Aprelin 22-də** H.Əliyev F.Dzerjinski adına klubda Bakı ictimaiyyəti nümayəndələrinin V.İ.Leninin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş yığıncağında iştirak etdi. Məruzə ilə Azərbaycan KP MK katibi H.İbrahimov çıxış etdi.

**Mayın 1-də** H.Əliyev 1 May nümayişi iştirakçılarına təbrik nitqi ilə müraciət etdi.

**Mayın 3-də** Azərbaycan KP MK-da Sov.İKP XXIV qurultayının yekunları ilə əlaqədar təşkilat və təbliğat işinin vəzifələrinə həsr olunmuş müşavirə oldu. Müşavirədə H.Əliyev çıxış etdi.



**Mayın 12-15-də** H.Əliyev Gürcüstanda Sovet hakimiyyətinin qurulmasının və Kommunist partiyası yaradılmasının 50 illiyinin bayram edilməsi ilə bağlı Gürcüstanda oldu.

**Mayın 19-da** Həzi Aslanov adına Dairə Zabitlər evində H.Əliyevin iştirakı ilə Qırmızı bayraqlı Zaqafqaziya hərbi dairəsinin 50 illiyinə həsr olunmuş təntənəli iclas oldu.

**İyunun 10-da** H.Əliyev Azərbaycan Ali Sovetinə seçkilərlə bağlı seçicilərlə görüşdü. "Leninneft" əməkçilərinin nümayəndələri ilə görüşdə Sov.İKP XXIV qurultayının böyük əhəmiyyətindən və respublika partiya təşkilatının vəzifələrindən danışıldı.

**İyunun 14-dən 19-dək** Heydər Əliyev Sov.İKP MK Baş katibi L.Brejnevin rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində ADR-də oldu və orada Almaniya Vahid Sosialist partiyasının VIII qurultayının işində iştirak etdi.

**İyunun 26-da** H.Əliyev SSRİ Nazirlər Soveti sədrinin müavini M.Yefremovun başçılıq etdiyi hökumət nümayəndə heyəti ilə birlikdə Neft Daşlarında oldu.

**İyunun 27-də** H.Əliyev SSRİ Nazirlər Soveti sədrinin müavini M.Yefremovun başçılıq etdiyi hökumət nümayəndə heyəti ilə birlikdə Sumqayıt şəhərində oldu.

**İyulun 5-də** H.Əliyev F.Dzerjinski adına klubda Azərbaycan Neft və Kimya İnstitutunun 50 illiyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**İyulun 7-də** H.Əliyev ADR-in bir qrup rəhbər partiya və dövlət işçisini qəbul etdi.

**İyulun 14-də** H.Əliyev Monqol Xalq-İnqilab Partiyası MK üzvü, İnqilab Veteranları Komitəsi sədrinin müavini, general-polkovnik S.Ravdanın başçılıq etdiyi Monqol Sülh və Dostluq Təşkilatları Federasiyasının və Monqol-Sovet Dostluq Cəmiyyətinin nümayəndə heyətini qəbul etdi.

**İyulun 16-da** H.Əliyev Azərbaycan KR MK plenumunda çıxış etdi. H.Əliyevin özünün etiraf etdiyi kimi, xalq təsərrü-

fatının ən zəif sahələri olan heyvandarlıqda yem bazasının möhkəmləndirilməsi və əsaslı tikintinin yaxşılaşdırılması məsələləri müzakirə olunurdu.

**İyulun 27-də** H.Əliyev iri xalq təsərrüfatı obyekti – Ağstafaçay su anbarının işə salınmasına həsr olunmuş mitinqdə iştirak etdi. Giriş sözü ilə mitinqi "Başazmeliosutikinti"nin rəisi P.Poladzadə açdı.

**Sentyabrın 5-də** H.Əliyev Daşkənddə Sov.İKP MK Baş katibi L.Brejnevin keçirdiyi pambıq becərən respublikaların partiya-təsərrüfat fəalları yığıncağında çıxış etdi. Bu, sonradan ənənəyə çevrilmiş yenilik idi.

**Sentyabrın 15-də** H.Əliyev inşaatçıları, quraşdırıcıları, layihəçiləri, ümumxalq tikintisinin bütün iştirakçılarını böyük əmək qələbəsi – Kür Su kəməri kompleksinin tikintisinin tam başa çatdırılması və istifadəyə verilməsi münasibətilə təbrik etdi.

**Oktyabrın 1-də** H.Əliyev ÇKP MK mədəniyyət şöbəsinin müdiri O.Qolan başda olmaqla Çexoslovakiya Sosialist Respublikasının partiya işçilərinin nümayəndə heyətini qəbul etdi.

**Oktyabrın 8-də** H.Əliyev F.Dzerjinski adına klubda Ümumittifaq kənd təsərrüfatı işçiləri gününə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi. Məruzə ilə Azərbaycan kənd təsərrüfatı naziri M.Xəlilov çıxış etdi.

**Oktyabrın 20-də** S.M.Kirov adına Siyasi Maarif Evində "Milli-azadlıq hərəkatı və müasir antikommunizmə qarşı mübarizə məsələləri" mövzusunda elmi konfrans öz işinə başladı. H.Əliyev konfransda geniş nitqlə çıxış etdi.

**Oktyabrın 29-da** H.Əliyev Azərbaycan KP MK-nın plenumunda "Sov.İKP XXIV qurultayının tələbləri ilə əlaqədar ideoloji işin daha da gücləndirilməsi sahəsində respublika partiya təşkilatlarının vəzifələri" adlı məruzə ilə çıxış etdi.



H.Əliyev əvvəlcə son ildə respublikanın təsərrüfat quruculuğunda qazanılmış uğurları qeyd etdi. Belə ki, sənaye məhsulunun satışı üzrə 10 ayın planı oktyabrın 22-də yerinə yetirilmişdir. Kür Su Kəmərinin birinci növbəsi başa çatdırılmış və istismara verilmişdir, Kirovabadda çini qablar zavodu, Sumqayıtda polimer kombinatı işə salınmışdır. Lakin əsas qələbə ondan ibarət olmuşdur ki, respublika pambıqçıları oktyabrın 22-də dövlətə 380 min ton pambıq təhvil vermiş, beləliklə də beşillik planda 1975-ci (!) il üçün nəzərdə tutulan səviyyəyə çıxmışlar.

H.Əliyev plenumda bəyan etdi ki, "pambıq yığımının belə templəri, onun dövlətə satışının belə erkən müddəti Azərbaycan pambıqçılıq tarixində hələ görünməmişdi".

Geniş məruzənin əsas hissəsi partiyanın ideoloji, ideya-tərbiyə işinin yaxşılaşdırılması məsələlərinə həsr edilmişdi. Respublikada marksist-leninçi təhsilin ciddi surətdə yaxşılaşdırılmasının zəruriliyi, Sov.İKP XXIV qurultayının qərarlarının təbliği və hamıya çatdırılması barədə o vaxtın "standartlarına" uyğun şablon ifadələrdən savayı, H.Əliyev xarici informasiya vasitələrinin diqqətini cəlb edən bir sıra maraqlı bəyanatlar səsləndirdi.

KİV-lərdən danışarkən o, "Azərbaycan qadını" jurnalının səviyyəsini tənqid etdi və həmçinin söylədi ki, "qeyri-sağlam, obıvatel təmayülləri "Qobustan" toplusunun (redaktor Anar Rzayev) səhifələrinə də yol tapmışdır. Maqsud İbrahimbəyovun "Literaturnı Azerbaydjan" jurnalında dərc olunmuş, "müəllifin vicdanlı rəhbər işçilərin üstünə kölgə salmağa çalışdığı, cəmiyyətimizi axmaq, prinsipsiz göstərdiyi "Günlərin bir günündə" hekayəsi barədə tənqidi fikirlər söylədi. Yazıçı Sabir Əhmədov "Dünyanın arşını" romanına görə ("əsərdə sovet gerçəkliyi eybəcər hala salınır, kolxoz həyatının kölgə tərəfləri və nöqsanları şişirdilir"), həmçinin şair Xəlil Rza ("onun ayrı-ayrı əsərlərində gerçəkliyimiz təhrif olunur, o sanki xalqımızın həyatında baş vermiş böyük dəyişiklikləri görmür") "paylarını aldılar", "ideya və bədii cəhətdən zəif əsərlər dərc etdi-

yinə görə" Yazıçılar İttifaqının bədii orqanları tənqid atəşinə tutuldu.

H.Əliyev deyir ki, 1971-ci ilin iyununda KP MK Dövlət Nəşriyyat Komitəsinin işi barədə məsələyə baxmış və qəbul olunmuş qərarda qeyd etmişdir ki, respublikada kitab nəşri işində və kitab ticarətində əsaslı dəyişikliklər edilməlidir (ciddi nöqsanlara görə komitənin sədr müavinləri B.Bayramov və C.Nəsirov, "Azərnəşrin" direktoru Q.Musayev tutduqları vəzifədən azad edilmiş, komitənin sədri İ.Nəzərova ciddi töhmət elan edilmişdir).

Sonra birinci katib orta və ali məktəb sistemində təhsilin keyfiyyətində olan ciddi nöqsanları, "qəribə" medalçıları, bir çox məzunların təyinat üzrə işləmək istəmədiklərini, havadarlarının köməyi ilə müxtəlif nazirlik və idarələrə texniki vəzifələrə işə düzəldiklərini qeyd etdi. Məsələn: ötən beşillikdə ümumtəhsil məktəblərinə 2 min 534 məzun təyinatı üzrə gəlməmişdir. Azərbaycan Konservatoriyasının 195 məzunundan son üç ildə rayonlara cəmi 46 nəfər göndərilmiş, iş yerinə isə 10 (!) nəfər gedib çıxmışdır.

H.Əliyev yenidən diqqəti ali məktəblərə qəbul zamanı neqativ hallara, rüşvətə, müəllim sıralarına təsadüfi, ixtisas səviyyəsi aşağı olan, bəzən isə əliəyri adamların düşməsinə çəkir, gənclərin fiziki hazırlığındakı ciddi geriliyi göstərir. O bir çox elmi-tədqiqat işlərinin və bütöv institutların səmərəsiz işini qeyd edir. Məsələn, Azərbaycan Elmi-tədqiqat Elektrotexnika İnstitutunda 400 adamın işləməsinə və onların elmi tədqiqatlarına 3 milyon manat sərf olunmasına baxmayaraq, institutda 11 il ərzində öz mövzusu ilə bağlı bir dənə də olsun iş tətbiq olunmamışdır. Məruzəçi namizədlik və doktorluq dissertasiyalarının yazılmasında köçürmə faktlarını göstərdi.

H.Əliyev Azərbaycan Sovet Ensiklopediyasının fəaliyyətini tənqid etdi: "Yaradıldığı gündən beş il ərzində ASE bütün ensiklopediya üçün ayrılmış ümumi məbləğin yarısını xərcləmiş, lakin yeganə hazırlanmış və 20 min nüsxə ilə çap olunmuş birinci cild ciddi nöqsan və səhvlər üzündən hazırda yenidən işlənməlidir.

Yüksək ixtisaslı kadrları seçə bilmədiyinə, redaksiya ətrafında ən yaxşı mütəxəssisləri toplaya bilmədiyinə, materialın seçilməsində prinsipsizlik göstərdiyinə görə ensiklopediyanın baş redaktoru Rəsul Rza yoldaşa ciddi irad tutulmalıdır".

H.Əliyev Kinostudiyanın rəhbərliyinin fəaliyyəti barədə də tənqidi fikirlər söylədi, vurğuladı ki, "Azərbaycan kinematoqrafçılarının fəaliyyəti günün tələblərinə cavab vermir", R.İbrahimbəyovun ssenarisi əsasında çəkilən "Bir cənub şəhərində" filmində isə "gerçəkliyimiz təhrif olunmuşdur".

H.Əliyev kadrların seçilməsində yerliçiliyin yolverilməz olduğunu qeyd etdi, məsələn, məşhur valideynlərin uşaqları bütün yalan və gerçək vasitələrlə ali məktəbə, aspiranturaya daxil olurlar, növbədənkənar mənzil alırlar və s.

**Dekabrın 3-də** H.Əliyev M.F.Axundov adına Opera və Balet Teatrında Azərbaycan neft emalı sənayesinin 100 illiyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**Dekabrın 8-də** Azərbaycan KP MK-nın plenumu oldu. Plenum Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini, respublika Dövlət Plan Komitəsinin sədri İ.Əsədovun "Azərbaycan SSR xalq təsərrüfatının inkişafı üzrə 1971-1975-ci illər üçün beşillik dövlət planı haqqında" və Azərbaycan SSR maliyyə naziri B.Baxşəliyevin "1972-ci il üçün Azərbaycan SSR dövlət büdcəsi və 1970-ci ilin Dövlət büdcəsinin icrası haqqında" məruzələrini dinlədi və müzakirə etdi. H.Əliyev plenumda yekun nitqi ilə çıxış etdi.

**Dekabrın 20-də** H.Əliyev Sov.İKP MK noyabr Plenumunun yekunlarına və Azərbaycan partiya təşkilatının vəzifələrinə həsr olunmuş respublika partiya aktivinin iclasında məruzə ilə çıxış etdi.

## 1972

**Fevralın 7-də** H.Əliyev Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının 50 illiyinə həsr olunmuş təntənəli gecədə çıxış etdi.

**Fevralın 8-də** H.Əliyev F.Dzerjinski adına klubda keçirilən Azərbaycan həmkarlar təşkilatlarının XIV qurultayında iştirak etdi.

**Fevralın 25-də** H.Əliyev F.Dzerjinski adına klubda Azərbaycan KP MK-nın təşəbbüsü ilə çağırılmış respublikanın kənd təsərrüfatı rayonları kolxozlarının, sovxozlarının, müəssisə və təşkilatlarının nümayəndələrinin iclasını açdı.

**Martın 10-da** H.Əliyev F.Dzerjinski adına klubda Azərbaycan Komsomolunun XXVIII qurultayının açılışında iştirak etdi.

**Martın 13-də** H.Əliyev Azərbaycan LKGİ-nin XXVIII qurultayında nitqlə çıxış etdi.

O gəncləri yeni beşilliyin möhtəşəm planlarının yerinə yetirilməsində fəal iştirak etməyə, neftçi, kimyaçı sənətinə yiyələnməyə, kənd təsərrüfatı və heyvandarlığın inkişafına kömək etməyə çağırdı. MK-nın 1-ci katibi ali məktəblərin təyinatı üzrə iş yerinə "gedib çatmayan" məzunlar probleminə toxundu, əvvəllər ali məktəblərə qəbul zamanı qarşıya çıxan problemləri yada saldı, vəziyyəti düzəltmək, daxil olanların sosial tərkibinin yaxşılaşdırılması, tələbələr arasında fəhlə və kolxozçu təbəqəsinin artması üçün görülən işlərdən danışdı.



**Aprelin 6–9-da** Heydər Əliyev Sov.İKP nümayəndə heyətinin başında Dəməşqdə (Suriya) Ərəb Sosialist Dirçəliş partiyasının 25 illiyinə həsr olunmuş təntənələrdə iştirak etdi.

**Aprelin 19-da** H.Əliyev M.F.Axundov adına Opera və Balet Teatrında Azərbaycan Dövlət Konservatoriyasının 50 illiyinə həsr olunmuş təntənəli yığıncağı giriş sözü ilə açdı.

**Aprelin 25-də** Azərbaycan Xalça və Xalq Tətbiqi Sənət muzeyinin açılışı oldu. Muzeyin açılış günü H.Əliyev ekspozisiya ilə tanış oldu.

**Aprelin 26-da** S.M.Kirov adına Siyasi Maarif Evində H.Əliyev Azərbaycan rəssamlarının VII qurultayının açılışında iştirak etdi.

**Aprelin 28-də** H.Əliyev və respublika rəhbərliyinin üzvləri M.F.Axundov adına Opera və Balet Teatrında Azərbaycanda Sovet hakimiyyətinin qurulmasının 52-ci ildönümünə və 1 May bayramına həsr olunmuş yığıncaqda iştirak etdilər. Məruzə ilə Azərbaycan KP MK Bürosunun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini İ.İbrahimov çıxış etdi.

**Mayın 4-də** H.Əliyev Suriya Afrika-Asiya Həmrəylik Komitəsi sədrinin müavini, Ərəb Sosialist Dirçəliş partiyasının Regional və Ümumərəb rəhbərliyinin üzvü Corc Saddıkninin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etdi.

**Mayın 15-də** Azərbaycan KP MK-nın plenumu SSRİ yaranmasının 50 illiyinə hazırlıq üzrə respublika partiya təşkilatları qarşısında duran vəzifələri müzakirə etdi.

**Mayın 19-da** H.Əliyev Sov.İKP MK Plenumunda L.Brejnevin "Beynəlxalq vəziyyət haqqında" məruzəsi müzakirə edilərkən çıxış etdi.

**İyunun 6-da** H.Əliyev birinci SSRİ MİK sədrlərindən olan görkəmli partiya və dövlət xadimi N.Nərimanovun heykəlinin açılışında nitqlə çıxış etdi.

Abidənin müəllifləri Azərbaycanın xalq rəssamı, heykəltəraş Cəlal Qaryağdı, memarlar Tahir Abdullayev və Yusif Qədimovdur.

**İyunun 14-də** F.Dzerjinski adına klubda kənd təsərrüfatı işçiləri fəallarının Azərbaycan SSR-ə Ümumittifaq sosializm yarışında qələbəyə görə SSRİ Nazirlər Soveti və ÜİHİMŞ-in keçici Qırmızı bayrağının təqdim edilməsinə həsr olunmuş təntənəli yığıncağı oldu.

Bayrağı SSRİ kənd təsərrüfatı nazirinin birinci müavini R.Sidak təqdim etdi. O qeyd etdi ki, ötən il planda nəzərdə tutulan 322 min tona qarşı 380 min tondan çox pambıq, 130 min tona qarşı 168 min ton buğda təhvil verilmişdir, tütünün məhsuldarlığına görə respublika ölkədə birinci yerə çıxmışdır. "Sizin şanlı pambıqçılar, tütünçülər və ipəkçilər 1971-ci ilin yekunlarına görə beşillik planda onlar üçün 1975-ci ildə nəzərdə tutulmuş həddə çatmışlar".

**İyunun 20-də** H.Əliyev Georgi Dimitrovun anadan olmasının 90 illiyinə həsr olunmuş təntənəli tədbirlə əlaqədar Bakıya gəlmiş Bolqarıstan Kommunist partiyası MK-nın üzvü, Bolqarıstan Xalq Respublikasının Sovet İttifaqındakı səfiri Stoyan Gürovu qəbul etdi.

**İyunun 22-də** H.Əliyev BAPM-in akt zalında Azərbaycan KP MK Mərkəzi Sovet Partiya Məktəbinin 50 illiyi və Bakı Ali Partiya Məktəbinin 25 illiyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi və yubilyarlara Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanını təqdim etdi.

**İyunun 27-də** Azərbaycan KP MK-nın partiya sənədlərinin dəyişdirilməsi ilə bağlı respublika partiya təşkilatının vəzifələrinə həsr olunmuş növbəti plenumu oldu. Məruzə ilə Azərbaycan KP MK-nın ikinci katibi S.Kozlov çıxış etdi. Plenumda H.Əliyev yekun nitqi söylədi.

**İyunun 29-da** M.F.Axundov adına Opera və Balet Teatrında N.Nərimanovun 100 illiyinə həsr olunmuş təntənəli yığıncaq oldu. H.Əliyevin nitqi eyni zamanda Azərbaycan bolşevik təşkilatlarının və respublikada sovet hakimiyyətinin qurulması uğrunda mübarizə tarixinə qısa ekskurs oldu.



**İyulun 7-də** H.Əliyev Bakıda olan Kanada Kommunist partiyasının Baş katibi Uilyams Kaştanı qəbul etdi.

**İyulun 18-də** H.Əliyev Kuba Respublikası dövlət təhlükəsizliyi orqanlarının nümayəndə heyəti ilə görüşdü.

**Avqustun 10-da** H.Əliyev qardaş respublikaların qarşılıqlı yoxlama briqadalarının rəhbərlərini – Özbəkistan SSR kənd təsərrüfatı naziri E.Şeyxovu, Türkmənistan SSR tədarük naziri S.Babayevi, Tacikistan SSR kənd təsərrüfatı naziri R.Nəbiyevi qəbul etdi.

**Avqusutun 24-də** H.Əliyev Vyetnam Demokratik Respublikasının SSRİ-dəki fövqəladə və səlahiyyətli səfiri Vo Txuk Donqu qəbul etdi.

**Sentyabrın 5-də** Daşkənddə Sov.İKP MK Baş katibi L.Brejnevin iştirakı ilə pambıq becərən respublikaların partiya, sovet, təsərrüfat rəhbərləri və kənd təsərrüfatı mütəxəssislərinin fəallar yığıncağı oldu.

Toplantıdan qayıdandan sonra H.Əliyev respublikanın bir sıra pambıq becərən rayonlarında – Şamxorda, Sabirabadda, Ağdaşda oldu və rayon partiya-təsərrüfat aktivini keçirdi.

**Sentyabrın 12-də** "Pravda" qəzetində H.Əliyevin SSRİ-nin yaradılmasının qarşıdan gələn 50 illiyinə həsr olunmuş "Fəhlə sinfi – əzəmətli beynəlmiləlçi qüvvədir" məqaləsi dərc edildi.

**Sentyabrın 27-də** H.Əliyev SSRİ Elmlər Akademiyasının prezidenti M.Keldışı qəbul etdi.

**Oktyabrın 2-dən 11-nə** kimi Azərbaycanda RSFSR ədəbiyyatı və incəsənəti günləri keçdi. Nümayəndə heyətinə RSFSR Nazirlər Soveti sədrinin müavini V.Koçemasov rəhbərlik edirdi.

"Moskva – Bakı" xüsusi qatarı bayraq və transparantlarla bəzədilmiş Bakı vağzalına yan aldı. H.Əliyev MK bürosunun bütün üzvləri ilə qonaqları qarşılamaq üçün vağzala gəldilər.

Həmin gün H.Əliyev Azərbaycan KP MK-da RSFSR ədəbiyyatı və incəsənəti günlərinin iştirakçılarını qəbul etdi. Nümayəndə heyətinin tərkibində D.Şostakoviç, R.Həmzətov, R.Rojdestvenski, M.Tsaryov, L.Zıkina, N.Mordyukova, P.Kadoçnikov, Y.Frenkel, İ.Pereverzev, Y.Solomin kimi məşhur şəxsiyyətlər, habelə Rusiya qəzet və jurnallarının baş redaktorları, yaradıcı ittifaqların katibləri və Rusiya mədəniyyət isteblişmentinin digər nümayəndələri daxil idilər. SSRİ mədəniyyət naziri E.Furtseva və Sov.İKP MK mədəniyyət şöbəsinin müdiri V.Şauro günlərdə iştirak etmək üçün Bakıya gəlmişdilər.

H.Əliyev **oktyabrın 3-də** M.F.Axundov adına Opera və Balet Teatrında Günlərin açılışında və **oktyabrın 10-da** bağlanışında parlaq nitqlər söylədi.

Günlər çərçivəsində bir çox yaddaqalan aksiyalar, o cümlədən – Rusiya kitabı bayramı, Mərdəkan qəsəbəsində S.Yeseninin memorial muzeyinin və abidəsinin açılışı oldu, **oktyabrın 4-də** Azərbaycan Dövlət Filarmoniyasında Dmitri Şostakoviçin 15-ci simfoniyası ilk dəfə ifa olundu. **Oktyabrın 6-da** H.Əliyev M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Akademik Rus Xor Kapellasının konsertində oldu. **Oktyabrın 11-də** H.Əliyev M.Əzizbəyov adına Dram Teatrında Pyatnitski adına xorun konsertində iştirak etdi.

Rusiyanın incəsənət kollektivləri o günlərdə nəhəng konsert meydançalarına çevrilən Azərbaycanın bütün rayonlarında çıxış etdilər. "Sovet Azərbaycanı" dizel-elektroxodunda əfsanəvi "Neft Daşları"na səyahət xüsusilə yaddaqalan oldu.

**Oktyabrın 3-də** H.Əliyev Livanın Mütərəqqi Sosialist partiyasının sədri, "Xalqlar arasında sülhün möhkəmləndirilməsinə görə" beynəlxalq Lenin mükafatı laureatı, Livan Afrika-Asiya Həmrəylik komitəsinin sədri Kamal Cumblatı qəbul etdi.

**Oktyabrın 13-də** H.Əliyev Sovet-Almaniya Dostluq Cəmiyyətinin sədri Lotar Boltsun başçılığı ilə cəmiyyətin nümayəndə heyətini qəbul etdi.



**Oktyabrın 20-də** H.Əliyev Yuqoslaviyanın Sarayevo şəhərinin nümayəndə heyətini qəbul etdi.

**Noyabrın 2-də** Sovet İttifaqı qəhrəmanları və Şərəf ordenlərinin tam kavalerlərinin qəbulu oldu, H.Əliyev müharibə veteranlarını səmimi qəlbdən təbrik etdi.

**Noyabrın 6-da** H.Əliyev Bakı metrosunun yeni xəttinin – "Əzizbəyov", "Avrora", "Neftçilər" stansiyalarının açılışında çıxış etdi.

**Noyabrın 14-də** H.Əliyev Azərbaycan KP MK-nın payız tarla işlərinin qurtarması və yeni kənd təsərrüfatı ilinə hazırlıqla bağlı partiya təşkilatının vəzifələrinə həsr olunmuş plenumunda məruzə ilə çıxış etdi.

**Noyabrın 15-də** H.Əliyev vilayət, şəhər, rayon partiya komitələrinin birinci katiblərinin qarşıdan gələn partiya sənədlərinin dəyişdirilməsinə həsr olunmuş müşavirəsində çıxış etdi.

**Noyabrın 17-də** H.Əliyevin iştirakı ilə M.S.Ordubadinin 100 illiyinə həsr olunmuş təntənəli yığıncaq keçirildi.

**Noyabrın 20-də** H.Əliyev respublika Elmlər Akademiyasının böyük zalında Elmlər Akademiyasının Sovet İttifaqının yaranmasının 50 illiyinə həsr olunmuş ümumi yubiley iclasında iştirak etdi.

Zaqafqaziya respublikaları alimlərinin SSRİ-nin yaranmasının 50 illiyini qarşıladıqları uğurlar barədə məruzələrlə Azərbaycan Elmlər Akademiyasının prezidenti, SSRİ Elmlər Akademiyasının müxbir üzvü H.Abdullayev, Gürcüstan SSR Elmlər Akademiyasının prezidenti, Lenin mükafatı laureatı, akademik İ.Vekua, Ermənistan Elmlər Akademiyasının prezidenti A.İoannisyan məruzə etdilər.

**Noyabrın 25-də** H.Əliyev Bakıda Xalqlar dostluğu parkının təməli qoyularkən nitqlə çıxış etdi. O Bakını yaşıl şəhərə çevirməyə çağırdı. Həmin gün mitinqdən sonra Şıx yamacının terraslarında 40 minə yaxın ağac əkildi – ağcaqayın, palıd, eldar şamı, sərv, nar, alma və s.

**Noyabrın 27-də** H.Əliyev SSRİ yaranmasının 50 illiyi şərəfinə Sovet İttifaqı boyu keçirilən "İzvestiya" – "Nedelya" avtoekspedisiyasının iştirakçılarını qəbul etdi.

**Dekabrın 6-da** H.Əliyev F.Dzerjinski adına klubda açılan SSRİ və Almaniya Demokratik Respublikası tarixçilərinin XX konfransında "SSRİ-nin yaradılması – Böyük Oktyabrın əməllərinin davamı kimi" məruzəsi ilə çıxış etdi.

**Dekabrın 11-də** H.Əliyev tikilməkdə olan V.İ.Lenin adına Saraya baş çəkdi.

**Dekabrın 12-də** H.Əliyev Rumıniyanın Piteşti şəhərinin nümayəndə heyətini qəbul etdi.

**Dekabrın 13-də** H.Əliyev 1922-ci il dekabrın 10-13-də Sovetlərin Birinci Zaqafqaziya qurultayının keçdiyi M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının binasına vurulan memorial lövhənin açılışında iştirak etdi.

**Dekabrın 14-də** H.Əliyev Azərbaycan KP MK və Azərbaycan SSR Ali Sovetinin təntənəli iclasında "SSRİ yaradılmasının 50 illiyi haqqında" adlı geniş məruzə ilə çıxış etdi.

**Dekabrın 22-də** Kremlin Qurultaylar Sarayında Sov.İKP MK, SSRİ Ali Soveti və RSFSR Ali Sovetinin SSRİ-nin yaradılmasının 50 illiyinə həsr olunmuş təntənəli yığıncağı keçirildi. Bu günlərdə Moskvaya ittifaq respublikalarının rəhbərləri, Varşava müqaviləsi ölkələrinin, beynəlxalq kommunist və fəhlə partiyalarının liderləri toplaşmışdı. H.Əliyev Azərbaycan SSR adından iştirakçılara təbriklə müraciət etdi.

**Dekabrın 28-də** H.Əliyev Azərbaycan KP MK-nın plenumunda Azərbaycan SSR 1973-cü il üçün xalq təsərrüfatının inkişafı planının və respublika büdcəsinin təsdiqinə həsr olunmuş nitqlə çıxış etdi. Əsas məruzə ilə Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini, Azərbaycan Dövlət Plan Komitəsinin sədri İ.Əsədov çıxış etdi.



**Dekabrın 29-da** H.Əliyev Azərbaycan komsomolunun 50 illiyi adına Bakı Elektrik Maşınqayırma zavoduna Sov.İKP MK, SSRİ Ali Soveti və SSRİ Nazirlər Sovetinin fəxri Yubiley nişanını təqdim etdi.

**Dekabrın 30-da** H.Əliyev Azərbaycan SSR-in "Xalqlar dostluğu" ordeni ilə təltif olunmasına həsr olunmuş mitinqdə çıxış etdi.

## 1973

**Fevralın 20-də** H.Əliyev Azərbaycan KP MK-nın plenumunda "Sov.İKP MK dekabr (1972-ci il) Plenumunun yekunları və respublika partiya təşkilatının vəzifələri" məruzəsi ilə çıxış etdi.

1972-ci ilin yaxşı göstəricilərinə və respublika sənaye məhsulu satışının və onun bir çox mühüm növlərinin istehsalı, həmçinin dövlətə kənd təsərrüfatı məhsulları üzrə satışı planlarını yerinə yetirməsinə baxmayaraq, H.Əliyev qazanılmış uğurlardan "başgicəllənmə" hiss etmədi. O dönə-dönə partiya fəallarının diqqətini xalq təsərrüfatı mexanizmindəki "zəif" bəndlərə yönəldir – neft və qaz hasilatındakı gerilikdən, yüngül sənayedə olan uğursuzluqdan, şərabçılıq sahəsinin qeyri-qənaətbəxş işindən, bir sıra zavodlarda istehsal güclərinin mənimsənilməsi faizinin aşağı olmasından, maddi-maliyyə vəsaitlərinin istifadəsində yol verilən israfçılıqdan danışdı. Bahalı, o cümlədən valyutaya alınmış avadanlığın tikinti sahələrində və sexlərdə quraşdırılmamış atılıb qalması, korlanması və yeniliyini itirməsi barədə faktlar gətirdi. İşə çıxmamağın və iş buraxmanın böyük sayından, kadr axınından, sənaye məhsullarının keyfiyyətinin aşağı olmasından ("buraxılan məhsulların 30%-ə qədəri müasir texniki səviyyənin tələblərinə cavab vermir", demək olar ki, hər 10 soyuducudan biri zay çıxır və s.) danışdı. Qabaqcıl texnologiya və avtomatlaşdırmanın tətbiqi üzrə 1971-ci və 1972-ci illərin planları yerinə yetirilməmişdir, onilliklərlə mənəvi cəhətdən köhnəlmiş



məhsullar istehsal olunur, sahə ETİ və laboratoriyaları səmərəsiz işləyir, elmi-texniki tərəqqiyə ciddi təsir göstərmirlər.

Kənd təsərrüfatından bəhs edərkən, o, diqqəti həll olunmamış problemlərə – kənd təsərrüfatı bitkilərinin becərilməsinin və heyvandarlıqda çox zəhmət tələb edən proseslərin mexanikləşdirilməsinin aşağı səviyyəsinə, mexanizator kadrlarının qıtlığna (konkret rəqəmlər gətirərək konkret təsərrüfatlarda olan vəziyyəti göstərdi), respublikada zərərlə işləyən külli miqdarda kolxoz və sovxozlara yönəltdi.

H.Əliyev tikinti materialları sahəsində, əsaslı tikinti ilə bağlı vəziyyəti kəskin tənqid etdi, xidmət və məişət sahəsi müəssisələrinin fəaliyyətinin aşağı səviyyədə olduğunu qeyd etdi.

**Fevralın 21-də** H.Əliyev respublikanın şəhər və rayon partiya komitələrinin birinci katiblərinin müşavirəsini giriş sözü ilə açdı.

**Aprelin 5-də** H.Əliyev vilayət, şəhər və rayon partiya komitələri ümumi şöbə müdirlərinin müşavirəsində çıxış etdi.

**Aprelin 7-də** H.Əliyev Azərbaycan SSR Ali Soveti adına Bakı Ali Ümumqoşun Komandirləri məktəbində oldu.

**Aprelin 19-da** MK-nın 1-ci katibi partiya fəallarının ideya-siyasi işin, zəhmətkeşlərin beynəlmiləlçilik ruhunda tərbiyə edilməsinin gücləndirilməsinə həsr olunmuş yığıncağında məruzə ilə çıxış etdi.

İdeoloji tərbiyə işinə həsr olunmuş bütün plenum və partiya aktivlərində H.Əliyev rus dilinin tədrisinin yaxşılaşdırılmasının vacibliyindən danışırdı:

"Bu yaxınlarda Azərbaycan KP Mərkəzi Komitəsi ümumtəhsil məktəblərində rus dilinin tədrisinin yaxşılaşdırılması üçün tədbirləri nəzərdə tutan qərar qəbul etmişdir. Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutu yaradılmışdır". H.Əliyev qeyd etmişdir ki, respublikada ixtisaslı rus dili müəl-

limlərinin sayı hələ azdır, xüsusilə də kənd yerlərində, kütlələrin rus dilinə yiyələnməsinə kömək göstərmək üçün radio və televiziyanın imkanlarından geniş istifadə etməyi təklif etmişdir.

Azərbaycanın partiya lideri hərbi tipli internat-məktəbin açılmasını yada salaraq, gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinin yaxşılaşdırılmasına toxundu: "Gələcək illərdə daha çox gənclərimizin Sovet Ordusunun kadr zabitləri olması üçün əldə olunan nəticələri möhkəmlətməliyik".

H.Əliyev məruzəsində kommunist mənəviyyatının antipodlarına qarşı mübarizəyə xüsusi yer ayırdı: "Mərkəzi Komitənin bu xətti respublikanın kommunistləri və geniş ictimaiyyəti tərəfindən qızğın müdafiə olunur. Kommunist əxlaqının antipodları ilə fəal mübarizə respublikada mənəvi ab-havanı xeyli dərəcədə sağlamlaşdırmağa imkan vermişdir. Zəhmətkeşlərdə inam yaranmışdır ki, cəmiyyətimizin qanunlarını pozan insanlar layiq olduqları cəzanı alacaqlar..."

O yada saldı ki, bu "mübarizə – ötəri kampaniya deyil, partiya təşkilatlarının, Sovetlərin, həmkarların, komsomolun gündəlik işinin mühüm tərkib hissəsidir. Biz bundan sonra da cəmiyyətə zidd olan halların kökünü kəsmək üçün əlimizdən gələni edəcəyik, oğrularla, rüşvətxorlarla, irəliyə addımlamağımıza mane olan, sosializm cəmiyyətinin norma və əxlaqına zidd olan nə varsa onunla sərt və amansız mübarizə aparacağıq".

**Aprelin 20-də** V.İ.Lenin adına Sarayda H.Əliyev V.İ.Leninin anadan olmasının 103 illiyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi. Məruzə ilə Azərbaycan KP MK-nın katibi D.Quliyev çıxış etdi.

**Aprelin 26-da** H.Əliyev Sov.İKP MK Baş katibi L.İ.Brejnevin "Partiyanın XXIV qurultayının qərarlarının yerinə yetirilməsi üzrə Sov.İKP MK-nın beynəlxalq fəaliyyəti barədə" məruzəsini müzakirə edən Sov.İKP MK-nın növbəti Plenumunda çıxış etdi.



**Aprelin 28-də** H.Əliyev Bakı şəhərində Lenin kommunist iməciliyində iştirak etdi.

**Aprelin 30-da** H.Əliyev Sovet Azərbaycanının 53-cü ildönümünə və 1 May gününə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi. Məruzə ilə Azərbaycan KP MK Bürosunun üzvü, Nazirlər Sovetinin sədri Ə.İbrahimov çıxış etdi.

**Mayın 1-də** respublikanın digər rəhbərləri ilə birlikdə H.Əliyev zəhmətkeşlərin 1 May nümayişi iştirakçılarını salamladı.

**Mayın 5-də** H.Əliyev Bibi-Heybətdə İliç buxtasının 50 illiyinə həsr olunmuş mitinqdə çıxış etdi.

**Mayın 9-da** H.Əliyev Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin heykəlinin açılışına həsr olunmuş mitinqdə çıxış etdi. Abidə Bakıxanov küçəsi ilə Tbilisi prospektinin kəsişdiyi yerdə salınmış bağçada ucaldılmışdı. Abidənin müəllifləri heykəltəraş Fuad Əbdürrəhmanov və SSRİ xalq memarı Mikayıl Hüseynovdur.

**Həmin gün** qəzetlərdə H.Əliyevin "Kommunist partiyası və Sovet dövlətinin qarşısında göstərdiyi xidmətlərə görə" Lenin ordeni ilə təltif olunması barədə SSRİ Ali Sovetinin fərmanı dərc edilmişdi.

**Mayın 10-da** H.Əliyevin 50 yaşı tamam oldu.

**Mayın 24-də** "Pravda" qəzetində H.Əliyevin 50 illiyi və Lenin ordeni ilə təltif olunması ilə bağlı təbrik göndərmiş təşkilatlara və yoldaşlara minnətdarlığı dərc olundu.

**Mayın 26-da** H.Əliyev Bakı aeroportunda SSRİ Nazirlər Soveti sədrinin müavini Z.Nuriyevi qarşıladı.

**Mayın 29-da** H.Əliyev kənd təsərrüfatında Ümumittifaq sosializm yarışının nəticələrinə görə respublikaya SSRİ Nazirlər Soveti və ÜİHİMŞ-in keçici Qırmızı bayrağının təqdim olunması zamanı nitqlə çıxış etdi. Bayrağı SSRİ Nazirlər Soveti sədrinin müavini Z.Nuriyev təqdim etmişdi.

**İyunun 1-də** H.Əliyev Sov.İKP MK-nın dəvəti ilə Sovet İttifaqında olan İraq Ərəb Sosialist Dirçəliş partiyasının (BAAS) nümayəndə heyətini qəbul etdi.

**İyunun 8-də** H.Əliyev partiyanın sədri Herhard Daniyelus başda olmaqla Qərbi Berlinin Vahid Sosialist partiyasının nümayəndə heyətini qəbul etdi.

**İyunun 28-də** H.Əliyev F.Dzerjinski adına klubda keçirilən üzümçülük rayonlarının partiya-təsərrüfat fəalları iclasında nitqlə çıxış etdi.

**İyulun 18-də** Kremldə SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri N.Podqornı H.Əliyevə Lenin ordenini təqdim etdi.

**Avqustun 2-də** Bakı aeroportunda H.Əliyev Bolqarıstan Kommunist partiyasının birinci katibi, Bolqarıstan Xalq Respublikası Dövlət Şurasının sədri Todor Jivkovu qarşıladı.

**Sentyabrın 13-də** V.İ.Lenin adına Sarayda İmadəddin Nəsiminin anadan olmasının 600 illiyinə həsr olunmuş təntənəli gecə keçirildi.

**Sentyabrın 24-25-də** H.Əliyev Daşkənddə pambıq becərən respublikaların partiya-təsərrüfat fəallarının iclasında iştirak etdi. İclasın ittifaq nəşrlərində dərc olunmuş qətnaməsində Azərbaycanın beşilliyin üçüncü ilinin öhdəliklərini artıqlaması ilə yerinə yetirmək əzmində olduğu, dövlətə 450 min ton pambıq təhvil verəcəyi (1972-ci ildəki 431 min tona qarşı) bildirilirdi.

**Oktyabrın 2-də** H.Əliyev Ümumittifaq sosializm yarışının nəticələrinə görə heyvandarlıq məhsullarının istehsalını artırdığına görə Azərbaycan SSR-ə Sov.İKP MK, SSRİ Nazirlər Soveti, ÜİHİMŞ-in və ÜİLKGİ-nin keçici Qırmızı bayrağı təqdim olunarkən nitq söylədi.

Quba rayonundakı Jdanov adına sovxozun tanınmış sağıcısı Tahir Cəbrayılov Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldü, Azərbaycanın 1150 kənd təsərrüfatı qabaqcılı isə müxtəlif orden və medallarla təltif olundu. Bundan başqa,



respublikanın 100 kolxoz və sovxoz ferması ittifaq Ət və Süd Məhsulları Nazirliyi və Yeyinti Sənayesi İşçilərinin Həmkarlar İttifaqı MK-nın Qırmızı bayrağı ilə mükafatlandırıldı.

**Həmin gün** H.Əliyev respublika partiya-təsərrüfat fəalları yığıncağında məhsul yığımının qurtarması və beşilliyin üçüncü ilinin sosialist öhdəliklərinin yerinə yetirilməsi haqqında məruzə etdi.

H.Əliyev pambıqçılığın inkişafı problemi üzərində xüsusi dayandı, çünki Sov.İKP MK Baş katibi L.Brejnevin iştirakı ilə pambıq becərən respublikaların rəhbərlərinin Daşkənddə keçirilən müşavirəsindən qayıtmışdı.

O, il boyu respublikada "böyük" pambıq uğrunda gedən mübarizədən ətraflı söhbət açır: "Keçən ilin payızında vaxtlı-vaxtında və yüksək aqrotexniki səviyyədə dondurma şumu aparılmış, əsas şumun altına optimal miqdarda mineral və üzvi gübrələr vurulmuş, şoran torpaqlar yuyulmuş, arat aparılmış, kollektor-drenaj və suvarma şəbəkələri təmizlənmişdi. Kolxoz və sovxozlar yüksək reproduksiyalı keyfiyyətli pambıq toxumu ilə təmin edilmişdi. Çiyid səpini qısa vaxtda və yüksək səviyyədə aparılmışdı.

Lakin sonrakı işlər ağır hava şəraitində keçmişdi. Yazda leysan yağışlar üzündən 17 min hektar sahəyə çiyid yenidən səpildi. Yay aylarında havanın temperaturu gözlənilmədən aşağı oldu. Bu nəinki pambığın inkişafını xeyli yubatdı, sovkanın kütləvi yayılmasına da səbəb oldu. Onunla mübarizəyə pambıqçılıq rayonlarının, sözün əsl mənasında, bütün əhalisi qalxdı. Əksər hallarda pambıq kolları zəhərli kimyəvi preparatlarla 10-11 dəfə işlənirdi. Bu, pambıq uğrunda əsl döyüş idi".

**Oktyabrın 4-də** H.Əliyev AVSP MK-nın xalq təhsili şöbəsinin müdiri Lotar Oppermanın başçılıq etdiyi Almaniya

Vahid Sosialist partiyasının rəhbər işçilərinin nümayəndə heyətini qəbul etdi.

**Oktyabrın 8-də** V.İ.Lenin adına Sarayda Bakı ictimaiyyəti nümayəndələrinin Beynəlxalq Astronavtika Federasiyasının XXIV konqresinin iştirakçıları – SSRİ təyyarəçi-kosmonavtları V.Şatalov, G.Bereqovoy, V.Sevastyanov, Amerika astronavtı Tomas Stafford ilə görüşü oldu. H.Əliyev görüşdə iştirak etdi.

**Oktyabrın 11-də** H.Əliyev sovet və xarici ölkə alimlərinin Azərbaycan paytaxtının ictimaiyyəti ilə M.F.Axundov adına Opera və Balet Teatrında keçən görüşündə iştirak etdi.

**Oktyabrın 13-də** H.Əliyev Sabirabad rayonunun pambıqçılıq təsərrüfatlarında oldu və respublikanın pambıq becərən rayonlarının partiya-təsərrüfat fəallarının yığıncağını keçirdi.

**Oktyabrın 23-də** H.Əliyev Qvineya Demokratik partiyası MK-nın üzvü, Qvineya daxili işlər və dövlət təhlükəsizliyi naziri Kamar Damantanqın başçılıq etdiyi QDP-nın nümayəndə heyətini qəbul etdi.

**Oktyabrın 27-də** H.Əliyev Stepanakertdə DQMV-ə Sov.İKP MK, SSRİ Nazirlər Soveti, ÜİHİMŞ-in və ÜİLKGİ-nin Qırmızı bayrağının təqdim edilməsi mərasimində iştirak etdi və nitqlə çıxış etdi.

**Oktyabrın 31-də** M.F.Axundov adına Opera və Balet Teatrında Qafqaz uğrunda döyüşün 30 illiyinə həsr olunmuş təntənəli iclas oldu.

İttifaq respublikalarından gəlmiş çoxsaylı qonaqların qarşısındakı çıxışında H.Əliyev Bakı neftinin Böyük Vətən müharibəsi cəbhələrindəki qələbələrin mühüm amili olduğunu xüsusi vurğuladı:

"Donetsk və Moskvaətrafı kömür hövzələri, Maykop düşmən tərəfindən işğal olunmuşdu. Qroznı neft rayonu cəbhəyanı sahə olmuşdu. Bütün bunlar ölkənin yanacaq-enerji resurslarını kəskin surətdə azaltmışdı. Və Bakı öz neft mədənləri, neft emalı zavodları ilə əslində o vaxt Silahlı Qüvvələri, zavod və fabrikləri yanacaq və sürtgü materialları ilə təchiz edən yeganə baza idi... O, ağır illərdə ölkədə çıxarılan neftin dörddə üçünü Azərbaycan verirdi. Tank və təyyarələr Bakı nefti ilə hərəkətə gəlib düşməni məhv edirdilər".

**Noyabrın 6-da** V.İ.Lenin adına Sarayda H.Əliyev Böyük Oktyabr sosialist inqilabının 56-cı ildönümünə həsr olunmuş təntənəli iclasda iştirak etdi. Məruzə ilə Azərbaycan KP MK-nın ikinci katibi S.Kozlov çıxış etdi.

**Noyabrın 7-də** H.Əliyev Böyük Oktyabrın ildönümü şərəfinə hərbi paradda və Bakı zəhmətkeşlərinin nümayişində iştirak etdi.

**Noyabrın 20-də** Azərbaycan KP MK-nın aşağıdakı gündəliyi təsdiq etmiş plenumu oldu:

1. Sov.İKP MK-nın 21 avqust 1973-cü il tarixli "Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 27 mart 1970-ci il tarixli "Kartof, tərəvəz və meyvə istehsalının artırılması və tədarükünün yaxşılaşdırılması tədbirləri haqqında" qərarının yerinə yetirilməsində Azərbaycan KP MK-nın təşkilati fəaliyyəti haqqında" qərarının yerinə yetirilməsində respublika partiya, sovet və təsərrüfat orqanlarının vəzifələri haqqında.

2. Sov.İKP MK may (1972-ci il) Plenumunun partiya sənədlərinin dəyişdirilməsi haqqında qərarının yerinə yetirilməsi üzrə respublika partiya təşkilatının fəaliyyəti.

Azərbaycan KP MK-nın 1-ci katibi plenumda məruzə ilə çıxış etdi. Məruzədə o cümlədən qeyd olunurdu:

"Plenuma məlumat vermək istəyirəm ki, Sov.İKP MK Katibliyinin iclasında bizim hesabat müzakirə olunarkən biz tərəvəzçiliyin inkişafı ilə bağlı və ittifaq orqanlarından asılı olan bir sıra məsələlərin həll edilməsi xahişi ilə müraciət etdik. Sov.İKP MK bu xahişə müsbət yanaşdı və SSRİ-nin müvafiq nazirlik və idarələrinə bizim təkliflərimizi müzakirə etməyi və

respublikaya maksimum yardım göstərməyi tapşırdı. Bu yaxınlarda bizim nümayəndələrimizin iştirakı ilə bu müzakirələr baş tutmuşdur. Nəticədə razılaşdırılmış qərar layihəsi hazırlanmış və SSRİ Nazirlər Sovetinə çıxarılmışdır.

SSRİ Nazirlər Sovetinin hazırladığı qərar layihəsində respublikada tədarük, tərəvəz və meyvə emalının maddi-texniki bazasının inkişafı və yerləşdirilməsi sxeminin işlənib başa çatdırılması, kapital qoyuluşunun artması, yeni istehsalat obyektlərinin tikilməsi, müasir avadanlıq və maşınların göndərilməsi ilə bağlı praktik tədbirlər nəzərdə tutulmuşdur..."

**Noyabrın 23-də** M.Qorki adına Stepanakert Dövlət Dram Teatrında Dağlıq Qarabağ vilayət partiya komitəsi və vilayət zəhmətkeş deputatları Sovetinin DQMV-nin 50 illiyinə həsr olunmuş təntənəli iclası olmuşdur. H.Əliyev respublika partiya rəhbərliyi ilə birlikdə Stepanakertə gəlmiş və iclasda nitqlə çıxış etmişdir.

**Noyabrın 30-da** H.Əliyev Sumqayıt şəhərində Azərbaycan Boru Prokat zavodunun ümumzavod hesabat-seçki konfransında iştirak etdi.

**Dekabrın 11-də** H.Əliyev Sov.İKP MK-nın Plenumunda "1974-cü il üçün SSRİ xalq təsərrüfatının inkişafına dair Dövlət planı haqqında" və "1974-cü il üçün SSRİ Dövlət planı haqqında" məruzəsinin müzakirəsi zamanı çıxış etdi.

**Dekabrın 13-də** H.Əliyev Moskva ali məktəblərində təhsil alan azərbaycanlı tələbələrlə görüşdü.

**Dekabrın 17-də** H.Əliyev SSRİ xalq artisti, Lenin və SSRİ Dövlət mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı Aram Xaçaturyana Azərbaycan SSR xalq artisti fəxri adı verilməsi haqqında fərmanı təqdim etdi.

**Dekabrın 25-də** H.Əliyev Sov.İKP MK-nın dekabr (1973-cü il) Plenumunun yekunlarını və respublika partiya təşkilatının vəzifələrini müzakirə edən Azərbaycan KP MK-nın plenumunda çıxış etdi.



**Dekabrın 26-da** H.Əliyev Azərbaycan SSR Ali Sovetinin VI sessiyasında iştirak etdi. Sessiya 1974-cü il üçün respublikanın iqtisadi inkişafı məsələlərini müzakirə etdi.

Sessiyanı Azərbaycan SSR Ali Sovetinin sədri S.Rüstəmzadə açdı.

**Dekabrın 28-də** H.Əliyev M.F.Axundov adına Opera və Balet Teatrında Azərbaycanda texniki-peşə təhsilinin 50 illiyinə həsr olunmuş təntənəli yığıncaqda çıxış etdi.

**Dekabrın 29-da** H.Əliyev respublika Xalq Nəzarəti Komitəsinin sədri Q.Əfəndiyevi anadan olmasının 60 illiyi münasibətilə təbrik etdi.

## 1974

**Yanvarın 4-də** H.Əliyev Bakının Nərimanov rayonunun partiya konfransında iştirak etdi.

**Yanvarın 9-da** H.Əliyev ÇSSR-in Sovet İttifaqındakı səfiri Yan Qavelkanı qəbul etdi.

**Yanvarın 14-də** Sov.İKP MK Siyasi Bürosunun üzvü, Sov.İKP MK katibi F.D.Kulakov Bakıya gəldi.

**Yanvarın 15-də** F.Kulakov və H.Əliyev Azərbaycanın cənub rayonlarında oldular, axşam F.Kulakov Lənkəran şəhər partiya komitəsində büro üzvləri və partiya təsərrüfat fəalları ilə görüşdü, Lənkəran zonasında faraş tərəvəz istehsalının artırılması və göndərilməsi, torpağın meliorasiyası, kənd təsərrüfatının səmərəliliyinin artırılması problemləri ilə bağlı məsələləri müzakirə etdi.

**Yanvarın 18-də** V.İ.Lenin adına Sarayda Azərbaycan KP MK və Ali Sovetin Azərbaycan SSR-ə "Xalqlar dostluğu" ordeninin verilməsinə həsr edilmiş birgə təntənəli iclası oldu. Bu gündən etibarən Azərbaycanın bayrağını dörd yüksək mükafat bəzəyəcəkdir: iki Lenin ordeni, "Oktyabr inqilabı" ordeni və "Xalqlar dostluğu" ordeni.

**Yanvarın 21-də** H.Əliyev S.M.Kirov adına respublika Siyasi Maarif Evində "50 il Leninsiz Lenin yolu ilə" adlı elmi-nəzəri konfransda iştirak etdi.

**Yanvarın 22-də** H.Əliyev F.Dzerjinski adına klubda Azərbaycan LKGİ MK-nın plenumunda çıxış etdi.





***Kür su kəmərinin birinci növbəsinin açılışı. 27 sentyabr 1970-ci il.***



***Azərbaycan nümayəndə heyəti Qazaxıstan SSR-in 50 illiyi günlərində. 26-28 avqust 1970-ci il.***



*Bakıda Azərbaycan SSR-in yaranmasının 50 illiyinin bayram edilməsi. 2 oktyabr 1970-ci il.*



*H.Əliyevin Sov.İKP XXIV qurultayında çıxışı. 1 aprel 1971-ci il.*



*H.Əliyev ZaqHD-nin Hərbi Şurasının iclasında. 1971-ci il.*



*H.Əliyev Sov.İKP MK-nın nümayəndə heyətinin tərkibində Berlində AVSP-nin VIII qurultayında. İyun, 1971-ci il.*



*H.Əliyev Azərbaycan Kommunist Partiyası XXVIII qurultayının bir qrup nümayəndəsi ilə. Mart, 1971-ci il.*



*Bakı metropoliteninin yeni xəttinin açılışı. 6 noyabr 1972-ci il.*



*Bakı şəhərində V.İ.Lenin adına Sarayın açılışı. H.Əliyev və Ə.Ləmbəranski. 11 dekabr 1972-ci il.*



*Azərbaycanda RSFSR-in Ədəbiyyatı və İncəsənəti günləri iştirakçılarının Bakı dəmiryol vağzalında qarşılanması. 2 oktyabr 1972-ci il.*



*DQMV Martuni rayonunun «Kommunizm» kolxozunda. 23 noyabr 1973-cü il.*



*Heydər Əliyevin 50 yaşı tamam olmuşdur. 10 may 1973-cü il.*



*Heydər Əliyevin 50 yaşı tamam olmuşdur.*
*Büro üzvləri və həmkarları ilə xatirə şəkli.*



*Bakıda Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin abidəsinin açılışı. 9 may 1973-cü il.*



*XXIV Beynəlxalq astronavtika konqresi.*
*8 oktyabr 1973-cü il.*



*SSRİ AS Rəyasət Heyətinin sədri N.Podqornı H.Əliyevə Lenin ordenini təqdim edir. 18 iyul 1973-cü il.*



*H.Əliyev və Sov.İKP MK katibi F.Kulakov Lənkəranda. 15 yanvar 1974-cü il.*



*H.Əliyev Naxçıvan üzümçülərinin qonağıdır. Fevral, 1974.*



*Azərbaycan KP MK-da dünyada ilk kosmonavt–qadın V.Nikolayeva-Tereşkovanın qəbul edilməsi. 13 may 1974-cü il.*



*Azərbaycan SSR Dövlət mükafatları təqdim olunandan sonra laureatlarla xatirə şəkli. 5 noyabr 1974-cü il.*



*Sovet İttifaqı Qəhrəmanı M.Kantariya ilə görüş.*
*4 aprel 1975-ci il.*



*H.Əliyev və SSRİ neft sənayesi naziri V.Şaşin*
*Neft Daşlarında. 18 iyun 1975-ci il.*



*Sovet İttifaqı Qəhrəmanı, general Həzi Aslanovun abidəsi*
*önünə əklil qoyulması. 9 may 1975-ci il.*



*H.Əliyev C.Naxçıvanski adına ixtisaslaşdırılmış internat-məktəbdə. 8 may 1975-ci il.*



*Lənkəran rayonunda Xanbulançay dəryaçasının açılışı. 26 dekabr 1975-ci il.*



*Bakı Məişət Kondisionerləri zavodunun işə salınması. 25 dekabr 1975-ci il.*



*H.Əliyev və Q.Qarayev Ü.Hacıbəyovun Ev-muzeyinin açılışında. 20 noyabr 1975-ci il.*



*Azərbaycanda Sovet ədəbiyyatı günləri.*
*1-9 oktyabr 1975-ci il.*



**Fevralın 5-də** H.Əliyev 41-ci Bakı şəhər partiya konfransında nitqlə çıxış etdi.

Çıxışın xeyli hissəsi rüşvətxorluqla mübarizənin gücləndirilməsinin zəruriliyinə həsr olunmuşdu. Respublikanın partiya rəhbəri ilk dəfə olaraq prokurorluq orqanlarını rüşvətxorlara göz yummaqda günahlandırdı. H.Əliyev bağ təsərrüfatı və bu sahədə olan pozuntuların üzərində ətraflı dayandı. O, 266 kv. metr sahəsi, içində qarajı, hovuzu, xidmət sahələri olan bağ tikdirmiş Beniaminov adlı bir ticarət işçisini, həmçinin özlərinə iri bağ tikdirmiş Zərgərlik zavodunun direktoru Həbibovu və əmtəəşünas Haşımovu misal gətirdi.

Heydər Əliyev işçilərinin istirahəti üçün yaxşı şərait yaratmaq əvəzinə, şəxsi bağ tikintisi ilə məşğul olan rəhbərləri şiddətli tənqid etdi:

"İlk növbədə kollektiv istirahəti təşkil etmək üçün iri pansionatlar, istirahət evləri və digər ictimai obyektlərin tikintisinin qayğısına qalmaq lazım idi. Hər bir zavod, fabrik, hər bir nazirlik kollektiv istirahət, ictimai istifadə üçün pansionatlar, istirahət evləri, iri bağ evləri tikə bilərdi...

Üç ay müddətində Bakının bütün bağlarında tam yoxlama aparmaq, kimə məxsus olmasından asılı olmayaraq, kimdə pozuntu aşkar edilərsə, bağdan istifadə etmək imkanından məhrum edib, onunla müqaviləni pozmaq lazımdır. Bu bağları onlardan alıb bizim fəhlələrə, neftçilərə, mədən və havası qazla korlanmış ərazilərdə, zirzəmilərdə yaşayan insanlara vermək lazımdır. Qoy bağda istirahət etsinlər!".

**Fevralın 8-də** V.İ.Lenin adına Sarayda ÜİHİMŞ katibi P.Pimenov Sov.İKP MK, SSRİ Nazirlər Soveti, ÜİHİMŞ-in və ÜİLKGİ-nin keçici Qırmızı bayrağını respublikaya təqdim etdi.

1973-cü ildə sənaye istehsalının artımı 1972-ci illə müqayisədə planda olan 8,7 faizə qarşı 11,9 faiz təşkil etmişdi. Sənaye istehsalı artımının 80 faizi əmək məhsuldarlığının ar-

tırılması hesabına əldə edilmişdi. Kənddə bütün növ əkinçilik və heyvandarlıq məhsulları üzrə dövlətə satış planları artıqlaması ilə yerinə yetirilmişdi: 410 min ton çiyidli pambıq, 397 min ton üzüm, 1972-ci ildəkindən iki dəfə çox, 220 min tonu ölkənin sənaye mərkəzlərinə göndərilən 411 min ton tərəvəz.

H.Əliyev mitinqdə geniş nitqlə çıxış etdi.

**Fevralın 12-də** H.Əliyev SSRİ təyyarəçi-kosmonavtı, iki dəfə Sovet İttifaqı Qəhrəmanı V.Kubasovu qəbul etdi.

**Fevralın 17-də** H.Əliyev Azərbaycan Komsomolunun XXIX qurultayında çıxış etdi. V.Hüseynov respublika LKGİ MK-nın birinci katibi seçildi.

**Fevralın 20-22-də** H.Əliyev Naxçıvan MSSR-in 50 illiyinə həsr olunmuş təntənələrdə iştirak etdi, bir sıra yeni obyektlər açdı.

**Fevralın 21-də** Naxçıvanda H.Əliyev Naxçıvan MSSR-in bayrağına "Xalqlar dostluğu" ordeni sancdı və nitq söylədi.

**Fevralın 25-də** H.Əliyev Livan kommunist partiyasının Baş katibi N.Şauini qəbul etdi.

**Fevralın 27-də** V.İ.Lenin adına Sarayda respublikaya Sov.İKP MK, SSRİ Nazirlər Soveti, ÜİHİMŞ-in və ÜİLKGİ MK-nın daha bir keçici Qırmızı bayrağı təqdim olundu (sənaye, tikinti və nəqliyyat işçilərinin 1973-ci il üçün Ümumittifaq sosializm yarışında qazandıqları nailiyyətlərə görə). Bayrağı SSRİ Nazirlər Soveti sədrinin müavini N.Tixonov təqdim etdi.

Tixonov qeyd etdi ki, ötən illə müqayisədə 1973-cü ildə sənayedə istehsalın həcmi təxminən 12 faiz yüksəlmiş, əmək məhsuldarlığı 9 faizdən çox, gəlir isə 16 faiz artmışdır. Tixonov qeyd etdi ki, "sənayedə əmək məhsuldarlığının və sənaye istehsalı həcminin belə yüksək artım templəri ötən il heç bir respublikada olmamışdır".



**Martın 3-də** H.Əliyev Bakı aeroportunda Bolqarıstan Xalq Respublikası Nazirlər Sovetinin sədri Stanko Todorovu qarşıladı. Onların arasında səmimi söhbət oldu. Qısamüddətli görüşdən sonra elə həmin gün S.Todorov Daşkəndə yola düşdü.

**Martın 6-da** H.Əliyev M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında 8 Mart Beynəlxalq Qadınlar gününə həsr olunmuş təntənəli gecədə iştirak etdi.

**Martın 20-də** H.Əliyev Azərbaycan SSR DİN-in şəxsi heyətinin andiçmə mərasimində iştirak etdi.

**Martın 29-da** H.Əliyev pambıqçıların respublika toplantısında nitqlə çıxış etdi.

Digər nailiyyətlər sırasında o, 1972-ci ildə bir ton pambığın əlavələr də daxil olmaqla orta tədarük qiymətinin 1969-cu ildəki 462 manata qarşı 608 manat təşkil etməsindən sonra pambıqçıların gəlirlərinin artmasından məmnuniyyətlə danışdı. 1972-ci ildə kolxoz və sovxozların pambıq satışından gəliri 1969-cu ildəki 18 mln. manatdan 64 mln. manata yüksəlmişdir. Pambıqçılığın rentabelliyi 13,8 faizdən 32,6 faizə çatmışdır.

MK-nın birinci katibi çıxışında konkret misallar gətirdi. Belə ki, Cəbrayıl rayonu Lenin adına kolxozunun traktorçusu Əli Əliyevin ailəsi 6 nəfərdən ibarətdir. Onlardan üçü kolxozda işləyir. 1967-1969-cu illərdə onlar kolxozdan orta hesabla ildə 3,328 manat alırdılar, son üç ildə isə – hərəyə 12,750 manat. Bu, ailəyə ikimərtəbəli ev tikməyə, mebel, televizor, soyuducu və s. almağa imkan yaratmışdır.

Rüstəm Hüseynov Ağcabədi rayonundakı "Tacikistan" kolxozunda suçudur. Ailəsi 9 nəfərdən ibarətdir, onlardan 5-i pambıqçılıqla məşğul olur. Son iki ildə onlar kolxozdan 24 min manat pul almışlar. İkimərtəbəli evdə yaşayan ailənin televizoru, soyuducusu, yaxşı mebeli, "Moskviç" avtomobili vardır. H.Əliyev razılıqla bildirir ki, belə misalları çox gətirmək olar.

**Aprelin 11-də** H.Əliyev Azərbaycan KP MK-nın plenumunda "Partiya təşkilatının Sov.İKP MK Baş katibi L.Brejnev yoldaşın Alma-Atada xam torpaqların işlənməsinin 20 illiyinə həsr olunmuş təntənəli iclasdakı nitqindən irəli gələn vəzifələri haqqında" məruzə etdi.

**Aprelin 15-də** H.Əliyev Azərbaycan KP MK-da Bakıda keçirilmiş VII Ümumittifaq kinofestivalının iştirakçılarını qəbul etdi.

**Aprelin 20-də** H.Əliyev Macarıstan Sosialist Fəhlə partiyası MK-nın üzvü, MXR Nazirlər Soveti sədrinin müavini, Dövlət Plan Komitəsinin sədri Dyerd Lazarı qəbul etdi.

**Həmin gün** H.Əliyev Lenin iməciliyində iştirak etdi.

**Aprelin 22-də** H.Əliyev V.İ.Lenin adına Sarayda V.İ.Leninin anadan olmasının 104-cü ildönümünə həsr olunmuş təntənəli iclasda iştirak etdi. Məruzə ilə Azərbaycan KP MK Bürosu üzvlüyünə namizəd, Azərbaycan Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri V.Krasilnikov çıxış etdi.

**Aprelin 26-da** H.Əliyev V.İ.Lenin adına Sarayda Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 54-cü ildönümünə və 1 May gününə həsr olunmuş təntənəli iclasda iştirak etdi. Məruzə ilə Azərbaycan KP MK katibi H.İbrahimov çıxış etdi.

**Mayın 8-də** H.Əliyev Yuqoslaviya Sosialist Federativ Respublikasının Sovet İttifaqında fövqəladə və səlahiyyətli səfiri Milorad Peşiçi qəbul etdi.

**Mayın 13-də** H.Əliyev dünyanın ilk kosmonavt qadını, Sovet Qadınları Komitəsinin sədri, Sovet İttifaqı Qəhrəmanı V.Nikolayeva-Tereşkovanı qəbul etdi.

**Mayın 14-də** respublika partiya təşkilatının 1-ci katibi "Azərbaycan qadını" jurnalına yaradılmasının 50 illiyi şərəfinə Qırmızı Əmək Bayrağı ordeni təqdim edilməsi mərasimində nitq söylədi. Bu tədbirdə iştirak etmək üçün ilk qadın kosmonavt, Sovet Qadınları Komitəsinin sədri Valentina Tereşkova Bakıya gəlmişdi.



**Mayın 18-də** H.Əliyev Bakıda Sarayevo şəhərinin sərgisində oldu. Ekspozisiya Dənizkənarı parkda yerləşən pavilyonda qurulmuşdu.

**Mayın 23-də** Azərbaycan SSR Elmlər Akademiyasının Rəyasət Heyətinin konfrans zalında H.Əliyev respublika EA-nın SSRİ Elmlər Akademiyasının 250 illiyinə həsr olunmuş ümumi iclasında iştirak etdi.

**Həmin gün** H.Əliyev ayaqqabı sənayesi nümunələrinin sərgisi ilə tanış oldu. Zaqafqaziya respublikalarının ayaqqabı firmaları öz modellərini Bakıya gətirmişdilər.

**Mayın 24-25-də** H.Əliyev respublikanın Bərdə və Sabirabad rayonlarında oldu, partiya təsərrüfat fəalları iclaslarının və Azərbaycanın pambıqçılıq rayonları rəhbərlərinin zona müşavirəsini keçirdi.

**Mayın 31-də** V.İ.Lenin adına Sarayda Azərbaycan Dram Teatrının 100 illiyi təntənəli qeyd edildi.

Teatrın bayramına H.Əliyev bütün ölkənin teatr ictimaiyyətinin aparıcı nümayəndələrini dəvət etmişdi və onların qarşısında Azərbaycan teatrının tarixi, görkəmli Azərbaycan dramaturqları, rejissorları, böyük aktyorları haqqında parlaq nitq söylədi. Sonda H.Əliyev M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrının bayrağına SSRİ-nin ali mükafatı olan Lenin ordenini sancdı.

**İyunun 2-6-da** SSRİ Nazirlər Soveti sədrinin müavini, SSRİ Dövlət Plan Komitəsinin sədri N.Baybakov Azərbaycanda olmuşdur. O, "Azneft" və "Xəzərdənizneft" birliklərinin rəhbərləri ilə görüşmüş, Sumqayıtda olmuş, burada Azərbaycan Boru Prokat zavodu və Kompressorlar zavodunda olmuşdur.

H.Əliyev ali qonağı aeroportda qarşılamış və yola salmışdır.

**İyunun 8-də** H.Əliyev Bakının Əzizbəyov, Orconikidze və Lenin rayonlarında seçicilərlə görüşdü.

**İyunun 11-də** H.Əliyev Lenin seçki dairəsinin seçiciləri ilə SSRİ Ali Sovetinin İttifaq Sovetinə deputatlığa namizəd qismində görüşdü.

**İyunun 16-da** H.Əliyev SSRİ Ali Sovetinə seçkilərdə iştirak etdi. Birinci katib respublikanın Lenin rayonundan seçilirdi.

**İyunun 18-də** H.Əliyev İran Xalq partiyası MK-nın üzvü N.Kiyanurini qəbul etdi.

**İyunun 21-də** Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafı məsələlərini müzakirə edən respublika partiya fəallarının iclası oldu.

**İyunun 22-də** H.Əliyev üzümçülərin F.Dzerjinski adına klubda keçirilən respublika müşavirəsində iştirak etdi.

**İyulun 3-də** H.Əliyev Şəkidə keçirilən Azərbaycan KP vilayət, şəhər, rayon birinci katiblərinin heyvandarlıq komplekslərinin tikintisinə həsr olunmuş müşavirəsində iştirak etdi.

**İyulun 12-də** H.Əliyev Azərbaycan KP MK-nın plenumunda "Sov.İKP XXIV qurultayının tələblərinə uyğun olaraq respublika zəhmətkeşlərinə göstərilən ticarət və məişət xidmətlərinin yaxşılaşdırılması haqqında" məruzə etdi.

Azərbaycan partiya liderinin fikrinə görə, yaxın keçmişdə respublikada əhaliyə göstərilən ticarət və bütün məişət xidməti sahəsinin sosial-siyasi əhəmiyyəti açıq-aşkar qiymətləndirilmirdi. H.Əliyev qeyd edir ki, ticarət və məişət sahəsində aldatma və oğurluq, çəkidə və ölçüdə aldatma, israfçılıq və möhtəkirlik baş alıb gedir. Bir çox ticarət təşkilatlarında, məişət xidməti müəssisələrində, restoranlarda, kolxoz bazarlarında "nəzarətsizlik və səhlənkarlıqdan istifadə edərək zəhmətkeşlərin hesabına varlanan nadürüstlər və fırıldaqçılar yuva salmışlar".

O, plenum iştirakçılarına xatırlatdı ki, partiya ticarət və məişət xidməti sahəsində nöqsanlara qarşı barışmaz mübarizəyə qalxmışdır, bir çox başısoyuq və əliəyri adam tutduqları vəzifədən azad edilmiş, partiya və cinayət məsuliyyətinə cəlb olunmuşlar. Məruzədə konkret misallar gətirilir: məsələn, xidməti vəzifəsindən sui-istifadə etdiyinə görə son vaxtlar 140 ticarət müəssisəsinin rəhbəri vəzifədən azad edilmişdir. H.Əliyev respublika Ticarət nazirliyinin Dövlət Ticarət Müfəttişliyi işçiləri tərəfindən kütləvi şəkildə pul tələb edilməsi faktının üzə çıxarılmasını "biabırçılıq" adlandırdı. Qayda-qanuna nəzarət etməli, sui-istifadə halları və oğurluğun kökünü kəsməli olan bu qurumun işçilərindən bir çoxlarının özləri rüşvətxorluğa qurşanmışlar. Xeyli sayda mağaza onların təsiri altına düşmüşdür. Nəticədə ticarət müfəttişliyinin 22 işçisi həbs olunaraq məhkum edilmişlər.

Bununla belə, məruzədən və plenumun nəticələrinə görə qəbul edilmiş qətnamədən göründüyü kimi, H.Əliyev başa düşürdü ki, təkcə güc və repressiya tədbirləri ilə problemi həll etmək mümkün olmayacaq, ona görə də o, Ticarət Nazirliyindən, Azərittifaqdan, Məişət Xidməti Nazirliyindən köhnə qaydada işləməyə son qoymağı, bazarın dəyişən konyunkturasını, əhalinin istək və tələbatını öyrənmək, ticarət təşkilatlarının strukturunu günün tələblərinə uyğun qurmaq, paralellik və təkrarlamalara son qoymağı tələb edir. Topdansatış bazaların ünvanına öz vaxtı üçün olduqca mütərəqqi tələblər səslənir – onlar sadəcə olaraq hazır məhsul anbarları deyil, əmtəənin sifarişçisi olmalıdırlar, əhalinin tələbatını öyrənməlidirlər, müəssisələrdən keyfiyyətsiz malları qəbul etməməlidirlər, əmtəə kütlələrini satmaq üçün bacarıqla manevr etməlidirlər.

Hələ 1970-ci il noyabrın 12-də Azərbaycan KP MK "Respublikada mütərəqqi ticarət forma və metodlarının tətbiq olunmasına dair" qətnamə qəbul etmişdir. H.Əliyev qeyd edir ki, buna baxmayaraq respublikada əvvəlki kimi özünəxidmət mağazalarının sayı azdır, çəkilib qablaşdırılan məhsullar, yarımfabrikat satışı kifayət qədər deyil. Qabaqcadan edilmiş sifarişlə məhsulun evə çatdırılması üsulu ləng tətbiq edilir.

Kolxoz ticarəti məsələsinə toxunan MK-nın birinci katibi, qeyd edir ki, ötən il Azərbaycan KP MK Bürosunun üzvləri Bakı bazarlarında olmuş və kolxoz ticarəti qaydalarının kobud surətdə pozulması faktlarını aşkar etmişlər. Yoxlamaların nəticələri MK-da, şəhər və rayon partiya komitələrində müzakirə obyekti olmuşdur. Kolxoz bazarları idarəsinin rəisini, bir çox bazarların direktorlarını işdən çıxarmalı, bir çox bazar direktorlarını partiya xətti ilə cəzalandırmalı olduq.

H.Əliyevin iyul plenumundakı məruzəsi, digər nitqləri kimi əhatəliliyi, ciddiliyi, son dərəcə dəqiqliyi ilə seçilirdi. O, bu və ya digər nöqsanlar aşkar edilmiş müəssisə və təşkilatların adını çəkir, zay olmuş məhsulun assortiment və kəmiyyətini göstərir, bu sahədə kadr problemi ilə bağlı konkret faktlar və rəqəmlər gətirirdi və s. Heç bir şey, bu sahənin heç bir problemi, ən xırda incəliklər belə onun diqqətindən yayınmırdı.

**İyulun 25-də** Moskvada doqquzuncu çağırış SSRİ Ali Sovetinin birinci sessiyası oldu. H.Əliyev sessiyada İttifaqlar Soveti sədrinin müavini qismində iştirak etdi.

**Avqustun 8-də** H.Əliyev paytaxtın Yaşıl teatrında respublikanın dövlətə taxıl satışı üzrə sosialist öhdəçiliyini yerinə yetirməsinə həsr olunmuş mitinqdə çıxış etdi. 1974-cü ildə tədarük məntəqələrinə plandan 58 min ton artıq – 240 min ton taxıl daxil olmuşdur. 1971-1975-ci illər üçün planda nəzərdə tutulan 877 min ton əvəzinə 885 min ton taxıl təhvil verilmişdir. Taxıl tədarükü üzrə beşillik dörd ildə yerinə yetirilmişdir.

**Avqustun 28-də** H.Əliyev ölkənin aparıcı ali məktəblərinə oxumağa gedən tələbələrlə görüşdü.

**Avqustun 29-da** H.Əliyev respublikaya gəlmiş İtaliya Kommunist partiyası MK-nın üzvü, Ferrara şəhərində İKP federasiyasının birinci katibi Antonio Rubbini qəbul etdi.

**Sentyabrın 3-də** H.Əliyev Rumıniya Sosialist Respublikasının Sovet İttifaqındakı səfiri George Badrusu qəbul etdi.



**Sentyabrın 4-də** H.Əliyev Ağcabədidə rayon partiya və təsərrüfat fəalları yığıncağını və pambıq becərən rayonların zona müşavirəsini keçirdi.

**Sentyabrın 5-də** H.Əliyev Saatlıda rayon partiya və təsərrüfat fəalları yığıncağını və pambıq becərən rayonların zona müşavirəsini keçirdi.

**Sentyabrın 13-də** H.Əliyev Biləcəri stansiyasında dəmiryol qəzasının baş verdiyi yerdə oldu.

**Sentyabrın 13-14-də** Şamaxıda üzümçülük rayonları rəhbərlərinin müşavirəsi oldu. H.Əliyev həmçinin Şamaxı astrofizika rəsədxanasına baş çəkdi.

**Sentyabrın 30-da** H.Əliyev doqquzuncu beşilliyin tapşırıqlarının vaxtından əvvəl yerinə yetirilməsi ilə bağlı Səngəçal dəniz qazma işləri idarəsinin buruq ustası, Sosialist Əməyi Qəhrəmanı M.Qəmbərovun briqadasını qəbul etdi.

**Oktyabrın 1-də** Azərbaycan KP MK-da nazirlik və idarələrin, Azərbaycan KP MK və Nazirlər Soveti, AHİŞ, Azərbaycan LKGİ MK rəhbərlərinin, mətbuat, televiziya, radio işçilərinin iştirak etdiyi müşavirə keçirildi. Müşavirədə kənd təsərrüfatının doqquz aylıq fəaliyyəti müzakirə olundu. H.Əliyev böyük nitqlə çıxış etdi.

**Oktyabrın 3-də** V.İ.Leninin abidəsinin açılışı və Naxçıvan zəhmətkeşlərinin mitinqi oldu. Həmin gün H.Əliyev Naxçıvan MSSR İliç rayonu zəhmətkeşləri ilə görüşdü.

**Oktyabrın 4-də** C.Məmmədquluzadə adına Naxçıvan Musiqili-Dram Teatrında Naxçıvan MSSR-in 50 illiyinə və respublikanın "Oktyabr inqilabı" ordeni ilə təltif edilməsinə həsr olunmuş (həmin vaxta qədər muxtar respublikanın bayrağını Lenin və "Xalqlar dostluğu" ordenləri bəzəyirdi) təntənəli yığıncaq keçirildi. H.Əliyev Arpaçay su qovşağının tikintisində oldu, kolxoz və sovxozlara baş çəkdi, Bakı, Sumqayıt, Kirovabad və DQMV-nin nümayəndə heyətləri isə muxtar respublikanın rayonlarına səfər etdilər. Sonra xalq təsərrüfatı nailiy-

yətləri sərgisinə baxış oldu.

**Oktyabrın 8-də** H.Əliyev mədəniyyət naziri Hans Xoffmanın başçılığı ilə ADR mədəniyyət xadimlərinin nümayəndə heyətini qəbul etdi.

**Oktyabrın 11-13-də** H.Əliyev Moldaviya SSR və Moldaviya Kommunist partiyasının 50 illiyinə həsr olunmuş şənliklərdə iştirak etdi.

**Oktyabrın 15-də** H.Əliyev Azərbaycan zəhmətkeşlərinin Sov.İKP MK, SSRİ Ali Sovetinin Rəyasət Heyəti və Nazirlər Sovetinin respublikanın 1974-cü ilin sosialist öhdəliklərini yerinə yetirməsi münasibətilə təbrikinə həsr olunmuş toplantısında nitqlə çıxış etdi. Pambıqçılar planı 136 faiz (531 min ton pambıq) yerinə yetirərək, ilk dəfə yarım milyonluq həddi keçdilər. Üzümçülər dövlətə planın 140 faizi qədər – 600 min ton məhsul təhvil verdilər. Dövlətə 440 min ton tərəvəz – planın 110 faizi, 23 min ton bostan məhsulu – planın 131 faizi, 12,5 min ton yaşıl çay yarpağı – planın 115 faizi yığılıb təhvil verilmişdir. Respublikada ilk dəfə idi ki, bu miqdarda kənd təsərrüfatı məhsulu əldə olunurdu.

**Həmin gün** H.Əliyev Polşa Xalq Respublikasının SSRİ-dəki səfiri Zenon Novakı qəbul etdi.

**Oktyabrın 24-də** H.Əliyev Bakıda olan Moldaviya KP MK-nın birinci katibi İ.Bodyulu qəbul etdi.

**Oktyabrın 26-da** H.Əliyev İraq BAAS partiyasının Regional rəhbərliyinin üzvü Əbdül Fəttah əl-Yasinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etdi.

**Oktyabrın 27-28-də** H.Əliyev Aşqabadda Türkmənistan SSR və Türkmənistan Kommunist partiyasının 50 illiyi münasibətilə şənliklərdə iştirak etdi.

**Oktyabrın 31-də** H.Əliyev növbəti dəfə Bakıda tikilən Məişət Kondisionerləri zavodunda oldu.

**Noyabrın 1-də** H.Əliyev AKP idarə heyəti Rəyasət Heyətinin üzvü Marta Buşman başda olmaqla Almaniya Kommunist partiyasının nümayəndə heyətini qəbul etdi.



**Noyabrın 5-də** M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında təntənəli şəraitdə elm və texnika, ədəbiyyat, incəsənət və arxitektura sahəsində Azərbaycan SSR-in Dövlət mükafatlarının təqdim olunması mərasimi keçirildi. Mükafatları MK-nın birinci katibi H.Əliyev təqdim etdi.

**Noyabrın 6-da** H.Əliyev Böyük Oktyabr Sosialist inqilabının 57-ci ildönümünə həsr olunmuş təntənəli iclasda iştirak etdi. Azərbaycan KP MK katibi H.Seyidov nitqlə çıxış etdi.

**Noyabrın 7-də** H.Əliyev partiya və hökumətin digər rəhbərləri ilə bir yerdə Böyük Oktyabrın 57-ci ildönümünə həsr olunmuş hərbi paradın və Bakı zəhmətkeşlərinin nümayişi iştirakçılarını salamladı.

**Noyabrın 27-də** H.Əliyev "böyük kimya" şəhəri Sumqayıtın 25 illiyinə həsr olunmuş təntənəli iclasda iştirak etdi. Təntənəli iclas Səməd Vurğun adına Mədəniyyət sarayında keçirildi.

**Dekabrın 8-də** H.Əliyev Azərbaycan KP MK-nın plenumunda "Sov.İKP MK XXIV qurultayının tələbləri ilə əlaqədar məhsulun keyfiyyətinin daha da artırılması üzrə respublika partiya təşkilatının vəzifələri haqqında" məruzə etdi.

**Dekabrın 26-da** H.Əliyev Azərbaycan KP MK-nın plenumunda "Sov.İKP MK dekabr (1974-cü il) Plenumunun yekunları və respublika partiya təşkilatının vəzifələri" mövzusunda məruzə ilə çıxış etdi.

**Dekabrın 30-da** H.Əliyev S.M.Kirov adına Qırmızı bayraqlı Ali Hərbi-Dəniz məktəbinin 35 illiyi münasibətilə keçirilən təntənəli iclasda iştirak etdi.

## 1975

**Yanvarın 6-da** H.Əliyev Razin qəsəbəsində vağzalyanı meydanda Balaxanı-Sabunçu rayonuna V.İ.Leninin adının verilməsinin 50 illiyi şərəfinə ucaldılan obeliskin açılışına həsr olunmuş mitinqdə nitqlə çıxış etdi.

**Yanvarın 7-də** H.Əliyev V.İ.Lenin adına Sarayda Bakının Balaxanı-Sabunçu rayonuna V.İ.Leninin adının verilməsinin 50 illiyinə həsr olunmuş təntənəli iclasda nitqlə çıxış etdi.

**Fevralın 28-də** H.Əliyev V.İ.Lenin adına Sarayda SSRİ xalq artisti, Lenin və Dövlət mükafatları laureatı İqor Moiseyevin rəhbərliyi altında Dövlət Akademik SSRİ Xalqları Rəqs Ansamblının konsertində oldu.

**Martın 7-də** H.Əliyev V.İ.Lenin adına Sarayda Beynəlxalq Qadınlar gününə həsr olunmuş təntənəli iclasda iştirak etdi.

**Martın 11-də** SSRİ Nazirlər Sovetinin sədri N.Tixonov 1974-cü ilin yekunlarına görə Ümumittifaq sosializm yarışında qalib gəldiyinə görə Azərbaycana Sov.İKP MK, SSRİ Nazirlər Soveti, ÜİHİMŞ-in və ÜİLKGİ-nin Qırmızı bayrağını təqdim etdi. H.Əliyev nitqlə çıxış edərək respublika zəhmətkeşlərini beşilliyin sonuncu ilində zərbəçi əməyə istiqamətləndirdi.

**Martın 14-də** H.Əliyev Moskva, Minsk, Tbilisi, Erevan, Kalinin, İvanovadan yığılmış geyim modelləri kolleksiyasının nümayişində oldu.

**Martın 18-də** H.Əliyev Sov.İKP MK-nın, SSRİ Nazirlər Sovetinin, ÜİHİMŞ-nin və ÜİLKGİ-nin Qırmızı bayrağını Kirovabad şəhərinə və Xalça-Mahud kombinatına təqdim etdi.



**Martın 19-da** F.Dzerjinski adına klubda Azərbaycan Komsomoluna Sov.İKP XXIV qurultayının qərarlarının yerinə yetirilməsində qazanılan nailiyyətlərə görə ÜİLKGİ-nin keçici Qırmızı bayrağının təqdim olunmasına həsr olunmuş təntənəli iclas oldu.

Bu iclasda H.Əliyev ilk dəfə olaraq Məişət Kondisionerləri zavodunun tikilməsindən danışdı. Qeyd etdi ki, zavod "L.İ.Brejnevin təşəbbüsü ilə inşa edilir. Biz partiyanın Mərkəzi Komitəsinə söz vermişik ki, iki il müddətinə zavodu tikib ilk məhsul verəcəyik. Respublikamızın tarixində hələ belə iri, texnikanın son nailiyyətləri səviyyəsində təchiz edilmiş, olduqca mürəkkəb texnologiyası olan müəssisə tikilməyib, özü də belə qısa müddətdə". Artıq 1974-cü ildə, tikintinin birinci ilində nəzərdə tutulmuş tapşırıq təxminən iki dəfə artıq yerinə yetirildi: ilkin planda nəzərdə tutulmuş 10 milyon manat əvəzinə 18 milyon manatlıq tikinti-quraşdırma işləri yerinə yetirildi.

Tikintidə əsas qüvvə gənclər idi: zavodun tikintisində çalışanların üçdə iki hissəsini komsomolçular təşkil edirdi.

"Bu yaxınlarda Azərbaycan KP MK Kondisioner zavodunun tikintisinin gedişatını müzakirə etdi. Vəzifə qoyulub – buraxılış kompleksini 1975-ci ilin dekabrında işə salmaq. Bu, əlbəttə ki, çətin işdir, lakin yerinə yetiriləsidir, realdır. Və biz şübhə etmirik ki, gənc inşaatçılar, quraşdırıcılar, istismarçılar işin öhdəsindən gələcəklər. Ölkə bu il Azərbaycan kondisionerlərini alacaqdır".

Gənclər forumundakı çıxışında H.Əliyev respublikada gedən tikinti işlərinin vüsət almasından danışdı:

"Sumqayıtkimyasənaye"nin müəssisələrində iri qurğular inşa edilir, respublikanın neft emalı sənayesi rekonstruksiya olunur, Şamxor HES-in tikintisinə başlanıb, Arpaçay su qovşağının, hidrostansiya ilə birlikdə Tərtərçay su anbarının tikintisi davam etdirilir, heyvandarlıq kompleksləri, quşçuluq fabrikləri və s. tikilir".

Bütün çıxışlarında H.Əliyev Azərbaycan qadınının ictimai istehsala cəlb olunmasına xüsusi diqqət ayırırdı. Bu dəfə də o razılıqla bildirir ki, keçən məhsul yığımı mövsümündə pambıqyığan maşınların sükanı arxasına 150 qız əyləşmişdir.

**Martın 25-də** A.M.Şərifzadə adına Aktyor Evində H.Əliyevin iştirak etdiyi Azərbaycan kinematoqrafçılarının III qurultayı açıldı.

**Aprelin 3-də** H.Əliyev VZP MK-nın üzvü, VZP MK yanında partiya nəzarəti komitəsi sədrinin müavini Xa Txi Kuenin rəhbərlik etdiyi Vyetnam Zəhmətkeş partiyasının nümayəndə heyətini qəbul etdi.

**Aprelin 4-də** H.Əliyev Reyxstaq üzərinə Qələbə Bayrağını sancmış Sovet İttifaqı Qəhrəmanı Meliton Kantariyanı qəbul etdi.

**Aprelin 16-da** H.Əliyev Sov.İKP MK-nın Sov.İKP XXV qurultayının çağırılması məsələsinə baxan və A.Qromıkonun "Beynəlxalq vəziyyət və Sovet İttifaqının xarici siyasəti" mövzusunda məruzəsi dinlənilən Plenumda çıxış etdi.

**Aprelin 22-də** H.Əliyev V.İ.Leninin anadan olmasının 105 illiyinə həsr olunmuş təntənəli iclasda iştirak etdi. Məruzə ilə Azərbaycan KP MK Bürosunun üzvü, Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini İ.İbrahimov çıxış etdi.

**Aprelin 25-də** H.Əliyev respublikanın qocaman kommunisti İ.Qandyurinin anadan olmasının 90 illiyinə həsr olunmuş ümumbakı yığıncağında iştirak etdi və ona "Oktyabr inqilabı" ordenini təqdim etdi.

**Aprelin 28-də** H.Əliyev V.İ.Lenin adına Sarayda Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 55-ci ildönümünə və 1 May bayramına həsr olunmuş təntənəli iclasda iştirak etdi.

**Aprelin 29-da** H.Əliyev faşist Almaniyası üzərində qələbənin 30 illiyinə həsr olunmuş sərgidə oldu.



**Mayın 3-də** H.Əliyev FAT icraiyyə komitəsinin sədri Yasir Ərəfat başda olmaqla Fələstin Azadlıq Təşkilatının nümayəndə heyətini qəbul etdi.

**Mayın 4-də** Azərbaycan KP MK-da Böyük Qələbə bayramına həsr olunmuş qəbul oldu. H.Əliyev qəbulda geniş nitqlə çıxış etdi.

**Mayın 5-də** H.Əliyev ABŞ-ın SSRİ-dəki fövqəladə və səlahiyyətli səfiri Uolter C.Stesseli qəbul etdi.

**Mayın 7-də** V.İ.Lenin adına Sarayda Bakı zəhmətkeşlərinin Böyük Qələbənin 30 illiyinə həsr olunmuş yığıncağı oldu. Parlaq nitqlə çıxış edən H.Əliyev faşizmin darmadağın edilməsində Bakı neftinin rolunu xüsusi qeyd etdi.

**Mayın 8-də** H.Əliyev 18-ci Ordu muzeyində və C.Naxçıvanski adına internat-məktəbdə oldu.

**Mayın 9-da** H.Əliyev Qələbə meydanındakı mitinqdə iştirak etdi. Həmin gün o V.İ.Leninin heykəli, döyüşçülərin memorialı, Həzi Aslanovun heykəli önünə əklil qoydu, Azərbaycan tarixi muzeyində və 4-cü Ordu muzeyində oldu.

**Mayın 12-də** H.Əliyev Marksist mərkəzin direktoru, YSFR Skupşinasının deputatı Atif Purivatr başda olmaqla Sarayevo şəhərinin nümayəndə heyətini qəbul etdi.

**İyunun 7-də** H.Əliyev bir sıra Bakı mikrorayonlarında, 8-ci kilometr, Əhmədli, Musabəyov adına, Razin adına qəsəbələrdə oldu, tikilən yaşayış massivlərinə baxdı, şəhər zəhmətkeşləri ilə söhbət etdi.

**İyunun 9-da** H.Əliyev Bakının Lenin rayonundakı "Bakinski raboçi" adına zavodda oldu.

**İyunun 10-da** H.Əliyevin 1-ci Razin seçki dairəsinin seçiciləri ilə görüşü oldu. Bu dairədən respublika partiya təşkilatının rəhbəri Azərbaycan SSR Ali Sovetinə deputatlığa namizəd irəli sürülmüşdü.

**İyunun 15-də** H.Əliyev Azərbaycan SSR Ali Sovetinə seçkilərdə Bakının 26 Bakı komissarı rayonunun 5-ci seçki məntəqəsində səs verdi.

**İyunun 18-də** Neft Daşlarında H.Əliyev və SSRİ neft sənayesi naziri V.Şaşinin iştirakı ilə mitinq keçirildi. Yubiley təntənələrinə ölkənin bir çox respublikalarından neftçilər gəlmişdi.

Axşam V.İ.Lenin adına Sarayda əfsanəvi Neft Daşlarının 25 illiyinə həsr olunmuş təntənəli yığıncaq oldu.

**İyunun 19-da** Həzi Aslanov adına Bakı Zabitlər evində H.Əliyev Bakı HHM dairəsinin Qırmızı bayraq ordeni ilə təltif edilməsinə həsr olunmuş təntənəli iclasda iştirak etdi.

**İyunun 24-də** H.Əliyev "Bakı" dəniz qurğusunda oldu.

**İyulun 30-da** Azərbaycan KP MK-nın plenumu oldu. H.Əliyev "Sov.İKP XXIV qurultayının tələbləri ilə əlaqədar olaraq kadrların seçilməsini, yerləşdirilməsini və tərbiyə edilməsini daha da yaxşılaşdırmaq sahəsində respublika partiya təşkilatının vəzifələri haqqında" məruzəsi ilə çıxış etdi.

Burada o ilk dəfə olaraq kadrların seçilməsi, yerləşdirilməsi və yetişdirilməsi prinsiplərinin keçmiş rəhbərlik tərəfindən kobud şəkildə pozulmasından açıq danışdı:

"Məsul vəzifələrə çox vaxt püxtələşməmiş, bacarıqsız, siyasi və mədəni cəhətdən geridə qalmış adamlar irəli çəkilirdi. Kadrların yerliçilik və qohumluq, şəxsi sadiqlik, vəzifəli şəxslərin tanışlığı ilə seçilməsi geniş yayılmışdı... Müvəffəqiyyətsizliyə uğramış işçilərin hətta bəzən vəzifəsini artırmaqla bir yerdən başqa yerə dəyişdirilməsi kimi qüsurlu təcrübə vüsət almışdı... Rəhbər heyətin tərkibində – Azərbaycan KP MK-nın Bürosunda – prinsipial birlik, hər şeydən də əvvəl kadr siyasətində birlik əvəzinə, şöhrətpərəst meyillər, eqoist məqsədlərlə parçalanmış qruplaşmalar mövcud idi".

H.Əliyev 1969-cu ilin avqust ayından sonra partiya aparatının təmizlənməsi istiqamətində aparılan böyük işləri və bunun doğurduğu ictimai rezonansı yada saldı:

"Mərkəzi Komitə tərəfindən görülən işlər kommunistlər, bütün partiya təşkilatı, respublikanın bütün zəhmətkeşləri tərəfindən qızğın rəğbətlə qarşılandı. Geniş xalq kütlələrində



partiya və dövlət qanunlarının sarsılmazlığına, qanunu pozanların məsuliyyətdən yaxa qurtara bilməyəcəklərinə çox hallarda itirilmiş inam bərpa olundu".

H.Əliyev qeyd etdi ki, praktik olaraq bütün plenumlarda, MK Bürosu və Katibliyinin bütün iclaslarında kadr məsələsinə diqqət yetirilmiş, nazirlik və idarələrin partiya komitələrinin kadrlarla bağlı işinin kompleks öyrənilməsi və müzakirəsi MK-nın təcrübəsinə daxil olmuşdur.

Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 1975-ci il 9 iyul tarixli "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalının daha da intensivləşdirilməsi haqqında" qərarına münasibətini bildirən birinci katib vurğuladı ki, yeni böyük vəzifələri yalnız professional və hazırlıqlı, əsl partiya kadrları ilə yerinə yetirmək olar.

Son illərdə kadrların seçilməsi və yerləşdirilməsində uğurları qeyd edən H.Əliyev ("şəhər və rayon partiya komitələrinin bütün katibləri ali savadı olan insanlardır, şöbə müdirləri və təlimatçıların, icraiyyə komitəsi sədrlərinin üçdə ikisi istehsalat təcrübəsi olan insanlar, xalq təsərrüfatı mütəxəssisləridir"), qüsurlu iş metodlarından əl çəkmədiklərinə görə işdən çıxarılan partiya rəhbərlərinin uzun siyahısını oxudu.

H.Əliyev öz çıxışında məsul vəzifələrə cinayətkar keçmişi, saxta ali məktəb diplomları olan adamların götürülməsi, bir vəzifədən qeyri-qənaətbəxş işinə görə çıxarılmış rəhbərlərin az sonra digər vəzifəyə təyin olunması kimi neqativ faktlar gətirir. Məsələn, sabiq sənaye tikintisi naziri K.Sultanov cinayət əməllərinə görə üç dəfə məhkum olunmuş Pastuşnını "Sənayetikintimexanizasiya" trestinə müdir təyin etmiş, sabiq kənd təsərrüfatı naziri S.Hacıyev isə "Başazmeliosutikinti"nin rəisi olandan sonra 1975-ci ilin aprelində bir qədər əvvəl xidməti vəzifəsindən sui-istifadə etdiyinə, külli miqdarda dövlət vəsaitini qanunsuz olaraq şəxsi istifadə üçün minik avtomobillərinin saxlanmasına sərf etdiyinə görə 20 nömrəli Tikinti-Quraşdırma idarəsinin rəisi vəzifəsindən azad edilmiş İ.İsmayılovu baş idarəyə öz yanına şöbə müdiri vəzifəsinə götürmüşdür.

H.Əliyev partiya komitələrinin çox vaxt "çörəkli" yerlərə püxtələşməmiş, nadürüst adamları təklif etdiyindən, onların da tez bir zamanda öz sahələrində işi batırdıqlarından, kobud pozuntulara yol verdiklərindən danışdı. Məsələn, Bakı Marqarin zavodunun keçmiş direktoru Ə.Orucov, Bakı Makaron fabrikinin keçmiş direktoru E.Bədəlyan, Ucar Konserv zavodunun keçmiş direktoru M.Şirinov kimi.

O, partiya təşkilatlarını qadınları az irəli çəkdiklərinə görə tənqid etdi. O vaxt rayon partiya komitələrinə 6 qadın rəhbərlik edirdi: S.Dibirova, E.Yusova, T.Hümbətova, R.Məmmədova, N.Rüstəmova, L.Trofimova. Qadınlar 18 kolxoza və 8 sovxoza rəhbərlik edirdilər, ümumilikdə isə onlar rəhbər partiya, sovet, həmkarlar kadrlarının 16,6 faizini təşkil edirdilər. Ancaq H.Əliyev bu vəziyyətdən narazı idi.

Respublikanın partiya lideri plenumda "ikinci şəxslər" adlandırılanlar haqqında olduqca maraqlı fikir söylədi:

"Partiya işində həmişə hesab olunurdu ki, partiya komitəsinin ikinci katibi, nazir müavini, direktor müavini kimi vəzifələrə perspektivli yoldaşları seçmək lazımdır ki, sonradan onları birinci rollara irəli çəkmək mümkün olsun. Təəssüf ki, praktikada bu vəzifələrə çox vaxt orta səviyyəli, perspektivi olmayan işçilər irəli çəkilir ki, onlar da irəliyə çəkilməyə ehtiyat qüvvə kimi baxıla bilməz". O, konkret misallar gətirir və əlavə edir: "Müavinləri siyasi və iş keyfiyyətlərinə görə deyil, yalnız rəhbərə xoş gələnləri seçmək kimi qüsurlu təcrübə çox təhlükəlidir və biz bununla barışmaz mübarizə aparmalıyıq".

İnzibati orqan əməkdaşlarının fəaliyyətinə toxunan H.Əliyev qeyd edir ki, 1971-1974-cü illərdə qanunçuluqda yol verdikləri pozuntulara və qeyri-qənaətbəxş fəaliyyətlərinə görə rayon daxili işlər şöbələrinin 14 rəisi, şəhər, rayon və vilayət qurumlarının 10 prokuroru işdən azad edilmiş, 12 xalq hakimi vaxtından qabaq geri çağırılmışdır.

Müsbət faktlarla yanaşı o, neqativ halları – milis və prokurorluq orqanları əməkdaşlarının cinayətkarlarla əlbir olmaları, rüşvətxorluq və pul tələb etmə və s. qeyd etdi. O, rəhbər vəzifələrə iş qabiliyyəti olmayan natəmiz adamları faktiki olaraq şəxsən təyin edən, kolxoz sədrlərini intəhasız olaraq dəyişən, kadrlar arasında rüşvətxorluğa və tamahkarlığa şərait yaradan Kürdəmir rayon partiya komitəsinin keçmiş birinci katibi M.Məmmədovu kəskin tənqid etdi. Məruzəsinin yekununda MK-nın birinci katibi ETİ sistemində və ali məktəblərdə hələ də müşahidə edilən proteksionizm və qohumbazlığı kəskin tənqid atəşinə tutdu.



**Avqustun 1-də** H.Əliyev Özbəkistan, Tacikistan və Türkmənistan kənd təsərrüfatı zəhmətkeşlərinin qarşılıqlı yoxlama briqadası üzvlərini qəbul etdi.

**Avqustun 11-12-də** H.Əliyev Bərdə və İmişli rayonlarında oldu, rayon partiya-təsərrüfat fəalları yığıncaqları və pambıqçılıq rayonları rəhbərlərinin zona müşavirələrini keçirdi.

**Avqustun 15-də** H.Əliyev Tovuz rayonundakı təsərrüfatlara baş çəkdi.

**Avqustun 16-da** H.Əliyev Şamxor və Sərsəng HES-in tikintisində oldu.

**Avqustun 22-də** H.Əliyevin sədrliyi ilə respublikamızda Sovet ədəbiyyatı günlərinə hazırlıq üzrə təşkilat komissiyasının iclası keçirildi.

**Avqustun 25-də** H.Əliyev Bağdad vilayət partiya komitəsinin sədri Rişan Həsən əl-Yaur başda olmaqla BAAS İraq partiyasının məsul işçilərindən ibarət nümayəndə heyətini qəbul etdi.

**Avqustun 28-də** H.Əliyev 1975-ci ildə Moskva, Leninqrad və ölkənin digər şəhərlərinin ali məktəblərinə qəbul olunmuş tələbələrlə görüşdü. 1975-ci ildə müsabiqədənkənar qəbulla Moskva, Leninqrad və digər şəhərlərin ali məktəblərinə 600-dən çox Azərbaycan vətəndaşı qəbul olunmuş, daha 40 nəfər mərkəzi ali məktəblərin yuxarı kurslarına dəyişilmiş, 34 nəfər hazırlıq şöbələrinə daxil olmuşdur. Həmin vaxt üçün Azərbaycan gəncləri ölkənin 43 ali məktəbində təhsil alırdı.

Öz nitqində respublikanın partiya rəhbəri o cümlədən dedi:

"Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi Moskva, Leninqrad və digər şəhərlərdə ali savadlı mütəxəssis hazırlanmasına xüsusi əhəmiyyət verir. Bu ali məktəblərə qəbul olunan Azərbaycan gənclərinin sayı ilbəil artır. Əgər 1970-ci ildə başqa şəhərlərə oxumağa cəmi 60 nəfər göndərilmişdisə və bu rəqəm bizim bəzi yoldaşlara az qala imkanlarımızın son həddi kimi görünürdüsə, builki qəbul 604 nəfərdir, yəni 10 dəfə çox. Bundan başqa, gənclərimizin böyük bir qrupu ölkənin ali hərbi məktəblərinə, Kiyev Mülki Aviasiya İnstitutuna, Patris Lumumba adına Universitetə, Ümumittifaq Kinematoqrafiya İnstitutuna daxil olmuşlar.

... Sabahkı gün qarşımıza yeni, yüksək tələblər qoyur. Əgər mütəxəssis sözün həqiqi mənasında yaradıcı şəxsiyyətdirsə, o nəinki zamanla ayaqlaşmalı, həmişə ondan bir qədər qabaqda olmalıdır. Bu isə o deməkdir ki, həmişə, mütəmadi olaraq oxumaq lazımdır. Ona görə də biliyin, səriştə və bacarığın möhkəm bünövrəsi lazımdır. Və tələbəlik illərində siz onu nə qədər möhkəm qursanız, Vətənə, respublikanıza bir o qədər çox xeyir verərsiniz, həyatınız bir o qədər mənalı və gözəl, cəmiyyətin inkişafına verdiyiniz töhfə böyük olar.

Biz sizi ali məktəblərə böyük ümidlə göndəririk və geri qayıtmağınızı, səmərəli əmək fəaliyyətinizi də ümidlə gözləyəcəyik. Son nəticədə iqtisadi və mədəni quruculuğun inkişaf sürəti, gələcəkdə respublikamızın ictimai həyatının səviyyəsi sızdən, indiki gənc nəsildən, onun bacarığından, qabiliyyətindən, biliyindən asılı olacaqdır".

**Sentyabrın 10-da** H.Əliyev zərbəçi templərlə tikilən Bakı Məişət Kondisionerləri zavodunun tikintisinə baş çəkdi.

**Sentyabrın 16-da** H.Əliyev SSRİ təyyarəçi-kosmonavtları, iki dəfə Sovet İttifaqı qəhrəmanları, aviasiya general-mayoru G.Bereqovoyu və polkovnik P.Klimuku qəbul etdi.



**Sentyabrın 23-də** V.İ.Lenin adına Sarayda Azərbaycan Elmlər Akademiyasına "Xalqlar dostluğu" ordeninin təqdim olunmasına həsr olunmuş təntənəli yığıncaq oldu.

**Oktyabrın 2-də** Azərbaycan Sovet ədəbiyyatı günlərinin açılışı oldu. İştirak etmək üçün SSRİ Yazıçılar İttifaqının birinci katibi, Sosialist Əməyi Qəhrəmanı G.Markov, Sosialist Əməyi qəhrəmanları Q.Abaşidze, V.Katayev, V.Kojevnikov, B.Polevoy, N.Tixonov, M.Tank, şairlər Y.Dolmatovski, N.Dorizo, Q.Quliyev, tanınmış yazıçılar S.Zalıgin, Y.Rıtxeu, A.Safronov, Qazaxıtan Yazıçılar İttifaqının katibi O.Süleymenov, bütün respublikaların yazıçı təşkilatlarının rəhbərləri, xarici ədəbiyyatçılar Bakıya gəlmişdilər.

**Oktyabrın 8-də** H.Əliyev Sovet ədəbiyyatı günlərinin bağlanışında çıxış etdi.

**Oktyabrın 17-də** H.Əliyev tanınmış sovet yazıçısı M.Şaginyanla görüşdü.

**Oktyabrın 18-də** H.Əliyev Lermontov küçəsindəki yeni abadlaşdırılmış bağçaya baxdı.

**Oktyabrın 20-də** H.Əliyev İran Xalq partiyası MK-nın üzvü N.Kiyənurini qəbul etdi.

**Oktyabrın 24-də** H.Əliyev M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Avetik İsaakyanın anadan olmasının 100 illiyinə həsr olunmuş təntənəli gecədə iştirak etdi.

**Oktyabrın 27-də** H.Əliyev Bakı Məişət Kondisionerləri zavodunun tikintisində iştirak edən Yaponiya firmalarının nümayəndələrini qəbul etdi.

**Oktyabrın 29-da** H.Əliyev "Komsomolskaya pravda" qəzetinin mükafatları uğrunda ƏMH (QTO) çoxnövçülüyü üzrə ikinci SSRİ birinciliyinin final yarışlarının açılışında iştirak etdi.

**Həmin gün** H.Əliyev SSRİ kosmonavtı, iki dəfə Sovet İttifaqı Qəhrəmanı A.Leonovu qəbul etdi.

**Oktyabrın 31-də** H.Əliyev Azərbaycan KP MK-nın plenumunda Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin "Azərbaycan

SSR-də kənd təsərrüfatı istehsalının intensivləşdirilməsi tədbirləri haqqında" qətnaməsinin yerinə yetirilməsində respublika partiya təşkilatının vəzifələri" adlı məruzə ilə çıxış etdi.

Məruzəçi bəyan etdi ki, yeni qətnamənin qəbul edilməsi kənd təsərrüfatı və heyvandarlıq məhsullarının istehsalı üzrə doqquzuncu beşilliyin tapşırıqlarını respublikanın uğurla yerinə yetirməsi sayəsində mümkün olmuşdur. Kənd təsərrüfatı məhsulunun ümumi istehsalı artıq 1974-cü ildə beşilliyin sonuncu ili üçün müəyyən olunmuş səviyyəyə çatmışdı.

H.Əliyev məlumat verdi ki, Azərbaycan KP MK respublikada kənd təsərrüfatının müasir vəziyyətini təhlil etmiş, onun gələcək inkişaf istiqamətlərini müəyyən etmiş, konkret təkliflər hazırlayaraq Sov.İKP MK-ya məruzə etmişdir. Bunun nəticəsində L.Brejnevin təşəbbüsü ilə yuxarıda göstərilən qətnamə qəbul edilmişdir.

Orada əsas diqqət kənd təsərrüfatı istehsalının intensivləşdirilməsinə, kolxoz və sovxozların maddi-texniki bazasının gücləndirilməsinə, mexanizasiya səviyyəsinin yüksəldilməsinə, kənd təsərrüfatı sahələrinin müasir sənaye əsasına keçirilməsinə və təsərrüfatlararası birliklərin yaranmasına yönəlmişdir.

Qətnaməyə əsasən 1980-cı ildə taxılın ümumi yığımını 1.050 min tona qədər, üzümün – 1 milyon tona qədər, pambığın – 600 min tona qədər, tərəvəzin – 650-680 min tona qədər çatdırmaq nəzərdə tutulmuşdu.

Onuncu beşillikdə kənd təsərrüfatının kompleks inkişafına dövlət əsaslı kapital qoyuluşunun məbləği 1.087,4 milyon manat müəyyən olunmuşdur. Respublikada 45 min hektar suvarılan torpağın istifadəyə verilməsi, 150 min hektar suvarılan torpağın meliorasiya cəhətdən yaxşılaşdırılması, 300 min hektar sahədə suvarma sistemlərinin yenidən qurulması və su təminatının yüksəldilməsi planlaşdırılırdı.

Onuncu beşillikdə tikiləcək iri su təsərrüfatı obyektlərinin siyahısı, o cümlədən Ağrıçay, Aşağı-Köndələnçay, Sirab, Viləşçay, Bənənyar su anbarları, Baş və Yuxarı-Şirvan kanallarının yenidən qurulması təsdiq edilmişdi.



Onuncu beşillikdə kənd təsərrüfatının kompleks inkişafına və su təsərrüfatı tikintisinə 1 milyard 927,4 milyon manat ayrılmışdı. Bu, son əlli ildə – 1920-ci ildən 1970-ci ilə qədər Azərbaycanda kənd təsərrüfatının inkişafına yönəldilmiş dövlət kapital qoyuluşunun həcmindən 20 faiz, doqquzuncu beşillikdəkindən isə bir yarım dəfə çoxdur.

Respublikanın kənd təsərrüfatına beş il üçün 17.500 traktor, 13.800 yük avtomobili, 11.500 traktor qoşqusu, 2.800 taxıl kombaynı, 1.600 ekskavator, 1.500 buldozer və s. ayrılırdı.

Emal sənayesinin inkişafı, məktəb, məişət obyektlərinin tikintisi, kəndlərə qaz çəkilməsi, Yevlax – Stepanakert, Gorus – Naxçıvan magistral qaz kəmərinin tikintisi üzrə tədbirlər nəzərdə tutulmuşdu.

Qətnaməni şərh edərkən, H.Əliyev məruzəsində ittifaq sənədində qarşıya qoyulan vəzifələri nəzərə almaqla kənd təsərrüfatının bütün sahələri üzrə vəziyyəti hərtərəfli təhlil etdi.

**Noyabrın 1-də** H.Əliyev Amerika gənc siyasi xadimlər şurasının nümayəndə heyətini qəbul etdi.

**Noyabrın 6-da** H.Əliyev Lenin adına Sarayda Böyük Oktyabrın 58-ci ildönümünə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi. Azərbaycan Nazirlər Sovetinin sədri Ə.İbrahimov məruzə ilə çıxış etdi.

**Noyabrın 7-də** H.Əliyev hərbi paradda və zəhmətkeşlərin bayram nümayişində oldu.

**Noyabrın 20-də** H.Əliyev Üzeyir Hacıbəyovun Ev-muzeyinin açılışında iştirak etdi.

**Həmin gün** M.F.Axundov adına Opera və Balet Teatrında Ü.Hacıbəyovun "Koroğlu" operası yeni quruluşda səsləndi. H.Əliyev tamaşada iştirak edirdi.

**Noyabrın 21-də** H.Əliyev V.İ.Lenin adına Sarayda Ü.Hacıbəyovun anadan olmasının 90 illiyinə həsr olunmuş gecədə iştirak etdi.

**Noyabrın 28-də** Moskvada, İttifaqlar Evinin Sütunlu salonunda H.Əliyev, Sov.İKP MK Siyasi Bürosunun üzvləri Ü.Hacıbəyovun anadan olmasının 90 illiyinə həsr olunmuş böyük gecədə iştirak etdilər.

**Dekabrın 12-də** H.Əliyev M.F.Axundov adına Opera və Balet Teatrında Müslüm Maqomayevin 90 illiyinə həsr olunmuş gecədə iştirak etdi.

**Həmin gün** "Pravda" qəzetində H.Əliyevin respublikanın partiya təşkilatı və bütün zəhmətkeşlərinin IX beşilliyin plan və sosialist öhdəliklərinin yerinə yetirilməsindəki fəaliyyətinə həsr olunmuş "Uğurun tərkib hissəsi" adlı məqaləsi dərc olundu.

**Dekabrın 17-də** H.Əliyev Azərbaycan KP MK-nın plenumunda "Sov.İKP MK dekabr (1975-ci il) Plenumunun nəticələri və respublika partiya təşkilatının Sov.İKP MK Baş katibi L.Brejnevin plenumdakı çıxışından irəli gələn vəzifələri haqqında" məruzə etdi.

Sov.İKP MK dekabr Plenumu XXV qurultayın çağırılması məsələsini müzakirə etdi, IX beşilliyin yekunlarını vurdu, 1976-cı il üçün SSRİ-nin dövlət planları və dövlət büdcəsini təsdiq etdi. L.Brejnevin fikrincə, doqquzuncu beşillik SSRİ tarixində ən yaxşı beşillik idi. Beş il ərzində sənaye istehsalının həcmi 43 faiz artmışdı, əmək məhsuldarlığı hesabına sənaye istehsalı həcminin artımı isə səkkizinci beşillikdə olan 73 faizə qarşı 84 faiz təşkil etmişdi.

H.Əliyev plenumda vəzifə qoydu – 1976-cı ildə sənaye istehsalı həcminin 8 faiz artımını təmin etməli, əmək məhsuldarlığı hesabına sənaye məhsulunun 70 % artımına nail olmalı.

**Dekabrın 23-də** Bakıda "Sov.İKP XXIV qurultayında hazırlanmış sülh proqramı – fəaliyyətdə" ümumittifaq elmi konfransı işə başladı. Konfransın işində Moskvanı, müttəfiq respublikaları, ADR, Polşa, Çexoslovakiyanı təmsil edən dövlət və ictimai xadimlər iştirak etdilər. H.Əliyev SSRİ-nin sülhsevər xarici siyasəti haqqında nitqlə çıxış etdi.



**Dekabrın 25-də** Bakı Məişət Kondisionerləri zavodunun açılışına həsr olunmuş mitinq keçirildi. Bu, ölkədə "süni iqlim" aparatları istehsal edən ilk müəssisə idi. Zavodun istifadəyə verildiyi gün Sov.İKP MK Baş katibi L.Brejnev zavodun tikintisində iştirak edən inşaatçılara səmimi salam və təbriklərini göndərdi.

H.Əliyev mitinqdə aşağıdakı rəqəmləri açıqladı: iki il ərzində 130 milyon manatdan çox kapital qoyuluşu mənimsənilmiş, istehsalat və digər obyektlər 155 min kvadratmetr sahəni əhatə etmişdir. 4 min vahid mürəkkəb texnoloji və mühəndis avadanlıqları quraşdırılmışdır, avtomatlaşdırılmış konveyer xətlərinin ümumi uzunluğu 9 kilometr təşkil edir, min kilometrə qədər boru və kabel xətti çəkilmişdir.

Açılış mərasimində çıxış edən elektrotexnika sənayesi naziri A.Antonov qeyd etdi: "Minlərlə vahid texnoloji və mühəndis avadanlığının yaradılması və göndərilməsində onlarla yerli və xarici firmalar iştirak etmişdir. Zavod qabaqcadan işlənmiş kompleks şəbəkə qrafikləri, gündəlik ciddi icra nəzarəti sistemi ilə layihələşdirilmiş, kadrlarla təmin edilmiş, avadanlıqla təchiz edilmiş, tikilmiş, quraşdırılmışdır.

Ciddi seçim, tədrisin, praktik işin ən yaxşı ölkə və xarici müəssisələrdə təşkil edilməsi nəticəsində bu gün zavod qarşıda duran ən mürəkkəb istehsal problemlərini həll etmək iqtidarında olan ixtisaslı fəhlə, mürəkkəb avadanlıq tənzimləyicisi, texnoloq, sex və şöbə rəhbərlərinə malikdir".

**Dekabrın 26-da** H.Əliyev Lənkəranda oldu və Xanbulançay su anbarının açılışında iştirak etdi.

**Dekabrın 27-də** H.Əliyev Bakıda keçirilən "Sov.İKP XXIV qurultayında hazırlanmış sülh proqramı – fəaliyyətdə" Ümumittifaq elmi konfransının iştirakçılarını – Moskva, qardaş ittifaq respublikaları, Polşa və Çexoslovakiyadan olan bir qrup alim və ictimai xadimi qəbul etdi.

## 1976

**Yanvarın 10-da** H.Əliyev 42-ci Bakı şəhər partiya konfransında çıxış etdi.

Respublika partiya liderinin xüsusi narahatlığına yenə də paytaxtın mənzil tikintisində olan geriləmə faktı səbəb oldu: beşillik ərzində Bakı 630 min kv. metr əskik mənzil almışdır.

H.Əliyev Bakının yaşıllaşdırılmasında qazanılan uğurları qeyd etdi: beşillik ərzində 2.720 hektarda yaşıllıq salınmışdır; əgər 1970-ci ildə adambaşına 6,5 kv. metr yaşıl sahə düşürdüsə, 1975-ci ildə bu göstərici 17,5 kv. metr olmuşdu.

"Bu yaxında MK Bürosu Bakı üzrə yaşıllaşdırma planını müzakirə etdi. Bakı soveti İcraiyyə Komitəsi tərəfindən bir qədər kiçik plan götürmək təşəbbüsü oldu. Biz bununla razılaşmadıq və tapşırığı 3.100 hektar müəyyən etdik, yəni doqquzuncu beşillikdə əldə ediləndən çox".

Bağ təsərrüfatındakı pozuntulardan danışarkən, H.Əliyev iki misal çəkir: hüquq-mühafizə orqanları sadə fəhlə və əlil adamın əlindən bağı almaq üçün bütün qüvvələrini işə salmışlar. O qeyd edir ki, çoxsaylı yoxlamalar nə səbəbdənsə böyük pozuntular hesabına və zəhmətlə qazanılmamış gəlirlər hesabına tikilmiş bağlardan yan keçirlər. Əvəzində Xalq Nəzarəti komitələrinin və inzibati orqanların nümayəndələri kiçik sahələri olan və öz qazancları hesabına bağ tikdirənlərin yol verdikləri xırda pozuntuları şişirdirlər.

O, Əzizbəyov, Lenin və digər rayonların ərazisində pozuntularla, qeyri-qanuni vasitələr hesabına tikilmiş bağların alınması və yaşamaq üçün fəhlələrə, ehtiyacı olan çoxuşaqlı ailələrə verilməsi təklifini dəstəklədi.



**Yanvarın 27-si – fevralın 1-də** SSRİ Nazirlər Soveti sədrinin müavini İ.Novikov Bakıda oldu. H.Əliyev hörmətli qonağı aeroportda qarşıladı və yola saldı, onunla birlikdə paytaxtın bir sıra iri müəssisələrində, o cümlədən Yeni Bakı Neftayırma zavodunda, Məişət Kondinsionerləri zavodunda oldu.

**Yanvarın 28-də** H.Əliyev Azərbaycan KP MK-nın Azərbaycan Kommunist Partiyası XXIX qurultayına hesabat məruzəsi ilə çıxış etdi.

Məruzədə doqquzuncu beşilliyə yekun vurulurdu:

"Əsas sosial-iqtisadi vəzifələr və XXIV qurultayın direktivlərində respublika qarşısında qoyulan konkret tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilmişdir. Doqquzuncu beşillik Azərbaycan iqtisadiyyatının inkişafında dönüş mərhələsi olmuşdur. Biz iqtisadiyyatın illər boyu davam edən geriliyinə nəinki son qoymuş, həm də xalq təsərrüfatını respublikanın tarixində misli görünməmiş yüksək bir sürətlə inkişaf etdirməyə nail olmuşuq.

Müharibədən sonrakı dövrdə ilk dəfə olaraq Azərbaycanda xalq təsərrüfatının inkişafına dair beşillik plan bütün əsas göstəricilər üzrə, həm də vaxtından əvvəl yerinə yetirilmişdir.

Mərkəzi Komitənin fəaliyyətinin mühüm yekunu bundan ibarətdir ki, ümumi istehsalın çox artması və sənayenin keyfiyyət göstəricilərinin xeyli yaxşılaşması ilə yanaşı elmi-texniki tərəqqini müəyyən edən sahələrin genişləndirilməsi və intensiv surətdə inkişaf etdirilməsi hesabına respublikada sənayenin strukturu əhəmiyyətli dərəcədə dəyişmişdir. Bakı Məişət Kondisionerləri zavodunun işə salınması ilə əlaqədar olaraq elektrotexnika sənayesi istehsalının həcmi təqribən bir dəfə yarım artacaqdır. Respublikada maşınqayırmanın yeni, mütərəqqi sahələri – elektron, radio sənayesi sahələri, yün-

gül sənaye və yeyinti məhsulları sənayesi üçün maşınqayırma sahəsi və sair sahələr meydana gəlmişdir.

Neft və qazçıxarma sənayesində də vəziyyət düzəlmişdir. Azərneft Birliyi və Xəzər Dəniz Neft Birlikləri məhsul satışına dair beşilliyin tapşırıqlarını vaxtından əvvəl ödəmiş, qaz çıxarılması planlarını artıqlaması ilə yerinə yetirmişlər. Qaz çıxarılması 1996-1970-ci illərdəkinə nisbətən təqribən bir dəfə yarım artmışdır. Neft hesabı ilə üst-üstə neft və qaz çıxarılması 1975-ci ildə 27,1 milyon ton olmuşdur ki, bu da respublikada 1941-ci ildəki ən yüksək hasilatdan bir milyon ton çoxdur.

Onuncu beşillikdə SSRİ Nazirlər Sovetinin qərarı ilə Xəzərin dərin yerlərində kəşfiyyat quyularının qazılmasının xeyli sürətləndirilməsi və genişləndirilməsi, dərin dəniz quyularının, o cümlədən dənizin 200 metrədək dərin olan yerlərində quyuların qazılması, istifadəyə verilməsi və işlədilməsi üçün texniki vasitələr yaradılması və tətbiq edilməsi nəzərdə tutulur.

Sahələrin texniki cəhətdən yenidən qurulması üçün az iş görülməmişdir. Yüngül sənaye müəssisələrinin maşın parkının yarısı təzələnmişdir. Yeyinti sənayesi müəssisələrində mükəmməl texnika və texnologiyanın tətbiqi, istehsalat proseslərinin avtomatlaşdırılması sahəsində 800-dən çox tədbir həyata keçirilmişdir. Əgər beşilliyin əvvəlində yüngül sənaye məmulatının onda bir hissəsi ikinci keyfiyyət kateqoriyası ilə buraxılırdısa, indi əslində məhsulun hamısı birinci və əla kateqoriya ilə istehsal edilir".

Kənd təsərrüfatındakı vəziyyətə toxunan H.Əliyev qeyd etdi ki, hər növ kənd təsərrüfatı məhsulları satışına dair beşillik planlar xeyli artıqlaması ilə yerinə yetirilmişdir. Dövlətə 1,2 milyon ton taxıl, 2,2 milyon ton pambıq, 2,2 milyon ton üzüm, təqribən 2 milyon ton tərəvəz və s. satılmışdır.

Çox mühüm cəhət budur ki, istehsal əsasən kənd təsərrüfatı bitkilərinin və mal-qaranın məhsuldarlığını yüksəltmək hesabına, yəni kənd təsərrüfatının bütün sahələrini daha intensiv idarə etmək yolu ilə artırılmışdır.



Əmək məsrəfi və məhsulun maya dəyəri nəzərəçarpacaq dərəcədə azalmışdır. Bu da təsərrüfatların rentabelliyini yüksəltməyə imkan vermişdir. Kolxozların xalis gəliri 81 faiz, sovxozların mənfəəti 82,7 faiz artmışdır. Zərərlə işləyən kolxoz və sovxozların sayı xeyli azalmışdır.

"Beləliklə, cəsarətlə demək olar ki, doqquzuncu beşillik respublikanın kolxoz və sovxozlarının inkişafında mühüm tarixi dönüş nöqtəsi olmuşdur. Kənd təsərrüfatının uzun sürən geriliyinə son qoyulmuş, onun bütün sahələrinin əsaslı yüksəlişi təmin edilmiş, kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək üçün möhkəm təməl yaradılmışdır".

Sonra məruzəçi Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında" sonuncu birgə qərarı nəzərə alınmaqla X beşilliyin perspektivlərindən danışdı.

Birinci katib bəyan etdi ki, beşillik ərzində respublikada yayılmış əhval-ruhiyyə – pambığa xor baxmaq əhval-ruhiyyəsi artıq aradan qaldırılmışdır, pambıq respublikamızda şöhrət tapmış, başlıcası isə rentabelli bitki olmuşdur. Təsərrüfatlar pambıq satışından 1 milyard 432 milyon manat və ya səkkizinci beşillikdəkindən iki dəfə çox gəlir götürmüşlər.

Natiq məmnunluqla qeyd etdi ki, respublikada üzümçülüyün inkişafı ilə bağlı böyük işlər görülüb: "Beşillik ərzində 78,1 min hektar üzümlük salınmış, böyük sahələrdə seyrəklik ləğv edilmiş, tinglər məftilə qaldırılmış, torpağa mineral gübrə verilməsi xeyli artırılmış, kütləvi sənətlərdə çalışan çoxlu işçi hazırlanmışdır. Bütün bunlar üzümlüklərin hər hektarında məhsuldarlığı 18,8 sentner artırmağa imkan vermişdir. Dövlətə 668 min ton üzüm satılmışdır ki, bu da 1970-ci ildəkindən iki dəfə, 1965-ci ildəkindən 4,5 dəfə çoxdur".

H.Əliyev qarşıya yaxın illərdə üzümün məhsuldarlığını hər hektardan 90-100 sentnerə çatdırmaq, beşillik ərzində 50-60 min hektar yeni üzümlüklər salmaq vəzifəsini qoyur.

Daha sonra natiq əsaslı tikintidə vəziyyəti təhlil edir: doqquzuncu beşillikdə 94 yeni iri sənaye və kənd təsərrüfatı mü-

əssisəsi və kompleksi istifadəyə verilmişdir. Onların sırasında – Bakıda Məişət Kondisionerləri zavodu, tikiş fabriki, ayaqqabı detalları və bulka-maya kombinatları, Sumqayıtda kimya sənayesi obyektləri, Kompressor zavodu və Üst Trikotajı fabriki, Stepanakertdə Ayaqqabı fabriki, Lənkəran və Xudatda iri konserv zavodları, Kirovabadda Çini Qablar zavodu, Ət kombinatı, Dəyirman kombinatı və Qənnadı fabriki, 16 ilkin şərabçılıq zavodu, çoxlu sayda heyvandarlıq obyektləri və quşçuluq fabrikləri. Beşillik ərzində ümumi sahəsi 6,9 milyon kv. metr olan yaşayış binaları tikilmiş, 179 min şagird yeri olan məktəb inşa edilmişdir.

Eyni vaxtda tikilən obyektlərin sayı 418-dən 256-ya qədər azalmış, bununla yanaşı iri tikintilərin sayı 2,5 dəfə artmışdır. MK bürosunun qərarları ilə hər il mühüm obyektlərin siyahıları təsdiq edilmiş, onların tikilməsi partiya nəzarəti altına alınmışdır. Nəticədə 24 ən mühüm obyektin 21-i vaxtında tikilib qurtarmışdır.

1975-ci ildə respublikada milli gəlir 5,34 milyard manat olmuş və 1970-ci ildəkinə nisbətən 1,32 milyard manat, yaxud 39 faiz artmışdır. 1975-ci ildə fəhlə və qulluqçuların orta aylıq əmək haqqı 1970-ci ildəki 109,6 manat əvəzinə 125 manat olmuşdur.

Təqribən 900 min nəfərin, yaxud respublika əhalisinin hər altı nəfərindən birinin mənzil şəraiti yaxşılaşdırılmışdır.

"Azərbaycan KP MK-nın fəaliyyətinin çox mühüm nəticəsi ondan ibarətdir ki, partiya təşkilatının işində yüksək partiyalılıq, məsuliyyət, işə sədaqətlə yanaşmaq ruhu hökm sürür. Rəhbər işçilər arasında intriqa, dedi-qodu, dəstəbazlıq kimi zərərli hallar aradan qaldırılmışdır. Bu hallar respublika partiya təşkilatının və onun rəhbər özəyi olan MK bürosunun fəaliyyətinə mənfi təsir göstərirdi. İndi qurultaya tam əsasla demək olar ki, MK bürosu ahəngdar işləmişdir, məsələlər işgüzarlıq şəraitində, prinsipial partiya mövqelərindən, kollegiallıq əsasında həll edilmişdir. Biz rəhbər işçilər arasında vaxtilə mövcud olan bütün qeyri-sağlam halların kökünü kəsmişik və



qurultayı əmin edirik ki, bu cür hadisələrin təkrar edilməsinə heç vaxt yol verməyəcəyik".

Tənqidi boğanlarla mübarizə aparmağın, zəhmətkeş məktublarına münasibət bildirməyin vacibliyindən danışan H.Əliyev, eyni zamanda bəzən tənqid bayrağı altında adamlara qara yaxılmasına, kadrlara böhtan atılmasına, vicdanlı işçilərin ləkələnməsinə yol verildiyini, böhtan xarakterli imzasız məktubların göndərildiyini də etiraf edirdi. "Bu cür imzasız məktub müəlliflərinin bəziləri müəyyən edilib cinayət məsuliyyətinə cəlb olunmuşlar. Şəhər və rayon partiya komitələri böhtançılara və azğın anonimçilərə qarşı mübarizəni gücləndirməlidirlər. Onların bu cür çirkin işlə məşğul olmalarının kökünü kəsmək lazımdır".

1975-ci ilin sonunda Dövlət Ticarət Müfəttişliyinin böyük bir qrup müfəttişi üzərində məhkəmə prosesi başa çatdı. İdarə rəisi İbrahimov başda olmaqla 23 nəfər Ali Məhkəmə tərəfindən 8 ildən 15 ilədək müddətinə azadlıqdan məhrum olundu. Neqativ hallarla mübarizədən danışan H.Əliyev maraqlı etiraf etdi:

"...Rüşvətxorluqla mübarizəni inadla və barışmaz surətdə davam etdirmək lazımdır, **çünki bu xəstəliyin, əfsuslar olsun ki, canı çox bərk imiş** (seçmə bizimdir – *E.A.*). Biz gərək ümumi səylə insanların tərbiyəsinə böyük mənəvi xələl gətirən bu mənfur halın tamamilə kökünü kəsək".

**Yanvarın 30-da** Azərbaycan Kommunist Partiyası XXIX qurultayı tərəfindən seçilmiş Azərbaycan KP MK-nın təşkilati məsələyə baxılan plenumu oldu. H.Əliyev MK-nın birinci katibi seçildi, S.Kozlov – ikinci katib, H.Seyidov, H.İbrahimov, R.Məmmədzadə katib seçildilər.

MK bürosunun üzvləri: H.Əliyev, Ə.İbrahimov, İ.İbrahimov, H.İbrahimov, Ə.Kərimov, S.Kozlov, A.Konstantinov, V.Krasilnikov, R.Məmmədzadə, H.Seyidov, Q.Xəlilov.

MK Bürosü üzvlüyünə namizədlər: İ.Əsgərov (MK-nın təşkilatı-partiya şöbəsinin müdiri), V.Hüseynov (LKGİ MK-nın birinci katibi), Z.Hüseynova (AHİŞ-in sədri), B.Gevorkov (Dağlıq-Qarabağ vilayət partiya komitəsinin birinci katibi), H.Əfəndiyev (Xalq Nəzarəti Komitəsinin sədri).

Plenum Azərbaycan KP MK-nın şöbə müdirlərini təsdiq etdi: təşkilati-partiya işi – İ.Əsgərov, təbliğat və təşviqat – C.İldırımzadə, elm və təhsil müəssisələri – F.Əhmədov, mədəniyyət – A.Şərifov, xarici əlaqələr – Ə.Cəbrayılov, kimya və neft sənayesi – F.Əliyev, yüngül və yeyinti sənayesi – M.Rəhimov, tikinti və şəhər təsərrüfatı – R.Sadıxov, kənd təsərrüfatı – L.Rəcəbova, su təsərrüfatı və kənd tikintisi – Z.Musayev, ticarət, plan və maliyyə orqanları – M.Nəzərov, inzibati orqanlar – C.Vəliyev, ümumi şöbə – Y.Kirsanov, işlər müdiri – B.Mırzəcanov, Azərbaycan KP MK yanında partiya komissiyasının sədri – A.Hüseynov.

**Fevralın 3-də** H.Əliyev Zaqafqaziya hərbi dairəsinin poliqonunda xarici müşahidəçilərin ilk dəfə dəvət olunduğu iri "Qafqaz-76" hərbi təlimlərində iştirak etdi.

**Fevralın 13-də** H.Əliyev ölkənin aparıcı ali məktəb rektorları və ittifaq nazirlikləri rəhbərlərinin bir qrupunu – Bakıda keçirilən "Neft və qaz sənayesi ali məktəbləri Sov.İKP XXV qurultayı qarşısında" elmi və elmi-metodiki konfrans iştirakçılarını qəbul etdi.

**Fevralın 24-də** Moskvada Sov.İKP-nin XXV qurultayı açıldı.

**Fevralın 26-da** H.Əliyev qurultayda nitqlə çıxış etdi.

Azərbaycanın partiya lideri respublikada iqtisadiyyatın böhran vəziyyətdən çıxarılması, xalq təsərrüfatına rəhbərliyin gücləndirilməsi, kadrların seçilməsi, yetişdirilməsi və yerləşdirilməsinin yaxşılaşdırılması üçün görülən böyük işlərdən danışdı. H.Əliyev bəyan etdi ki, nəticədə "ilk dəfə olaraq əsas iqtisadi göstəricilərə görə beşillik plan yerinə yetirilmişdir,



özü də vaxtından qabaq yerinə yetirilmişdir! Azərbaycanın xalq təsərrüfatı əvvəllər görmədiyimiz yüksək inkişaf templərinə nail olmuşdur".

**Fevralın 27-də** "Oqonyok" jurnalında Azərbaycan KP MK-nın birinci katibi H.Əliyevin "Yüksək tələbat ölçüsü ilə" adlı müsahibəsi dərc olundu. Populyar jurnalın müxbiri L.Lerov ilə söhbət zamanı H.Əliyev IX beşillikdə Azərbaycan zəhmətkeşlərinin qazandığı böyük uğurlardan danışdı.

**Martın 5-də** Sov.İKP XXV qurultayı öz işini başa çatdırdı. Həmin gün Sov.İKP-nin partiya rəhbərliyini: Siyasi Büronu, Katibliyi, Sov.İKP yanında Partiya Nəzarəti Komitəsini seçən Plenumu oldu. H.Ə.Əliyev Siyasi Büronun üzvlüyünə namizəd seçildi.

**1976-cı il üçün Sov.İKP MK Siyasi Bürosunun heyəti:**

Baş katib və Siyasi Büro üzvü – L.İ.Brejnev; Siyasi Büronun üzvləri – Y.V.Andropov, A.A.Qreçko, V.V.Qrişin, A.A.Qromıko, A.P.Kirilenko (Sov.İKP MK katibi), A.N.Kosıgin, F.D.Kulakov (Sov.İKP MK katibi), D.A.Kunayev, K.T.Mazurov, A.Y.Pelşe (Sov.İKP MK yanında PNK-nın sədri), N.V.Podqornı, Q.V.Romanov, M.A.Suslov (Sov.İKP MK katibi), D.F.Ustinov (Sov.İKP MK katibi), V.V.Şerbitski; Siyasi Büro üzvlüyünə namizədlər: H.Ə.Əliyev, P.N.Demiçev, P.M.Maşerov, B.N.Ponomaryov (Sov.İKP MK katibi), Ş.R.Rəşidov, M.S.Solomentsev; bundan başqa, MK katibləri seçilmişlər – İ.V.Kapitonov, V.İ.Dolqix, K.F.Katuşev, M.V.Zimyanin, K.U.Çernenko; Sov.İKP Mərkəzi təftiş komissiyasının sədri Q.F.Sizov seçilmişdir.

**Martın 10-da** H.Əliyev Sov.İKP XXV qurultayında hind kommunistlərinin nümayəndə heyətinin başçısı, Hindistan Kommunist Partiyası Milli Şurasının sədri Şripad Amrit Danqeni qəbul etdi.

**Martın 17-də** H.Əliyev partiya aktivinin iclasında "Sov.İKP XXV qurultayının yekunları və respublika partiya təşkilatının vəzifələri" adlı məruzə ilə çıxış etdi.

**Martın 26-da** V.İ.Lenin adına Sarayda Azərbaycan zəhmətkeşlərinin 1975-ci ilin xalq təsərrüfatı planlarının vaxtından qabaq yerinə yetirilməsi uğrunda Ümumittifaq sosializm yarışında qələbəyə və doqquzuncu beşilliyin tapşırıqlarının uğurla yerinə yetirilməsinə görə respublikaya Sov.İKP MK, SSRİ Nazirlər Soveti, ÜİHİMŞ və ÜİLKGİ-nin keçici Qırmızı bayrağının təqdim olunmasına həsr olunmuş toplantısı oldu.

Bayrağı Sov.İKP MK üzvlüyünə namizəd, ÜİHİMŞ katibi İ.M.Vladıçenko təqdim etdi. O belə bir faktı xüsusi qeyd etdi ki, "elmi-texniki tərəqqini müəyyən edən sahələrin intensiv inkişaf etməsi hesabına sənayenin strukturu əhəmiyyətli dərəcədə dəyişmişdir. Sənayenin fəaliyyətinin texniki-iqtisadi göstəriciləri yaxşılaşdırılmışdır. Onlardan ən mühümü – əmək məhsuldarlığı – 34 faiz artmışdır və sənaye məhsulu artımının dörddə üç hissəsindən çoxu təkcə bunun hesabına əldə edilmişdir".

**Aprelin 4-də** H.Əliyev "Pravda" qəzetinin mükafatları uğrunda Ümumittifaq yüngül atletika kross yarışının Bakı Cıdır meydanında keçirilən finalında iştirak etdi.

**Aprelin 7-də** H.Əliyev S.Şaumyan adına Mədəniyyət sarayında mədəni-məişət təyinatlı malların satışı üzrə Respublika topdansatış-sənaye yarmarkasında oldu.

**Aprelin 8-də** Bakının Oktyabr rayonunda 26 Bakı komissarlarından birinin – Məşədi Əzizbəyovun heykəlinin təntənəli açılışı oldu. Abidənin ucaldılması Azərbaycan inqilabçısının anadan olmasının 100 illiyi ilə eyni vaxta salınmışdı.

Müəlliflər – heykəltəraş, SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü, Azərbaycanın xalq rəssamı T.Məmmədov, arxitektor – H.Muxtarov. Boz qranit postament üzərində ucaldılmış möhtəşəm bürünc heykəl, bütün küləklərə açıq olan Dağüstü yüksəkliyə üzvi surətdə yaraşmış və ona bitişik bağça ilə birlikdə olduqca maraqlı heykəltəraşlıq-arxitektura kompleksi yaratmışdır.



**Aprelin 9-da** V.İ.Lenin adına Sarayda Məşədi Əzizbəyovun anadan olmasının 100 illiyi şərəfinə təntənəli iclas keçirildi. H.Əliyev toplantıda nitqlə çıxış etdi.

**Həmin gün** "Pravda" qəzetində H.Əliyevin M.Əzizbəyovun anadan olmasının 100 illiyinə həsr olunmuş "İnqilaba həsr olunmuş ömür" adlı məqaləsi dərc olundu.

**Aprelin 13-də** H.Əliyev F.Dzerjinski adına klubda Lenin rayonuna Qırmızı bayraq təqdim olunmasına həsr olunmuş təntənəli iclasda iştirak etdi.

**Aprelin 15-də** H.Əliyev leyt. Şmidt adına Maşınqayırma zavodunda oldu.

**Aprelin 16-da** H.Əliyev M.F.Axundov adına Opera və Balet Teatrında leyt. Şmidt adına zavodun kollektivinə Qırmızı Əmək Bayrağı ordenini təqdim etdi.

**Aprelin 17-də** H.Əliyev V.İ.Leninin anadan olmasının 106-cı ildönümünə həsr olunmuş ümumbakı iməciliyində iştirak etdi.

**Aprelin 22-də** H.Əliyev V.İ.Lenin adına Sarayda V.İ.Leninin anadan olmasının 106-cı ildönümünə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi. Məruzə ilə Azərbaycan KP MK katibi R.Məmmədzadə çıxış etdi.

**Aprelin 23-də** H.Əliyev SSRİ Rəssamlar İttifaqı katibliyinin Bakıda keçirilən geniş iclasının bir qrup iştirakçısını qəbul etdi. İclasda Sov.İKP XXV qurultayının qərarları ilə əlaqədar gənc rəssam və sənətşünaslarla ideya-bədii işin gücləndirilməsi məsələləri müzakirə olunurdu.

**Aprelin 28-də** H.Əliyev V.İ.Lenin adına Sarayda Azərbaycanda Sovet hakimiyyətinin qurulmasının 56-cı ildönümü və 1 May gününə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi. Məruzə ilə Azərbaycan KP MK bürosu üzvlüyünə namizəd, Azərbaycan SSR Xalq Nəzarəti Komitəsinin sədri Q.Əfəndiyev çıxış etdi.

**Mayın 1-də** H.Əliyev Lenin adına meydanda Bakı zəhmətkeşlərinin 1 May nümayişində iştirak etdi.

**Mayın 3-də** H.Əliyev FAT icraiyyə komitəsinin sədri Yasir Ərəfatın başçılığı ilə Fələstin Azadlıq Təşkilatının nümayəndə heyətini qəbul etdi.

**Mayın 9-da** H.Əliyev Böyük Vətən müharibəsi illərində Bakı hospitallarında vəfat etmiş döyüşçülərin uyuduğu memorialın, həmçinin general Həzi Aslanovun abidəsi önünə əklil qoydu. Sonra C.Naxçıvanski adına internat-məktəbdə oldu.

**Mayın 12-də** V.İ.Lenin adına Sarayda Asiya və Afrika xalqları həmrəyliyinin IV Sovet konfransının açılışı oldu. H.Əliyev konfrans iştirakçıları qarşısında böyük nitqlə çıxış etdi. Konfrans bu nüfuzlu təşkilatın 20 illiyi ilə eyni vaxta düşmüşdü. O günlərdə bütün respublikaların, Moskvanın, Leninqradın nümayəndə heyətləri, sosialist ölkələrindən, bir çox Asiya və Afrika dövlətlərindən olan qonaqlar, BMT-nin, Afrika Birliyi Təşkilatının, Ümumdünya Sülh Şurasının nümayəndələri Bakıya toplaşmışdılar. Asiya və Afrika Xalqları Həmrəylik Təşkilatının nüfuzlu nümayəndə heyətinə onun Baş katibi Yusef əs-Sibai rəhbərlik edirdi.

H.Əliyev konfrans iştirakçıları qarşısında geniş nitq söylədi.

**Mayın 13-14-də** H.Əliyev Asiya və Afrika xalqları həmrəyliyinin IV Sovet konfransında iştirak edən nümayəndə heyətlərini qəbul etdi.

**Mayın 19-da** H.Əliyev M.F.Axundov adına Opera və Balet Teatrında Q.Sundukyanın anadan olmasının 150 illiyinə həsr olunmuş ədəbi-bədii gecədə iştirak etdi.

**Mayın 20-də** H.Əliyev Əlcəzair Xalq Respublikasının ədliyyə naziri, doktor Bualəma Benhammudun rəhbərlik etdiyi Əlcəzair Xalq Respublikası hüquqşünaslarının nümayəndə heyətini qəbul etdi.



**Mayın 26-da** S.Kirov adına Siyasi Maarif Evində Azərbaycan yazıçılarının VI qurultayı açıldı. H.Əliyev qurultayda geniş nitq söylədi.

**İyunun 14-də** H.Əliyev Bakı Məişət Kondisionerləri zavodunu inşa edənlərə dövlət mükafatları təqdim etdi.

**İyunun 23-də** H.Əliyev Azərbaycan KP MK-nın plenumunda "Sov.İKP XXV qurultayının tələbləri ilə əlaqədar əsaslı tikintinin yaxşılaşdırılması sahəsində respublika partiya təşkilatının vəzifələri" adlı məruzə ilə çıxış etdi.

Məruzədə əsaslı tikinti ilə bağlı vəziyyət müfəssəl təhlil olunur, onlarla tikilməkdə olan obyektlər sadalanır, respublikanın əsas tikinti təşkilatlarındakı vəziyyət təhlil olunur, həm yaxşı işləyən, həm də yarıtmaz rəhbərlərin adları çəkilir, müxtəlif səviyyəli patiya təşkilatları və komitələrinin qarşısında konkret vəzifələr qoyulur.

Əsaslı tikintidə bəzi uğurları qeyd edən MK-nın birinci katibi, çatışmazlıqları da açıq tənqidə məruz qoydu: "Kapital qoyuluşu planı 91 faiz yerinə yetirilmişdir, 538 milyon manat mənimsənilməmişdir. Əlvan metallurgiya, maşınqayırma, kimya, yüngül və yeyinti sənayesi obyektləri ləng sürətlə tikilmişdir... Doqquzuncu beşillikdə 1,2 milyon kv. metrdən artıq mənzil sahəsinin istifadəyə verilməməsi və bu səbəbdən 100 mindən çox insanın mənzil ala bilməməsi faktı tamamilə dözülməzdir.

Bu vəziyyət Sov.İKP MK-da müzakirə olunmuş, respublikada əsaslı tikintidə yaranmış vəziyyəti hərtərəfli yoxlayan Mərkəzin xüsusi briqadası işləmiş, sonradan Sov.İKP MK-nın Katibliyində müzakirə olunan məktub hazırlanmışdı. Azərbaycan KP MK bürosu çatışmazlıqların aradan qaldırılmasına, tikinti nazirlikləri və idarələrinin işinin yaxşılaşdırılmasına, tikinti müddətinin qısaldılması və keyfiyyətinin yüksəldilməsinə yönəlmiş konkret tədbirlər işləyib hazırlamış və təsdiq etmişdir. MK-nın qəbul etdiyi qərar nazirlik və idarələrin kolle-

giyalarında, partiya komitələrinin bürosunda müzakirə olunmuşdu".

H.Əliyev plenum iştirakçılarını X beşilliyin planları haqqında məlumatlandırır: doqquzuncu beşillikdə olduğundan 36 faiz artıq kapital qoyuluşu mənimsənilməlidir, 35 faiz artım ilə tikinti-quraşdırma işləri yerinə yetirilməlidir. Əsas fondların işə salınması təxminən bir dəfə yarım artmalıdır.

**İyunun 28-də** H.Əliyev V.İ.Lenin adına Mərkəzi Muzeyin Bakı filialında yeniləşdirilmiş ekspozisiya ilə tanış oldu.

**İyunun 30-da** H.Əliyev respublikanın rəhbər partiya, sovet və həmkarlar təşkilatı işçilərinin böyük qrupuna orden və medallar təqdim etdi.

**İyulun 16-da** V.İ.Lenin adına Sarayda partiya, sovet və ictimai təşkilatların, kütləvi informasiya vasitələri nümayəndələrinin "Bakinski raboçi" qəzetinin 70 illiyinə və onun "Oktyabr inqilabı" ordeni ilə təltif olunmasına həsr olunmuş təntənəli yığıncağı oldu. H.Əliyev yığıncaqda nitqlə çıxış etdi və ordeni qəzetin bayrağına sancdı.

**İyulun 20-də** H.Əliyev Jdanov rayonunun pambıqçılıq təsərrüfatlarında oldu, rayon partiya-təsərrüfat fəalları yığıncağı, həmçinin zona müşavirəsi keçirdi.

**İyulun 22-də** H.Əliyev Kürdəmir rayonu partiya-təsərrüfat fəalları iclasında geniş nitqlə çıxış etdi.

**İyulun 30-da** H.Əliyev Füzulidə rayon partiya-təsərrüfat fəalları yığıncağı və pambıqçılıq üzrə zona müşavirəsi keçirdi.

**İyulun 31-də** H.Əliyev Sabirabadda rayon partiya-təsərrüfat fəalları yığıncağı və pambıqçılıq üzrə zona müşavirəsi keçirdi.

**Avqustun 1-də** H.Əliyev Özbəkistan, Tacikistan və Türkmənistan pambıqçılarının nümayəndə heyətlərini – qarşılıqlı nəzarət briqadalarının üzvlərini qəbul etdi.



**Avqustun 28-də** H.Əliyev respublikadan kənarda ali məktəblərdə təhsil almağa gedən azərbaycanlı tələbələrlə görüşdü.

**Avqustun 31-də** H.Əliyev Baş Mil kanalının birinci növbəsi və Füzuli su qovşağının açılışında iştirak etdi.

**Sentyabrın 4-də** H.Əliyev Xanlar rayonunda partiya-təsərrüfat fəalları iclası, həmçinin üzümçülük rayonları rəhbərlərinin zona müşavirəsini keçirdi.

**Sentyabrın 5-də** H.Əliyev Cəlilabad rayonunda partiya-təsərrüfat fəalları iclası və üzümçülük rayonları rəhbərlərinin zona müşavirəsini keçirdi.

**Sentyabrın 7-də** H.Əliyev Monreal olimpiadasında iştirak etmiş Azərbaycan idmançılarını qəbul etdi.

**Sentyabrın 15-də** H.Əliyev Sov.İKP MK üzvü, Sovet İttifaqı marşalı İ.Baqramyanı qəbul etdi.

**SİTA–nın məlumatından:**

"**Sentyabrın 22-də** SSRİ Ali Sovetinin İttifaq Soveti sədrinin müavini, Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyevin başçılıq etdiyi nümayəndə heyəti Yuqoslaviya Sosialist Federativ Respublikası Skupşinasının dəvəti ilə Moskvadan Belqrada rəsmi dostluq görüşünə yola düşmüşdür".

SSRİ Ali Soveti nümayəndə heyətinin səkkizgünlük səfərini dünya informasiya agentlikləri və mətbuatı diqqətlə izləyirdi, SİTA hər gün bütün kanallarla geniş məlumat yayırdı. Sovet nümayəndə heyəti YSFR-nin respublikalarında – Çernoqoriyada, Serbiyada, Xorvatiyada, Makedoniyada oldu, ölkənin ən iri sənaye müəssisələrinə baş çəkdi, Yuqoslaviya rəhbərləri ilə bir sıra görüş və danışıqlar keçirdi.

**Oktyabrın 7-dən 11-dək** H.Əliyev respublika rayonlarında səfərdə oldu. O, Şamaxı rayonunda partiya-təsərrüfat fəalları iclası və üzümçülük rayonları rəhbərlərinin zona müşavirəsini keçirdi. Sonra Bərdə və Sabirabadda pambıq plantasi-

yalarını gəzdi, tarla əməkçiləri, kolxoz və sovxozların rəhbərləri ilə söhbət etdi, rayon partiya və təsərrüfat fəalları yığıncaqları və pambıqçılıq üzrə zona müşavirələri keçirdi.

**Oktyabrın 15-də** respublika qəzetləri Sov.İKP MK Baş katibi L.Brejnevin Azərbaycan zəhmətkeşlərinə məktubunu dərc etdi. O zəhmət adamlarını böyük qələbə – dövlətə kənd təsərrüfatı məhsullarının satışına dair yüksək sosialist öhdəliklərinin yerinə yetirilməsi münasibətilə təbrik edirdi.

**Oktyabrın 16-da** zəhmətkeşlərin respublikanın yüksək sosialist öhdəliklərinin yerinə yetirilməsinə həsr olunmuş respublika mitinqi oldu.

Mitinqdə bəzi rəqəmlər səsləndirildi: plan və sosialist öhdəliklərinin yerinə yetirilməsi haqqında ilk raport verən taxılçılar oldu, ümumi taxıl yığımı 1 milyon 175 min ton təşkil etdi. Yazın gecikməsi və payızın yağışlı keçməsinə baxmayaraq, pambıqçılar da plan və yüksək sosialist öhdəliklərini yerinə yetirmişlər – 404 min ton, əlavə tapşırıqla isə 465 min ton plana qarşı, tədarük məntəqələrinə artıq 520 min ton pambıq göndərilmişdir.

H.Əliyev Bərdə rayonu zəhmətkeşlərinin nailiyyətlərini xüsusi qeyd etdi:

"Yüksək sosialist öhdəliklərini yerinə yetirmiş Bərdə rayonu pambıqçıları əsl əmək qəhrəmanlığı nümunəsi göstərmiş, dövlətə rekord miqdarda – 55 min tondan çox pambıq satmışlar. Belə nəticələr, açığını deyək, respublikanın pambıqçılıq tarixində heç bir rayonda olmamışdır. Sevindiricidir ki, rayonun istisnasız olaraq bütün təsərrüfatları öhdəliklərin yerinə yetirilməsi haqqında raport vermişlər".

H.Əliyev qabaqcılların adlarını çəkmiş, qızların əməyini xüsusi səmimiyyətlə qeyd etmişdir: pambıqyığan maşınların sürücü-mexanikləri Tərlan Musayevanın (Bərdə rayonu), Nəzakət Nəzərlinin (Puşkin rayonu), Aridə Həşimovanın (Qasım-İsmayılov rayonu), Kamilə Məmmədovanın (Mir Bəşir rayonu).



703 min ton üzüm yığılmışdır, plana 22 faiz artıq əməl olunmuş, plandan 140 min ton çox – 580 min ton tərəvəz toplanmışdır.

**Oktyabrın 18-də** H.Əliyev Azərbaycan KP MK-nın plenumunda "Sov.İKP MK-nın "Azərbaycan KP MK-nın 1976-1980-ci illərdə respublika sənayesinin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsi təkliflərinin araşdırılmasının nəticələri haqqında" qərarının yerinə yetirilməsi üzrə respublika partiya təşkilatının vəzifələri" mövzusunda məruzə ilə çıxış etdi.

Bu plenum və yuxarıda göstərilən qərar Azərbaycanda sənaye istehsalının daha qabaqcıl sahələrinin inkişafında əsaslı dönüş nöqtəsi oldu. Məruzəçi plenum iştirakçılarına həmin sənədin ərsəyə gəlməsinin tarixçəsi barədə məlumat verdi:

Azərbaycan KP MK "sənayedə vəziyyətin hərtərəfli təhlili əsasında sənaye istehsalının daha proqressiv sahələrinin strukturunu və sürətli inkişafını əsaslı surətdə yaxşılaşdırmağa yönəlmiş kompleks tədbir və konkret təkliflər işləyib hazırlamışdı".

Bu təkliflər Sov.İKP MK-ya, Baş katib L.Brejnevə məruzə edilmişdi. Baş katibin göstərişi ilə Azərbaycanın təklifləri SSRİ Nazirlər Sovetində, Dövlət Plan Komitəsində, müvafiq ittifaq nazirliklərində müzakirə olundu. Onlar tərəfindən respublikanın qaldırdığı məsələləri həll etmək, bu işə lazım olan vəsait və maddi-texniki imkanlar tapmaq üçün xeyli səy göstərildi.

Nəticədə Sov.İKP MK "Azərbaycan KP MK-nın 1976-1980-ci illərdə respublika sənayesinin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsi təkliflərinin araşdırılmasının nəticələri haqqında" qərar qəbul etdi.

Daha sonra H.Əliyev qəbul olunmuş qərarın mahiyyətini və əhəmiyyətini təhlil etdi: "O, respublikada yeni, perspektivli sənaye sahələrinin yaradılmasını, texniki tərəqqini müəy-

yən edən sahələrin sürətli inkişafını, ən müasir avadanlıq və texnologiyalarla təchiz olunmuş müəssisələrin tikilməsini nəzərdə tutur. Qərar respublikanın şəhər və rayonlarının kompleks şəkildə inkişafını, iş qabiliyyəti olan əhalinin səmərəli məşğulluğunu, respublikanın ayrı-ayrı zonaları arasında iqtisadi fərqlərin aradan qaldırılmasını müəyyən edir.

Sov.İKP MK-nın qərarı ilə Azərbaycan SSR-ə böyük həcmdə kapital qoyuluşu və maddi-texniki vasitələrin ayrılması nəzərdə tutulmuşdur. Nəticədə onuncu beşillik üçün kapital qoyuluşu 8.029 milyon manat və ya doqquzuncu beşillikdəkindən 47 faiz çox təşkil edir.

Sov.İKP MK-nın sənayenin bu qədər geniş inkişaf proqramını nəzərdə tutan qərarının qəbul edilməsi yaxın gələcəkdə və perspektivdə daha mürəkkəb məsələləri həll etməyə imkan yaradan doqquzuncu beşilliyin planlarının uğurla yerinə yetirilməsi, respublikada güclü iqtisadi bazanın yaradılması sayəsində mümkün olmuşdur. Biz respublikada xalq təsərrüfatının inkişafının yeni mərhələsinə qədəm qoymuşuq. Əgər doqquzuncu beşillikdə iqtisadiyyatın artım sürətindəki geriliyin aradan qaldırılması, inkişafında əsaslı dönüş yaradılması vəzifələri qarşıya qoyulub uğurla yerinə yetirilmişdisə, indi biz sənaye strukturunun keyfiyyətcə yaxşılaşdırılması, ən qabaqcıl, mütərəqqi və perspektivli sahələrin sürətlə inkişaf etdirilməsi məsələlərini həll edə bilərik.

Qərar bir sıra əsaslı problemlər irəli sürmüşdür. Belə problemlərdən biri respublikanın xalq təsərrüfatında qeyri-mütənasib struktur-sahə nisbətinin aradan götürülməsidir".

H.Əliyev məruzəsində sənayedə gələcək struktur dəyişiklikləri barədə konkret misallar gətirir: məsələn, elektrotexnika, cihazqayırma, elektron, radiotexnika sənayelərində 14 yeni müəssisənin tikilməsi, həmçinin fəaliyyətdə olan zavodlarda təchizat vasitələrinin yeniləşdirilməsi, yenidənqurma işlərinin aparılması.

Elektrotexnika sənayesinin inkişaf sürətini artırmaq məqsədilə onuncu beşillikdə yeni iri müəssisələrin – ümumi də-



yəri 100 milyon manat olan elektrotermik sobalar istehsalı üzrə zavodun, qalvanik elementlər və xüsusi texnoloji avadanlıq zavodunun tikintisi nəzərdə tutulmuşdur. 92 milyon manat dəyərində iri elektrik maşınları zavodu elektrotexnika sənayesinin inkişafında böyük addım olmalı idi.

Cihazqayırma sənayesi genişləndirilirdi. Bu sahədə istehsal həcmini təxminən 2 dəfə artırmağa imkan verən texnoloji proseslərin xüsusi avtomatlaşdırılmış idarəolunma sistemləri zavodunun, məişət cihazlarının avtomatik idarə olunması qurğularının istehsalı üzrə zavodun tikilməsi, fəaliyyət göstərən zavodların genişləndirilməsi nəzərdə tutulurdu.

Sov.İKP MK-nın qərarında nəzərdə tutulan Azərbaycan sənayesinin simasının dəyişməsinin əsas problemlərindən biri neft emalı və neft-kimya sənayesinin əsaslı surətdə yenidən qurulması idi. Bu, neft məhsullarının, xüsusilə yağların keyfiyyətinin xeyli yaxşılaşdırılması, assortimentin dəyişdirilməsi, habelə xammalın ümumi həcmində parafinli neftlərin payının artırılması zərurətindən irəli gəlirdi.

Qara və əlvan metallurgiya əhəmiyyətli dərəcədə inkişaf etdirilməli idi: Azərbaycan Boru Prokat zavodunda əsaslı yenidənqurma və yeni sexlərin tikilməsi, Kirovabad alüminium zavodunun yenidən qurulması, genişləndirilməsi və bir çox başqa işlər nəzərdə tutulurdu.

Qərar yüngül, yeyinti, emal sənayelərini, respublikanın energetika bazasının inkişafını və s. əhatə edirdi.

"Bir sözlə, yoldaşlar, respublika üçün Sov.İKP MK qərarının əhəmiyyətinə yüksək qiymət verməmək qeyri-mümkündür. Əslində, biz Azərbaycanın sosial, iqtisadi, elmi-texniki dəyişikliklərin xarakterinə görə tarixi əhəmiyyət kəsb edən keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyuruq... Deyilənlərdən aydın olur ki, biz üzərimizə necə böyük məsuliyyət, necə nəhəng həcmli iş götürmüşük".

**Oktyabrın 25-də** H.Əliyev "1976-1980-ci illər SSRİ xalq təsərrüfatı Dövlət planının inkişafı haqqında" və "SSRİ-nin

1977-ci il üçün Dövlət büdcəsi və 1975-ci ilin Dövlət büdcəsinin yerinə yetirilməsi haqqında" məruzələrinin müzakirəsi zamanı Sov.İKP MK Plenumunda çıxış etdi.

**Oktyabrın 27-29-da** H.Əliyev doqquzuncu çağırış SSRİ Ali Soveti beşinci sessiyasının işində iştirak etdi. Sessiyanın gündəliyinə aşağıdakı məsələlər daxil idi:

1. Ukrayna SSR, Gürcüstan SSR və Litva SSR-dən SSRİ Ali Soveti Rəyasət Heyəti sədrinin müavinləri haqqında.
2. 1976-1980-ci illər üçün SSRİ xalq təsərrüfatının inkişafı üzrə Dövlət beşillik planı haqqında.
3. 1977-ci il üçün SSRİ xalq təsərrüfatının inkişafı üzrə Dövlət planı haqqında.
4. 1977-ci il üçün SSRİ Dövlət büdcəsi və 1975-ci il SSRİ Dövlət büdcəsinin icrası haqqında.
5. "Tarix və mədəniyyət abidələrinin qorunması və istifadə olunması haqqında" SSRİ Qanununun layihəsi haqqında.
6. Qadın əməyi və məişətinin, ana və uşaqların qorunması məsələləri üzrə İttifaq Soveti və Millətlər Sovetinin daimi komissiyalarının yaradılmasına dair.
7. SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanlarının təsdiq edilməsinə dair.

**Noyabrın 2-də** H.Əliyev "Neftçi" komandasının rəhbərləri və futbolçuları ilə görüşdü.

**Noyabrın 3-də** H.Əliyev Azərbaycan SSR Dövlət mükafatı laureatlarına diplomlar təqdim etdi.

**Noyabrın 5-də** H.Əliyev Lenin adına Sarayda Böyük Oktyabrın 59-cu ildönümünə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

Məruzə ilə Azərbaycan KP MK-nın ikinci katibi S.Kozlov çıxış etdi.

**Noyabrın 7-də** H.Əliyev və respublikanın rəhbərləri Böyük Oktyabr bayramı ilə əlaqədar hərbi paradda və Bakı zəhmətkeşlərinin nümayişində iştirak etdilər.



**Noyabrın 18-də** V.İ.Lenin adına sarayda Səməd Vurğunun anadan olmasının 70 illiyinə həsr olunmuş təntənəli gecə oldu. H.Əliyev və respublika rəhbərliyi rəyasət heyətində əyləşmişdilər.

**Noyabrın 24-də** H.Əliyev Azərbaycan KP MK-nın plenumunda "Respublika partiya təşkilatının Sov.İKP MK oktyabr (1976-cı il) Plenumunun qərarlarından irəli gələn vəzifələri barədə" məruzə etdi. Plenum həmçinin Azərbaycan SSR-in 1976-1980-ci illər üçün Dövlət beşillik planının layihəsini, Azərbaycanın 1977-ci il üçün Dövlət planını, 1977-ci il üçün respublikanın Dövlət büdcəsini bəyəndi.

**Noyabrın 29-da** Moskvada, SSRİ Böyük Teatrında Səməd Vurğunun 70 illiynə həsr olunmuş təntənəli gecə keçirildi. H.Əliyev gecədə iştirak etdi.

**Noyabrın 30-da** H.Əliyev və Azərbaycan KP MK büro üzvləri Moskvada, SSRİ paytaxtında yaşayan qocaman bakılı kommunistlərlə görüşdülər.

**Dekabrın 6-da** H.Əliyev gələn il sovet futbolunun yüksək liqasında çıxış etməyə nail olmuş Bakının "Neftçi" klubu futbolçularını qəbul etdi.

**Dekabrın 14-də** H.Əliyev Bakıda 18-ci Ordunun Döyüş Şöhrəti muzeyinin açılışında iştirak etdi.

**Dekabrın 19-da** H.Əliyev Kremldə Sov.İKP MK Baş katibi L.Brejnevin 70 illiyi şərəfinə qəbulda iştirak etdi. Qəbulu giriş sözü ilə Sov.İKP MK Siyasi Bürosunun üzvü, Sov.İKP MK katibi M.Suslov açdı.

**Dekabrın 22-də** H.Əliyev Bakı Məişət Kondisionerləri zavodunda Sov.İKP MK Baş katibi L.Brejnevin anadan olmasının 70 illiyinə həsr olunmuş mitinqdə iştirak etdi.

**Dekabrın 24-də** H.Əliyev zəhmətkeşlərin Vladimir İliç adına Yeni Bakı Neftayırma zavodunda Azərbaycanda ən böyük "ELOU-AVT" qurğusunun işə salınmasına həsr olunmuş mitinqində iştirak etdi. Qurğunun işə salınması ilə əlaqədar Baş katib L.Brejnev neftayıranlara təbrik məktubu göndərdi.

SSRİ-də ən irilərindən biri olan bu kompleks on növdən çox yüksək keyfiyyətli neft məhsulu buraxmaq üçün nəzərdə tutulmuşdu. "ELOU-AVT"-da bütün proses avtomatlaşdırılmış və əl əməyi tamamilə istisna edilmişdi. Onun tikintisində minlərlə bakılı çalışmış, texnoloji avadanlığın bir hissəsi ADR-də istehsal olunmuşdu.

**Həmin gün** H.Əliyev V.İ.Lenin adına Sarayda Azərbaycan kinosunun 60 illiyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**Dekabrın 26-da** H.Əliyev "Toşiba" yapon firmasının idarə heyətinin sədri Tosio Dokonu qəbul etdi.

**Dekabrın 28-ə** H.Əliyev Lənkəran rayonu zəhmətkeşlərinin Yuxarı-Xanbulançay dəryaçasının işə salınmasına həsr olunmuş mitinqində iştirak etdi. Bu, on milyonlarla kubmetr həcmində su anbarından, 40 kilometr uzunluğunda kanallardan ibarət olan qurğu Lənkəran zonasında suvarılan sahələri 22 min hektara çatdırmağa imkan verdi. Yalnız Lənkəran rayonunda tərəvəz istehsalı ildə 250 min tona, çay istehsalı isə 15 min tona çatdırılmalı idi.

**Dekabrın 29-da** H.Əliyev Kiçik Qafqazın mənzərəli guşələrinin birində yaradılmış Tərtərçay enerji və su təsərrüfatı kompleksinin açılışında iştirak etdi. Onun nitqində yer almış bir neçə rəqəm: torpaqdan çəkilmiş 130 metrlik bənd Avropada ən hündürlərdən biridir. Su anbarı 560 milyon kubmetr su tuta bilər. Təxminən 100 kilometrə yaxın uzunluğunda kanallarla bu su kolxoz və sovxoz torpaqlarına çatdırılacaqdır.

Hər iki obyektin işə düşməsi ilə əlaqədar Sov.İKP MK Baş katibi L.Brejnev Azərbaycan zəhmətkeşlərini xüsusi teleqramla təbrik etdi.

**Dekabrın 31-də** H.Əliyev "Nizami" metro stansiyasının açılışında iştirak etdi.



## 1977

**Yanvarın 18-də** H.Əliyev SSRİ-nin təyyarəçi-kosmonavtı, Sovet İttifaqı Qəhrəmanı V.Jolobovu qəbul etdi.

**Yanvarın 20-də** V.İ.Lenin adına Sarayda respublikanın komsomol təşkilatları nümayəndələrinin Azərbaycan LKGİ-nin "Oktyabr inqilabı" ordeni ilə təltif edilməsinə həsr olunmuş təntənəli yığıncağı oldu. H.Əliyev yığıncaqda nitqlə çıxış etdi və ordeni respublika Komsomolunun bayrağına sancdı.

**Yanvarın 24-də** H.Əliyev Sov.İKP-nin dəvəti ilə Sovet İttifaqında olan Somali inqilabi sosialist partiyasının bir qrup rəhbər işçisini qəbul etdi.

**Yanvarın 25-də** S.M.Kirov adına Siyasi Maarif Evində Azərbaycan jurnalistlərinin V qurultayı oldu. H.Əliyev qurultayın işində iştirak etdi.

**Fevralın 8-də** H.Əliyev Ümumittifaq sosializm yarışında qazanılan nailiyyətlərə görə mükafatlandırılmış bir qrup fəhlə və kolxozçuya orden və medallar təqdim etdi.

Digərləri sırasında dövlət təltiflərinə layiq görüldülər: Salyan rayon partiya komitəsinin birinci katibi N.Abbasov, Bərdə rayonundakı 26 Bakı komissarı adına kolxozun briqadiri Q.Əliyev, İliç rayonundakı "1 May" kolxozunun briqadiri İ.Əliyev, Lənkəran şəhər partiya komitəsinin birinci katibi İ.Məmmədov, Mardakert rayonundakı partiyanın XXII qurultayı adına sovxozun direktoru S.Mamunts və b.

**Fevralın 9-da** H.Əliyev respublika aktivinin iclasında "1977-ci ilin və bütün beşilliyin sosialist öhdəliklərini şərəflə yerinə yetirək və Böyük Oktyabrın 60 illiyini layiqincə qarşılayaq" adlı məruzə ilə çıxış etdi.

**Martın 4-də** H.Əliyev Azərbaycan həmkarlar ittifaqlarının XV qurultayında "Respublika həmkarlarının təxirəsalınmaz vəzifələri" adlı nitqlə çıxış etdi. Z.Hüseynova AHİŞ-in sədri seçildi.

**Martın 5-də** F.Dzerjinski adına klubda 8 Mart Qadınlar gününə həsr edilmiş təntənəli yığıncaq oldu. H.Əliyev və MK Bürosunun üzvləri rəyasət heyətində əyləşmişdilər.

**Martın 10-da** H.Əliyev S.M.Kirov adına Siyasi Maarif Evində Azərbaycan rəssamlarının VIII qurultayında iştirak etdi.

**Martın 14-17-də** SSRİ Nazirlər Soveti sədrinin birinci müavini İ.Novikov respublikaya keçici Qırmızı bayraq verilməsi ilə bağlı Bakıda oldu. H.Əliyevlə birlikdə o Vladimir İliç adına Yeni Bakı Neftayırma zavodunda qurulmuş neft emalı üzrə respublikada ən iri kompleksə baxdı, üçüncü evtikmə kombinatının tikintisində, həmçinin respublikada ən iri, 320 yerlik uşaq bağçasının açıldığı Əhmədli qəsəbəsində oldu.

**Martın 16-da** V.İ.Lenin adına Sarayda SSRİ Nazirlər Sovetі sədrinin müavini İ.Novikov 1976-ci ilin Ümumittifaq sosializm yarışında qələbəyə görə Azərbaycana Sov.İKP MK, SSRİ Nazirlər Soveti, ÜİHİMŞ-nin və ÜİLKGİ-nin keçici Qırmızı bayrağını təqdim etdi.

İ.Novikov nitqində ötən ildə SSRİ-də qazanılmış iqtisadi uğurları qeyd etdi: ölkənin milli gəliri 380 milyard manat təşkil etmişdir. Sənaye məhsulu satışının həcmi üzrə illik plan artıqlaması ilə yerinə yetirilmişdir. Plandan əlavə 6 milyard manatlıqdan çox məhsul satılmışdır. Ölkə tarixində ən yüksək taxıl məhsulu əldə edilmişdir – 224 milyon ton. 250-yə yaxın yeni iri dövlət müəssisəsi işə düşmüşdür. 2 milyon 200



min mənzil və şəxsi ev tikilmiş, nəticədə 11 milyon nəfər yaşayış şəraitini yaxşılaşdırmışdır və s.

**Azərbaycan üzrə 1976-cı ilin bəzi yekunları:** 1975-ci illə müqayisədə istehsal artımı planda nəzərdə tutulmuş 6%-ə qarşı 8% olmuşdur. 1975 illə müqayisədə qaz istehsalı 11%, kənd təsərrüfatı maşınlarının istehsalı – 10%, cihaz və avtomatlaşdırma vasitələrinin istehsalı – 13%, güc transformatorlarının istehsalı 14% artmışdır. Sənayedə əmək məhsuldarlığı planda nəzərdə tutulmuş 3,6%-ə qarşı 5,2% olmuşdur.

1976-cı ildə 1 milyon 184 min ton taxıl məhsulu yığılmışdır, bu da IX beşilliyin orta illik səviyyəsindən 43% çoxdur. Taxıl istehsalında ilk dəfə olaraq milyon ton həddi keçilmişdir. Pambıqçılar 531 min tondan çox pambıq toplamışlar.

**Martın 18-də** H.Əliyev Kuba Respublikasının SSRİ-dəki səfiri, Kuba Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü Severo Aqqire del Kristonu qəbul etdi.

**Martın 21-də** H.Əliyev SSRİ-nin təyyarəçi-kosmonavtı, Sovet İttifaqı Qəhrəmanı V.Rojdestvenskini qəbul etdi

**Martın 24-də** H.Əliyev Bakı şəhərinə 1976-cı ilin Ümumittifaq sosializm yarışında qələbəyə görə Sov.İKP MK, SSRİ Nazirlər Soveti, ÜİHİMŞ və ÜİLKGİ-nin keçici Qırmızı bayrağını təqdim etdi və iclasda nitqlə çıxış etdi.

**Aprelin 2-də** H.Əliyev Lenin adına stadionda SSRİ birinciliyinin futbol mövsümünün açılışında oldu.

**Aprelin 14-də** H.Əliyev F.Dzerjinski adına klubda respublika partiya-təsərrüfat aktivinin Azərbaycan dəmir yolu işçilərilə birgə iclasında iştirak etdi.

**Aprelin 16-da** H.Əliyev Bakı şəhərində Lenin kommunist iməciliyində iştirak etdi.

**Aprelin 20-də** Azərbaycan KP MK-nın plenumu oldu. H.Əliyev "Böyük Oktyabrın 60 illiyinə hazırlıq və respublika partiya təşkilatı tərəfindən Sov.İKP XXV qurultayının istehsalın səmərəliliyinin və işin keyfiyyətinin artırılması barədə qərarlarının yerinə yetirilməsi haqqında" məruzə ilə çıxış etdi.

**Aprelin 22-də** H.Əliyev V.İ.Leninin anadan olmasının 107-ci ildönümünə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi. Məruzə ilə Azərbaycan KP MK-nın təşkilati-partiya işi şöbəsinin müdiri İ.Əsgərov çıxış etdi.

**Aprelin 27-də** H.Əliyev Azərbaycan, Gürcüstan, Ermənistan KP MK yanında Partiya Tarixi institutlarının aparıcı əməkdaşlarının regional müşavirəsi iştirakçılarını qəbul etdi.

**Aprelin 28-də** V.İ.Lenin adına Sarayda H.Əliyev Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 57-ci ildönümü və 1 May gününə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi. Məruzə ilə Azərbaycan KP MK katibi H.Seyidov çıxış etdi.

**Mayın 1-də** H.Əliyev və respublikanın digər rəhbərləri Bakı zəhmətkeşlərinin 1 May nümayişində iştirak etdilər.

**Mayın 5-də** Respublika fəallar yığıncağı oldu. H.Əliyev yığıncaqda iştirak etdi.

**Mayın 9-da** H.Əliyev Böyük Vətən müharibəsi illərində həlak olmuş qəhrəmanların memorial abidəsi önünə əklil qoydu. Sonra C.Naxçıvanski adına internat-məktəbdə oldu.

**Mayın 22-də** Moskva şəhərində yeni "Bakı" restoranının təntənəli açılışı oldu. H.Əliyev açılış mərasimində iştirak etdi.

**Həmin gün** o SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində Azərbaycan SSR pavilyonuna baş çəkdi.

**Mayın 25-də** H.Əliyev Bakı aeroportunda Çili Kommunist partiyasının Baş katibi Luis Korvalanı qarşıladı.

**Mayın 26-da** V.İ.Lenin adına Sarayda "Böyük Oktyabr sosialist inqilabı və Asiya, Afrika və Latın Amerikası xalqlarının milli-azadlıq hərəkatı" mövzusunda beynəlxalq elmi konfrans öz işinə başladı.

Sov.İKP MK Baş katibi L.Brejnev konfrans iştrakçılırına təbrik məktubu göndərdi. Konfransın işində 70 ölkənin təmsilçiləri – beynəlxalq kommunist, fəhlə və milli-azadlıq hərəkatlarının tanınmış nümayəndələri, sosialist ölkələrindən görkəmli siyasi və ictimai xadimlər, Asiya, Afrika və Latın Amerikası inqilabi milli-azadlıq partiyalarının rəhbərləri, nüfuzlu sovet alimləri iştirak edirdi.



Çili Kommunist partiyasının Baş katibi Luis Korvalan, İraq Kommunist partiyasının birinci katibi Əziz Məhəmməd, Braziliya Kommunist partiyası MK-nın Baş katibi Luis Karlos Prestes, Asiya və Afrika Xalqları Həmrəylik Təşkilatının Baş katibi Yusef əs-Sibai, Kuba Kommunist partiyası MK-nın üzvü, Dövlət şurasının üzvü Severo Aqqire del Kristo və başqaları qonaqlar sırasında idilər.

H.Əliyev məruzə ilə çıxış etdi. O, Oktyabrın tarixi əhəmiyyətindən, Sovet Azərbaycanının nailiyyətlərindən, milli-azadlıq hərəkatının müasir durumundan və perspektivlərindən danışdı. Konfransın qonaqları ölkənin ən iri sənaye müəssisələrində, Kirovabadda, Quba və Şamaxı rayonlarında oldular.

Sonradan, Azərbaycan KP MK-nın iyunun 10-da keçirilən plenumunda H.Əliyev özü bu konfransın əhəmiyyətini belə qiymətləndirirdi: "Bakı beynəlxalq elmi konfransı haqlı olaraq Böyük Oktyabr sosialist inqilabının 60 illiyinə həsr olunmuş tədbirlər sırasında layiqli yer tutdu. Onun yekunları, milli-azadlıq inqilablarının elmi-praktik təhlilinə və qanunauyğunluqların, əsas meyil və perspektivlərin təyin edilməsinə yeni təkan verdi. Bu yekunlar, heç şübhəsiz, müstəqil inkişaf yoluna qədəm qoymuş ölkələrdə yeni cəmiyyət qurulmasının strategiya və taktikasının hazırlanmasına kömək göstərəcək, onları mübarizə təcrübəsi ilə zənginləşdirəcək, geniş kütlələrin, bütün sülh və tərəqqi qüvvələrinin siyasi fəallığının artmasında yeni stimul olacaqdır".

**Həmin gün** H.Əliyev Çili Kommunist partiyasının Baş katibi, "Xalqlar arasında sülhü möhkəmləndirməyə görə" beynəlxalq Lenin mükafatı laureatı Luis Korvalanı qəbul etdi.

**Mayın 27-də** H.Əliyev Bakıda keçirilən Beynəlxalq elmi konfrasda iştirak etmiş ərəb ölkələrinin nümayəndə heyətlərini qəbul etdi.

**Həmin gün** o, Braziliya kommunist partiyasının Baş katibi Luis Karlos Prestesi qəbul etdi.

**Həmin gün** H.Əliyev Luis Korvalanın yola salınma mərasimində iştirak etdi. H.Əliyev Çili kommunistlərinin liderini Bakı aeroportundan yola saldı.

**Mayın 28-də** H.Əliyev Bakıda keçirilən beynəlxalq konfransda iştirak edən sosialist ölkələrindən, eləcə də Afrika ölkələrindən olan nümayəndə heyətlərini qəbul etdi.

**İyunun 1-də** H.Əliyev "Trud" və "Tribyune" (ADR) qəzetlərinin Bakıda keçirdikləri "Yüksək ixtisaslı fəhlə kadrlarının hazırlanması – iş keyfiyyətinin artırılmasında mühüm ehtiyat amildir" beynəlxalq seminarın iştirakçılarını qəbul etdi.

**İyunun 8-də** H.Əliyev respublika və vilayət qəzet və jurnallarının, radio və televiziya redaktorlarının zona müşavirəsi iştirakçılarını qəbul etdi.

**İyunun 10-da** Azərbaycan KP MK-nın plenumu oldu. Plenum SSRİ Konstitusiyasının layihəsi və respublika partiya təşkilatının Sov.İKP MK-nın may (1977-ci il) Plenumunda L.Brejnevin məruzəsindən irəli gələn vəzifələri haqqında məsələ müzakirə etdi.

**İyunun 17-də** Sov.İKP MK Baş katibi , SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri L.Brejnev Kremldə H.Əliyevə Lenin ordeni təqdim etdi.

**İyunun 19-da** H.Əliyev Xəzər dənizçilərinin Mədəniyyət evindəki seçki məntəqəsinə gəldi və yerli zəhmətkeş deputatları Sovetlərinə seçkilərdə iştirak etdi.

**İyunun 25-də** H.Əliyev Ələtdə Zaqafqaziya hərbi dairəsinin təlimlərində oldu.

**İyunun 29-da** H.Əliyev V.İ.Lenin adına Sarayda Azərbaycan radiosunun 50 illiyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**İyulun 5-də** H.Əliyev sovet və italyan qardaşlaşmış şəhərlərinin Bakıda keçirilən ikinci görüşündə iştirak edən nümayəndə heyətlərinin başçılarını qəbul etdi.



**İyulun 7-də** F.Dzerjinski adına klubda doqquzuncu çağırış Azərbaycan SSR Ali Sovetinin beşinci sessiyası açıldı. H.Əliyev SSRİ Konstitusiyasının layihəsi və zəhmətkeş deputatları Sovetlərinin vəzifələri haqqında məruzə etdi.

O qeyd etdi ki, iyunun 10-da keçirilən Azərbaycan KP MK-nın plenumundan sonra vilayət, şəhər, rayon partiya aktivlərinin iclasları, yerli sovetlərin sessiyaları olmuşdur. SSRİ Konstitusiyasının layihəsi müzakirə edilib bəyənilmiş, L.Brejnevin məruzəsindən irəli gələn vəzifələr müəyyən edilmişdir.

H.Əliyev SSRİ-nin Yeni Konstitusiya layihəsini müfəssəl təhlil edir, onun ayrı-ayrı maddələrinin mənasını izah edirdi.

SSRİ Konstitusiyasının 75 və 81-ci maddələrinə müvafiq olaraq hər bir müttəfiq və muxtar respublikanın öz konstitusiyası olmalıdır. Ona görə də sessiyada Azərbaycan SSR-in Konstitusiyası layihəsinin hazırlanması üzrə Komissiya yaradılması və onun tərkibi haqqında təklif qəbul edilir. Layihə 1977-ci ilin dekabrı – 1978-ci ilin yanvarında respublikada ümumxalq müzakirəsindən keçmək üçün dərc olunmalı və gələn ilin birinci rübündə Azərbaycan Ali Sovetinin növbədənkənar sessiyasında baxılmalıdır. Azərbaycan SSR-in Himninin də redaktə olunması üçün iş aparılmalı idi.

**İyulun 12-də** H.Əliyev Yevlax rayonunun təsərrüfatlarında oldu, rayon partiya-təsərrüfat fəalları yığıncağını və pambıqçılıq rayonları rəhbərlərinin zona müşavirəsini keçirdi.

**İyulun 13-də** H.Əliyev Salyan rayonu təsərrüfatlarını gəzdi, rayon partiya-təsərrüfat fəalları yığıncağını və pambıqçılıq üzrə zona müşavirəsini keçirdi.

**İyulun 25-də** H.Əliyev respublika ərazisində Zaqafqaziya hərbi dairəsinin təlimlərində oldu.

**İyulun 26-da** H.Əliyev Tovuz rayonunun üzümçülük təsərrüfatlarında oldu, rayon partiya-təsərrüfat fəalları yığıncağını və üzümçülük üzrə zona müşavirəsini keçirdi.

**İyulun 27-də** H.Əliyev Cəlilabad rayonu partiya-təsərrüfat aktivinin yığıncağında geniş nitq ilə çıxış etdi.

**İyulun 28-də** H.Əliyev SSRİ XİN Diplomatiya Akademiyasının bir qrup müdavimini qəbul etdi.

**İyulun 29-da** H.Əliyev Sovet İttifaqında səfərdə olan ABŞ Kommunist partiyası Mərkəzi Komitəsinin üzvü Saymon Gersonu qəbul etdi.

**Avqustun 6-da** H.Əliyev respublikada istirahətdə olan Braziliya Kommunist partiyası Mərkəzi Komitəsinin Baş katibi Luis Karlos Prestesi qəbul etdi.

**Avqustun 26-da** H.Əliyev pambıqyığan maşınların gənc mexanik-sürücülərinin böyük qrupunu qəbul etdi.

**Avqustun 27-də** V.İ.Lenin adına Sarayda respublika partiya və sovet aktivinin tələbələrlə görüşü oldu.

Görüşdə Azərbaycan KP MK-nın birinci katibi H.Əliyev geniş nitqlə çıxış etdi:

"Son illərdə beş yeni ali məktəb yaradılmışdır. Lenin adına pedaqoji institutun filiallarının bazasında Naxçıvan və Stepanakertdə müstəqil pedaqoji institutlar təşkil edilmişdir. Ç.İldırım adına Politexnik İnstitutunun inşaat və memarlıq fakültələrinin bazasında İnşaat Mühəndisləri İnstitutu yaradılmışdır. M.F.Axundov adına Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutu və SSRİ-nin 50 illiyi adına Xarici Dillər İnstitutu yaradılmışdır. Bir sıra şəhərlərdə yeni orta ixtisas məktəbləri açılmışdır. Respublika sənayesinin strukturunda baş vermiş dəyişikliklərlə əlaqədar ali məktəblərdə 29 yeni fakültə, 76 kafedra, çoxlu müasir problem laboratoriyaları yaradılmışdır.

Hazırda respublikada 526 kafedrası və 134 fakültəsi olan 16 ali məktəb vardır. Orada 100 mindən çox oğlan və qız təhsil alır.

AKP Mərkəzi Komitəsi Moskva, Leninqrad və digər şəhərlərdə mütəxəssis hazırlanmasına xüsusi əhəmiyyət verir. Biz buna yüksək ixtisaslı mütəxəssis kadrları hazırlanmasının



mühüm vasitəsi kimi baxırıq, o cümlədən xalq təsərrüfatının elə sahələri üçün ki, o sahələr üzrə respublika ali məktəblərində mütəxəssis hazırlamaq imkanları yoxdur. 1971-ci ildən Moskva və digər şəhərlərdə təhsil alan tələbələrin sayı kəskin surətdə artdı. Əgər 7 il qabaq cəmi 60 nəfər göndərilmişdisə, bu il bu rəqəm 818-ə çatmışdır. Hazırda ölkənin 40 şəhərindəki 140 ali məktəbdə 1.627 nəfər təhsil alır. Bu ilki qəbulla bir yerdə bu təxminən 2,5 min tələbə deməkdir... Başqa şəhərlərin ali məktəblərində respublika üçün kadr hazırlanan ixtisasların miqdarı bu müddət ərzində 5 dəfə artmışdır, indi onların sayı 244-ə bərabərdir.

Belə bir fakt xüsusi razılıq hissi doğurur ki, Moskva, Leninqrad və ölkənin digər şəhərlərinin ali məktəblərinə daxil olanlar sırasında kənd rayonlarından olan oğlan və qızların sayı durmadan artır və artıq həmin ali məktəblərdə əslində bütün respublika təmsil olunmuşdur.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi azərbaycanlı gənclər sırasından zabit kadrlarının hazırlanmasına xüsusi diqqət yetirir... Və bizi sevindirir ki, ali hərbi təhsil müəssisələrinə daxil olan yerli millətdən olan oğlanların sayı ildən-ilə artır. 1972-1977-ci illərdə ali hərbi təhsil müəssisələrinə daxil olan azərbaycanlıların sayı bütün əvvəlki illərdən üç dəfə çox olmuşdur. Yalnız bu il ali hərbi məktəblərə 150 azərbaycanlı qəbul olunmuşdur.

Azərbaycan KP MK-nın təşəbbüsü ilə yaradılmış C.Naxçıvanski adına ixtisaslaşdırılmış internat-məktəb gələcək zabit kadrlarının hazırlanmasında yaxşı baza olmuşdur. Məktəbdə tədrisin keyfiyyət səviyyəsi durmadan yüksəlir və nəticədə hərbi məktəb kursantları olan məktəb məzunlarının sayı artır. Bu il internatın 58 yetişdirməsindən 56 nəfəri ali hərbi təhsil müəssisələrinə qəbul olunmuşdur".

Natiqin sözlərinə görə, partiyanın Mərkəzi Komitəsi digər şəhərlərin məzunlarının işlə təmin olunmasını daimi nəzarətdə saxlayır. Məsələn, 1977-ci ilin 92 nəfərdən ibarət məzun-

lanının hamısı ETİ-lərə, nazirlik müəssisələrinə, "Azneft", "Xəzərneftdonanma" birliklərinə və s. təyinat alıblar. H.Əliyev qeyd edir ki, bundan başqa, respublika Nazirlər Soveti xüsusi sərəncamla 1978, 1979, 1980-ci illərdə digər şəhərlərin ali məktəblərini bitirən gənc mütəxəssislərin fərdi təyinat planını təsdiq etmişdir. Gələcək iş yerləri tələbələrin özlərinə də məlumdur.

**Sentyabrın 2-də** H.Əliyev Bərdə rayonunun bir sıra təsərrüfatlarını gəzdi, rayon partiya-təsərrüfat fəalları yığıncağı və pambıqçılıq rayonlarının zona müşavirəsini keçirdi.

**Sentyabrın 3-də** H.Əliyev Sabirabadın təsərrüfatlarında oldu, rayon partiya-təsərrüfat fəalları yığıncağı və pambıqçıların zona müşavirəsini keçirdi.

**Sentyabrın 8-də** H.Əliyev İsrail Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi Meir Vilneri qəbul etdi.

**Sentyabrın 9-da** H.Əliyev V.İ.Lenin adına Sarayda F.Dzerjinskinin anadan olmasının 100 illiyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**Sentyabrın 13-də** H.Əliyev Azərbaycan rəssamlarının Böyük Oktyabrın 60 illiyinə həsr olunmuş yubiley sərgisində oldu.

**Sentyabrın 17-də** H.Əliyev MK-nın bir qrup məsul işçisinə "F.E.Dzerjinskinin 100 yaşı" xatirə medalı təqdim etdi.

**Oktyabrın 1-də** "Pravda" qəzetində H.Əliyevin Azərbaycan xalqının əmək nailiyyətlərindən bəhs edən "Biz – sovet xalqıyıq" məqaləsi dərc olundu.

**Oktyabrın 5-7-də** Moskvada SSRİ-nin yeni Konstitusiyasını qəbul etmiş yeddinci çağırış SSRİ Ali Sovetinin doqquzuncu sessiyası oldu. Azərbaycandan H.Əliyev və Q.Xəlilov çıxış etdilər.

**Oktyabrın 9-da** H.Əliyev Lenin adına Sarayda sovet və rumın gənclərinin görüşünün təntənəli açılışında iştirak etdi.



**Oktyabrın 10-da** H.Əliyev MK-da sovet və rumın gənclərinin dostluq görüşündə iştirak edən nümayəndə heyətlərinin başçılarını qəbul etdi.

**Oktyabrın 17-də** V.İ.Lenin adına Sarayda respublika partiya aktivinin yığıncağı oldu. Yığıncaq Sov.İKP MK-nın oktyabr (1977-ci il) Plenumunun, SSRİ Ali Sovetinin yeddinci sessiyasının və Sov.İKP MK Baş katibi, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri L.Brejnevin "Sovet Sosialist Respublikaları İttifaqı Konstitusiyasının (Əsas Qanunun) layihəsi və onun ümumxalq müzakirəsinin yekunları haqqında" məruzəsinin yekunlarını nəzərdən keçirdi. Məruzə ilə H.Əliyev çıxış etdi.

**Oktyabrın 20-də** H.Əliyev MK-da görkəmli sovet tibb xadimlərini – Azərbaycan oftalmologiya ETİ-nin yubiley konfransının və Ümumittifaq oftalmoloqlar cəmiyyəti plenumunun iştirakçılarını qəbul etdi.

**Oktyabrın 21-də** Bakıda Zaqafqaziya Hərbi Dairəsinin iclasında Zaqafqaziya respublikalarının rəhbərləri H.Əliyev, E.Şevardnadze və K.Demirçyan iştirak etdilər.

**Oktyabrın 25-də** S.M.Kirov adına respublika Siyasi Maarif Evində H.Əliyev Azərbaycan KP MK Bürosu üzvlərinin partiya veteranları ilə qarşıdan gələn Böyük Oktyabr Sosialist inqilabının 60 illiyinə həsr olunmuş görüşündə iştirak etdi.

**Oktyabrın 27-də** Bakıda Azərbaycan SSR Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin yubiley ekspozisiyası açıldı.

**Oktyabrın 28-də** V.İ.Lenin adına Sarayda respublika zəhmətkeşlərinin dövlətə taxıl, pambıq, tərəvəz, meyvə, bostan bitkiləri, çay yarpağı satışına dair artırılmış sosialist öhdəliklərinin yerinə yetirilməsinə həsr olunmuş mitinqi keçirildi. Sov.İKP MK Baş katibi L.Brejnev bu əmək qələbəsi ilə respublikanı təbrik etdi.

**Oktyabrın 29-da** H.Əliyev Oktyabrqabağı sosializm yarışının bir qrup gənc qalibini MK-da qəbul etdi.

**Noyabrın 1-də** H.Əliyev Moskvada Böyük Oktyabr sosialist inqilabının bayram edilməsinə gəlmiş Anqola nümayəndə heyətini qarşıladı.

**Noyabrın 2-də** H.Əliyev Kremlin Qurultaylar sarayında Sov.İKP MK, SSRİ və RSFSR Ali Sovetinin Böyük Oktyabrın 60 illiyinə həsr olunmuş birgə yığıncağında iştirak etdi.

**Noyabrın 5-də** H.Əliyev və respublikanın rəhbərləri V.İ.Leninin abidəsi və 26 Bakı komissarlarının məqbərəsi önünə əklillər qoydular.

**Həmin gün** V.İ.Lenin adına Sarayda Azərbaycan KP MK və Azərbaycan Ali Sovetinin Böyük Oktyabr Sosialist inqilabının 60-cı ildönümünə həsr olunmuş birgə təntənəli iclası oldu. Məruzə ilə H.Əliyev çıxış etdi.

H.Əliyev məruzəsində Azərbaycanın 60 ildə keçdiyi yolu göstərən təsirli rəqəm və faktlar gətirdi:

"Qazandığımız uğurların vüsət və miqyası həqiqətən ölçüyəgəlməzdir. Bu, primitiv jelonkadan dənizdə neft şəhərinə qədər keçilmiş yoldur. Kustar emalatxanalardan müasir elektrotexnika nəhəngi – Bakı Kondisionerləri zavoduna qədər, taxta xışdan iri aqrosənaye komplekslərinə qədər, konkadan Bakı metropoliteninin yeraltı saraylarına qədər, ağ neftdən QOELRO planına görə ölkədə tikiləcək birlikdə otuz stansiyadan daha güclü olan Mingəçevir və Əli Bayramlı elektrik stansiyalarına qədər yoldur.

Sovet hakimiyyəti illərində respublikada sənaye məhsulu istehsalı 123 dəfə artmışdır. Sovet hakimiyyətinə qədər neftdən başqa hər bir şeyin kənardan gətirildiyi bir diyar, bu gün 65 ölkəyə 350 növ sənaye məhsulu ixrac edir. 1913-cü illə müqayisədə kənd təsərrüfatı məhsullarının istehsalı 6 dəfədən çox, o cümlədən pambıq istehsalı 8,3 dəfə artmışdır.

Sosial sahədəki dəyişikliklər daha heyrətamizdir. Cəmi bir neçə onillik ərzində Azərbaycan savadsızlıqdan ümumi orta təhsilə addamışdır. İndi respublikanın hər üç nəfərindən biri



təhsil alır. 17 ali məktəbdə 100 min tələbə oxuyur. Öz sovet yaşıdları ilə birlikdə orta və ali təhsil müəssisələrində dünyanın 72 ölkəsindən 1.700 oğlan və qız təhsil alır. Sovet hakimiyyətinin birinci ilində Azərbaycanda 475 həkim var idi, indi isə onlar 17 mindən çoxdur. Respublika Elmlər Akademiyası və sahə ETİ-lərində 21 mindən çox elmi işçi çalışır".

**Noyabrın 6-da** H.Əliyev Azərbaycan Xalq Təsərrüfatı Nailiyyətləri sərgisində oldu.

**Həmin gün** H.Əliyev Yuqoslaviya Kommunistlər İttifaqı Sarayevo şəhər konfransının nümayəndə heyətini qəbul etdi.

**Həmin gün** H.Əliyev paytaxt zəhmətkeşlərinin Bakıda Sovet hakimiyyəti qurulmasının 60 illiyinə həsr olunmuş mitinqində iştirak etdi, N.Nərimanovun xatirə muzeyini açdı, S.M.Kirovun abidəsi önünə əklil qoydu.

**Noyabrın 7-də** H.Əliyev Böyük Oktyabrın 60 illiyinə həsr olunmuş hərbi paradda və Bakı zəhmətkeşlərinin nümayişində iştirak etdi.

**Noyabrın 10-da** H.Əliyev sovet milisinin 60 illiyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**Noyabrın 15-də** H.Əliyev və Azərbaycan KP MK-nın Büro üzvləri İran demokrat partiyasının rəhbərliyi ilə görüşdülər.

**Noyabrın 24-də** H.Əliyev bir qrup görkəmli sovet alimlərini – ətraf mühitin gigiyenası üzrə birinci Ümumittifaq müşavirəsinin iştirakçılarını qəbul etdi.

**Həmin gün** H.Əliyev MK-nın ümumi şöbəsinin müdiri Y. Kirsanova Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanını təqdim etdi və anadan olmasının 70 illiyi münasibəti ilə təbrik etdi.

**Noyabrın 25-də** Kirovabadda Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq İnstitutu kollektivinin respublikanın partiya, sovet təşkilatları və ictimai təşkilat nümayəndələrinin iştirakı ilə

təntənəli yığıncağı oldu. Pambığın seleksiyası və toxumçuluqda, onun yetişdirilməsində yüksək səmərəli texnologiyanın hazırlanması və tətbiqində xidmətlərə görə institut Qırmızı Əmək Bayrağı ordeninə layiq görülmüşdü. Mükafatı yığıncaqda parlaq nitqlə çıxış edən, Sovet Azərbaycanında pambıqçılığın tarixindən danışan H.Əliyev təqdim etdi.

**Həmin gün** H.Əliyev Kirovabadda Xalça-Mahud kombinatının ikinci növbəsini açdı, şəhərin bir sıra obyektlərinə baxdı.

**Noyabrın 26-da** V.İ.Lenin adına Sarayda paytaxt zəhmətkeşlərinin Bakının SSRİ-nin ali mükafatı – Lenin ordeni ilə təltif edilməsinə həsr olunmuş mitinqi oldu. SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanının mətnində deyilirdi:

"İnqilabi hərəkatda, Azərbaycanda Sovet hakimiyyətinin bərqərar olması və möhkəmləndirilməsində xidmətə, 1941-1945-ci illər Böyük Vətən müharibəsində faşist qəsbkarları üzərində qələbəyə böyük töhfə və şəhər zəhmətkeşlərinin təsərrüfat və mədəni quruculuğunda qazandıqları uğurlara görə".

**Dekabrın 1-də** H.Əliyev rus dili və ədəbiyyatı müəllimləri Beynəlxalq assosiasiyasının Bakıda keçirilən simpoziumu iştirakçılarının bir qrupunu qəbul etdi.

**Dekabrın 7-də** H.Əliyev əfsanəvi sovet kəşfiyyatçısı, İkinci dünya müharibəsi illərində İsveçrədə "Qırmızı kapellanın" rezidenti Şandor Rado (Rudolfi) ilə görüşdü.

**Dekabrın 10-da** Ulyanovsk şəhərində Nəriman Nərimanovun onun adını daşıyan prospektdə abidəsinin açılışına həsr olunmuş şəhər zəhmətkeşləri nümayəndələrinin mitinqi oldu. Mitinqdə Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi H.Əliyev geniş nitqlə çıxış etdi.

**Dekabrın 13-də** H.Əliyev Sov.İKP MK-nın plenumunda çıxış etdi. Plenumda SSRİ Nazirlər Soveti sədrinin müavini,



SSRİ Dövlət Plan Komitəsinin sədri N.Baybakovun "1978-ci il üçün SSRİ-nin iqtisadi və sosial inkişaf planına dair" və SSRİ maliyyə naziri V.Qarbuzovun "1978-ci il üçün SSRİ Dövlət büdcəsi və 1976-cı ilin SSRİ Dövlət büdcəsinin icrasına dair" məruzələri dinləndi.

**Dekabrın 19-da** dövlət təhlükəsizliyi orqanlarının 60 illiyi ərəfəsində Dzerjinski adına parkda Bakı zəhmətkeşləri nümayəndələrinin ÜFK-nın (VÇK) ilk sədri Feliks Dzerjinskinin heykəlinin açılışına həsr olunmuş mitinqi oldu.

**Dekabrın 20-də** H.Əliyev Azərbaycan SSR DTK işçilərinin bir qrupuna dövlət mükafatları təqdim etdi.

**Həmin gün** H.Əliyev F.Dzerjinski adına klubda dövlət təhlükəsizliyi orqanlarının 60 illiyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**Dekabrın 22-24-də** H.Əliyev Kiyevdə oldu, orada Ukrayna SSR və Ukrayna kommunist partiyasının 60 illiyinin bayram edilməsində iştirak etdi.

**Dekabrın 27-də** Azərbaycan KP MK-nın plenumu oldu. H.Əliyev plenumda "Sov.İKP MK dekabr (1977-ci il) Plenumunun qərarları haqqında və respublika partiya təşkilatının Sov.İKP MK Siyasi Bürosunun Baş katibi, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri L.Brejnev yoldaşın məruzəsindən irəli gələn vəzifələri" mövzusunda məruzə ilə çıxış etdi.

H.Əliyev məruzədə respublika iqtisadiyyatının əsas sahələrində vəziyyəti təhlil etdi və perspektiv vəzifələri müəyyənləşdirdi.

Belə ki, onuncu beşilliyin iki ili ərzində istehsalın həcmi planda göstərilən 12,5%-ə qarşı 16,6% artmışdır. Həmin müddətdə əmək məhsuldarlığı plan tapşırığında olan 7,6%-ə qarşı 9,5% artmışdır. Onuncu beşilliyin iki ilinin ən mühüm nailiyyətlərindən biri sənaye istehsalı strukturunun və sahələrarası nisbətin yaxşılaşdırılması oldu.

Bununla belə, məruzənin böyük hissəsi sənaye və kənd təsərrüfatı istehsalının təşkilindəki nöqsan və çatışmazlıqların təhlilinə həsr olundu. MK-nın birinci katibi yüngül sənaye nazirliyini, əhaliyə məişət və nəqliyyat xidməti sahələrinin rəhbərlərini, kommunal xidmətləri, aşağı keyfiyyətli pambıq və taxıl satışına yol vermiş bir sıra rayon təsərrüfatlarını tənqidə məruz qoydu.



## 1978

**Yanvarın 23-də** H.Əliyev Bakı aeroportunda Sov.İKP MK katibi M.Zimyanini qarşıladı.

**Yanvarın 24-də** H.Əliyev seçicilərin Bakı–Şaumyan seçki dairəsi üzrə SSRİ Ali Sovetinin deputatı, Sov.İKP MK katibi M.Zimyaninlə V.İ.Lenin adına Sarayda keçirilən görüşündə iştirak etdi.

**Fevralın 2-də** Azərbaycan KP MK-nın plenumu oldu. H.Əliyev "Təsərrüfatlararası kooperasiya və aqroiqtisadi inteqrasiya əsasında kənd təsərrüfatı istehsalının ixtisaslaşdırılması və təmərküzləşməsinin inkişaf etdirilməsi üzrə respublika partiya təşkilatının vəzifələri barədə" məruzə ilə çıxış etdi.

Adı çəkilən qərar Sov.İKP MK tərəfindən 1976-cı ilin may ayında qəbul edilmişdi. Partiyanın kənd təsərrüfatı nəzəriyyəçiləri SSRİ-də kənd təsərrüfatını kooperativləşdirmə və ixtisaslaşdırma səviyyəsini yüksəltməklə ölkənin kənd təsərrüfatını müasir aqrosənaye əsaslar üzərinə keçirmək qərarına gəlmişdilər.

H.Əliyev respublikada artıq bu istiqamətdə işlərin aparılmasından danışdı. Pambıq, taxıl, üzüm, tərəvəz, meyvə, çay, tütün və s. istehsalının zonalar üzrə ixtisaslaşdırılması və təmərküzləşdirilməsi üzrə tədbirlər həyata keçirilmişdir. Ən iri aqrosənaye kompleksi – Üzümçülük və Şərabçılıq Üzrə Dövlət Komitəsi, "Azmeyvətərəvəzsənaye" aqrosənaye birli-

yı, "Quşçuluqsənaye", "Kolxozlararasısənaye" birlikləri yaradılmışdır.

İşın əsas istiqamətlərindən biri pambıqçılığın ixtisaslaşdırılması və təmərküzləşdirilməsi oldu. Bu sahənin pambığın becərilməsi üçün daha əlverişli və perspektivli zonalarda – Muğan-Salyan, Mil-Qarabağ və Şirvanda təmərküzləşdirilməsi gücləndirilmişdir. Bundan əvvəl torpaqların meliorasiya vəziyyətinin yaxşılaşdırılması və müvafiq maddi-texniki bazanın yaradılması istiqamətində xeyli iş görülmüşdür. Eyni zamanda gələcəkdə pambığın Cəlilabad, Zəngilan, İliç, Naxçıvan, Mardakert rayonlarında becərilməsi məqsədə uyğun sayılmamışdır. Əgər 1969-cu ildə pambıq istehsalı ilə 450 təsərrüfat məşğul olurdusa, indi onların sayı 370-ə qədər azalmışdır, lakin onlar əvvəlkindən xeyli çox pambıq istehsal edirdilər.

Toxumluq pambıq istehsalının təmərküzləşdirilməsi üzrə xeyli iş görülmüşdür, indi toxumluq pambıq istehsalı ixtisaslaşdırılmış təsərrüfatlarda cəmlənmişdir. H.Əliyev qeyd etmişdir ki, ixtisaslaşdırılma və təmərküzləşdirilmə digər qəbul olunmuş qərarlarla birlikdə pambıqçılığın inkişafında, səmərəliliyin artırılmasında əsaslı dönüş yaratmaq üçün həlledici amil olmuşdur. Məhsuldarlığın artması hesabına doqquzuncu beşillikdə pambığın orta illik istehsalı səkkizinci beşilliklə müqayisədə 35 faiz yüksəlmişdir.

H.Əliyev hesab edir ki, bu istiqamətdə işləri davam etdirmək, zəruri və mümkün olan yerdə səpin sahələrinin dəyişdirilməsi, həmçinin mövcud torpaqların meliorasiya vəziyyətinin yaxşılaşdırılması hesabına təsərrüfatları iriləşdirmək lazımdır. Bu təsərrüfatları istehsalın ümumi həcmində xüsusi çəkisi az olan bitkilərin becərilməsindən azad etmək lazımdır. O, Pambıqçılıq institutu və elit toxumçuluq təsərrüfatlarının bazasında toxum istehsalı üzrə Elmi-istehsalat birliyi yaradılması vaxtının yetişdiyindən danışdı.

H.Əliyev digər kənd təsərrüfatı sahələrinin zəhmətkeşləri – taxılçıların, üzümçülərin və s. qarşısında da eyni vəzifələri qoyurdu. O, tərəvəzçiliyi və meyvəçiliyi misal gətirirdi: "Əgər





*Sərsəng HES-in tikintisində.*
*16 avqust 1975-ci il.*



*Tanınmış sovet yazıçısı M.Şaginyanla görüş.*
*17 oktyabr 1975-ci il.*



*SSRİ təyyarəçi-kosmonavtı, iki dəfə Sovet İttifaqı Qəhrəmanı A.Leonovla görüş. 29 oktyabr 1975-ci il.*



*H.Əliyev və SSRİ Nazirlər Soveti sədrinin müavini İ.Novikov Bakı Məişət Kondisionerləri zavodunda. Yanvar, 1976-cı il.*



*Respublika topdansatış-sənaye yarmarkasında. 7 aprel 1976-cı il.*



*SSRİ Rəssamlar İttifaqı idarə heyəti katibliyinin səyyar iclası iştirakçılarının qəbulu. 23 aprel 1976-cı il.*



*SSRİ müdafiə naziri, marşal A.Qreçko və Zaqafqaziya respublikalarının rəhbərləri «Qafqaz-76» hərbi təlimlərində. 3 fevral 1976-cı il.*



*H.Əliyevin əfsanəvi sovet kəşfiyyatçısı, İsveçrədəki «Qırmızı kapella»nın rəhbəri Şandor Rado ilə görüşü. 7 dekabr 1977-ci il.*




*Asiya və Afrika ölkələri həmrəyliyinin IV konfransının açılışı. 12 may 1976-cı il.*



*MK-da Afrika ölkələri nümayəndə heyətlərinin qəbulu. 14 may 1976-cı il.*



*Azərbaycan KP MK-nın Büro üzvlərinin Moskvada yaşayan qocaman bakılı kommunistlərlə görüşü. 30 noyabr 1976-cı il.*



*H.Əliyev və tanınmış rus aktyoru A.Batalov kinonun 60 illiyinə həsr olunmuş təntənəli yığıncaqda. 24 dekabr 1976-cı il.*



*SSRİ Böyük Teatrında Səməd Vurğunun 70 illiyinə həsr olunmuş təntənəli gecə. 29 noyabr 1976-cı il.*



*Bakı metropoliteninin «Nizami» stansiyasının açılışı. 31 dekabr 1976-cı il.*



*«Neftçi» futbol komandası ilə görüş. 2 noyabr 1976-cı il.*



*SSRİ təyyarəçi-kosmonavtı, Sovet İttifaqı Qəhrəmanı V.Rojdestvenski ilə görüş. 21 mart 1977-ci il.*



*Çili Kommunist partiyasının Baş katibi Luis Korvalanla görüş. 26 may 1977-ci il.*



*H.Əliyev Zaqafqaziya Hərbi Dairəsi qoşunlarının təlimində, Ələt qəsəbəsi. 25 iyun 1977-ci il.*



*H.Əliyev, E.Şevardnadze, K.Demirçyan ZaqHD-nin Hərbi Şurasının iclası günü Bakı Məişət Kondisionerləri zavodunda. 21 oktyabr 1977-ci il.*



*Ulyanovsk zəhmətkeşləri nümayəndələrinin N.Nərimanovun abidəsinin açılışına həsr olunmuş mitinqi. 10 dekabr 1977-ci il.*



*Görkəmli Azərbaycan bəstəkarı Qara Qarayevin 60 illiyi şərəfinə Moskva Konservatoriyasının Böyük Salonunda müəllif konsertindən sonra çəkilmiş xatirə şəkli. 15 fevral 1978-ci il.*



*Azərbaycan SSR Ali Soveti adına Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin 45-ci buraxılışının təntənəli mərasimi. 22 iyul 1978-ci il.*



*Göyçay rayonu təsərrüfatlarında. Sentyabr, 1978-ci il.*



*«Moskva» univermağının açılışı günündə. 31 dekabr 1978-ci il.*



*Ağdam–Stepanakert dəmir yolu xəttinin açılışı.
12 yanvar 1979-cu il.*



*Azərbaycan SSR Ali Sovetində bir qrup görkəmli elm və
ədəbiyyat xadiminə və «Vışka» qəzetinə mükafatların
təqdim edilməsi. 10 aprel 1979-cu il.*



*H.Əliyev və İ.Əliyev S.M.Kirov adına Qırmızı Bayraqlı Xəzər
Ali Hərbi-Dəniz məktəbinin gənc donanma zabitlərinin
buraxılış mərasimində. 29 iyun 1979-cu il.*



*Azərbaycan KP MK-da gənc qrossmeyster
Harri Kasparovun qəbul edilməsi. 14 may 1979-cu il.*



*Kremldə H.Əliyevə Lenin ordeni və Sosialist Əməyi Qəhrəmanının «Oraq və Çəkic» qızıl medalının təqdim olunması. 7 sentyabr 1979-cu il.*



*SSRİ XTNS-də beynəlxalq kitab sərgi-yarmarkasında. 8 sentyabr 1979-cu il.*

əvvəllər tərəvəz bitkiləri az qala bütün rayonlarda yerləşdirilmişdisə, indi tərəvəz əkinləri əsas etibarilə Lənkəran-Astara, Quba-Xaçmaz zonalarında cəmlənmişdir. Respublikada istehsal olunan tərəvəzin 65% onların payına düşür. İri sovxozlarda ixtisaslaşma və təmərküzləşmə çoxsahəli təsərrüfatlar qarşısında onların danılmaz üstünlüyünü təsdiq edir. Belə ki, Lənkəran rayonunun faraş tərəvəz istehsalı üzrə ixtisaslaşmış B.Abbasov və N.Nərimanov adına sovxozları hər il müvafiq olaraq 19 və 15 min ton tərəvəz istehsal edir. Bu təsərrüfatlarda rentabellik 64 və 45 faiz təşkil edir".

H.Əliyev hesab edir ki, Lənkəran zonasında çay plantasiyalarının sahəsini genişləndirmək lazımdır. Çayçılıq, onun fikrincə, yalnız çay sovxoz və fabriklərinin daxil olduğu aqrosənaye komplekslərinin əsasında inkişaf etdirilməlidir.

**Fevralın 3-də** H.Əliyev Qırmızı bayraqlı Bakı Hava Hücumundan Müdafiə Dairəsinin rəhbər heyəti ilə görüşdə çıxış etdi.

**Fevralın 4-də** H.Əliyev SSRİ xalq artisti, Lenin və Dövlət mükafatları laureatı, bəstəkar Qara Qarayevə Lenin ordeni və "Oraq və Çəkic" Qızıl medalını təqdim etdi.

**Fevralın 15-də** Heydər Əliyev ölkənin musiqi elitasının axışdığı Moskva konservatoriyasının Böyük zalında görkəmli Azərbaycan bəstəkarı Qara Qarayevin 60 illik yubiley gecəsində iştirak etdi.

**Fevralın 22-də** H.Əliyev Kremlin Qurultaylar sarayında Moskva zəhmətkeşləri nümayəndələri və paytaxt qarnizonu əsgərlərinin Sovet Ordusu və Hərbi-Dəniz Donanmasının 60 illiyinə həsr olunmuş təntənəli yığıncağında iştirak etdi.

**Martın 7-də** H.Əliyev Azərbaycan Dövlət Filarmoniyasında 8 mart Beynəlxalq Qadınlar gününə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**Martın 11-də** H.Əliyev Azərbaycan Komsomolunun XXX qurultayında çıxış etdi.

Respublikanın ictimai-siyasi və sosial-iqtisadi həyatında Azərbaycan komsomolunun böyük rolunu şübhə altına almayan H.Əliyev, eyni zamanda LKGİ MK-nın təşkilati işində zəif məqamları da göstərdi: o komsomol rəhbərlərini zərbəçi tikintilərə zəif rəhbərlik etdiklərinə görə, işlərindəki formalizm və bürokratiyaya görə, canlı təşəbbüskarlığın olmadığına görə, gənclərin əmək və mənəvi tərbiyəsinə az diqqət göstərdiklərinə görə tənqid etdi.

Respublika partiya liderinin açıq qəbul etmədiyi neqativ hallar sırasında "əşyabazlıq" azarı adı almış xəstəliyi xüsusi vurğuladı:

"Faktlar göstərir ki, meşşanlıq, "əşyabazlıq" azarı, həyata istifadəçi münasibət mikrobu, tələbələrin bir qismində münbit zəmin tapır. Burada yaşı ötmüş uşaqlarını pul, bahalı paltar, bəzək-düzəklə əzizləyən, bəzən hətta avtomobil bağışlayan, məhəbbət hissi ilə dolub-daşan valideynlərin günahı da az deyildir".

H.Əliyev Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsində yaranmış vəziyyəti tənqidə məruz qoydu. Ora yenə də nə vasitə ilə olursa-olsun yüksəkvəzifəli valideynlərin və ya müəllimlərin özlərinin uşaqları qəbul olunur. O, atalarının prokuror və ya hakim işləmələrinə baxmayaraq, qəbul vaxtı anketlərində fəhlə mənşəli olduqlarını göstərən tələbələrin adlarını çəkdi. Sonda o, gəncləri daha fəal vətəndaş və həyat mövqeyi tutmağa, doğma respublikanın bütün sahələrində baş verən möhtəşəm dəyişikliklərin iştirakçısı olmağa çağırdı.

**Martın 15-də** H.Əliyev Azərbaycan KP vilayət, şəhər və rayon komitələrinin birinci katiblərinin kənd təsərrüfatı nazirlik və idarə rəhbərləri ilə birgə fəaliyyət göstərən daimi seminarın açılışında iştirak etdi.

**Martın 16-18-də** SSRİ Nazirlər Soveti sədrinin müavini N.Tixonov Azərbaycanda oldu. H.Əliyevlə birlikdə onlar Bakı



Məişət Kondisionerləri zavodu, Bakı təcrübə "Elektroştamp" zavodu və "Elektrosentrolit" zavodunda oldular. Bundan əlavə, N.Tixonov Sumqayıtda oldu, habelə Əhmədli qəsəbəsində kütləvi tikinti rayonuna baxdı.

**Martın 17-də** V.İ.Lenin adına Sarayda respublika partiya və təsərrüfat fəallarının Azərbaycana 1977-ci ildə Ümumittifaq sosializm yarışında qələbəyə görə keçici Qırmızı bayrağın təqdim olunmasına həsr edilmiş yığıncağı oldu. Bayrağı SSRİ Nazirlər Soveti sədrinin birinci müavini N.Tixonov təqdim etdi.

**Martın 21-də** H.Əliyev respublikanın yeni Konstitusiyasının layihəsi üzrə Azərbaycan SSR Ali Soveti komissiyasının növbəti iclasını keçirdi.

**Martın 22-də** H.Əliyev respublikanın yeni Konstitusiyasının layihəsi ilə bağlı Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin iclasında iştirak etdi.

**Martın 23-də** H.Əliyev ölkənin V.İ.Lenin muzeyləri rəhbərlərini – respublika paytaxtında keçirilən Ümumittifaq müşavirəsinin iştirakçılarını qəbul etdi.

**Martın 24-də** F.Dzerjinski adına klubda Bakı şəhərinə Sov.İKP MK, SSRİ Nazirlər Soveti, ÜİHİMŞ və ÜİLKGİ-nin keçici Qırmızı bayrağı təqdim olundu. Bayrağı H.Əliyev təqdim etdi.

**Martın 31-də** Siyasi Büro üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi H.Əliyevin başçılıq etdiyi Sov.İKP nümayəndə heyəti Hindistan Kommunist Partiyasının XI qurultayının işində iştirak etdi. H.Əliyev qurultayda geniş nitqlə çıxış etdi.

**Aprelin 7-də** H.Əliyev Bxatinda şəhərinin stadionunda keçirilən və Hindistan Kommunist Partiyasının XI qurultayının bağlanmasına həsr olunmuş mitinqdə çıxış etdi.

**Aprelin 19-da** H.Əliyev Azərbaycan KP MK-nın plenumunda "Azərbaycan SSR Konstitusiyasının (Əsas Qanunun)

layihəsi və onun ümumxalq müzakirəsinin yekunları barədə" məruzə ilə çıxış etdi.

**Həmin gün** Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin respublikanın yeni Konstitusiyası üzrə yekun iclası oldu. H.Əliyev iclasda iştirak etdi.

**Aprelin 20-də** Sovet Azərbaycanının Əsas Qanununun qəbul edilməsi üçün toplaşmış doqquzuncu çağırış Azərbaycan Ali Sovetinin yeddinci sessiyası öz işinə başladı. "Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının (Əsas Qanunun) layihəsi və onun ümumxalq müzakirəsinin yekunları barədə" məruzə ilə H.Əliyev çıxış etdi.

O, Sovet hakimiyyəti illərində Azərbaycanda respublika Konstitusiyasının üç dəfə – 1921-ci, 1925-ci və 1937-ci illərdə qəbul olunduğundan danışdı.

1921-ci ilin may ayında Ümumazərbaycan Sovetlər qurultayı tərəfindən qəbul edilmiş birinci Azərbaycan SSR Konstitusiyası ilk Sovet Konstitusiyası -1918-ci il RSFSR Konstitusiyasının nümunəsi və prinsipləri əsasında qurulmuşdu. 1921-ci ilin Konstitusiyası Azərbaycanda proletar diktaturası qurulmasını və öz sosialist milli dövlətçiliyinin – Azərbaycan Sovet Sosialist Respublikasının yaradılmasını qanunvericiliklə təsbit etdi.

Azərbaycan SSR-in Zaqafqaziya Federasiyasının tərkibində digər sovet respublikaları ilə birlikdə vahid ittifaq dövlətində birləşməsi dördüncü Ümumazərbaycan Sovetlər qurultayı tərəfindən 1925-ci ilin martında qəbul edilmiş Konstitusiyada təsbit edilmişdir.

Sovet dövlətinin inkişafında yeni keyfiyyət mərhələsi sosializmin qələbəsi ilə bağlıdır. Bu qələbəni 1936-cı ilin Konstitusiyası əks etdirmiş və təsbit etmişdir. Azərbaycanın 40 il qüvvədə olan Konstitusiyası həmin 1936-cı il Konstitusiyasının əsasında qəbul edilmişdi.

Daha sonra H.Əliyev yeni Konstitusiyanın əsas müddəalarını açıqladı.



Əsas Qanunun layihəsində deyilirdi ki, Azərbaycan SSR– ümumxalq sosialist dövlətidir. Burada sosializm quruluşunun əsas qaydaları təsbit edilmişdir: istehsal vasitələrinin xalqın özünə mənsub olması, istismardan azad əmək, planlı təsərrüfat sistemi. Sosializm prinsiplərini təsdiq edən layihə, ittifaq Konstitusiyasında olduğu kimi eyni zamanda yetkin sosializm iqtisadiyyatının yeni əlamətlərini, 40 il ərzində Azərbaycanın xalq təsərrüfatında, elm və mədəniyyətində baş vermiş dəyişiklikləri əks etdirir.

Təbii ki, respublikanın Əsas Qanununda Kommunist partiyasının rəhbər və istiqamətləndirici rolu qanunvericilik yolu ilə təsbit edilmişdi.

Layihəyə Azərbaycan SSR Ali Sovetinin səlahiyyətlərini, həmçinin Nazirlər Sovetinin səlahiyyət dairəsini daha dəqiq və geniş şəkildə açan maddələr daxil edilmişdi. Ölkədə dövlət və ictimai məsələlərin həllində əmək kollektivlərinin rolu haqqında mühüm müddəalar daxil edilmişdi.

Konstitusiyada vətəndaşların əsas hüquq və azadlıqları: sənət seçmək də daxil olmaqla işləmək hüququ, istirahət, sağlamlığı qorumaq, qocalıqda maddi təminat, təhsil hüququ, mənzil hüququ (ilk dəfə) müəyyən olunmuşdu. Vətəndaşların dövlət orqanlarına və ictimai təşkilatlara təklif verməsi, işdə olan çatışmazlıqları tənqid etməsi, vəzifəli şəxslərin hərəkətlərindən şikayət etmək hüququ haqqında müddəalar daxil edilmişdi.

Layihənin 33-cü maddəsində deyilir ki, Azərbaycan SSR-də qadınlar və kişilər bərabər hüquqa malikdirlər.

H.Əliyev qeyd etdi ki, ümumxalq müzakirəsində verilmiş təkliflər nəzərə alınmaqla "Azərbaycan SSR-in milli-dövlət və inzibati-ərazi quruluşu" bölməsinə dil haqqında xüsusi maddə əlavə etmək məqsədəuyğundur. 73-cü maddəni aşağıdakı redaktədə ifadə etmək təklif olunur: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir.

Azərbaycan SSR dövlət və ictimai orqanlarda, mədəniyyət, maarif və digər müəssisələrdə Azərbaycan dilinin işlən-

məsini təmin edir və onun hərtərəfli inkişafı üçün dövlət himayəsi göstərir.

Azərbaycan SSR-də bütün bu orqan və müəssisələrdə bərabərlik zəminində rus dilinin, həmçinin əhalinin işlətdiyi digər dillərin sərbəst işlənməsi təmin olunur. Bu və ya digər dillərdən istifadə olunmasında heç bir imtiyaz və ya məhdudiyyətə yol verilmir".

**Aprelin 21-də** Azərbaycan Ali Soveti yeni Konstitusiyanı qəbul etdi. H.Əliyev yekun sözü ilə çıxış etdi və bəyan etdi ki, indi bir sıra qanunvericilik aktları, hər şeydən əvvəl Naxçıvan SSR-in Konstitusiyasını, respublika Ali Soveti və yerli Sovetlərə seçkilər haqqında yeni Qanun layihəsini, respublika Nazirlər Soveti haqqında Qanun layihəsini, DQMV haqqında Qanunu və s. hazırlamaq lazımdır.

**Həmin gün** H.Əliyev V.İ.Lenin adına Sarayda Bakı zəhmətkeşləri nümayəndələrinin V.İ.Leninin anadan olmasının 108-ci ildönümünə həsr olunmuş təntənəli yığıncağında iştirak etdi. Məruzə ilə Azərbaycan KP MK Bürosunun üzvü, AHİŞ sədri Z.Hüseynova çıxış etdi.

**Aprelin 22-də** Ümumittifaq Lenin kommunist iməciliyi günü H.Əliyev Bakının Oktyabr, Nərimanov, Lenin rayonlarının bir sıra obyektlərini gəzdi.

**Aprelin 28-də** H.Əliyev Lenin adına Sarayda Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 58-ci ildönümü və 1 May gününə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi. Məruzə ilə Azərbaycan KP MK-nın ikinci katibi Y.Puqaçov çıxış etdi.

**Aprelin 30-da** H.Əliyev M.F.Axundov adına Opera və Balet Teatrında C.Rossininin "Sevilya bərbəri" tamaşasında oldu. Baş rolda Fiqaronun bənzərsiz obrazını yaratmış SSRİ xalq artisti Müslüm Maqomayev çıxış edirdi.

**Mayın 1-də** H.Əlyiev Bakı zəhmətkeşlərinin nümayişini salamladı.



**Mayın 4-də** H.Əliyev S.M.Kirov adına Siyasi Maarif Evində keçirilən Azərbaycan LKGİ MK-nın plenumunda çıxış etdi.

**Mayın 7-də** respublika ideoloji aktivinin yığıncağı oldu. O. L.Brejnevin "Kiçik torpaq" və "Dirçəliş" kitablarının işığında zəhmətkeşlərin ideya-siyasi və vətənpərvərlik ruhunda tərbiyə edilməsində partiya təşkilatının vəzifələrinə həsr olunmuşdu. Məruzəni H.Əliyev etdi.

**Mayın 9-da** H.Əliyev Qələbə günü ilə bağlı ənənəvi tədbirlərdə iştirak etdi, C.Naxçıvanski adına internat-məktəbdə oldu.

**Mayın 18-də** Lenin adına Sarayda Azərbaycan müəllimlərinin altıncı qurultayı açıldı. Qurultayda H.Əliyev geniş nitqlə çıxış etdi.

Digər problemlərlə yanaşı o, rus dilinin əhəmiyyətindən və respublikada tədris olunmasından danışdı:

"Rus dilini bilmək doğma və dünya ədəbiyyatı xəzinəsinə, elmin müasir nailiyyətlərinə geniş yol açır. Və biz fəxr edirik ki, rus dili hər birimiz üçün ikinci ana dilinə çevrilmişdir.

Son illərdə Azərbaycan KP MK, respublika hökuməti ümumtəhsil məktəblərində rus dilinin tədrisini yaxşılaşdırmaq üçün çox işlər görüb. Onun öyrənilməsi indi birinci sinifdən başlayır. Rus dilinin öyrənilməsinə ayrılan dərs saatlarının miqdarı artırılmışdır, bir sıra məktəblərdə xüsusi proqramlar üzrə rus dilinin dərindən öyrənilməsi həyata keçirilir. Məktəblərimizdə rus dilini 10 min müəllim tədris edir. Yüksək ixtisaslı kadrlar hazırlanması üçün M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı institutu yaradılmışdır.

Lakin rus dilinin tədrisi məsələsi hər yerdə qaydasında deyildir. Bəzi məktəblərdə, xüsusilə kənd məktəblərində tədrisin keyfiyyəti aşağı səviyyədədir, dərslərdə şifahi nitq bacarığının inkişafına, keçilən materialın praktik mənimsənilməsinə az diqqət yetirilir. Ayrı-ayrı kollektivlərdə rus dilinin tədrisi-

nin təkmilləşdirilməsi üzərində kifayət qədər iş aparılmır. Nəticədə, məlum olduğu kimi, kənd məktəbləri, bəzən isə şəhər məktəbləri məzunlarının bir hissəsi rus dilini zəif bilir. Azərbaycan Kommunist partiyasının XXIX qurultayı rus dilinin öyrənilməsi və təbliğini məktəbin, bütün ictimaiyyətin mühüm vəzifəsi kimi müəyyən etmişdir".

**Mayın 20-də** H.Əliyev M.F.Axundov adına Opera və Balet Teatrında J.Bizenin "Karmen" operasına baxdı. Karmen rolunu SSRİ xalq artisti T.Sinyavskaya ifa edirdi.

**Mayın 24-də** H.Əliyev SİTA-nın Bakıda keçirdiyi Zaqafqaziya və Moldaviyanın informasiya agentlikləri yaradıcı işçilərinin jurnalist ustalığı və operativliyinin yüksəldilməsinə həsr olunmuş seminar-müşavirənin bir qrup iştirakçısını qəbul etdi.

**Mayın 25-də** H.Əliyev sosialist Həbəşistanının Müvəqqəti hərbi administrasiyası üzvlərini qəbul etdi.

**Mayın 26-da** Sərhəd Qoşunlarının 60 illiyi ilə bağlı Qırmızı bayraqlı Zaqafqaziya Sərhəd Dairəsinin qabaqcıl hissələrinin, zastavalarının döyüş və siyasi hazırlıq əlaçılarını qəbul etdi.

**Həmin gün** F.Dzerjinski adına klubda H.Əliyevin iştirakı ilə Sərhəd Qoşunlarının 60 illiyinə həsr olunmuş təntənəli iclas oldu.

**Mayın 27-də** H.Əliyev Milli Qurtuluş Cəbhəsi partiyası mərkəzi aparatının informasiya şöbəsinin müdiri, ƏXDR Milli xalq məclisinin deputatı Məhəmməd Şərif Messadiya başda olmaqla Əlcəzair ictimaiyyətinin nümayəndə heyətini qəbul etdi.

**Mayın 29-30-da** H.Əliyev Zərdab, Ucar və Kürdəmir rayonlarında oldu, rayon partiya-təsərrüfat fəalları yığıncağları və zona müşavirələri keçirdi.

**İyunun 11-də** H.Əliyev ÇKP MK-nın üzvü, ÇSSR-in xarici işlər naziri Boquslav Xneupeki qəbul etdi.



**İyunun 22-də** H.Əliyev PBFP MK Siyasi Bürosunun üzvü, Polşa Xalq Respublikasının Nazirlər Soveti sədrinin müavini M.Yagelskini qəbul etdi.

**İyulun 1-də** iş başında həlak olmuş Azərbaycan KP MK-nın üzvü, respublika Ali Sovetinin deputatı, daxili işlər naziri, general-leytenant Arif Heydərovun dəfn mərasimi oldu. Dəfn mərasimi F.Dzerjinski adına klubda keçdi. Vida mərasiminə SSRİ daxili işlər naziri N.Şşolokov gəlmişdi. Fəxri Xiyabanda mitinq oldu. H.Əliyev dostunun tabutunu aparırdı, matəm mitinqində isə olduqca səmimi nitq söylədi.

"Kədərimizin həddi-hüdudu yoxdur", – deyən H.Əliyev, Arif Heydərovu "əziz dost, döyüş yoldaşı, etibarlı silahdaş" adlandırdı.

**İyulun 3-də** H.Əliyev Sov.İKP MK-nın plenumunda Sov.İKP MK Baş katibi L.Brejnevin "SSRİ kənd təsərrüfatının gələcək inkişafı haqqında" məruzəsinin müzakirələrində çıxış etdi.

**İyulun 19-20-də** Azərbaycan KP MK-nın plenumu oldu. "Sov.İKP-nin iyul (1978-ci il) Plenumunun yekunları və respublika partiya təşkilatının, Plenumun qərarlarından və L.Brejnev yoldaşın "SSRİ kənd təsərrüfatının gələcək inkişafı haqqında" məruzəsindən irəli gələn vəzifələri" məruzəsi ilə H.Əliyev çıxış etdi.

İttifaq plenumunda qeyd olunmuşdur ki, kənd təsərrüfatının ümumi səviyyəsi cəmiyyətin sürətlə artan tələbatına uyğun gəlmir. Plenum kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsini, istehsalın təşkilinin yaxşılaşdırılmasını və səmərəliliyinin artırılmasını tələb etdi. Plenum müəyyən etdi ki, müasir dövrdə partiyanın aqrar siyasətinin əsas istiqamətini kənd təsərrüfatının hərtərəfli mexanikləşdirilməsi, kimyalaşdırılması və torpaqların meliorasiyası zəminində onun istehsalının intensivləşdirilməsi təşkil edir.

H.Əliyevin ətraflı məruzəsi Moskvanın qoyduğu vəzifələr nəzərə alınmaqla respublikanın kənd təsərrüfatındakı vəziyyətin təhlilinə və inkişaf perspektivlərinə həsr olunmuşdu.

Plenum işdə yol verdiyi nöqsanlara görə R.Məmmədzadəni MK katibi vəzifəsindən və büro üzvlüyündən azad etmişdir. K.Bağırov MK katibi və büro üzvü seçildi.

**İyulun 22-də** H.Əliyev Azərbaycan SSR Ali Soveti adına Bakı Ümumqoşun Komandirləri Məktəbində oldu, məktəbin 45-ci buraxılışının təntənəli mərasimində iştirak etdi.

**İyulun 25-də** bolşeviklər partiyasının görkəmli xadimi Q.Musabəyovun anadan olmasının 90 illiyi ərəfəsində onun adını daşıyan meydanda abidənin açılışına həsr olunmuş mitinq oldu. H.Əliyev mitinqdə nitqlə çıxış etdi.

**Avqustun 25-26-da** H.Əliyev Bərdə və Sabirabad rayonlarının təsərrüfatlarını gəzdi, ənənəvi rayon partiya-təsərrüfat fəalları yığıncaqları və zona müşavirələri keçirdi.

**Avqustun 29-da** F.Dzerjinski adına klubda H.Əliyevin tələbələrlə görüşü oldu. Öz çıxışında respublika rəhbəri aşağıdakı rəqəmləri açıqladı: digər şəhərlərin ali məktəblərinə 670 nəfər qəbul olunmuşdur, 35 nəfər bu ali məktəblərin yuxarı kurslarına dəyişilmiş və 58 nəfər hazırlıq şöbələrinə göndərilmişdir. Ali hərbi məktəblərə Azərbaycandan 230 gənc qəbul olunmuşdur.

**Sentyabrın 1-də** H.Əliyev Bakı Ali Partiya Məktəbinin yeni tədris ilinin başlanmasına həsr olunmuş iclasında iştirak etdi.

**Sentyabrın 9-da** H.Əliyev Bakıda Sovet-Amerika politoloqlarının görüşünün iştirakçılarını – Amerika alimləri prof. Skalanino və prof. Barneti qəbul etdi.

**Sentyabrın 12-də** H.Əliyev M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında L.N.Tolstoyun anadan olmasının 150 illiyinə həsr olunmuş təntənəli gecədə iştirak etdi.



**Sentyabrın 14-də** H.Əliyev stomatoloqların Ümumittifaq elmi-tibbi cəmiyyəti Rəyasət Heyətinin Bakıda keçirilən səyyar iclasının iştirakçılarını qəbul etdi.

**Sentyabrın 20-də** H.Əliyev Bakıya gəlmiş Sov.İKP MK Baş katibi L.Brejnevin qarşılanması mərasimində iştirak etdi.

**Sentyabrın 21-də** L.Brejnevlə birlikdə H.Əliyev V.İ.Leninin abidəsi və 26 Bakı komissarlarının memorialı önünə əklillər qoydu; Bakı Məişət Kondisionerləri zavodunda, Yeni Bakı Neftayırma zavodunda, 18-ci Ordunun Döyüş Şöhrəti muzeyində oldu.

**Həmin gün** H.Əliyev Azərbaycan KP MK-da L.Brejnevin respublika KP MK və Azərbaycan SSR rəhbərləri ilə görüşdüyü müşavirədə çıxış etdi.

**Sentyabrın 22-də** H.Əliyev Bakı şəhər partiya komitəsi və Xalq Deputatları Sovetinin, əmək kollektivləri və hərbi hissələrin partiya, sovet, ictimai təşkilatları nümayəndələrinin Bakı şəhərinə Lenin ordeni təqdim olunmasına həsr olunmuş birgə təntənəli iclasında çıxış etdi. Paytaxta ali mükafatı L.Brejnev təqdim etdi.

Baş katibi qiymətləndirdiyi kimi, respublika qısa tarixi zamanda "müasir sənayeyə, inkişaf etmiş kənd təsərrüfatına, qabaqcıl mədəniyyətə malik olan çiçəklənən diyara çevrilmişdir". Bu gəlişi zamanı L.Brejnev öz məşhur, əks-sədası bütün ölkəyə yayılan tarixi ifadəsini işlətdi: "Azərbaycan iri addımlarla irəliləyir".

**Həmin gün** H.Əliyev Bakı şəhər partiya komitəsi və şəhər Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin Bakı şəhərinin Lenin ordeni ilə təltif olunması və Sov.İKP MK Baş katibi L.Brejnevin Bakıya gəlməsi münasibətilə təşkil etdiyi qəbulda çıxış etdi.

**Sentyabrın 23-də** H.Əliyev Sov. İKP MK Baş katibi L.Brejnevin yola salınması mərasimində iştirak etdi.

**Sentyabrın 28-dən 30-na kimi** H.Əliyev respublikanın Şamaxı, Ağsu, Ağdam, Ağcabədi, Qasım-İsmayılov, Göyçay, Mirbəşir rayonlarında səfərdə oldu, rayon partiya-təsərrüfat fəalları yığıncaqlarını və Azərbaycanın üzümçülük rayonlarının zona müşavirələrini keçirdi.

**Oktyabrın 3-də** H.Əliyev Yuqoslaviya Sosialist Federativ Respublikasının Sovet İttifaqındakı fövqəladə və səlahiyyətli səfiri Yoje Smoleni qəbul etdi.

**Oktyabrın 11-də** H.Əliyev V.İ.Lenin adına Sarayda S.Şaumyanın anadan olmasının 100 illiyi şərəfinə keçirilən təntənəli iclasda iştirak etdi.

**Həmin gün** "Pravda" qəzetində H.Əliyevin S.Şaumyanın anadan olmasının 100 illiyinə həsr olunmuş "Lenin qvardiyasının döyüşçüsü" məqaləsi dərc olundu.

**Oktyabrın 14-də** Yerevanda Ermənistan KP MK və Ermənistan Ali Sovetinin Ermənistanın Rusiyanın tərkibinə daxil olmasının 150 illiyinə həsr olunmuş iclası oldu. Təntənələrdə H.Əliyev çıxış etdi.

**Oktyabrın 15-də** H.Əliyev Naxçıvan MSSR-in təsərrüfatlarında oldu, muxtar respublikanın partiya-təsərrüfat fəalları yığıncağını keçirdi

**Oktyabrın 20-də** Azərbaycan KP MK-nın plenumu oldu. Plenumda H.Əliyev L.Brejnevin Bakıdakı şənliklərdə söylədiyi nitqlərdə səslənən müddəa və nəticələri həyata keçirmək üzrə respublika partiya təşkilatının vəzifələri barədə məruzə etdi. Sənaye və kənd təsərrüfatının, ideoloji işin bütün sahələrində vəziyyət hərtərəfli təhlil edildi, çətin "yerlər" üzə çıxarıldı, zəruri tövsiyələr verildi.

H.Əliyev çıxışında əmək məhsuldarlığının artırılmasına böyük yer verdi. Plenumdan sonra KP MK tərəfindən bu göstərici üzrə tapşırıqların yerinə yetirilməsinə dair xüsusi qərar qəbul edildi. Bakıda çıxış edərkən L.Brejnev respublikanı keyfiyyət nişanı ilə buraxılan məhsulların az olması ilə bağlı



tənqid etdi. Bu məsələ də plenumda təhlil olundu, bundan sonra KP MK və Nazirlər Soveti bu məsələ ilə bağlı qərar qəbul etdi. 1978-ci illə müqayisədə yüksək kateqoriya ilə məhsul istehsalı 1,6 dəfə artmalı idi. Ümumi istehsalda olan pay isə 1978-ci ildə olan 8,5 faizə qarşı 12 faizə qədər artmalı idi.

**Oktyabrın 23-də** H.Əliyev V.İ.Lenin adına Sarayda ÜİLKGİ-nin 60 illiyinə həsr olunmuş təntənəli iclasda iştirak etdi.

**Oktyabrın 27-də** H.Əliyev əmək veteranları, istehsalat qabaqcılları və novatorları ilə görüşdü.

**Oktyabrın 30-da** H.Əliyev Vyetnam Kommunist Gənclər İttifaqının birinci katibi Danq Kuok Baonu qəbul etdi.

**Oktyabrın 31-də** H.Əliyev ölkə üzrə səfərə çıxan Bolqarıstan Xalq Respublikasının Sovet İttifaqındakı fövqəladə və səlahiyyətli səfiri Dimitr Julevi qəbul etdi.

**Noyabrın 2-də** H.Əliyev Serebrovski adına NQÇİ-nin hesabat-seçki partiya konfransında iştirak etdi.

**Noyabrın 3-də** H.Əliyev bir qrup elm, mədəniyyət və incəsənət xadimlərinə Azərbaycan SSR Dövlət mükafatlarını təqdim etdi.

**Noyabrın 4-də** H.Əliyev Böyük Oktyabr sosialist inqilabının 61-ci ildönümünə həsr olunmuş təntənəli iclasda iştirak etdi. Məruzə ilə Azərbaycan KP MK-nın katibi K.Bağırov çıxış etdi.

**Noyabrın 7-də** H.Əliyev və respublikanın digər rəhbərləri Bakı qarnizonu qoşunlarının paradında və Bakı şəhəri zəhmətkeşlərinin nümayişində iştirak etdilər.

**Noyabrın 22-də** H.Əliyev Tbilisidə Zaqafqaziya Hərbi Dairəsi Hərbi Şurasının iclasında iştirak etdi.

**Dekabrın 6-da** F.Dzerjinski adına klubda H.Əliyev Azərbaycan partiya aktivinin iclasında çıxış etdi.

**Dekabrın 7-də** H.Əliyev Hindistan Kommunist partiyası İcraiyyə Komitəsinin üzvü, Bixar ştatında kommunist təşkilatının birinci katibi Sunil Mukercunu qəbul etdi.

**Dekabrın 14-də** H.Əliyev Azərbaycan KP MK-nın plenumunda Sov.İKP MK noyabr (1978-ci il) plenumunun yekunları və respublika partiya təşkilatının bu qərarlardan irəli gələn vəzifələri barədə məruzə ilə çıxış etdi.

1978-ci ildə Azərbaycan dövlətə taxıl, pambıq, tərəvəz, meyvə, yaşıl çay yarpağı, barama və yun satışı üzrə 1980-ci il üçün planlaşdırılmış səviyyəyə çatdı. 1978-ci ildə kənd təsərrüfatı məhsulunun ümumi həcmi təxminən 2 milyard manat təşkil etmişdi ki, bu da orta hesabla doqquzuncu beşillikdə olduğundan 44% artıq idi.

Ancaq hər halda kənd təsərrüfatında hələ çoxlu problemlər qalırdı: yüngül və ərzaq sənayesində məhsulun keyfiyyətinin və assortimentinin yaxşılaşdırılması problemi kəskin idi, nəqliyyatda gerilik müşahidə olunurdu, xüsusilə də dəmir yolunda, respublika əhalisinin öz ət və süd məhsulları ilə təmin olunması məsələsi ləng həll olunurdu, 1978-ci ilin yem tədarükü planı yerinə yetirilməmişdi, israfçılıq üzündən kənd təsərrüfatı məhsullarının itkisi böyük idi və s. H.Əliyev bu barədə açıq danışıb, günahı olan nazirliklərin, idarələrin və ayrı-ayrı rəhbər işçilərin adlarını çəkdi.

**Dekabrın 22-də** H.Əliyev Bakı şəhəri 26 Bakı komissarı adına rayonun 48-ci partiya konfransında iştirak etdi.

**Dekabrın 25-də** H.Əliyev Qırmızı bayraqlı Bakı HHM dairəsinin XIV partiya konfransında iştirak etdi.

**Dekabrın 28-də** Minskdə Belarussiya Kommunist Partiyası Mərkəzi Komitəsinin və respublika Ali Sovetinin BSSR-in və Belarussiya Kommunist Partiyasının 60 illiyinə həsr olunmuş təntənəli yığıncağı oldu. Təntənələrdə iştirak edən H.Əliyev, yığıncaqda təbrik nitqi ilə çıxış etdi.

**Dekabrın 31-də** H.Əliyev "Moskva" universal mağazasının açılışı günü orada oldu.



# 1979

**Yanvarın 12-də** DQMV-nin xəritəsində Azərbaycan dəmir yolunun yeni – Stepanakert stansiyası meydana gəldi. Burada ikimərtəbəli vağzal binası, yük sahəsinin inzibati korpusu, lokomotiv briqadalarının istirahət evi, lazımi stansiya tikililəri ucaldıldı. Ağdamdan çəkilən 26 kilometrlik yol dağ çaylarının, suvarma kanallarının üstündən keçdi, trasda bir neçə körpü inşa edildi.

İndi muxtar vilayəti respublikanın və bütün ölkənin bir çox yaşayış məntəqələri ilə ən səmərəli nəqliyyat növü birləşdirir. Nəticədə DQMV-də istehsal olunan məhsulun maya dəyəri altı dəfədən çox aşağı düşmüşdür. Yolun açılışında Stepanakertə gəlmiş H.Əliyev çıxış etdi.

**Yanvarın 13-də** H.Əliyev Dağlıq Qarabağ vilayət partiya təşkilatının XXVIII konfransında iştirak etdi.

**Yanvarın 19-da** H.Əliyev MK-da Azərbaycan SSR DİN şəxsi heyətinin respublika müşavirəsi iştirakçılarını qəbul etdi.

**Yanvarın 24-də** MK-nın birinci katibi 43-cü Bakı partiya konfransında çıxış etdi. Çıxışında o Sovet küçəsinin yenidən qurulması və tikilməsi planının təsdiq olunmasından, həmçinin 177 milyon dəyərində, uzunluğu 288 kilometr olan ikinci Kür su kəmərinin inşasına başlanması barədə danışdı.

**Yanvarın 26-da** Siyasi Maarif Evində Azərbaycan respublikası partiya-təsərrüfat fəalları iclası oldu.

**Fevralın 5-də** H.Əliyev Bakının Lenin, Kirov, Orconikidze və Əzizbəyov rayonlarındakı bir sıra obyektlərdə oldu.

O, "Bakinski raboçi" Maşınqayırma zavodunda, 1 saylı çörək zavodunda oldu, Razin qəsəbəsində yeni istifadəyə verilmiş binanın mənzillərində, poliklinikada, üzgüçülük kompleksində, Lenin Komsomolu adına stadionda oldu.

Kirov rayonunda Xırdalandakı ət-süd emalı kompleksində, mətbəx mebeli istehsal edən fabrikdə oldu, 9-cu mikrorayonda yaşayış evlərinin tikintisinin gedişi ilə maraqlandı.

Əzizbəyov rayonunda fəhlə yataqxanasında, Buzovna qəsəbəsində Qələbə küçəsindəki yeni yaşayış massivində, "Bakıelektroavtomat" zavodunda oldu.

Artyom adasında "Artyomqazneft" NQÇİ-də ucaldılmış buxar generator qurğusu, 4 nömrəli mədəndə avtomatlaşdırılmış idarəetmə sistemi ilə tanış oldu, neft mədəninin qırmızı guşəsində işdən azad olan fəhlələrlə görüş keçirdi.

Orconikidze rayonunda Orconikidze adına Maşınqayırma zavodunda oldu, Əmircan qəsəbəsində Böyük Oktyabrın 60 illiyi adına yeni meydana baxdı.

Bütün 4 rayonda rayon partiya komitələrinin büro üzvləri, onların aparat işçiləri, partiya və sovet fəalları ilə söhbətlər apardı.

**Fevralın 6-da** Bakı – Lenin seçki dairəsi seçicilərinin SSRİ Ali Sovetinin İttifaq Sovetinə öz namizədləri H.Əliyevlə görüşləri oldu.

**Fevralın 17-də** H.Əliyev Bakı aeroportunda SSRİ mülki aviasiya naziri, Baş aviasiya marşalı B.Buqayevi qarşıladı.

**Fevralın 22-də** V.İ.Lenin adına Sarayda Azərbaycan SSR-ə 1978-ci ilin sosializm yarışında qalib gəldiyinə görə Sov.İKP MK, SSRİ Nazirlər Soveti, ÜİHİMŞ və ÜİLKGİ-nin keçici Qırmızı bayrağının təqdim olunmasına həsr olunmuş partiya-təsərrüfat fəallarının təntənəli yığıncağı oldu. Bayrağı SSRİ Nazirlər Soveti sədrinin müavini, SSRİ Dövlət Plan Komitəsinin sədri N.Baybakov təqdim etdi.



O öz çıxışında qeyd etdi ki, **"ötən il Azərbaycan iqtisadiyyatı əvvəlki illərdə olduğu kimi, bütün müttəfiq respublikaların içində ən yüksək templərlə** (seçmə bizimdir – ***E.A.***) inkişaf etmişdir". Sənaye istehsalının artımı bu il bütün ölkədə olduğu 4,8%-ə qarşı 8% təşkil etmişdir. Beşilliyin üç ili ərzində əmək məhsuldarlığı 15% artmışdır ki, bu da beşilliyin tapşırıqlarını qabaqlayır. Kənd təsərrüfatı əməkçiləri böyük uğur qazanmışdır. 1978-ci ildə onlar respublikanın tarixində ən yaxşı göstəricilərə nail olmuşlar. Bütövlükdə kənd təsərrüfatı üzrə ümumi məhsulun həcmi ötən il 2 milyard manata yaxın təşkil etmişdir ki, bu da doqquzuncu beşilliyin orta illik həcmindən 44% çoxdur. Bu, bütün Azərbaycan zəhmətkeşlərinin böyük və şanlı qələbəsidir".

*1978-ci ildə Azərbaycanda 1 milyon 169 min ton buğda, 598 min ton çiyidli pambıq, 932 min ton üzüm, 872 min ton tərəvəz, 234 min ton meyvə yığılmışdır.*

**Fevralın 23-də** H.Əliyev Xəzər dənizçiləri memorialının təntənəli açılışında iştirak etdi.

**Martın 4-də** SSRİ Ali Sovetinə seçkilər keçirildi.

**Martın 7-də** H.Əliyev M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Beynəlxalq Qadınlar gününə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**Martın 17-də** respublika qəzetlərində Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında" qərarı dərc edildi.

Qərarda "Əkin sahələri strukturunun daha da təkmilləşdirilməsi zəminində üzümçülük və şərabçılığın sürətli inkişafı, 1990-cı ildə üzüm istehsalının 2,5 -3 milyon tona çatdırılması" vəzifəsi qarşıya qoyulurdu.

1979-1986-cı illərdə 190 min hektar (bunun 140 min hektarı taxıl bitkilərinin azaldılması hesabına) sahədə yeni üzümlüklərin salınması nəzərdə tutulurdu.

Qərar respublikanın sosial-iqtisadi inkişafın kompleks proqramının həyata keçirilməsinə konkret maliyyə, maddi-texniki yardımı nəzərdə tuturdu. Qərarda XI beşillikdə böyük kapital qoyuluşu, emal sənayesinin intensiv inkişafı, su kəmərlərinin, qaz kəmərlərinin, yolların, məktəblərin, texniki-peşə məktəblərinin, ticarət və iaşə müəssisələrinin inşası, yeni dəmir yolu xəttinin çəkilməsi, energetika sisteminin genişləndirilməsi, meliorasiya və su təsərrüfatı tikintisinin geniş proqramı, o cümlədən Azərbaycan kənd təsərrüfatının suvarma suyuna artan ehtiyacını ödəmək üçün çoxlu sayda su anbarı və dəryaçaların tikilməsi nəzərdə tutulurdu.

**Martın 23-də** H.Əliyev M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Azərbaycan partiya təsərrüfat fəalları yığıncağında çıxış etdi.

**Martın 27-də** H.Əliyev Bakı Məişət Kondisionerləri zavoduna 1978-ci ilin Ümumittifaq sosializm yarışında qazandığı qələbəyə görə Sov.İKP MK, SSRİ Nazirlər Soveti, ÜİHİMŞ və ÜİLKGİ-nin keçici Qırmızı bayrağını təqdim etdi.

**Martın 28-də** H.Əliyev S.Şaumyan adına Mədəniyyət sarayında keçirilən respublikalararası topdansatış yarmarkasında oldu.

**Martın 29-da** H.Əliyev Bakının əməkçi kollektivlərinin nümayəndələri ilə birlikdə partiya, sovet, həmkarlar ittifaqı, komsomol və təsərrüfat fəalları iclasında çıxış etdi və respublika paytaxtına Ümumittifaq sosializm yarışında qalib gəldiyinə görə Sov.İKP MK, SSRİ Nazirlər Soveti, ÜİHİMŞ və ÜİLKGİ-nin keçici Qırmızı bayrağını təqdim etdi.

**Aprelin 7-də** H.Əliyev respublika Rəssamlar İttifaqı Bədii fondunun yaradıcı-istehsalat kombinatında oldu, Azərbaycan sənətkarlarının yeni əsərləri, həmçinin iş şəraiti ilə tanış oldu.

**Aprelin 9-da** Azərbaycan SSR və Azərbaycan Kommunist Partiyasının 60 illiyinə hazırlıqla bağlı respublika yubiley komissiyasının iclası oldu.



**Aprelin 10-da** H.Əliyev "Vışka" qəzetinə Qırmızı Əmək Bayrağı ordeni təqdim etdi.

**Həmin gün** Azərbaycan SSR Ali Sovetində H.Əliyev bir qrup görkəmli elm və ədəbiyyat xadiminə mükafatlar təqdim etdi.

**Aprelin 20-də** H.Əliyev V.İ.Leninin anadan olmasının 109-cu ildönümünə həsr edilmiş təntənəli yığıncaqda iştirak etdi. Məruzə ilə Azərbaycan KP MK Bürosunun üzvü, Bakı şəhər partiya komitəsinin birinci katibi Ə.Kərimov çıxış etdi.

**Aprelin 21-də** H.Əliyev Lenin kommunist iməciliyində iştirak etdi.

**Aprelin 25-də** V.İ.Lenin adına Sarayda "Fəal həyat mövqeyinin formalaşması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri" mövzusunda Ümumittifaq elmi-praktiki konfransının açılışı oldu.

Konfransı Sov.İKP MK təbliğat şöbəsinin müdiri Y.Tyajelnikov açdı. O dedi ki, konfrans Sov.İKP MK-nın qərarına əsasən keçirilir. Konfransı SSRİ Elmlər Akademiyası, ÜİHİMŞ, ÜİLKGİ MK, Sovet Ordusu və Hərbi-Hava donanması Baş siyasi idarəsi, nazirlik və idarələr, ölkənin yaradıcılıq ittifaqlarının iştirakı ilə Sov.İKP MK-nın və Azərbaycan KP MK-nın şöbələri keçirir.

Konfransın işində Moskvanın, Leninqradın, bütün müttəfiq respublikaların, RSFSR-in diyar və vilayətlərinin nümayəndələri iştirak edirdi. İştirakçılar sırasında xeyli tanınmış alim, ədəbiyyat və incəsənət xadimi, jurnalist, hərbçi, partiya və ideologiya işçisi var idi. Konfransda, məsələn, bu adda məruzələr səsləndi: "Zəhmətkeşlərin tərbiyə olunması sistemi haqqında", – Belorussiya KP MK katibi A.Kuzmin; "Sovet adamının dünyagörüşünün, mənəvi əqidəsinin, daxili mədəniyyətinin formalaşmasında ədəbiyyat və incəsənətin rolu", – SSRİ mədəniyyət nazirinin birinci müavini Y.Barabaş; "Elm və fəal həyat mövqeyinin formalaşması", – SSRİ EA-nın

müxbir üzvü, SSRİ EA Sibir bölməsinin prezidenti, akademik Q.Marçuk.

Əsas məruzəni H.Əliyev etdi.

Yekun konfransına qədər müttəfiq respublikalarda, diyar və vilayətlərdə plenumlarda və partiya komitələrinin aktivlərində, əmək kollektivlərinin iclaslarında, təhsil müəssisələrində, orduda, daxili işlər orqanlarında və s. mənəvi tərbiyə problemlərinə dair bir neçə ay diskussiyalar keçmişdi. Buna görə də konfransın yekun hissəsinin Bakıda keçirilməsini H.Əliyev Sov.İKP -nin respublika partiya təşkilatına göstərdiyi böyük etimad kimi qiymətləndirdi. Azərbaycanda da həmin problemin müxtəlif aspektlərinə dair 120-dən çox konfrans keçirilmişdi.

H.Əliyev qeyd edir ki, SSRİ-də sosializmin qurulması beynəlxalq aləmdə gedən gərgin ideoloji mübarizə şəraitində keçir: "İmperialist irticası ideoloji təxribatlar yolu ilə sovet cəmiyyətinin, bütün sosializm birliyinin ideya-siyasi əsaslarını laxlatmağa çalışır, insanların mənəvi düşüncəsinə hər vechlə təsir göstərməyə cəhd edir".

Buna görə də, H.Əliyevin fikrincə, ideoloji işi gücləndirmək və səmərəliliyini artırmaq, sovet adamlarının sosial-siyasi və əmək fəaliyyətini artırmaq, onların vətəndaşlıq və mənəvi yetkinliyini yüksəltmək lazımdır.

"Sosializmlə kapitalizm arasındakı mübarizədə mənəvi problem hazırda əsas istiqamətlərdən biridir. Düşmənlərimizin məqsədi – partiya və xalqın birliyini qırmaq, sovet adamlarının mənəvi dəyərlərini gözdən salmaq, onun maraqlarını şəxsi tələbat və meşşan qayğılarına yönəltmək, xırda burjua, siyasi laqeydlik toxumları yaymaqdır.

Partiyamız yoxsulluq və asketizm təbliğini qəbul etmədiyi kimi, şəxsi tələbat, manatın hər şeydən üstün tutulduğu meşşanlıq psixologiyasını da rədd edir".

Azərbaycanın partiya lideri həmişə olduğu kimi rüşvətxorluq, proteksionizm, vəzifədən sui-istifadə, pulgirlik etmək kimi sosialist mənəviyyatı antipodlarını kəskin tənqid etdi.



O, neqativ halların aradan qaldırılmasında respublikanın qazandığı müsbət təcrübədən söz açır, bu işdə tənqid və özünütənqidin, keçirilən tədbirlərin, görülmüş və görüləsi işlərin ümumxalq müzakirəsi və kollektiv təhlilinin böyük köməyi olduğundan danışır.

"Mənəvi tərbiyə bütün işimizin tərkib elementinə çevrilmişdir. Və bu gün biz mənəvi tərbiyədən müəyyən bir sistem kimi danışa bilərik. Əgər onun əsas hissələrini göstərməyə cəhd etsək, aşağıdakıların adını çəkmək olar:

– bütün partiya, sovet, təsərrüfat orqanlarının fəaliyyətində Lenin prinsiplərinin, üslubunun bərqərar olması və onlara ciddi riayət olunması, kadrlara qarşı məsuliyyətin və tələbkarlığın gücləndirilməsi, ictimai və xidməti intizamın möhkəmləndirilməsi;

– kommunistlərin avanqard rolunun, rəhbər kadrların mənəvi nüfuzunun artırılması;

– iqtisadi və mədəni quruculuğun, təsərrüfat və sosial fəaliyyətin bütün kompleks məsələlərinin həllində mənəvi aspektlərin nəzərə alınması, bütün sahələrdə işin nəticələrinin qiymətləndirilməsinə mənəvi meyarların daxil edilməsi;

– insanların düşüncə və hərəkətlərində keçmişin qalıqları, kommunist əxlaqının antipodları ilə barışmaz mübarizə, burjua ideologiyası və əxlaqının, burjua həyat tərzinin standartlarının tənqid və ifşa edilməsi;

– əmək və ictimai fəaliyyətin maddi və mənəvi stimullarının harmonik ahəngi, sosializmin əsas prinsipi olan "hamıdan bacarığına, hər kəsə əməyinə görə" prinsipinin mənəvi mənasının ardıcıl həyata keçirilməsi və açılması;

– kütlələrin rifah halının yüksəldilməsinə daimi diqqət, zəhmətkeşlərin gəlirlərinin artırılması, onların əmək və məişət şəraitinin ictimai istehsalın artırılması hesabına yaxşılaşdırılması, səmərəliliyinin artırılması; ticarət, ictimai iaşə, məişət xidməti, mənzil-kommunal təsərrüfatı, nəqliyyat müəssisələrinin fəaliyyətinin yaxşılaşdırılması, neqativ hallara qarşı

gündəlik mübarizə və əhaliyə xidmət sahəsində vəziyyətin sağlamlaşdırılması;

– kütlələrlə əlaqənin möhkəmləndirilməsi, vətəndaş məktubları ilə işin yaxşılaşdırılması, ictimai rəydən geniş istifadə, tənqid və özünütənqidin hərtərəfli inkişafı, bürokratizmlə qətiyyətli mübarizə, idarəçilik orqanlarının işində tam aşkarlıq.

Aşkarlıq haqqında H.Əliyev ayrıca danışdı:

"Partiya təşkilatının neqativ hallara, kommunist əxlaqının antipodlarına qarşı apardığı mübarizə ilə kommunistləri, bütün əhalini tanış etmək üçün kütləvi informasiya vasitələrinin imkanlarından istifadə olunmasına böyük əhəmiyyət veririk. Geniş zəhmətkeş təbəqələri mətbuat vasitəsilə partiya komitələri, xalq nəzarəti, milis, prokurorluq, məhkəmə orqanlarının tamahkarlıq məqsədi ilə vəzifəsindən sui-istifadə edənlərə, pul tələb edənlərə, rüşvətxorlara, xalq malını talan edənlərə qarşı fəaliyyəti barədə məlumat alırlar. Təcrübə göstərir ki, aşkarlıq – idarəetmə orqanlarının işinin məhsuldar olmasının, kommunist tərbiyəsinin səmərəliliyinin, sosializm demokratiyasının təkmilləşdirilməsinin, köhnəliyin qalıqları ilə mübarizənin ən təsirli vasitələrindən biridir. Kütlələr partiya təşkilatının prinsipial xətti ilə tanış olduqda, onun xalqdan heç nəyi gizlətmədiyini görəndə bu onların sosial fəallığının artmasına kömək edir".

"Parlaq və miqyaslı", "təsirli", "yaxşı düşünülmüş və əsaslandırılmış", "fikir etibarilə və problemi işıqlandırmaq baxımından yeni" – konfransda çıxış edənlər H.Əliyevin məruzəsini bu sözlərlə səciyyələndirdilər və bu boş sözlər deyildi. Onun çıxışı, iş metodları, xüsusilə aşkarlıq, neqativ hallarla mübarizə haqqında mülahizələri SSRİ partiya və təsərrüfat işçilərinin bir çoxu üçün yeni, gözlənilməz oldu. Bu konfransın əks-sədası Azərbaycan hüdudlarından çox uzaqlara yayılaraq, H.Əliyevi ölkənin partiya elitası arasında daha da populyar etdi.



**Aprelin 27-də** H.Əliyev "Moskva" mehmanxanasının restoranında mənəvi tərbiyə üzrə Ümumittifaq elmi-praktiki konfransın başa çatması münasibəti ilə qəbulda iştirak etdi.

**Aprelin 28-də** V.İ.Lenin adına Sarayda Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 59-cu ildönümü və 1 May gününə həsr olunmuş təntənəli yığıncaq oldu. H.Əliyev və respublikanın digər rəhbərləri rəyasət heyətində əyləşmişdilər. Məruzə ilə Azərbaycan KP MK Bürosunun üzvü, respublika Nazirlər Soveti sədrinin birinci müavini S.Tatlıyev çıxış etdi.

**Mayın 1-də** H.Əliyev Bakıda 1 May nümayişində iştirak etdi.

**Mayın 9-da** H.Əliyev Nərimanov rayonundakı memorial məzarlıqda, həmçinin Sovet İttifaqı qəhrəmanları Həzi Aslanov və Mehdi Hüseynzadənin abidələri önünə əklillər qoydu. Həmin gün o, C.Naxçıvanski adına internat-məktəbdə oldu.

**Mayın 14-də** H.Əliyev MK-da gənc qrossmeyster Harri Kasparovu qəbul etdi.

**Mayın 19-da** H.Əliyev Yaşıl teatrda pionerlərin bayramında iştirak etdi.

**Mayın 29-da** H.Əliyev respublikanın Neftçala rayonunda oldu.

**Həmin gün** H.Əliyev SSRİ Tibb Elmləri Akademiyasının prezidenti, SSRİ Elmlər Akademiyasının və Tibb Elmləri Akademiyasının akademiki, Sosialist Əməyi Qəhrəmanı N.Bloxini qəbul etdi.

**İyunun 2-də** Bakıda Azərbaycan KP MK tərəfindən çağırılmış respublika kənd təsərrüfatı işçilərinin müşavirəsi keçirildi. Müşavirə Sov.İKP MK iyul və noyabr (1978-ci il) plenumlarının qərarları, Bakıdakı təntənələrdə L.Brejnevin səsləndirdiyi göstərişlər işığında 1979-cu ilin plan və sosialist öhdəliklərinin yerinə yetirilməsinin gedişinə həsr olunmuşdu.

**Həmin gün** H.Əliyev Azərbaycanın kənd təsərrüfatı işçilərinə dövlət mükafatları təqdim etdi.

**İyunun 4-də** Azərbaycanda Özbəkistan SSR-in Ədəbiyyat və İncəsənət günləri başlandı. H.Əliyev Özbəkistan KP MK katibi A.Səlimov başda olmaqla mədəniyyət və incəsənət xadimlərinin nümayəndə heyətini qəbul etdi.

**İyunun 7-də** H.Əliyev Bakıda tikilən obyektlərə baş çəkdi.

**İyunun 12-də** H.Əliyev Özbəkistan SSR-in təsviri və tətbiqi-sənət sərgisində oldu.

**Həmin gün** H.Əliyev Azərbaycanda Özbəkistan Ədəbiyyatı və İncəsənəti günləri iştirakçılarının şərəfinə keçirilən ziyafətdə çıxış etdi.

**İyunun 16-da** H.Əliyev M.F.Axundov adına Opera və Balet Teatrında oldu, Fikrət Əmirovun "Min bir gecə" baletinə baxdı.

**İyunun 29-da** H.Əliyev S.M.Kirov adına Qırmızı bayraqlı Xəzər Ali Hərbi-dəniz məktəbinin gənc donanma zabitlərinin buraxılış mərasimində iştirak etdi.

**İyulun 16-da** H.Əliyev SSRİ Gənclər Təşkilatları Komitəsinin və Amerika Gənc Siyasi Xadimlər Şurasının Bakıda keçən seminarının iştirakçılarını qəbul etdi.

**İyulun 17-də** H.Əliyev Azərbaycan KP MK-nın plenumunda "Sov.İKP MK-nın "İdeoloji, siyasi-tərbiyə işinin daha da yaxşılaşdırılması haqqında" qərarının yerinə yetirilməsində respublika partiya təşkilatının vəzifələri haqqında" məruzəsi ilə çıxış etdi.

Bu vaxt üçün respublikada güclü, müasir texnika ilə təchiz olunmuş informasiya-təbliğat aparatı yaradılmışdı.

"Bizdə 130 qəzet, 107 jurnal nəşr olunur, hər il 1.400 adda, ümumi tirajı 13,5 milyon nüsxə olan kitab buraxılır. Azərbaycan televiziyası gündəlik olaraq iki kanalla 13 saat ərzində veriliş aparır; radio verilişləri yeddi dildə sutkada 48 saat təşkil edir".

Tərbiyənin çoxçeşidli vasitə və formalarından səmərəli istifadə olunması sahəsində müsbət misallar gətirən H.Əliyev



Lənkəran şəhər partiya komitəsinin təcrübəsindən danışdı: "Kənd əhalisinin mədəniyyətinin yüksəlməsinə, onun məişət şəraitinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirilir. Yalnız doqquzuncu və onuncu beşilliklər dövründə 37 mədəniyyət ocağı, o cümlədən Kitab evi, Ziyalılar evi, Yaşıl teatr, musiqi məktəbi tikilmişdir, haqlı populyarlıq qazanmış Dram teatrı yaradılmışdır. Təqribən 5 minə yaxın kənd əməkçisi bədii özfəaliyyətdə iştirak edir. 90 kənddə müasir məişət evləri əhaliyə 20 növ müxtəlif xidmətlər göstərir. Xalq tikintisi üsulu ilə şəhər stadionu, pansionat tikilmiş, kəndlərdə idman yarışlarının, bədii müsabiqələrin, alim, yazıçı, rəssam, artistlərlə görüşlərin, ümumrayon məhsul bayramının keçirilməsi yaxşı ənənə halını almışdır".

H.Əliyev zəhmətkeşlərin beynəlmiləlçilik ruhunda tərbiyə edilməsinin səviyyəsinin yüksəldilməsini və beynəlmiləlçi tərbiyənin vasitələrindən biri kimi müxtəlif millətlərdən olan əməkçilərin rus dilinə yiyələnməsinin zəruriliyini vurğuladı.

Bununla yanaşı, respublikanın partiya rəhbəri səhiyyə, ticarət, avtomobil nəqliyyatı nazirliklərinin işində olan nöqsanları qeyd etdi. O, həmin nazirlik rəhbərlərinin neqativ hallarla zəif mübarizə apardıqlarını, bununla da əhalinin narazılığının, nəqliyyatın, xəstəxanaların, ticarət və ictimai iaşə müəssisələrinin işindən gileylərin artmasına şərait yaratdıqlarını söylədi. Buna görə də səhiyyə, ticarət və avtomobil nəqliyyatı nazirləri (H.Abdullayev, H.Zeynalov, M.Babayev) vəzifəsindən azad edilmişlər. Hər üç nazirlik üzrə vəziyyətin təhlili və qiymətləndirilməsini əks etdirən qərarlar qəbul edilmiş, nöqsanları aradan qaldırmaq üçün konkret tədbirlər göstərilmişdir.

**İyulun 23-24-də** Azərbaycan KP MK Yevlax və İmişli rayonlarında respublikanın pambıq becərən rayonları rəhbərlərinin müşavirəsini keçirdi. H.Əliyev rayon rəhbərləri qarşısında çıxış etdi.

**Avqustun 1-də** H.Əliyev Şamaxı rayonunda oldu, rayon partiya-təsərrüfat fəalları yığıncağını və üzümçülərin zona müşavirəsini keçirdi.

**Həmin gün** "Pravda" qəzeti Azərbaycan KP MK-nın birinci katibi H.Əliyevlə "Vicdanımızın hökmü ilə" adlı müsahibəni dərc etdi.

**Avqustun 24-də** Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyevə Sosialist Əməyi Qəhrəmanı adı verilməsi haqqında SSRİ Ali Sovetinin Fərmanı imzalandı.

"Respublika kommunistlərini və bütün zəhmətkeşlərini XXV partiya qurultayının xalq təsərrüfatının inkişafı üzrə qərarlarının, ictimai istehsalın səmərəliliyinin artırılması, ölkəyə bütün kənd təsərrüfatı məhsullarının satılması üzrə plan və sosialist öhdəliklərinin ilbəil yerinə yetirilməsinə səfərbər etmək üzrə böyük təşkilati və siyasi fəaliyyətinə görə Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi yoldaş Əliyev Heydər Əlirza oğluna Lenin ordeni və "Oraq və çəkic" qızıl medalı təqdim edilməklə Sosialist Əməyi Qəhrəmanı adı verilsin.

SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri
L.Brejnev
SSRİ Ali Soveti Rəyasət Heyətinin katibi
M.Georqadze

Moskva, Kreml, 24 avqust 1979-cu il".

**Avqustun 28-də** V.İ.Lenın adına Sarayda H.Əliyevin birinci kurs tələbələri ilə görüşü oldu. MK-nın birinci katibi çıxışında aşağıdakı rəqəmləri açıqladı:

"Bu gün respublikanın iki min səkkiz yüz oğlan və qızı ölkənin 46 şəhərinin 152 ali məktəbində 244 ixtisas üzrə tədris alır. Son doqquz ildə (1970-ci ildən) digər şəhərlərin ali məktəblərini Azərbaycandan olan 500 tələbə qurtarmışdır, qəbul



isə 10 dəfə artmışdır. Bu il 690 nəfər daxil olmuşdur. Daha 42 tələbə yuxarı kurslara dəyişilmiş, 65 nəfər isə hazırlıq şöbələrinə daxil olmuşdur. Ölkənin ali hərbi məktəblərinə Azərbaycandan 629 gənc daxil olmuşdur, onlardan 274-ü yerli millətin nümayəndələridir".

**Sentyabrın 7-də** H.Əliyev Kremldə sovet kosmonavtlarına orden və medalların təqdimetmə mərasimində iştirak etdi.

**Həmin gün** bütün mərkəzi və respublika qəzetləri Kremldə H.Əliyevə Lenin ordeni və Sosialist Əməyi Qəhrəmanının "Oraq və çəkic" qızıl medalının təqdim olunması mərasimindən sonra L.Brejnev və H.Əliyevin çıxışlarını dərc etdi.

L.Brejnev əsasən bunları demişdi: "Mükafat böyük və dərin məna kəsb edir. Həmin mükafata, Heydər Əliyeviç, təkcə sizin şəxsi və uğurlu fəaliyyətiniz yox, mühüm partiya qərarlarının yerinə yetirilməsində, respublikanın inkişafında, Sovet Vətənimizin zənginləşməsi və qüdrətlənməsində iştirakı olan Sovet Azərbaycanının bütün zəhmətkeşləri layiq görülüblər.

Ona görə də düşünürəm ki, Sizin təltif olunmağınız bütün Azərbaycan zəhmətkeşləri tərəfindən onların da əmək nailiyyətləri və uğurlarına verilən qiymət kimi məmnuniyyətlə qarşılanacaqdır...

Siz, Heydər Əliyeviç, Azərbaycan KP MK-ya başçılıq etdiyiniz on il müddətində kommunist-rəhbərə məxsus zəruri keyfiyyətləri inamla nümayiş etdirdiniz. Siz Azərbaycan zəhmətkeşlərinin qazandıqları müsbət və davamlı nəticələrə böyük töhfə vermisiniz, mövcud nöqsanların aradan qaldırılması, vaxtı yetişmiş böyük məsələlərin həll olunması üçün də xeyli iş görürsünüz.

Mükafat da bütün bunlara görədir. Layiq olduğunuz mükafat, Heydər Əliyeviç".

**Sentyabrın 8-də** H.Əliyev XTNS-də beynəlxalq sərgi-yarmarkada oldu.

**Sentyabrın 11-12-də** H.Əliyev Bərdə və Sabirabadın təsərrüfatlarını gəzdi, rayon partiya-təsərrüfat fəalları yığıncaqlarını və zona müşavirələrini keçirdi.

**Sentyabrın 13-də** H.Əliyev Suriya Ərəb Sosialist Dirçəliş partiyasının baş katibinin müavini Abdulla Əhmarı qəbul etdi.

**Sentyabrın 17-də** H.Əliyev Sovet İttifaqı marşalı İ.Baqramyanı qəbul etdi.

**Sentyabrın 18-19-da** H.Əliyev respublikanın Martuni, Şamxor, Qazax rayonlarının təsərrüfatlarına baş çəkdi, rayon fəalları yığıncaqları və üzümçülük üzrə kənd təsərrüfatı işçilərinin zona müşavirələrini keçirdi.

**Sentyabrın 19-da** Heydər Əliyev Şamxor rayonunun Çardaxlı kəndində Döyüş və Əmək Şöhrəti Muzeyini açdı. Şamxor rayonundan cəbhəyə 15 min nəfər, o cümlədən Çardaxlıdan 677 nəfər yola düşmüşdü. Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş ilk azərbaycanlı – İsrafil Məmmədov Şamxordandır. Muzeyin açılışında Sovet İttifaqı marşalı İ.Baqramyan iştirak etdi. İki dəfə Sovet İttifaqı Qəhrəmanı İvan Baqramyan, həmçinin tank qoşunları baş marşalı A.Babacanyan əslən Çardaxlı kəndindən idilər.

**Həmin gün** "Pravda" qəzetində H.Əliyevin ona Sosialist Əməyi Qəhrəmanı adı verilməsi münasibəti ilə təbriklərə görə bütün təşkilatlara və yoldaşlara təşəkkürü dərc edildi.

**Sentyabrın 21-də** H.Əliyev M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Azərbaycan bəstəkarlarının V qurultayında iştirak etdi.

**Sentyabrın 22-də** H.Əliyev Bolqarıstan baş prokurorunun birinci müavini Qriqor Qriqorov başda olmaqla Bolqarıstan Xalq Respublikasının bir qrup prokurorluq işçisini qəbul etdi.

**Sentyabrın 28-də** H.Əliyev M.F.Axundov adına Opera və Balet Teatrında Azərbaycan kooperatorlarının qurultayında iştirak etdi.



**Oktyabrın 1-də** H.Əliyev MK-da Bəstəkarlar İttifaqının Azərbaycan bəstəkarlarının V qurultayı tərəfindən seçilmiş rəyasət heyətinin rəhbərləri və üzvləri ilə görüşdü. Respublikanın partiya lideri musiqi xadimləri qarşında parlaq nitqlə çıxış etdi. Bu çıxış göstərdi ki, o nəinki Azərbaycan musiqi sənətinin bütün müasir problemlərindən agahdır, hətta onların həlli yollarına öz baxışları da vardır.

**Oktyabrın 2-də** H.Əliyev Azərbaycanda Ukrayna Ədəbiyyatı və İncəsənəti günlərində iştirak etmək üçün Bakıya gəlmiş Ukrayna SSR nümayəndə heyətini qəbul etdi.

**Oktyabrın 3-də** H.Əliyev V.İ.Lenin adına Sarayda Ukrayna SSR Ədəbiyyat və İncəsənət günlərinin açılışında iştirak etdi.

**Oktyabrın 3-5-də** Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, SSRİ Ali Soveti Rəyasət Heyəti sədrinin birinci müavini V.Kuznetsov Azərbaycanda oldu. H.Əliyev hörmətli qonağı aeroportda qarşıladı və yola saldı.

**Oktyabrın 6-da** H.Əliyev Respublika təbliğatçılar aktivinin iclasında iştirak etdi.

**Oktyabrın 10-da** H.Əliyev Ukrayna SSR-in rəsm sərgisində oldu.

**Həmin gün** Ukrayna mədəniyyət və incəsənət xadimlərinin şərəfinə təşkil olunmuş qəbulda H.Əliyev Səməd Vurğunun Ukrayna partizanlarına həsr edilmiş şerini əzbərdən söylədi, qardaş Ukraynanın dünəni və bugünündən danışdı. Sonda isə Boris Oleynikin "Həqiqət" ("İstina") şeirindən böyük parçanı sitat gətirdi.

**Oktyabrın 12-də** H.Əliyev Ümumittifaq kənd təsərrüfatı işçiləri gününə həsr olunmuş təntənəli iclasda çıxış etdi.

**Oktyabrın 18-də** respublikanın partiya lideri SSRİ mülki aviasiyası siyasi işçilərinin Bakıda keçən Ümumittifaq seminar-müşavirəsində çıxış etdi. Müşavirədə iştirak etmək üçün mülki aviasiya naziri, baş aviasiya marşalı B.Buqayev Bakıya gəlmişdi.

**Oktyabrın 20-də** H.Əliyev ABŞ kommunist partiyası rəhbər partiya işçilərinin nümayəndə heyətini qəbul etdi.

**Oktyabrın 23-də** H.Əliyev Bakıda keçən hematoloq və transfuzioloqların birinci Ümumittifaq müşavirəsi iştirakçılarının bir qrupunu qəbul etdi.

**Oktyabrın 24-də** H.Əliyev Polşa Xalq Respublikasının Sovet İttifaqındakı fövqəladə və səlahiyyətli səfiri Kazimej Olşevskini qəbul etdi.

**Oktyabrın 26-da** H.Əliyev Bakıda Sarayevo günlərində iştirak edən Bosniya və Herseqovina paytaxtının nümayəndə heyətini qəbul etdi.

**Noyabrın 4-də** H.Əliyev SSRİ Elmlər Akademiyasının vitse-prezidenti B.Petrov başda olmaqla Ümumittifaq "İdarəetmə sistemlərinin dayanıqlığı, invariantlığı və həssaslığının ümumi problemləri" məktəbinin nümayəndə heyətini qəbul etdi.

**Noyabrın 5-də** V.İ.Lenin adına Sarayda respublika zəhmətkeşlərinin dövlətə kənd təsərrüfatı məhsullarının satışı üzrə plan və sosialist öhdəliklərinin yerinə yetirilməsinə və bununla bağlı Sov.İKP MK Baş katibinin təbrikinə həsr olunmuş mitinqi oldu.

1978-ci ildə kənd təsərrüfatı əməkçiləri rekord miqdarda – 1 milyon 185 min ton taxıl, 742 min ton pambıq, 972,5 min ton üzüm, 644 min ton tərəvəz və bostan bitkisi yığmışdı. Bu miqdarda kənd təsərrüfatı məhsulu ilk dəfə tədarük edilmişdi.

**Noyabrın 6-da** V.İ.Lenin adına Sarayda Böyük Oktyabr Sosialist inqilabının 62-ci ildönümünə həsr olunmuş təntənəli yığıncaq oldu. Məruzə ilə Azərbaycan KP MK Bürosunun üzvü, respublika Nazirlər Sovetinin sədri Ə.İbrahimov çıxış etdi.

**Noyabrın 7-də** H.Əliyev Böyük Oktyabrın ildönümü şərəfinə hərbi parad və Bakı zəhmətkeşlərinin nümayişində iştirak etdi.



**Noyabrın 19-da** Azərbaycan KP MK-nın plenumu oldu. H.Əliyev "Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 22 fevral 1979-cu il tarixli "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında" qərarının yerinə yetirilməsi üzrə respublika partiya təşkilatının vəzifələri" adlı məruzə ilə çıxış etdi. Bu, ittifaq orqanlarının Azərbaycanda kənd təsərrüfatının inkişafına dair üçüncü qərarı idi.

H.Əliyev qərarı belə dəyərləndirdi: "Respublika üçün bu tarixi partiya sənədi Azərbaycanın kənd təsərrüfatının, bütün iqtisadiyyatının bundan sonrakı inkişafını, sosial problemlər kompleksinin həllini, zəhmətkeşlərin rifahının yüksəldilməsini ehtiva edən elmi cəhətdən əsaslandırılmış uzunmüddətli proqramdır".

H.Əliyev dolğun və analitik məruzəsində, ittifaq səviyyəli qərarın həyata keçirilməsinə yönəlmiş təşkilati, partiya-siyasi və iqtisadi əməli tədbirləri, metod və vasitələri müəyyən etdi.

Əvvəlcə o, son 10 ildə kənd təsərrüfatının vəziyyətini təhlil etdi. Kənd təsərrüfatının inkişafında yol verilmiş böyük geriliyi aradan qaldırmaq və kənd təsərrüfatı məhsulları istehsalını xeyli artırmaq üçün tədbirlər görülməsini tələb edən Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 23 iyul 1970-ci il tarixli ilk qərarını yada saldı.

Artıq 1974-cü ildə pambıq, tərəvəz, üzüm, meyvə, çay, tütün, süd tədarükü və bütövlükdə kənd təsərrüfatının ümumi məhsulunun həcmi üzrə doqquzuncu beşilliyin son ili üçün müəyyən olunmuş səviyyə ötüb keçilmişdir. Bütün kənd təsərrüfatı məhsulunun istehsalı və tədarükü üzrə beşillik planlar vaxtından qabaq, artıqlaması ilə yerinə yetirilmişdir. Beş il ərzində taxıl təhvili üzrə 7 illik plan, pambıq və meyvə üzrə 6 illik plan yerinə yetirilmişdir. 1975-ci ildə kənd təsərrüfatının ümumi məhsulu 1969-cu ildəki 999 milyon manata qarşı 1 milyard 572 min manat olmuş, yaxud 57% artmışdır. 9-cu be-

şillikdə kənd təsərrüfatı istehsalının artım templəri planda olan 30 faizə qarşı və ölkə üzrə orta 13% olmaqla, 34 faizə çatmışdır.

Kənd təsərrüfatı məhsullarının istehsalı və tədarük planlarının artıqlaması ilə yerinə yetirilməsi, respublika iqtisadiyyatının güclənməsinə, kolxozçuların və sovxoz fəhlələrinin gəlirlərinin artmasına səbəb olmuşdur. 1969-cu illə müqayisədə 1975-ci ildə kolxozçuların aylıq orta əmək haqqı 47%, sovxoz işçilərininki isə – 38% artmışdır.

"Qazanılmış təcrübəni və yeni imkanları təhlil edərək, Azərbaycan KP MK-sı respublika kənd təsərrüfatının gələcək inkişafına dair təklifləri Sov.İKP MK-ya təqdim etdi. 1975-ci il iyulun 9-da yeni qərar qəbul edildi. Həmin qərarda istehsalın intensivləşdirilməsi, ixtisaslaşdırılması və təmərküzləşməsinin genişləndirilməsi, elmi-texniki tərəqqinin sürətləndirilməsi hesabına kənd təsərrüfatı məhsulları istehsalının əhəmiyyətli dərəcədə artırılması bir vəzifə kimi qarşıya qoyulurdu".

H.Əliyev qeyd edir ki, qərarı yerinə yetirərkən kənd təsərrüfatı məhsulunun ümumi istehsalı üzrə respublika artıq 1978-ci ildə və ya müəyyən edilmiş müddətdən iki il tez 1980-ci ilin səviyyəsinə çatmışdı. 1976-1979-cu illər üçün ümumi məhsulun illik orta artımı beşillik planda nəzərdə tutulan 18% əvəzinə 40% təşkil etmişdi.

H.Əliyev 1972-ci ildə respublika Kənd Təsərrüfatı Nazirliyi Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunun hazırladığı 1990-cı ilə qədər Azərbaycan kənd təsərrüfatının inkişafı, yerləşdirilməsi və ixtisaslaşdırılması proqnozunu yada saldı. 1990-cı il üçün onların planlaşdırdığı çiyidli pambıq, tütün göstəricilərini respublika artıq 70-ci illərin axırlarında ötüb keçmişdi, yerdə qalan bitkilər üzrə isə proqnoza yaxınlaşmışdı. Kolxozların təkcə pambıqçılıqdan gəlirləri 3,3 dəfə artmışdı.

Üzümçülüyün ölkə miqyasında xüsusi çəkisi artmağa başlamışdı: İttifaq üzrə üzüm istehsalının ümumi həcmində Azərbaycanın payı 6,5 faizdən 17 faizə qədər və ya təqribən 3 dəfə artmışdır. 1978-1979-cu illərdə sovxozların fəhlə və qulluqçularının aylıq orta əmək haqqı 1969-cu illə müqayisədə 65%, kolxozçuların əmək haqqı isə az qala 3 dəfə artmışdır.



Daha sonra H.Əliyev üçüncü qərarın tarixçəsini danışdı: "Sov.İKP MK-nın iyul (1978-ci il) Plenumu ərəfəsində biz kənd təsərrüfatındakı vəziyyəti bir daha təhlil etmək və onun gələcək inkişaf yollarını müəyyən etmək qərarına gəldik. Azərbaycan KP MK Bürosu tərkibinə partiya, sovet, təsərrüfat rəhbərlərinin, alimlərin, kənd təsərrüfatı mütəxəssislərinin daxil olduğu nüfuzlu komissiya yaratdı. Respublikanın kənd təsərrüfatının çoxsahəli xarakterini nəzərə alaraq, komissiya kənd təsərrüfatı istehsalının gələcək ixtisaslaşdırılması və təmərküzləşməsinin bütün amillərini diqqətlə öyrənmiş və hər bir sahənin inkişaf imkanlarını və iqtisadi səmərəliliyini müəyyən etmişdi. Komissiyanın gəldiyi nəticələr vilayət, şəhər, rayon partiya komitələrinin birinci katibləri, Xalq Deputatları Soveti İcraiyyə Komitələri sədrləri, kənd təsərrüfatı idarələri rəhbərlərinin iştirakı ilə müzakirə edilmişdir. Bu məsələ ilə bağlı biz təsərrüfat rəhbərləri – kolxoz sədrləri, sovxoz direktorları, istehsalat qabaqcılları ilə məsləhətlər aparmışıq. Qazanılan təcrübə və aşkar olunan daxili imkanlar əsasında kənd təsərrüfatının gələcək inkişafı istiqamətləri üzrə konkret təkliflər işlənib hazırlanmışdı. Həmin təkliflər Nazirlər Sovetində, Azərbaycan KP MK-nın Bürosunda hərtərəfli müzakirə olunmuşdu.

Qərara gəldik ki, respublikanın torpaq-iqlim şəraiti və əldə olunan nailiyyətlər kənd təsərrüfatının daha dərin ixtisaslaşmasına və təmərküzləşməsinə, bütün kənd təsərrüfatı, xüsusilə üzümçülük məhsullarının istehsalının artırılmasına imkan verir. Biz bu nəticəyə gəldik ki, 1990-cı ildə Azərbaycanda üzüm istehsalını üç milyon tona çatdırmaq olar.

Bu məsələ ilə bağlı biz Sov.İKP MK-ya təqdimat göndərdik, şəxsən L.Brejnev yoldaşa işlərimiz və planlarımız barədə müfəssəl məruzə etdik. Həmişə olduğu kimi Leonid İliç bizim təkliflərimizə böyük diqqətlə yanaşdı, SSRİ Dövlət Plan Komitəsinə, SSRİ Kənd Təsərrüfatı Nazirliyinə, SSRİ Ərzaq Sənayesi Nazirliyinə təkliflərə baxmağı tapşırdı. Nəticədə

1979-cu il fevralın 22-də Sov.İKP MK və SSRİ Nazirlər Soveti tərəfindən "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında" qərar qəbul edildi.

Qərarda respublika zəhmətkeşlərinin kənd təsərrüfatının texniki avadanlıqla təchiz olunması, torpaqların meliorasiyası, təsərrüfatlararası kooperasiya və aqrosənaye inteqrasiyası zəminində istehsalın ixtisaslaşması və təmərküzləşməsi üzrə qazandıqları uğurlar qeyd olunurdu.

Qərarda göstərilirdi ki, qazanılmış müsbət nəticələr və əlverişli torpaq-iqlim şəraiti Azərbaycanda kənd təsərrüfatı istehsalının bundan sonrakı ixtisaslaşdırılmasını, ilk növbədə də üzümçülük və şərabçılığın intensiv inkişafını həyata keçirməyə imkan verir.

Qərarda əkinçilik və heyvandarlıq məhsullarının xeyli artırılmasını təmin etmək vəzifəsi qoyulurdu. 1990-cı il üçün üzüm istehsalının 2,5 -3 milyon tona çatdırılması ən mühüm vəzifə kimi qarşıya qoyulmuşdu.

Bu vəzifələrin yerinə yetirilməsi üçün sənəddə müvafiq kapital qoyuluşu nəzərdə tutulurdu. Su təsərrüfatı tikintisinin, meliorasiya işlərinin, emal sənayesi müəssisələrinin, dəmir yolu və avtomobil yollarının, sosial-mədəni obyektlərin, su kəmərlərinin tikintisi, habelə kənd rayonlarının, demək olar ki, tamamilə qazlaşdırılması və s. üzrə geniş proqram müəyyən olunmuşdu.

H.Əliyevin fikrincə, "qərarın mühüm prinsipial əhəmiyyəti ondan ibarətdir ki, o respublikamızda kənd təsərrüfatı istehsalının ixtisaslaşması və təmərküzləşməsi üzrə tədbirləri uzun illər, onilliklər üçün müəyyən edir və təsdiq edir. Mövcud əkin sahələrinin strukturuna yenidən baxılması və təkmilləşdirilməsi, yeni torpaqların istismara verilməsi, onların meliorasiya və su ilə təmin olunmalarının yaxşılaşdırılması zəminində taxıl, pambıq, üzüm, tərəvəz, meyvə, tütün, çay yarpağı, yem və s. becərilməsi üçün zona və torpaqların qəti surətdə müəyyənləşməsi nəzərdə tutulurdu. Eyni zamanda dənli



bitkilərə ayrılan torpaq sahələri 140 min hektar azaldılacaqdır. 190 min hektar sahədə yeni üzümlüklər salınacaqdır. Pambıq becərilməsinə ayrılan torpaqların həcmi əvvəlki çərçivədə qalacaqdır, tərəvəz, tütün və meyvə üçün ayrılan torpaq sahələrinin həcmində bəzi dəyişikliklər baş verəcəkdir".

Qərarda 1981-1990-cı illərdə emal gücü mövsümdə 2 milyon ton üzüm olan yeni ilkin şərabçılıq zavodlarının, ildə 70 milyon dal üzüm şərabı dolduran zavodların, istehsal gücü ildə 40 milyon şüşə olan Bakı Şampan Şərabları zavodunun, 15 milyon dal gücündə konyak zavodlarının tikilməsini, istismarda olanların genişləndirilməsi və yenidən qurulmasını təmin etmək nəzərdə tutulurdu. Respublikada həmçinin qablaşdırma məhsulları, suvenir qutuları, şərab çəlləkləri istehsal edən müəssisələrin, şərabçılıq sənayesi üçün texnoloji avadanlıq buraxan zavodun tikilməsi və bir çox başqa işlər nəzərdə tutulurdu.

"Bütün bu deyilənlərdən göründüyü kimi, yoldaşlar, partiya və hökumətin qərarı özündə Azərbaycanda üzümçülük və şərabçılığın yenidən qurulması və bundan sonra sürətlə inkişaf etdirilməsinin nəhəng proqramını ehtiva edir... **Biz həqiqətən Azərbaycanın böyük üzümünə doğru gedirik** (seçmə bizimdir – ***E.A.***)".

Sənəddə 10 il ərzində respublikada üzüm istehsalı həcminin 3 dəfə artırılması vəzifəsi qoyulurdu. Nəzərə alınsa ki, 1979-cu ildə 1 milyon tona yaxın üzüm istehsal olunmuşdu, 1990-cı ildə bu göstərici təqribən 3 milyon tona bərabər olmalı idi. Və ya: 1979-cu ildə respublikada 215 min hektar üzümlük var idi, on il ərzində üzüm sahəsi iki dəfə artırılmalı, 400-410 min hektara çatdırılmalı idi.

Qərar Azərbaycanda kənd təsərrüfatının ixtisaslaşmasını qəti olaraq müəyyənləşdirdi və kənd təsərrüfatı istehsalının eyni vaxtda bütün sahələrinin intensiv inkişaf etdirilməsi vəzifəsini qoydu.

**Noyabrın 20-də** MK plenumundakı yekun sözündə H.Əliyev bəyan etdi ki, aparılan söhbət respublika partiya təşkilatı-

nın, demək olar ki, 30 illik fəaliyyət dövrünü əhatə edir. Çünki plenum Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 1970 və 1975-ci illərdə qəbul etdiyi və Azərbaycanın kənd təsərrüfatının intensiv inkişafını nəzərdə tutan qərarların yerinə yetirilməsinə yekun vurmuşdur. Üçüncü qərarın müzakirəsi isə – kənd təsərrüfatı və iqtisadiyyatın onunla bağlı sahələrinin 2000-ci ilə qədərki dövr üçün, yəni 20 illik perspektiv üçün inkişafı proqramının müzakirəsi deməkdir.

**Həmin gün** H.Əliyev VIII Ümumittifaq televiziya filmləri festivalının böyük bir qrup iştirakçısını qəbul etdi, axşam isə V.İ.Lenin adına Sarayda festivalın təntənəli açılışında iştirak etdi.

**Noyabrın 27-də** H.Əliyev Sov.İKP MK-nın növbəti Plenumunda çıxış etdi. Plenumda SSRİ Nazirlər Soveti sədrinin müavini, SSRİ Dövlət Plan Komitəsinin sədri N.Baybakovun "1980-cı il üçün SSRİ-nin Dövlət iqtisadi və sosial inkişaf planı barədə" və SSRİ maliyyə naziri V.Qarbuzovun "1980-ci il üçün SSRİ-nin Dövlət büdcəsi və 1978-ci il üçün SSRİ Dövlət büdcəsinin icrası barədə" məruzələri dinləndi.

Plenumda həmçinin təşkilat məsələlərinə baxıldı. N.Tixonov Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizədlikdən üzvlüyünə keçirildi. Sov.İKP MK katibi M.Qorbaçov Sov.İKP MK Siyasi Bürosunun üzvlüyünə namizəd seçildi.

**Dekabrın 4-də** H.Əliyev şəhər və rayon partiya komitələri katiblərinin Azərbaycan KP MK-da keçirilən seminarında iştirak etdi.

**Dekabrın 5-də** H.Əliyev və KP MK Bürosunun üzvləri Moskvada SSRİ paytaxtında təhsil alan Azərbaycandan olan tələbə və aspirantlarla görüşdülər. Qorki adına MBAT-ın (MXAT) yeni binasında keçən görüşdə SSRİ ali və orta ixtisas təhsili naziri V.Yelyutin, ÜİLKGİ MK-nın birinci katibi B.Pastuxov, Moskva ali məktəblərinin rektorları, Moskva rayon partiya komitələrinin katibləri iştirak edirdilər.



**Dekarın 7-də** H.Əliyev Azərbaycan SSR XTNS-in əsas pavilyonunda Azərbaycan partiya təşkilatının və müəssisə kollektivlərinin Sov.İKP XXV qurultayının tələbləri ilə əlaqədar istehsalın səmərəliliyini və məhsulun keyfiyyətini yüksəltmək üzrə iş təcrübəsinə həsr olunmuş sərginin açılışında iştirak etdi.

**Həmin gün** H.Əliyev Azərbaycan Memarlar İttifaqının Bakıda keçirilən XII qurultayında seçilmiş Rəyasət Heyətinin üzvlərini, həmçinin onun işində iştirak etmiş Moskvanın, Leninqradın, müttəfiq respublikaların memarlıq ictimaiyyətinin nümayəndələrini qəbul etdi.

**Dekabrın 8-də** H.Əliyev Lənkəranda məhsul bayramı şənliklərində iştirak etdi.

**Həmin gün** o, Lənkəranda Qırmızı bayraqlı Zaqafqaziya Sərhəd Qoşunları dairəsinin hərbi qulluqçuları ilə görüşdü.

**Dekabrın 11-də** Bakıda Moskva, Gürcüstan, Ermənistan mütəxəssislərinin dəvət olunduğu məhsulun keyfiyyətinə həsr olunmuş respublika elmi-praktiki konfransı işə başladı. Konfransda H.Əliyev nitqlə çıxış etdi.

**Həmin gün** H.Əliyev Bakıda keçirilən "İntersputnik" şurasının VIII sessiyasının işində iştirak edən nümayəndə heyətinin rəhbərlərini qəbul etdi.

**Dekabrın 12-də** H.Əliyev SSRİ birinciliyinin yüksək liqasında respublikanı təmsil edən "Neftçi" futbol komandasının oyunçu və məşqçilərini qəbul etdi.

**Dekabrın 18-də** H.Əliyev Azərbaycan KP MK-nın plenumunda "Sov.İKP MK noyabr (1979-cu il) Plenumunun yekunları, onun qərarlarının və L.Brejnevin çıxışında irəli sürülən göstərişlərin yerinə yetirilməsi üzrə respublika partiya təşkilatının vəzifələri haqqında" məruzə ilə çıxış etdi.

**Dekabrın 21-də** Azərbaycan Dövlət Filarmoniyasında şanlı neftçi Gülbala Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**Dekabrın 22-də** leytenant Şmidt adına Maşınqayırma zavodunun Mədəniyyət sarayında Azərbaycanın neft maşınqayırma işçilərinin mitinqi oldu. Onlar istehsalın və əmək məhsuldarlığının onuncu beşillik üçün nəzərdə tutulan artım templərinə, həmçinin 1980-ci il üçün müəyyən olunmuş neftmədən və geoloji-kəşfiyyat qazma avadanlığının istehsalı həcminə vaxtından əvvəl nail olmuşdular. Bu çətin qələbə münasibəti ilə maşınqayıranları Sov.İKP MK Baş katibi, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri L.Brejnev təbrik etdi. H.Əliyev mitinqdə nitq söylədi.

MK-nın birinci katibi söylədi ki, bu gün SSRİ-də istehsal olunan bütün neft avadanlığının 70%-i "İttifaqneftmaş" birliyinin payına düşür. Azərbaycan maşınqayıranlarının hazırladığı məhsullar yalnız SSRİ-dəki neft yataqlarında tanınıb şöhrət qazanmayıb. "İttifaqneftmaş" birliyinin avadanlıqları dünyanın 34 ölkəsinə ixrac edilir.

IX və X beşilliklərdə neft maşınqayırması istehsalının həcmi təqribən 3 dəfə, əmək məhsuldarlığı 2,5 dəfə artmışdır. On il ərzində sahənin yenidən qurulmasına və modernləşdirilməsinə kapital qoyuluşu 110 milyon manat təşkil etmişdir. 9 zavodun, 26 sexin avadanlığı kökündən dəyişdirilmiş, 22 mexanikləşdirilmiş konveyer xətti işə salınmışdır.

IX və X beşilliklərdə 600-dən çox yeni növ müasir neft-mədən və geoloji-kəşfiyyat qazma avadanlığı mənimsənilmişdir, eyni zamanda 246 köhnəlmiş konstruksiya istehsaldan çıxarılmışdır. Bütövlükdə neft-mədən avadanlığının 45%-i Keyfiyyət nişanına layiq görülmüşdür.

**Dekabrın 29-da** H.Əliyev Naxçıvan Muxtar Respublikasında səfərdə oldu.



# 1980

**Yeni il ərəfəsində** H.Əliyev, Bakının rəhbərləri, Nərimanov rayonu ictimaiyyətinin nümayəndələri qızlar üçün açılmış internat-məktəbdə tərbiyə alan uşaqların qonağı oldular.

**Yanvarın 9-da** H.Əliyevin sədrliyi ilə Kommunist Partiyası və Sovet dövlətinin görkəmli xadimi P.Caparidzenin anadan olmasının 100 illiyinin keçirilməsinə hazırlıq komissiyasının iclası keçirildi.

**Yanvarın 15-də** "Pravda" qəzetində H.Əliyevin P.Caparidzenin anadan olmasının 100 illiyinə həsr olunmuş "Nəsillərə nümunə" məqaləsi dərc olundu.

**Yanvarın 17-də** Bakıda 26 Bakı komissarlarından biri – Alyoşa Caparidzenin abidəsinin açılışı oldu. Caparidzenin 100 illiyi ilə əlaqədar təntənələrə Gürcüstan, Ermənistan, Türkmənistan partiya nümayəndə heyətləri, Caparidzenin qohumları və yaxınları gəlmişdilər. Abidənin müəllifləri – heykəltaraş Ömər Eldarov və memar Rasim Əliyevdir.

**Həmin gün** Bakı İcraiyyə komitəsi sədrinin 1917-1918-ci illərdə yaşadığı Lenin prospekti və 28 aprel küçələrinin kəsişməsində yerləşən binada Alyoşa Caparidzenin ev-muzeyinin açılış mərasimi oldu.

**Yanvarın 18-də** V.İ.Lenin adına sarayda P.A.Caparidzenin anadan olmasının 100 illiyinə həsr olunmuş təntənəli iclas oldu. H.Əliyev Alyoşa Caparidzenin həyat və fəaliyyəti, Bakı və Qafqazda inqilabi hərəkatın tarixinə dair məruzə etdi.

**Yanvarın 25-də** H.Əliyev Azərbaycan paytaxtının Lenin rayonunda oldu, bir sıra obyektlərə baxdı.

**Yanvarın 28-də** Bakının ən köhnə neft rayonlarından biri olan Lenin rayonunun nümayəndələri "Leninneft"in mədəniyyət və texnika sarayına toplaşdılar. Burada Razin seçki dairəsi seçicilərinin Azərbaycan SSR Ali Sovetinə deputatlığa namizəd, Sov.İKP MK Siyasi Bürosunun üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi H.Əliyevlə görüşü oldu.

**Fevralın 4-də** H.Əliyev Azərbaycan KP MK-nın plenumunda məruzə ilə çıxış etdi. Plenum respublika partiya təşkilatının Sov.İKP MK-nın təsərrüfat mexanizminin təkmilləşməsi, planlaşdırmanın yaxşılaşdırılması, istehsalın səmərəliliyi və keyfiyyətinin artırılmasında təsərrüfat mexanizminin təsir gücünün artırılmasına dair qərarlarının yerinə yetirilməsi vəzifələrinə həsr olunmuşdu.

Qazanılmış uğurlardan danışan H.Əliyev qeyd etdi ki, "ümumilikdə biz iqtisadiyyatda uzun sürən geriliyin qarşısını almışıq, respublika yüksək templərlə inkişaf edir, lakin bəzi istiqamətlərdə biz respublika və ittifaq səviyyələri arasındakı fərqi ləğv edə bilməmişik, yəni respublika göstəricilərinin orta ittifaq göstəricilərindən geri qalması davam edir".

Bununla bağlı milli gəlirin artım tempi və onun qarşıdan gələn beşillikdə adambaşına paylanması mühüm əhəmiyyət kəsb edir. On il – 1961-1971-ci illər ərzində respublikada adambaşına düşən milli gəlirin artımı yalnız 130 manat – ölkə üzrə olan ümumi göstəricidən az qala üç dəfə az olmuşdu. Yetmişinci illərdə milli gəlirin artım tempini yüksəltmək mümkün olmuşdur. 1971-1978-ci illərdə hər il bu göstərici 7,1 faiz olmuşdur və orta ölkə göstəricisindən 1,6 vahid çoxdur. Onuncu beşilliyin 4 ili ərzində bu göstərici planda nəzərdə tutulan 22% əvəzinə 32,5% artmışdır.

Milli gəlirin artım tempini sürətləndirərək, ictimai əməyin səmərəliliyini yüksəltməklə, respublika adambaşına düşən



milli gəlirə görə ittifaq səviyyəsindən geriliyi azaltmışdır. 1980-ci il planının yerinə yetirilməsi nəzərə alınmaqla adambaşına düşən milli gəlir 1.200 manat təşkil edəcəkdir. Onun 10 il ərzində mütləq artımı 472 manata bərabər olacaqdır, yəni 1960-1970-ci illərdə olduğundan 3,5 dəfə çox.

"Lakin yüksək templər adambaşına düşən milli gəlirin bölüşdürülməsi üzrə respublikamızı orta ittifaq səviyyəsinə çatdırmır. Deməli biz bundan sonra da milli gəlirin yüksək artım tempini saxlamalıyıq. Bu, əsas vəzifələrdən biri, nəinki onbirinci beşillik, həm də uzunmüddətli perspektiv üçün respublikanın sosial-iqtisadi inkişaf konsepsiyasının başlıca prinsiplərindən biridir.

Milli gəlirin artmasının mühüm amillərindən biri də ictimai əməyin məhsuldarlığının artmasıdır. Əgər sənayedə bu istiqamətdə müəyyən irəliləyiş müşahidə edilibsə də (1979-cu ildə əmək məhsuldarlığı 5,7% artmışdır və sənaye istehsalının artımının 69%-i bu göstərici hesabına əldə edilmişdir), kənd təsərrüfatında onuncu beşilliyin əmək məhsuldarlığının artması ilə bağlı plan göstəriciləri yerinə yetirilməmişdir".

MK-nın birinci katibi maddi istehsalda məşğulluğun artım tempinin aşağı olmasını qeyd etmişdir. Bunun nəticəsində iş yerlərinin artması iş qabiliyyətli əhalinin artmasından geri qalmışdır. O, xalq təsərrüfatının yüksək ixtisaslı kadrlara olan ehtiyacı və bu kadrların hazırlanması arasında disproporsiya yarandığından danışır (məsələn, 1976-1978-ci illərdə kənd texniki-peşə məktəbləri 31,5 min mexanizator hazırlamışdır, kolxoz və sovxozlarda onların sayı isə yalnız 6 min 700 nəfər artmışdır).

H.Əliyev açıq bəyan etmişdir ki, rəhbər işçilər bəzən yüksək göstəricilər arxasında böyük nöqsanları görmək istəmirlər. 1979-cu ildə bütün müəssisələrin 8,7%-nin məhsul satışı tapşırıqlarının öhdəsindən gəlməməsi yolverilməzdir. 94 müəssisə və ya onların ümimi sayının 14,7%-i əmək məhsuldarlığının artması üzrə tapşırıqları yerinə yetirə bilməmişlər.

Bu plenum və H.Əliyevin məruzəsi bir daha göstərir ki, Azərbaycanın partiya rəhbəri qazanılan müvəffəqiyyətlərdən arxayınlaşmır, "başgicəllənmə" hissləri keçirmir. O daim həlli vacib olan problemlər axtarışındadır, komandasını və respublika zəhmətkeşlərini yeni, daha çətin vəzifələrin həllinə yönəldir.

**Fevralın 7-də** H.Əliyevin sədrliyi ilə Azərbaycan SSR-in və Azərbaycan Kommunist Partiyasının 60 illiyinə hazırlıq üzrə yubiley komissiyasının geniş iclası oldu.

**Fevralın 9-da** H.Əliyev KVMQC MK sədri, Kampuçiya Xalq-İnqilab Şurasının sədri Xenq Samrinin başçılıq etdiyi Kampuçiya Vahid Milli Qurtuluş Cəbhəsinin nümayəndə heyətini qəbul etdi.

**Fevralın 20-də** H.Əliyev Bakıda Nəsiminin heykəlinin açılışında iştirak etdi.

**Fevralın 24-də** H.Əliyev Azərbaycan Ali və yerli Xalq Deputatları Sovetlərinə seçkilərdə iştirak etdi.

**Fevralın 28-də** SSRİ Nazirlər Soveti sədrinin müavini L.Smirnov sosializm yarışında qələbəyə görə Azərbaycana Sov.İKP MK, SSRİ Nazirlər Soveti, ÜİHİMŞ və ÜİLKGİ MK-nın keçici Qırmızı bayrağını təqdim etdi.

Bu dəfə V.İ.Lenin adına sarayda keçən mərasimdə başda Gürcüstanın, Ermənistanın, Türkmənistanın Ali Soveti Rəyasət Heyətinin sədrləri olmaqla ittifaq respublikalarının nümayəndə heyətləri, SSRİ EA-nın vitse-prezidenti B.Petrov, SSRİ EA Kosmik Tədqiqatlar İnstitutunun direktoru, akademik R.Saqdeyev, SSRİ aviasiya və elektron sənayesi nazirlərinin müavinləri və başqaları iştirak edirdilər.

1979-cu ildə plandan əlavə götürülmüş öhdəliklərdən 2,1 dəfə çox məhsul satılmışdır. Sənaye istehsalının həcmi 8,7% artmış, əmək məhsuldarlığı 5,7% yüksəlmişdir. Dövlətə 973 min ton üzüm, 742 min ton pambıq, 638 min ton tərəvəz, 362 min ton taxıl, 135 min ton meyvə, 20 min ton çay yarpağı satılmışdır.



**Martın 16-da** bütün mərkəzi və respublika qəzetlərində L.İ.Brejnevin Azərbaycan zəhmətkeşlərinə təbriki və SSRİ Ali Soveti Rəyasət Heyətinin "Azərbaycan Sovet Sosialist Respublikasının Lenin ordeni ilə təltif olunması haqqında" Fərmanı çap olunmuşdu. Fərmanda deyilirdi ki, "Azərbaycan SSR zəhmətkeşlərinin xalq təsərrüfatının inkişafı üzrə Sov.İKP XXV qurultayı qərarlarının yerinə yetirilməsində qazandığı böyük nailiyyətlər, onuncu beşilliyin sənaye və kənd təsərrüfatı məhsullarının istehsalı üzrə tapşırıqların vaxtından qabaq yerinə yetirilməsinə görə" respublika Lenin ordeni ilə təltif edilir.

**Martın 18-də** Bakıda respublikanın Lenin ordeni ilə təltif edilməsi münasibətilə Azərbaycan zəhmətkeşləri nümayəndələrinin mitinqi oldu.

H.Əliyevin mitinqdəki çıxışından yalnız bir neçə rəqəm: X beşilliyin milli gəlirin artması üzrə planı dörd ilə yerinə yetirilmişdir. 1976-1979-cu illərdə respublikanın milli gəliri tapşırıq üzrə olan 22%-ə qarşı 32,5% artmışdır. Milli gəlirin mütləq artımı 1,7 milyard manat təşkil etmişdir. Bu, birlikdə yeddinci və səkkizinci beşillikdə olduğundan çoxdur.

Sənayedə çalışan zəhmətkeşlər sənaye istehsalının ümumi həcmi üzrə beşillik planı vaxtından qabaq yerinə yetirmişlər. Artım tempi beşilliyin sonu üçün tapşırıqda nəzərdə tutulduğu kimi 39%-ə çatmışdır. Keyfiyyət nişanı ilə buraxılan məhsulların sayı beşilliyin əvvəli ilə müqayisədə beş dəfədən çox artmışdır.

Onuncu beşilliyin dörd ili ərzində kənd təsərrüfatı məhsulunun orta ümumi həcminin artımı 1971-1975-ci illərlə müqayisədə bütün beşillik üçün planda olan 21%-ə qarşı 40% təşkil etmişdi. Dövlətə taxıl, tərəvəz və meyvə satışı ilə bağlı beşillik planlar vaxtından əvvəl, dörd ilə yerinə yetirilmişdi. Dörd il ərzində əsas fondların işə salınması doqquzuncu beşilliyin

müvafiq dövrünün səviyyəsindən 1,5 dəfə çox olmuşdur. 48 yeni iri müəssisə və 29 istehsal sahəsi, 30-dan çox dövlət və təsərrüfatlararası heyvandarlıq kompleksi və quşçuluq fabriki tikilib istifadəyə verilmişdir. Ümumi həcmi 700 milyon kubmetr olan Tərtərçay, Xanbulançay və Arpaçay su anbarları istismara verilmişdir.

Beşilliyin əvvəlindən bəri ümumi sahəsi 5,5 mln. kv. metr olan yaşayış binaları, 150 min yerlik məktəb, 18 min yerlik məktəbəqədər müəssisə, çoxlu sayda xəstəxana, poliklinika, Mədəniyyət sarayları, Məişət evləri və s. tikilmişdir.

1970-1979-cu illərdə sənaye istehsalı 2,2 dəfə, kənd təsərrüfatının ümumi məhsulu – 2,1 dəfə artmışdır. 10 il ərzində Azərbaycanın xalq təsərrüfatına 15 mlrd. manat vəsait qoyulmuşdur. Bu, əvvəlki 20 ildə olduğundan çoxdur.

**Martın 21-də** H.Əliyev M.F.Axundov adına Opera və Balet Teatrında Azərbaycan Komsomoluna ÜİLKGİ-nin Qırmızı bayrağının təqdim edilməsinə həsr olunmuş təntənəli yığıncaqda iştirak etmişdir.

**Martın 25-də** H.Əliyev Süleyman Rəhimovun anadan olmasının 80 illiyinə həsr olunmuş ədəbi-bədii gecədə iştirak etdi.

**Həmin gün** H.Əliyev SSRİ Elmlər Akademiyası Elmi şurası Bürosunun birgə iclasının iştirakçılarını qəbul etdi.

**Martın 27-də** onuncu çağırış Azərbaycan SSR Ali Sovetinin birinci sessiyası oldu. Nitqlə çıxış edən H.Əliyev dedi: "Bu günün fərqli xüsusiyyəti ondadır ki, bu sessiya Azərbaycan SSR Ali Sovetinin yeni, möhtəşəm binasında keçir. Arxitektorların, mühəndislərin, texniklərin, fəhlələrin, bütün inşaatçıların əməyi sayəsində ərsəyə gələn bu gözəl kompleks Azərbaycan SSR-in 60 illiyinə layiqli töhfədir".

Q.Xəlilov yenidən Azərbaycan Ali Soveti Rəyasət Heyətinin sədri seçilir.



**Aprelin 9-da** "Pravda" qəzetində H.Əliyevin Azərbaycan SSR-in Lenin ordeni ilə təltif olunmasına həsr olunmuş "Vaxtından qabaq yerinə yetirdik" məqaləsi dərc olundu.

**Aprelin 11-də** H.Əliyev Bakı Məişət Kondisionerləri zavodunda V.İ.Leninin anadan olmasının 110-cu ildönümünə həsr olunmuş Lenin cümə günündə iştirak etdi.

**Aprelin 14-də** H.Əliyev və MK bürosunun üzvləri N.Nərimanovun abidəsi önünə əklil qoydular.

**Həmin gün** H.Əliyev F.Dzerjinski adına klubda Nəriman Nərimanovun anadan olmasının 110 illiyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**Aprelin 15-də** F.Dzerjinski adına klubda KP MK bürosunun üzvləri ilə partiya və əmək veteranlarının görüşü oldu.

**Aprelin 17-də** Azərbaycan KP MK bürosu üzvləri Azərbaycan SSR-in 60 illiyi ərəfəsində Sovet Ordusu veteranlarının böyük qrupu ilə görüşdülər.

**Aprelin 18-də** Bakının girişində XI Qızıl Ordunun şərəfinə ucaldılmış möhtəşəm abidənin açılışı oldu.

Bu abidə 1990-cu ildə faciəvi "Qara yanvar" hadisələrindən sonra dağıdılmışdır. Orijinal heykəltəraşlıq kompozisiyası olan bu abidə onu əhatə edən şəhər landşaftına üzvi surətdə uyğunlaşırdı. Abidənin mərkəzində əlində küləkdə dalğalanan döyüş bayrağı tutmuş rus əsgərinin fiquru, onun sağ və solunda isə əllərində tüfəng, inqilabi ordu və xalqın birliyini simvolizə edən Azərbaycan fəhlə və kəndlisinin fiqurları yer tutmuşdu. Kompozisiya qırmızı qranitdən olan pyedestal üzərində qurulmuşdu, kənarlarında yazı həkk olunmuşdu: "Qəhrəman XI Qızıl Ordunun şərəfinə". Abidənin müəllifi Azərbaycanın xalq rəssamı, SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü, Dövlət mükafatı laureatı Tokay Məmmədov idi.

**Aprelin 20-də** H.Əliyev V.İ.Lenin adına Sarayda Oktyabr rəhbərinin anadan olmasının 110 illiynə həsr olunmuş təntə-

nəli iclasda iştirak etdi. "Lenin ideyaları yaşayır və qalib gəlir" adlı məruzə ilə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Q.Xəlilov çıxış etdi.

**Aprelin 22-də** Dağüstü parkda SSRİ Xalqlar Dostluğu Sarayının təntənəli açılışı oldu. H.Əliyevin fikrincə o vətənpərvərlik, beynəlmiləl tərbiyənin güclü ideoloji mərkəzi, Qərb ideoloji mərkəzlərinə qarşı əks-təbliğatın və əks-təsirin forpostu olmalı idi.

**Aprelin 25-də** V.İ.Lenin adına Sarayda Azərbaycan KP MK və Azərbaycan SSR Ali Sovetinin Azərbaycan SSR-in yaradılmasının 60 illiyinə həsr olunmuş təntənəli iclası oldu.

Təntənəli şənliklərə, on il bundan qabaq olduğu kimi, Moskvadan, Leninqraddan, ittifaq respublikalarından xeyli rəhbər işçi gəlmişdi. Həmin gün Özbəkistan KP MK-nın birinci katibi Ş.Rəşidov, Gürcüstan KP MK-nın birinci katibi E.Şevardnadze, Ermənistan KP MK-nın birinci katibi K.Demirçyan, Türkmənistan KP MK-nın birinci katibi M.Qapurov, Moldaviya KP MK-nın birinci katibi İ.Bodyul, RSFSR Nazirlər Sovetinin sədri M.Solomentsev, Ukrayna, Qazaxıstan, Litva, Qırğızıstan Ali Soveti Rəyasət Heyətinin sədrləri, SSRİ DTK sədrinin birinci müavini S.Sviqun, ölkə HHM qoşunlarının baş komandanı, SSRİ müdafiə nazirinin müavini, aviasiya marşalı A.Koldunov, partiyanın və Sovet dövlətinin digər tanınmış xadimləri V.İ.Lenin adına Sarayda idilər.

**Mayın 1-də** H.Əliyev Bakı zəhmətkeşlərinin 1 May nümayişində iştirak etdi.

**Mayın 7-də** H.Əliyev Azərbaycanın partiya-dövlət nümayəndə heyəti ilə birlikdə Taqanroq şəhəri və Rostov vilayətini azad edənlərin şərəfinə ucaldılmış abidənin açılışında iştirak etdi. Bu döyüşlərdə Bakı, Kirovabad, Naxçıvan və Azərbaycanın digər regionlarının zəhmətkeşlərindən formalaşmış və Taqanroq diviziyası adı almış 416-cı atıcı diviziyasının döyüşçüləri əsl qəhrəmanlıq göstərmişdilər. Memorial respublikanın vəsaiti hesabına Rostov-Taqanroq şossesinin 53-cü kilometrliyində qurulmuşdu. Abidənin müəllifi Elcan Şamilov idi.



**Mayın 9-da** H.Əliyev Qələbə gününə həsr olunmuş ənənəvi tədbirlərdə iştirak etdi.

**Mayın 14-də** Azərbaycanın partiya-təsərrüfat aktivinin kənd təsərrüatında qoyulmuş vəzifələrin yerinə yetrilməsinə həsr edilmiş iclası keçirildi. Aktivdə H.Əliyev nitqlə çıxış etdi.

**Mayın 15-də** H.Əliyev Azərbaycan Dövlət Rəsm Qalereyasında açılmış, Sovet Azərbaycanının 60 il ərzində özünəməxsus bədii salnaməsinə çevrilmiş sərgidə oldu.

**Həmin gün** H.Əliyev respublikanın bir qrup mədəniyyət xadiminə – R.Behbudova, S.Rəhimova, İ.Qasımova, İ.Əfəndiyevə, İ.İbrahimova dövlət mükafatlarını təqdim etdi.

**Mayın 21-24-də** H.Əliyev Naxçıvan MSSR-də oldu.Yerevanda Zaqafqaziya Hərbi Şurasının iclasında iştirak etdikdən sonra o, Ermənistan KP MK-nın birinci katibi K.Demirçyanla İliç rayonunun sərhədyani Sədərək kəndinə gəldi və mitinqdə çıxış etdi.

H.Əliyevin Naxçıvana səfəri təbii fəlakət – tufan, leysan, daşqınla əlaqədar idi. Azərbaycanın partiya rəhbəri bu günlərdə sənaye və kənd təsərrüfatı müəssisələrində, yeni tikintilərdə, su təsərrüfatı obyektlərində olmuş, fəhlə, kolxozçu, mütəxəssislərlə, təsərrüfat rəhbərləri ilə söhbət etmiş, qarşıya çıxan problemləri həll etmiş, təbii fəlakətin nəticələrini aradan qaldırmaq yollarını müəyyən etmişdir. Sərhədçilərlə görüş və şəxsi heyətlə söhbət zamanı beynəlxalq aləmdə yaranmış gərginliyi qeyd etmiş, sayıqlığı artırmağa, dövlət sərhədinin qorunmasını hərtərəfli gücləndirməyə çağırmışdır.

Sonda muxtar respublikanın partiya-təsərrüfat aktivinin iclası keçirilmişdir.

**Mayın 28-də** H.Əliyev ali məktəb işçilərinin respublika müşavirəsində çıxış etdi. Müşavirədə Sov.İKP MK və SSRİ

Nazirlər Sovetinin 1979-cu ilin iyulunda "Ali məktəbin inkişafı və mütəxəssis hazırlanmısı keyfiyyətinin yüksəldilməsi haqqında", həmçinin 1980-ci ilin fevralında ali məktəb işçilərinin Ümumittifaq müşavirəsində qəbul edilən qərarlardan irəli gələn konkret vəzifələr müzakirə olundu.

Respublika müşavirəsinin işində SSRİ ali və orta ixtisas təhsili naziri V.Yelyutin iştirak etmişdir.

**Mayın 31-də** V.İ.Lenin adına stadionda məktəblilərin respublika mahnı və rəqs bayramı oldu. H.Əliyev tədbirdə iştirak etdi.

**Həmin gün** H.Əliyev tanınmış sovet bəstəkarı, Sosialist Əməyi Qəhrəmanı D.Kabalevskini qəbul etdi.

**İyunun 6-da** H.Əliyev Ağdaş rayonunun təsərrüfatlarında oldu, rayonun partiya-təsərrüfat fəalları yığıncağını keçirdi.

**İyunun 7-də** H.Əliyev Jdanov rayonu partiya-təsərrüfat aktivinin iclasında iştirak etdi.

**İyunun 13-də** H.Əliyev respublika xalq nəzarəti orqanları aktivinin iclasında çıxış etdi.

**İyunun 14-də** H.Əliyev buraxılışı nəzərdə tutulmuş tibb müəssisələrində oldu. Həmin gün o, yüz çarpayılıq klinikası və məsləhətxana şöbəsi olan Elmi–Tədqiqat Kardiologiya İnstitutunu açdı.

**İyunun 18-də** H.Əliyev böyük qrup istehsalat qabaqcıllarına dövlət mükafatlarını təqdim etdi.

1980-ci ilin payızında Bakıda yazıçıların "Xalqların dostluğu – ədəbiyyatların dostluğu" Ümumittifaq konfransının keçirilməsi nəzərdə tutulmuşdu. SSRİ Yazıçılar İttifaqı rəhbərliyinin bu konfransla bağlı iyun ayının sonlarında təşkil etdiyi iclasda H.Əliyev çıxış etdi. O, Azərbaycanın həyatından, mənəvi ab-havanın sağlamlaşdırılması istiqamətində partiya təşkilatının işindən, neqativ hallara qarşı mübarizədən danışdı.

**İyunun 29-da** KP MK-da kənd təsərrüfatı və bir sıra digər nazirlik rəhbərlərinin kənd təsərrüfatı işlərinin aparılma



templəri və keyfiyyəti məsələlərinin müzakirə olunduğu müşavirə keçirildi.

**İyunun 30-da** Azərbaycan KP MK-da əhalinin ərzaq məhsulları ilə təchiz olunması və yay mövsümündə bu işin daha da yaxşılaşdırılması tədbirlərinə həsr olunmuş müşavirə oldu.

**İyulun 3-də** H.Əliyev Azərbaycanın üzümçülük rayonlarına səfərə çıxdı.

**İyulun 4-də** respublika rəhbəri Xanlar rayonu partiya-təsərrüfat aktivinin iclasını keçirdi. Bu rayonda olduğu müddətdə H.Əliyev bir sıra təsərrüfatlarda oldu, üzüm plantasiyalarının vəziyyəti ilə maraqlandı, kənd zəhmətkeşləri ilə söhbət etdi.

**İyulun 5-də** H.Əliyevin iştirakı ilə Cəlilabad rayonu partiya-təsərrüfat fəallarının iclası oldu. Cəmi bir neçə il ərzində əvvəllər üzümçülüyün, demək olar ki, inkişaf etmədiyi Cəlilabad rayonu respublikada bu dadlı nemətin ən iri istehsalçılarından birinə çevrilmişdir. Bu illərdə 30 min hektara yaxın üzüm sahəsi Muğan düzünün cənub hissəsinə yaraşıq gətirərək, Talış dağlarından uzanan qollara yaxınlaşmışdır.

Üzümçülük təsərrüfatlarına baş çəkəndən sonra H.Əliyev şəhəri gəzdi, abadlıq işləri ilə tanış oldu: yeni bağça, C.Məmmədquluzadənin heykəli, yeni universam, yenidən qurulmuş, silsilə fəvvarələri olan şəhər parkı. Səfərin sonunda MK-nın birinci katibi yerli "Orlyonok" pioner düşərgəsində oldu.

**İyulun 4-5-də** Xanlar və Cəlilabadda respublikanın üzümçülük rayonlarının zona müşavirələri oldu. Müşavirələrdə vilayət, şəhər və rayon partiya komitələrinin birinci katibləri, kənd təsərrüfatı idarələrinin rəisləri, aqrosənaye birliklərinin baş direktorları, respublika nazirlik və idarələrinin rəhbərləri, KP MK-nın məsul işçiləri, yaradıcı ittifaqlar və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak edirdi.

**İyulun 11-də** iki tədbir keçirildi: respublika partaktivi və MK plenumu. Partaktiv Sov.İKP MK iyun (1980-ci il) Plenu-

munun yekunları və onun qərarlarının yerinə yetirilməsi üçün Azərbaycan partiya təşkilatının vəzifələrini müzakirə etdi. Plenum isə 1981-ci il yanvarın 28-də Azərbaycan Kommunist Partiyası XXX qurultayının çağırılması barədə qərar qəbul etdi.

**Avqustun 20-də** H.Əliyev respublikanın kənd təsərrüfatında yaranmış vəziyyəti, kənd təsərrüfatı ilini başa vurmaq üçün konkret tədbirləri, kənd təsərrüfatı sahəsində sosialist öhdəliklərinin yerinə yetirilməsini yenidən müzakirə etmək üçün respublika partiya aktivini yığdı.

**Avqustun 25-də** birinci kurs tələbələrinin partiya və hökumət rəhbərləri ilə ənənəvi görüşü oldu.

H.Əliyev çıxışında bu rəqəmləri gətirdi: "Gənclərin böyük qrupu – 707 nəfər – Moskva, Leninqrad və ölkənin digər şəhərlərinin aparıcı ali məktəblərinin birinci kurs tələbəsi oldu. Bundan əlavə, 138 nəfər hazırlıq kurslarına qəbul olunmuş, digər şəhərlərin ali məktəblərinin yuxarı kurslarına dəyişilmiş, həmçinin mülki aviasiya institutlarına daxil olmuşlar. Sentyabrın birində Azərbaycandan olan tələbələr 250 ixtisas üzrə ölkənin 150-dən çox ali məktəbinin auditoriyalarına daxil olacaqlar. 10 il ərzində oxumaq üçün ölkənin ali məkəblərinə cəmi 4 min 662 tələbə göndərilmişdir".

**Həmin gün** H.Əliyev Niderland Kommunist Partiyası MK-nın sədri Henk Hustru qəbul etdi.

**Avqustun 29-da** H.Əliyev Alma-Ataya, Qazaxıstan SSR və Qazaxıstan Kommunist Partiyasının 60 illiyi şənliklərinə yola düşdü.

**Avqustun 30-da** H.Əliyev Alma-Atada Qazaxıstan SSR və Qazaxıstan Kommunist Partiyasının 60 illiyinə həsr olunmuş təntənəli iclasda çıxış etdi.

**Avqustda** H.Əliyev partiya və hökumət rəhbərləri ilə bir yerdə Olimpiada obyektlərində oldu və bəzi idman yarışlarını izlədi.



**Sentyabrın 4-də** H.Əliyev Danimarka Kommunist Partiyası icraiyyə komitəsinin üzvü Kay Hansenin başçılığı ilə Danimarka Kommunist Partiyasının nümayəndə heyətini qəbul etdi.

**Sentyabrın 5-6-da** Bərdə və Sabirabadda H.Əliyevin iştirakı ilə respublikanın pambıqçılıq rayonlarının partiya aktivinin iclasları oldu. Pambıq yığımı mövsümünü uğurla keçirmək üçün tədbirlər müzakirə olundu.

**Sentyabrın 10-da** H.Əliyev YSP MK katibi, Siyasi Büro-sunun üzvü Əli Salam əl-Beytin başçılıq etdiyi Yəmən Sosialist Partiyasının nümayəndə heyətini qəbul etdi.

**Sentyabrın 11-də** H.Əliyev Tovuz rayonunda aktivin iclasını keçirdi, üzümçülərlə görüşdü, plantasiyalara baxdı və Zaqafqaziyada ən iri nasos stansiyasının tikintisində oldu. Son bir neçə ildə Tovuzda üzüm tənəkləri 10 min hektar sahəni əhatə etmişdir, kəhrəba salxımların istehsalı isə 4,5 dəfədən çox artmışdır.

**Sentyabrın 12-də** H.Əliyev Şamaxıda rayon partiya təkilatının qarşıdan gələn üzüm yığımına, digər kənd təsərrüfatı işlərinin gedişinə həsr olunmuş aktivini keçirdi. Bundan əlavə, o bir sıra təsərrüfatlara baş çəkdi, tarla əməkçiləri ilə söhbət etdi, onların iş və məişət şəraiti ilə tanış oldu. H.Əliyev üzümçülük rayonlarının zona müşavirələrini keçirtdi.

**Oktyabrın 2 və 3-də** H.Əliyevin iştirakı ilə Bərdə və Sabirabadda respublikanın pambıqçılıq rayonlarının partiya-təsərrüfat aktivinin iclasları və zona müşavirələri keçirildi.

**Oktyabrın 4-də** F.Dzerjinski adına klubda Azərbaycan həmkarlar təşkilatlarının 60 illiyinə həsr olunmuş təntənəli iclas oldu. H.Əliyev Azərbaycan KP MK-nın həmkarlar təşkilatlarına təbrikini açıqladı.

**Oktyabrın 5-də** H.Əliyev V.İ.Lenin adına Sarayda "Sovet Zaqafqaziyasının melodiyaları" festivalının açılışında iştirak etdi.

**Oktyabrın 11-də** H.Əliyev MK-da Azərbaycanda "Mosfilm" günləri iştirakçılarını qəbul etdi.

**Oktyabrın 14-də** H.Əliyev MK-da Bakıda keçirilən kosmik fəzanın tədqiqi və dinc məqsədlərlə istifadə olunması sahəsində sovet-fransız müşavirəsinin sovet qrupunun rəhbərlərini qəbul etdi.

**Oktyabrın 15-də** F.Dzerjinski adına klubda qabaqcıl heyvandarların iştirakı ilə partiya, təsərrüfat, həmkarlar ittifaqı və komsomol aktivinin iclası oldu. Respublika heyvandarlıq məhsullarının tədarükü və istehsalını artırdığına görə Sov.İKP MK, SSRİ Nazirlər Soveti, ÜİHİMŞ-in və ÜİLKGİ-nin Fəxri fərmanı ilə təltif edilmişdi. Mükafatı SSRİ meliorasiya və su təsərrüfatı naziri N.Vasilyev təqdim etdi.

Nazir Azərbaycanda su təsərrüfatı tikintisi haqqında fikrini bildirdi:

"Respublikada olduğum müddətdə mən Lənkəran, Masallı və Cəlilabad rayonlarında su təsərrüfatı obyektləri və meliorasiya tikintisi ilə tanış oldum. Qeyd etməliyəm ki, məndə belə fikir yaranmışdır və mən nazirliyin kollegiyasında və Sov.İKP MK-da məlumat verəcəyəm ki, sizdə su təsərrüfatı tikintisi ən yüksək mühəndis-texniki səviyyədə aparılır. Torpaqların su təminatını artırmağa, yeni suvarılan torpaqlardan istifadə etməyə, çirkabın tənzimlənməsinə imkan yaradan su anbarları, üzlük çəkilmiş magistral kanallar, mühəndis-tənzimləyici qurğular tikilir. Köhnə suvarma sistemlərinin yaxşılaşdırılması üçün böyük işlər görülür. Tarlaların yuyulması, əsaslı planlaşdırılması aparılır. Stasionar çiləmə aparatları və müasir çiləmə maşınları olan borulu qapalı suvarma şəbəkəsindən getdikcə daha geniş istifadə olunur.

Bütün bunlar nəinki suvarma sistemlərinin texniki səviyyəsini yüksəldir və kənd təsərrüfatı məhsullarının istehsalını artırır, həm də kəndin sosial simasını dəyişir, özünə rahat və yaraşıqlı şəxsi evlər tikən əhalinin rifahını yüksəldir. Mən böyük məmnunluqla daşdan tikilmiş, üstü kirəmitli evlərə tamaşa edirdim.



**Oktyabrın 27-də** Bakıda yazıçıların "Xalqların dostluğu – ədəbiyyatların dostluğu. Yazıçı sözü – sovet adamının beynəlmiləl və vətəndaşlıq tərbiyəsində fəal qüvvədir" Ümumittifaq yaradıcılıq konfransı açıldı. Konfransda sovet yara[illegible]yalılarının qaymaqları, həmçinin xarici ölkə yazıçıları iştirak edirdi.

H.Əliyev konfransın açılışında geniş məruzə ilə çıxış etdi.

**Oktyabrın 29-da** H.Əliyev Bakıda keçirilən zülallar və peptidlər kimya və fizikası üzrə Ümumittifaq simpoziumunun iştirakçıları olan SSRİ, Bolqarıstan, Macarıstan, Vyetnam, ADR, Polşa, Çexoslovakiya, Yuqoslaviya alimlərinin bir qrupunu qəbul etdi.

**Həmin gün** respublika qəzetlərində dövlətə taxıl, pambıq, üzüm, tərəvəz, meyvə, bostan bitkiləri, çay yarpağı və kartof satışı üzrə 1980-ci ilin və onuncu beşilliyin plan və sosialist öhdəliklərinin vaxtından qabaq yerinə yetirildiyi haqqında məlumat dərc olundu.

Bəzi rəqəmlər: respublikanın taxılçıları 1980-ci ildə dövlətə 358 min ton taxıl sataraq planı 130% yerinə yetirmişlər. Cəmi 5 il ərzində qəbul məntəqələrinə 1 mln. 740 min ton taxıl təhvil verilmişdir ki, onun da 532 min tonu plandan əlavədir.

Pambıqçılar tədarük məntəqələrinə 872 min ton məhsul təhvil vermişlər. Onuncu beşillik illərində ölkənin xalq təsərrüfatı plandan 650 min ton çox – 3 mln. 256 min ton pambıq almışdır.

İlk dəfə olaraq dövlətə 1 mln. 373 min ton üzüm satmaq mümkün olmuşdur. Bunun 443 min tonu plandan əlavə yığılmışdır. Beşilliyin əvvəlindən 4 mln. 708 min ton və ya tapşırıqdan əlavə 1 mln. 116 min ton çox üzüm tədarük edilmişdir.

Beş il ərzində dövlətə 3 mln. 60 min ton tərəvəz satılmışdır, bunun 800 min tonu plandan əlavədir.

L.Brejnev əmək qələbəsi münasibəti ilə Azərbaycan KP MK-nı, Ali Sovetin Rəyasət Heyətini, Nazirlər Sovetini xüsusi teleqramla təbrik etmişdir.

**Oktyabrın 30-da** V.İ.Lenin adına Sarayda Azərbaycan zəhmətkeşlərinin 1980-ci ilin və onuncu beşilliyin plan və sosialist öhdəliklərinin yerinə yetirilməsinə və Sov.İKP MK Baş katibi L.Brejnevin təbrikinə həsr olunmuş mitinqi oldu.

Respublika partiya liderinin nitqi hədsiz səmimiyyəti ilə seçilirdi – o, mitinq iştirakçılarına müraciət edərək, bu uğurların nəyin bahasına başa gəldiyini, hamının birlikdə nə qədər iş gördüklərini yada saldı:

"Bu il kənd əməkçiləri məhsul istehsalı və tədarükündə Azərbaycan tarixində ən yüksək göstəricilərə nail oldular. Respublikanın dərc olunmuş raportunda öz əksini tapmış rəqəmlər yaxın vaxtlara qədər fantastik görünürdü, bu gün isə – bizim real gerçəkliyimizin faktıdır...

Kənd təsərrüfatı – böyük qüvvə və enerji tələb edən çətin və mürəkkəb işdir. Hər bir kənd təsərrüfatı ilinin özünəməxsus xüsusiyyətləri, çətinlikləri vardır. 1980-ci ildə, beşilliyin bütün başqa illərində olduğu kimi, Azərbaycan KP MK kənd təsərrüfatı məsələləri ilə gündəlik yaxından məşğul olmuş, kənd təsərrüfatı istehsalının bütün məsələlərini müntəzəm olaraq müzakirə edib həllini tapırdı. Bu gün biz işimizə yekun vurmaq üçün, əmək qələbəmizi bayram etmək üçün yığışmışıq. Lakin dönüb geriyə, yaşadığımız ilə nəzər salanda, bu yolda nə qədər çətin və mürəkkəb mərhələlərin olduğu yada düşür.

Biz Azərbaycan KP MK-da, rayonların partiya, sovet və təsərrüfat fəallarının iclaslarında, zona müşavirələrində, kənd təsərrüfatı rayonları fəallarının zona yığıncaqlarında tez-tez



görüşürdük. Biz hər zaman kəsiyində, məhsul becərilməsinin hər mərhələsində, yığıma hazırlaşanda və məhsul yığımı vaxtı bütün məsələləri birlikdə müzakirə edirdik... Məsələlər əsasən vaxtlı-vaxtında həll olunurdu, yerlərdən gələn xahişlərlə əlaqədər əlavə tədbirlər görülürdü, partiyanın kənd təsərrüfatı sahəsində qarşıya qoyduğu vəzifələrin uğurla yerinə yetirilməsini təmin etmək üçün əlavə maddi-texniki vəsait ayrılırdı.

Bizim yığıncaqlar, MK Bürosunun iclasları, yerlərdə görüşlər kənd təsərrüfatının bəzi sahələrində buraxılan səhvlər, çatışmazlıqlar, nöqsanlarla əlaqədar bəzən kəskin, açıq tənqid şəraitində keçirdi. Lakin təcrübə göstərir ki, sıx ünsiyyət, məsələlərin həllindəki operativlik, Azərbaycan KP MK-nın, yerli partiya, sovet, təsərrüfat orqanlarının ciddi tələbkarlığı yaxşı nəticələr verir... Biz əbəs yerə belə gərgin çalışmırdıq, bütün bunlar öz bəhrəsini verdi, partiya və xalq tərəfindən yüksək qiymətləndirildi, bütün bunlar bizim Sovet Azərbaycanımızın şöhrətini daha da yüksəklərə qaldırır".

**Noyabrın 2-də** yeni tikilmiş "Gülüstan" sarayında yazıçıların Ümumittifaq yaradıcılıq konfransına həsr olunmuş qəbul oldu.

H.Əliyev qəbulda nitqlə çıxış etdi. O, xalqlar dostluğundan, Azərbaycanda başqa millətlərə qarşı yaranmış beynəlmiləlçi və tolerantlıq ənənələrindən danışır, M.F.Axundovun "Puşkinin ölümünə Şərq poeması"ndan, Səməd Vurğunun və Vladimir Mayakovskinin şerlərindən sitatlar gətirirdi.

**Noyabrın 4-də** H.Əliyev "Azərelektroterm" birliyinin aparıcı zavodunda oldu.

**Noyabrın 5-də** H.Əliyev onuncu beşilliyin planlarının yerinə yetirilməsində fərqlənən respublikanın iqtisadiyyat, kənd təsərrüfatı, partiya, sovet orqanları işçilərinin böyük qrupuna mükafatlar təqdim etdi.

**Noyabrın 6-da** H.Əliyev Böyük Oktyabr Sosialist inqilabının 63-cü ildönümünə həsr olunmuş təntənəli iclasda iştirak etdi. Məruzə ilə Azərbaycan KP MK katibi H.Seyidov çıxış etdi.

**Noyabrın 7-də** H.Əliyev Böyük Oktyabrın ildönümü şərəfinə hərbi paradda və Bakı zəhmətkeşlərinin nümayişində iştirak etdi.

**Noyabrın 10-da** F.Dzerjinski adına klubda sovet milisinin 60 illiyinə həsr olunmuş təntənəli yığıncaq oldu. Yığıncaqda H.Əliyev nitqlə çıxış etdi.

**Noyabrın 11-də** H.Əliyev Azərbaycan KP MK-nın plenumunda məruzə ilə çıxış etdi. Plenum Sov.İKP MK oktyabr (1980-ci il) Plenumunun nəticələrini, Sov.İKP Baş katibi L.İ.Brejnevin Plenumdakı nitqində öz əksini tapmış qərarlarını və müddəalarının yerinə yetirilməsi istiqamətində respublika partiya təşkilatının vəzifələrini müzakirə etdi.

**Noyabrın 12-də** H.Əliyev onuncu çağırış Azərbaycan Ali Sovetinin ikinci sessiyasının işində iştirak etdi.

**Noyabrın 14-də** Bakıda Qırmızı bayraqlı Zaqafqaziya Hərbi Dairəsi şurasının növbəti iclası keçirildi. İclasda iştirak etmək üçün Siyasi Büronün üzvlüyünə namizəd, Gürcüstan KP MK-nın birinci katibi E.Şevardnadze, Ermənistan KP MK-nın birinci katibi K.Demiçyan, ZaqHD-nin komandanı general-polkovnik O.Kulişev Bakıya gəlmişdilər.

Şuranın iclası başa çatdıqdan sonra H.Əliyev qonaqları Azərbaycan maşınqayırma sənayesinin flaqmanı – elektrotermik avadanlıq istehsal edən Bakı Təcrübə-Eksperimental zavoduna dəvət etdi. Bu böyük elektrotexnika müəssisəsini Gürcüstan və Ermənistanın bir çox istehsal müəssisələri ilə iqtisadi əlaqələr bağlayırdı.

**Noyabrın 15-17-də** yüksək səviyyədə Sovet-Finlandiya danışıqları keçiriləndən sonra Finlandiya Respublikasının prezidenti Urxo Kaleva Kekkonen Bakıda oldu. Kekkonenin respublika rəhbərliyi ilə görüşü oldu, Bakı ilə tanışlıq, həmçinin "Gülüstan" sarayında qəbul təşkil edildi.

**Noyabrın 18-də** Bakıda Sovet Sülhü Müdafiə Komitəsinin sədri, Sovet İttifaqı Qəhrəmanı, akademik Y.Fyodorov H.Əliyevə "sülhün möhkəmləndirilməsi, xalqlar dostluğu, planetin bütün insanlarının əməkdaşlığı ideyasının təbliği və yayılmasında böyük səmərəli işinə" görə komitənin medalını təqdim etdi.

**Noyabrın 21-də** H.Əliyev nefroloqların II ümumittifaq qurultayının iştirakçılarını qəbul etdi.

**Noyabrın 24-də** H.Əliyev ABŞ KP MK Siyasi Bürosunun üzvü R.Proktor və MK-nın üzvü L.Dlugin başda olmaqla ABŞ Kommunist Partiyasının nümayəndə heyətini qəbul etdi.

**Noyabrın 25-də** H.Əliyev Azərbaycan Komsomolunun 60 illiyinə həsr olunmuş təntənəli iclasda çıxış etdi. O vaxt LKGİ MK-nın birinci katibi C.Müslümzadə seçilmişdi. Onun sələfi V.Hüseynov isə ÜİLKGİ-nin katibi olmuşdu.

**Noyabrın 28-də** H.Əliyev Yerevanda Ermənistan KP MK və Ali Sovetinin Ermənistan SSR-in yaranmasının 60 illiyinə həsr olunmuş təntənəli iclasında təbriklə çıxış etdi.

**Dekabrın 3-də** H.Əliyev N.Qoqol adına Moskva Dram Teatrının M.Əzizbəyov adına Akademik Teatrın səhnəsində göstərdiyi "Biz o qədər də çox yaşamırıq" ("Mı tak nedolqo jivyom") tamaşasına baxdı. O vaxt artıq ağır xəstə olan müəllif – Azərbaycan Yazıçılar İttifaqının birinci katibi İmran Qasımov da tamaşaçılar sırasında idi.

**Dekabrın 4-də** H.Əliyev Azərbaycan mədəniyyət və incəsənət xadimlərinə dövlət mükafatlarını təqdim etdi: R.Rza Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüş, S.Vurğun adına Rus Dram Teatrının aktyoru S.Yakuşev "Xalqlar dostluğu" ordeni ilə təltif olunmuş, müğənni Z.Xanlarovaya isə SSRİ xalq artisti adı verilmişdi.

**Dekabrın 15-də** H.Əliyev Yuqoslaviya Sosialist Fedarativ Respublikasının Sovet İttifaqındakı fövqəladə və səlahiyyətli səfiri Marko Orlandiçi qəbul etdi.

**Dekabrın 17-də** Kirovabadda H.Əliyev S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna "Şərəf Nişanı" ordeni təqdim etdi və nitqlə çıxış etdi.

**Dekabrın 22-də** H.Əliyev təşkilati məsələyə baxılan Bakı şəhər partiya komitəsinin plenumunda çıxış etdi. Plenum Ə.Kərimovu başqa işə keçməsi ilə əlaqədar Bakı şəhər partiya komitəsinin birinci katibi vəzifəsindən və Büro üzvlüyündən azad etdi. V.Hüseynov Bakı şəhər partiya komitəsinin birinci katibi və Büro üzvü seçildi.

**Dekabrın 23-də** F.Dzerjinski adına klubda Azərbaycan FK-DTK (ÇK-KQB) orqanlarının 60-cı ildönümünə həsr olunmuş təntənəli iclas keçirildi. H.Əliyev iclasda nitqlə çıxış etdi.

**Dekabrın 26-da** H.Əliyev Azərbaycan Dövlət mukafatı laureatlarına mükafatları təqdim etdi.

**Dekabrın 27-də** H.Əliyev M.F.Axundov adına Opera və Balet Teatrında görkəmli tarzən Qurban Primovun anadan olmasının 100 illiyinə həsr olunmuş təntənəli gecədə iştirak etdi.



# 1981

**Yanvarın 7-də** H.Əliyev 44-cü Bakı şəhər partiya konfransında məruzə ilə çıxış etdi.

Respublikanın partiya rəhbəri öz çıxışında Azərbaycanda onuncu beşilliyin yekunlarını vurdu:

"Onuncu beşillikdə sənaye istehsalının artım həcmi beşillik üzrə 39 faizə qarşı 47 faiz təşkil etmişdir. Bu gün sizə deməliyəm ki, **ölkə üzrə beşilliyin yekunları vurulmuşdur və bu, ittifaq respublikaları arasında ən yüksək göstəricidir** (seçmə bizimdir – ***E.A.***). Onuncu beşillik ərzində sənaye istehsalının ümumi həcmi doqquzuncu beşillikdə olduğundan 1,5 dəfə çoxdur və ya təqribən altıncı, yeddinci, səkkizinci beşilliklərin birlikdə götürülmüş həcminə bərabərdir.

Beşillik ərzində kənd təsərrüfatının ümumi məhsulu yeddinci və səkkizinci beşilliklərin birlikdə götürülmüş həcmindən artıq olmuşdur və 1980-ci ildə 2,4 milyard manat təşkil etmişdir. Doqquzuncu beşilliklə müqayisədə onuncu beşillikdə kənd təsərrüfatı istehsalının orta illik artımı 46 faizdən çox artmışdır ki, bu da ittifaq respublikaları arasında ölkədə ən yüksək göstəricidir.

Beşillik ərzində respublikada kənd təsərrüfatının inkişafına 9 milyard manata yaxın vəsait yönəldilmişdir. Bu da doqquzuncu beşilliyin səviyyəsindən təqribən 40 faiz, birlikdə yeddinci və səkkizinci beşilliklərdən isə xeyli çoxdur.

H.Əliyev paytaxt sənayesinin inkişafının bəzi nəticələrini açıqladı. Belə ki, X beşillik ərzində şəhərin sənayesi ötən be-

şillikdəkindən təqribən 1,4 dəfə artıq məhsul istehsal etmişdir. Beşillik ərzində əmək məhsuldarlığı 22 faiz artmışdır. 2 min 700 yeni növ maşın, avadanlıq, aparat yaradılıb istehsal edilmişdir. Maşınqayırmanın, elektrotexnikanın, radiotexnikanın, cihazqayırmanın istehsal həcmi təqribən iki dəfə artmışdır. Beşillik ərzində texniki tərəqqini müəyyənləşdirən sənaye sahələrinin payı 26 faizdən 32 faizə yüksəlmişdir.

Son iki ildə Şampan Şərabları zavodunun birinci növbəsi, Qasımov adına Maşınqayırma, "Bakinski raboçi" zavodlarında, Asbosement və keramika məhsulları kombinatında yeni istehsal sahələri, "Kommunist" nəşriyyatının qəzet kompleksi, tramvay-trolleybus vaqonlarının, yol texnikasının təmiri üzrə zavod kimi yeni müəssisələr işə salınmışdır. "Azərelektroterm" birliyində elektrotermik avadanlıq buraxılması üzrə istehsalat sahələri, Azərbaycan Komsomolu adına Bakı Elektrik Maşınqayırma zavodunda ildə 100 min ədəd elektrik mühərriki istehsalı, Vladimir İliç adına YBNZ-də yüksəkoktanlı benzin istehsalı üzrə iri katalitik riforminq qurğusu kimi mühüm tikintilər Sov.İKP MK-nın nəzarətində olmuşdur. 5 milyon cüt ayaqqabı istehsal edən yeni iri fabrik, dəyirman istismara verilmişdir.

Ötən illərdə nəyi etmək mümkün olmadı?

Neftçıxarma sənayesində xroniki geriləmənin qarşını almaq, mənzil problemini həll etmək. H.Əliyev tikinti təşkilatlarını 40-cı Bakı şəhər partiya konfransında qəbul edilmiş Bakı üzrə 10 illik mənzil proqramını yerinə yetirmədiklərinə görə kəskin tənqid etdi. İldə 700 min kv. metr plana qarşı real olaraq 410-430 min kv. metrdən çox tikilmirdi. O, binaların arxitektura görkəmini tənqid edərək, bir çox Azərbaycan arxitektorlarının konservatizmindən, ətalətindən və geriliyindən danışdı. Şəhərdə nəqliyyatın pis işləməsini, metro tikintisində kapital qoyuluşunun mənimsənilməsinin qeyri-qənaətbəxş olduğunu qeyd etdi. Həmişə olduğu kimi faktlar gətirərək, spekulyasiya, oğurluq və s. kimi neqativ hallarla mübarizəni gücləndirməyi tələb etdi.



**Yanvarın 13-də** H.Əliyev 1981-ci il üçün sosialist öhdəliklərinin qəbul edilməsinə həsr olunmuş partiya-təsərrüfat fəallarının yığıncağında çıxış etdi.

**Yanvarın 14-də** H.Əliyevin 60 il Sovet hakimiyyəti ərzində respublika zəhmətkeşlərinin keçdiyi yoldan bəhs edən "Sovet Azərbaycanı" kitabı işıq üzü gördü.

**Yanvarın 27-də** Azərbaycan KP MK-nın plenumu oldu. Plenum MK-nın Azərbaycan Kommunist Partiyası XXX qurultayına hesabat məruzəsini müzakirə etdi.

**Yanvarın 28-də** Azərbaycan Kommunist partiyasının XXX qurultayı öz işinə başladı. H.Əliyev hesabat məruzəsi ilə çıxış etdi.

**Yanvarın 30** Azərbaycan KP MK-nın təşkilat məsələsinə baxan plenumu oldu.

H.Əliyev birinci katib, Y.Puqaçov ikinci katib seçildi.

K.Bağırov, İ.Məmmədov, H.Həsənov, F.Musayev MK katibi seçildilər.

MK Bürosu üzvləri: H.Əliyev, K.Bağırov, O.Bağırov, H.Həsənov, V.Hüseynov, A.Kovtunov, İ.Məmmədov, F.Musayev, Y.Puqaçov, H.Seyidov, S.Tatlıyev, Q.Xəlilov, Z.Yusifzadə.

MK Bürosu üzvlüyünə namizədlər: B.Gevorkov, R.Mehdiyev, C.Müslümzadə, K.Rəhimov, L.Rəsulova, H.Əfəndiyev.

Azərbaycan KP MK-nın şöbə müdirləri təsdiq edilmişlər: təşkilati-partiya işi – R.Mehdiyev, təbliğat və təşviqat – Ə.Daşdəmirov, elm və təhsil müəssisələri – H.İsayev, mədəniyyət – V.Quluzadə, xarici əlaqələr – R.Abutalıbov, kimya və neft sənayesi - F.Əliyev, nəqliyyat və rabitə – A.Məmmədov, tikinti və şəhər təsərrüfatı – F.Musayev, kənd təsərrüfatı – Z.Abdullayev, su təsərrüfatı və kənd tikintisi – Z.Musayev, ticarət, plan və maliyyə orqanları – M.Nəzərov, inzibati orqanlar – S.Hüseynov.

KP MK yanında partiya nəzarəti şöbəsinin sədri İ.Əsgərov, ümumi şöbənin müdiri – Y.Kirsanov, MK-nın işlər müdiri – B.Mirzəcanov təsdiq edildilər.

Azərbaycan KP XXX qurultayının yanvarın 30-da qəbul edilmiş qətnaməsində respublikanın partiya, sovet və təsərrüfat orqanlarının qarşısında XI beşilliyin planlarının yerinə yetirilməsi, əmək məhsuldarlığının, məhsulun keyfiyyətinin, zəhmətkeşlərin rifahının artırılması üzrə konkret vəzifələr qoyulurdu.

**Fevralın 11-də** H.Əliyev respublika partiya-təsərrüfat fəallarının Azərbaycan SSR-in kənd təsərrüfatı əməkçilərinin Sov.İKP MK-nın oktyabr (1980-ci il) Plenumunun tələblərindən irəli gələn vəzifələrini müzakirə edən yığıncağında məruzə ilə çıxış etdi.

**Fevralın 13-də** H.Əliyev Keşlə Maşınqayırma zavodunda keçirilən Azərbaycan Kommunist partiyasının XXX qurultayının yekunlarına həsr olunmuş Lenin cümə günündə çıxış etdi.

**Fevralın 23-də** Moskvada Kremlin Qurultaylar sarayında Sov.İKP XXVI qurltayı öz işinə başladı.

**Fevralın 24-də** H.Əliyev qurultayda nitqlə çıxış etdi. Respublikanın partiya rəhbəri Sovet Azərbaycanı zəhmətkeşlərinin əmək nailiyyətlərindən danışdı.

**Martın 3-də** Sov.İKP qurultayı öz işini başa çatdırdı. Sonra Sov.İKP MK-nın Plenumu oldu. L.İ.Brejnev yenidən Baş katib seçildi.

Plenum aşağıdakı tərkibdə Sov.İKP MK Siyasi Bürosunu seçdi:

Siyası Büronun üzvləri: L.Brejnev, Y.Andropov, M.Qorbaçov, V.Qrişin, A.Qromıko, A.Kirilenko, D.Kunayev, A.Pelşe, Q.Romanov, M.Suslov, N.Tixonov, D.Ustinov, K.Çernenko, V.Şşerbitski.



Siyasi Büro üzvlüyünə namizədlər: H.Əliyev, P.Demiçev, T.Kiselyov, V.Kuznetsov, B.Ponomaryov, Ş.Rəşidov, M.Solomentsev, E.Şevardnadze.

Sov.İKP MK katibi seçilmişlər: L.Brejnev, M.Suslov, A.Kirilenko, K.Çernenko, M.Qorbaçov, B.Ponomaryov, İ.Kapitonov, V.Dolqix, M.Zimyanin, K.Rusakov.

Sov.İKP yanında Partiya Nəzarəti Komitəsinin sədri – A.Pelşe.

**Martın 4-də** H.Əliyev VKP MK Baş katibi Le Zuan başda olmaqla Vyetnam Kommunist Partiyasının nümayəndə heyətini qəbul etdi.

**Martın 11-də** H.Əliyev "Gülüstan" sarayında keçirilən Qarşılıqlı İqtisadi Yardım Şurası (SEV) Komitəsinin iclasında iştirak etdi.

**Martın 13-də** H.Əliyev İliç buxtası neftçiləri ilə görüşdü.

**Həmin gün** H.Əliyev M.F.Axundov adına Opera və Balet Teatrında görkəmli aktyor Hüseynqulu Sarabskinin anadan olmasının 100 illiyinə həsr olunmuş təntənəli gecədə iştirak etdi.

**Martın 17-də** H.Əliyev respublika partiya aktivində "Sov.İKP XXVI qurultayının nəticələri və qurultayın qərarlarının həyata keçirilməsində respublika partiya təşkilatının vəzifələri" mövzusunda məruzə etdi.

Məruzədə növbəti beşillikdə həll olunmalı əsas vəzifələr qoyulurdu:

Ümumi ictimai məhsula nisbətən milli gəlirin yüksələn artımının, istehlaka yönəlmiş milli gəlirin daha sürətli artımının təmin edilməsi;

istehsal qüvvələrinin daha səmərəli yerləşdirilməsi, regionların iqtisadi səviyyələrinin bərabərləşdirilməsi, əmək qabiliyyətli bütün əhalinin ictimai istehsala cəlb olunması;

elmi-texniki tərəqqini müəyyən edən sahələrin yüksələn inkişafı hesabına sənaye strukturunun təkmilləşdirilməsi;

ıqtisadiyyatın elektrik enerjisinə olan tələbatı və onun istehsalı, kənd təsərrüfatı məhsulunun istehsal həcmi və emal obyektləri, xalq təsərrüfatı mallarının istehsalı ilə əhalinin tələbatı arasındakı uyğunsuzluqların aradan qaldırılması;

maksimal dərəcədə son məhsula çatdırılmaqla mineral, xammal, təbii resursların kompleks şəkildə istifadəsi.

XI beşillikdə sənaye məhsulunun istehsalı 29-32%, əmək məhsuldarlığı 23-25% artmalıdır. Kənd təsərrüfatının orta illik ümumi məhsulunu onuncu beşilliklə müqayisədə 15-17% artırmaq nəzərdə tutulurdu. XI beşillikdə onuncu beşillikdən 1,5 dəfə çox əsas fondlar istifadəyə verilməli idi.

**Martın 20-də** H.Əliyev beşilliyn yekun ilinin plan və öhdəliklərinin yerinə yetirilməsində fərqlənən Sosialist Əməyi qəhrəmanlarına mükafatlar təqdim etdi.

**Martın 21-də** Azərbaycana Sov.İKP MK, SSRİ Nazirlər Soveti, ÜİHİMŞ-nin və ÜİLKGİ-nin keçici Qırmızı bayrağı təqdim edildi. Bayrağı SSRİ Nazirlər Soveti sədrinin birinci müavini İ.Arxipov təqdim etdi. H.Əliyev yığıncaqda nitq söylədi.

**Martın 27-də** H.Əliyev Azərbaycan Dövlət Filarmoniyasında bəstəkar D.Kabalevskinin müəllif konsertində oldu.

**Martın 28-də** H.Əliyev respublika paytaxtının təltif olunduğu Sov.İKP MK, SSRİ Nazirlər Solveti, ÜİHİMŞ və ÜİLKGİ-nin keçici Qırmızı bayrağı Bakı partiya təşkilatının rəhbərlərinə təqdim etdi.

**Aprelin 1-də** Bakıda SSRİ Rəssamlıq Akademiyasının Rəyasət Heyətinin geniş tərkibdə iclası oldu. Paralel olaraq respublikanın paytaxtında ölkənin rəssamlıq institutlarının 1980-ci il məzunlarının diplom işlərindən ibarət XX Ümumittifaq sərgisi keçirildi.

Açılışda H.Əliyev nitqlə çıxış etdi.

**Aprelin 2-də** H.Əliyev Abşeron rayonunun təsərrüfatlarında oldu, aprelin 3-də isə rayonun partiya fəalları iclasında çıxış etdi.





*V.İ.Lenin adına Sarayda Azərbaycanda Ukrayna SSR-in Ədəbiyyat və İncəsənət günlərinin təntənəli bağlanışı. 10 oktyabr 1979-cu il.*



*H.Əliyev Lənkəranda ənənəvi məhsul bayramı şənliklərində. 8 dekabr 1979-cu il.*



*Bakıda böyük Azərbaycan şairi Nəsiminin heykəlinin təntənəli açılışı. 20 fevral 1980-ci il.*




*Bakının Nərimanov rayonundakı qızlar üçün internat-məktəbdə bayram şənliyi. 30 dekabr 1979-cu il.*



*Azərbaycan KP MK Bürosu üzvlərinin Azərbaycan SSR-in 60 illiyi ərəfəsində bir qrup partiya və əmək veteranları ilə görüşü. 15 aprel 1980-ci il.*



*Dağüstü parkda SSRİ Xalqları Dostluğu Sarayının təntənəli açılışı. 22 aprel 1980-ci il.*



*Görkəmli Azərbaycan yazıçısı Süleyman Rəhimovun anadan olmasının 80 illiyinə həsr olunmuş ədəbi-bədii gecədə. 25 mart 1980-ci il.*



*Tanınmış sovet bəstəkarı, Sosialist Əməyi Qəhrəmanı D.Kabalevski ilə görüş. 31 may 1980-cı il.*



*Qələbə günü. 9 may 1980-ci il.*



*Partiya və dövlət rəhbərləri ilə Moskva Olimpiadası obyektlərində. 1980-ci ilin yayı.*



*Kosmik tədqiqatlar sahəsində əməkdaşlıq üzrə sovet-fransız müşavirəsi iştirakçılarının qəbulu. 14 oktyabr 1980-ci il.*



*Yazıçıların «Xalqların dostluğu–ədəbiyyatların dostluğu» Ümumittifaq yaradıcılıq konfransı. 27 oktyabr 1980-ci il.*



*Azərbaycan FK-DTK (ÇK-KQB) orqanlarının 60-cı ildönümünə həsr olunmuş təntənəli yığıncaq. 23 dekabr 1980-ci il.*



*Finlandiya Respublikasının prezidenti U.Kekkonenin Azərbaycana səfəri. 15-17 noyabr 1980-ci il.*



*Sov.İKP XXVI qurultayı nümayəndələri ilə. Fevral, 1981-ci il.*



*Əfsanəvi kəşfiyyatçı Rixard Zorgenin abidəsinin açılışı. 7 may 1981-ci il.*



*H.Əliyev rəssamlıq institutları tələbələrinin diplom işlərindən ibarət Ümumittifaq sərgisinin eksponatları ilə tanış olur. 1 aprel 1981-ci il. H.Əliyevdən solda–Tahir Salahov.*



*Bakıda SSRİ Hərbi-Dəniz Donanması gününün bayram edilməsi. 26 iyul 1981-ci il.*



*H.Əliyev respublikanın ali məktəblərinə qəbul imtahanlarının gedişi ilə tanış olur. 1 avqust 1981-ci il.*



*H.Əliyev Azərbaycan yazıçılarının VII qurultayında.*
*12 iyun 1981-ci il.*



*Dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 840 illik yubileyi günlərində Nizami adına Ədəbiyyat muzeyində 6 oktyabr 1981-ci il.*



*Yubiley təntənələrinin iştirakçıları ilə görüş zamanı H.Əliyev dahi Nizaminin misralarını sitat gətirir. 6 oktyabr 1981-ci il.*



*SSRİ Bəstəkarlar İttifaqının sədri, SSRİ xalq artisti T.Xrennikovun qəbulu. 19 yanvar 1982-ci il.*



*H.Əliyev S.M.Kirov adına Qırmızı Bayraqlı Xəzər Ali Hərbi-Dəniz məktəbində gənc zabitlərin buraxılışında. 26 iyun 1982-ci il.*



*SSRİ müdafiə naziri, marşal D.Ustinovun Bakıya səfəri. 15-16 iyun 1982-ci il.*




*H.Əliyevin rəhbərlik etdiyi SSRİ Ali Soveti nümayəndə heyətinin Meksikaya səfəri. 20-27 aprel 1982-ci il.*



*Bakıda üç dəfə Sovet İttifaqı Qəhrəmanı B.Vannikovun abidəsinin açılışı. 8 may 1982-ci il.*

**Aprelin 7-də** Bakıda aqronomların respublika müşavirəsi oldu. H.Əliyev nitqlə çıxış etdi.

**Aprelin 8-də** H.Əliyev Sumqayıt müəssisələrində işlərin vəziyyəti ilə tanış oldu, aprelin 9-da isə şəhər partiya aktivini keçirdi və nitqlə çıxış etdi.

**Aprelin 10-da** H.Əliyev Əfqanıstan Demokratik Respublikasının Sovet İttifaqındakı fövqəladə və səlahiyyətli səfiri Həbibi Manqalı qəbul etdi.

**Aprelin 11-də** H.Əliyev S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının 60 illiyinə həsr olunmuş təntənəli görüşdə nitqlə çıxış etdi.

**Aprelin 18-də** H.Əliyev Bakıda Lenin kommunist iməciliyində iştirak etdi.

**Həmin gün** H.Əliyev Bolqarıstan Xalq Respublikasının maarif naziri Aleksandr Folu qəbul etdi.

**Aprelin 23-də** H.Əliyev və respublikanın rəhbərləri görkəmli ictimai xadim, Azərbaycan KP MK-nın üzvü, SSRİ Ali Sovetinin deputatı, SSRİ Yazıçılar İttifaqı idarə heyətinin üzvü, Azərbaycanın xalq yazıçısı İmran Qasımovun dəfn mərasimində iştirak etdilər.

**Aprelin 24-də** H.Əliyev dəmiryol nəqliyyatı obyektlərində oldu, sonra Biləcəri qovşağının partiya fəalları iclasında iştirak etdi.

**Aprelin 29-da** H.Əliyev paytaxtın yeni müəssisələrini – Ayaqqabı fabrikini, dəyirmanı, Şampan Şərabları zavodunu, Vladimir İliç adına Yeni Bakı Neftayırma zavodunun yeni qurğusunu gəzdi.

**Mayın 1-də** H.Əliyev Bakı zəhmətkeşlərinin 1 May nümayişində iştirak etdi.

**Mayın 4-də** H.Əliyev "Azərbaycan kommunisti" və "Literaturnıy Azerbaydjan" jurnallarına "Xalqlar dostluğu" ordenlərini təqdim etdi.

**Mayın 5-də** A.M.Şərifzadə adına Aktyor evində Azərbaycan kinematoqrafçılarının V qurultayı açıldı. H.Əliyev açılışda iştirak etdi.

**Mayın 7-də** əfsanəvi kəşfiyyatçı Rixard Zorgenin abidəsinin açılışı oldu. Səməd Vurqun küçəsi və Kiyev prospektinin kəsişməsində ucaldılan abidənin müəllifi SSRİ xalq rəssamı Vladimir Tsiqaldır. Abidənin açılışına SSRİ müdafiə nazirliyinin rəhbərləri, SSRİ DTK sədrinin müavini V.Kryuçkov, ADR-in dövlət təhlükəzliyi nümayəndələri və b. gəlmişdilər.

**Mayın 8-də** H.Əliyev pionerlərin X respublika toplantısında iştirak etdi.

**Mayın 9-da** H.Əliyev Qələbə gününün qeyd edilməsinin ənənəvi tədbirlərində iştirak etdi.

**Mayın 15-də** Azərbaycan KP MK-nın plenumu oldu. Plenum Sov.İKP XXVI qurultayınında irəli sürülmüş qərarların və L.Brejnevin hesabat məruzəsində qoyduğu vəzifələrin yerinə yetirilməsi istiqamətində respublika KP MK-nın təşkilati-siyasi tədbirlərini müzakirə etdi. H.Əliyev plenumda məruzə ilə çıxış etdi.

**Mayın 21-də** H.Əliyev "Dil və şəhər" Beynəlxalq konfransının iştirakçılarını qəbul etdi.

**Mayın 22-də** H.Əliyev Tbilisidə Gürcüstan SSR-in və Gürcüstan Kommunist partiyasının 60 illiyinə həsr olunmuş təntənəli iclasda təbrik nitqi ilə çıxış etdi.

**Mayın 29-da** H.Əliyev "Sov.İKP XXVI qurultayı və SSRİ-də milli münasibətlərin öyrənilməsi məsələləri" Ümimittifaq konfransının bir qrup iştirakçısını qəbul etdi.

**Mayın 30-da** H.Əliyev Kirovabadda XXVI partiya qurultayının tələbləri ilə əlaqədar təşkilati-siyasi işin gücləndirilməsi istiqamətində şəhər partiya təşkilatının vəzifələrinə həsr olunmuş partiya aktivinin iclasını keçirdi.

**Həmin gün** Kirovabadda SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanına uyğun olaraq iki dəfə Sovet İttifaqı Qəhrəmanı, marşal İ.Baqramyanın büstünün açılışı oldu. Açılışda H.Əliyev və "səbəbkarın" özü, Azərbaycan torpağının yetişdirməsi Baqramyan iştirak etdilər.



**İyunun 7-də** Şüvəlanda yazıçıların Yaradıcılıq evinin açılışı oldu. Həmin gün Azərbaycan Yazıçılar İttifaqının demək olar ki, bütün üzvləri bura toplaşmışdılar. H.Əliyev də gəldi, giriş qapısında qırmızı lenti kəsdi, bundan sonra tamaşaçı zalında MK-nın birinci katibinin ədəbiyyatçılarla geniş söhbəti oldu.

**İyunun 9-da** F.Dzerjinski adına klubda N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun yaradılmasının 50 illiyinə və Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilməsinə həsr olunmuş təntənəli iclas keçirildi. H.Əliyev iclasda nitqlə çıxış etdi.

**İyunun 12-də** H.Əliyev Azərbaycan yazıçılarının VII qurultayında nitqlə çıxış etdi.

Azərbaycan sovet ədəbiyyatının nailiyyətləri ilə yanaşı o, qələm ustalarının yaradıcılığında olan "ağ ləkələrə" də toxundu.

"Nizami və Fizulinin, Xaqani və Nəsiminin, Axundov və Məmmədquluzadənin, Üzeyir Hacıbəyov və Məmməd Səid Ordubadinin vətəni öz müasir yazıçı və şairlərindən parlaq tarixi əsərlər, Azərbaycan tarixi, mədəniyyəti və elminin böyük xadimlərinin qalereyasının yaradılmasını gözləyir. Yazıçı sənəti salnaməçi missiyasına yaxındır. Qoy bu yolda sizi özünün ölməz "Vaqif" dramında böyük Azərbaycan şairinin tarixi obrazını yaratmış, o dövrün sosial-siyasi həyatının mənzərəsini heyrətamiz dəqiqliklə göstərmiş Səməd Vurğunun yaradıcılıq nümunəsi ilhamlandırsın".

H.Əliyev MK-nın Azərbaycan ədəbiyyatı klassiklərinin irsinin öyrənilməsinə və təbliğ edilməsinə həmişə böyük diqqət ayırdığını yada salır. Son illərdə qəbul edilmiş "Bədii ədəbiyyat klassiklərinin əsərlərinin tədqiqi, nəşri və təbliğinin yaxşı-

laşdırılması tədbirləri haqqında", "Böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsi, nəşri və təbliği işinin yaxşılaşdırılması haqqında", "Azərbaycan şair və maarifçisi Mirzə Şəfi Vazehin yaradıcılıq irsinin öyrənilməsinin gücləndirilməsi haqqında" qərarlar bunun bariz nümunəsidir.

O, böyük rus ədəbiyyatı və mədəniyyətinin milli respublikalarda ədəbi proseslərə faydalı təsirindən söz açır:

"...Bu gün rus mədəniyyəti və ədəbiyyatının olduqca zəngin ideya-mənəvi təcrübəsinə müraciət etmək Azərbaycan ədəbiyyatının inkişafının zəruri şərtidir. Klassik və müasir rus ədəbiyyatını yaradanlardan ustalıq dərsləri almaq, onun sərvətlərindən səmərəli istifadə etmək – bu, milli ədəbiyyatımızın təkmilləşməsinin, onu milli nailiyyətlər və dünya bədii təcrübəsi ilə zənginləşdirməyin bəhrə gətirən yoludur".

H.Əliyevin yazıçıların qurultayındakı nitqində Cənubi Azərbaycan mövzusu xüsusi yer aldı:

"Respublika Yazıçılar İttifaqının tərkibində Cənubi Azərbaycandan olan ədəbiyyatçılar səmərəli fəaliyyət göstərirlər. Yaradıcılıq ittifaqının rəhbərliyi onlara daimi qayğı göstərməlidir, onların əsərlərini respublikada və onun hüdudlarından kənarda geniş təbliğ etməlidir. Ümumiyyətlə, Cənubi Azərbaycanla ədəbi əlaqələrin gücləndirilməsi, mədəniyyətin bütün sahələri üzrə geniş əlaqələr yaradılması haqqında düşünmək, qələm dostlarımızla bizdə qazanılmış zəngin bədii-estetik təcrübə ilə bölüşmək lazımdır".

**İyunun 16-da** H.Əliyev respublikanın bir qrup rəhbər işçisinə Dövlət mükafatları təqdim etdi.

**İyunun 17-də** F.Dzerjinski adına klubda L.Brejnevin Gürcüstandakı təntənələrdə çıxışında kənd təsərrüfatı sahəsində irəli sürdüyü vəzifələrin əməli surətdə yerinə yetirilməsinə həsr olunmuş respublika partiya-təsərrüfat fəalları yığıncağı oldu. H.Əliyev yığıncaqda geniş məruzə ilə çıxış etdi.



**Həmin gün** H.Əliyev "Pyotrun gəncliyi" filminin premyerası ilə əlaqədar Bakıda olan görkəmli kinorejissor, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatları laureatı S.Gerasimovu və SSRİ xalq artisti T.Makarovanı qəbul etdi.

Demək olar ki, **1981-ci ilin bütün iyul** ayını H.Əliyev respublikanın kənd təsərrüfatı rayonlarına səfərdə keçirdi: tarla işlərinin gedişi ilə tanış oldu, pambıqçılıq, taxılçılıq, üzümçülük təsərrüfatlarını gəzdi, zəhmətkeş və mütəxəssislərlə söhbət etdi, rayon və zona partiya-təsərrüfat fəalları yığıncaqları keçirdi.

**İyulun 2-də** H.Əliyev Astara rayonu təsərrüfatlarında oldu, rayon partiya komitəsinin plenumunda iştirak etdi.

**İyulun 3-də** H.Əliyev Ağdaş rayonu partiya-təsərrüfat fəallarının yığıncağını keçirdi.

**İyulun 4-də** Salyan rayonu partiya-təsərrüfat fəalları yığıncağı oldu.

**İyulun 11-də** H.Əliyev Ağdam rayonunda təsərrüfatları gəzdi və partaktivin iclasını keçirdi. Günün ikinci yarısında o Ağsu rayonunda oldu və burada da partaktivin iclasını keçirdi.

**İyulun 14-də** H.Əliyev Qasım İsmayılov rayonunun təsərrüfatlarında oldu və partiya -təsərrüfat fəalları yığıncağını keçirdi.

**İyulun 24-də** H.Əliyev İsmayıllı rayonunun Kalinin adına kolxozunda oldu və kolxoza Qırmızı Əmək Bayrağı ordenini təqdim etdi.

O vaxt bu təsərrüfata artıq 30 ilə yaxın idi ki, Sosialist Əməyi Qəhrəmanı, Azərbaycan KP MK-nın üzvü, respublika Ali Soveti Rəyasət Heyətinin üzvü Nikolay Vasilyeviç Nikitin rəhbərlik edirdi.

Şahidlərin xatırladıqlarına görə, İvanovka kolxozçularının nailiyyətləri hətta H.Əliyev kimi təcrübəli bir adamı da heyrətə gətirdi. 4-5 ton süd verən kök, sağlam inəklər, hər hektardan 48 sentner taxıl yığılan yaxşı qulluq görmüş, səliqə-sahmanlı tarlalar (baxmayaraq ki, Kalinin adına kolxoz suvarılan əkinçilik zonasına daxil deyildi), öz stadionu, mehmanxanası, xəstəxanası, Məişət evi və univermaqı, ticarət mərkəzi və uşaq kombinatı olan şəhər tipli abad qəsəbə. Bundan əlavə İvanovkada Asfalt-beton, Kərpic zavodları, taxta emal edən sex, mişarlama dəzgahı var idi.

H.Əliyevi heyvandarlıq fermalarının vəziyyəti və kompleksin bütün ərazisi , kökəltmə məntəqəsi, süni mayalanmanın təşkili, fermalarda istehsalat proseslərinin mexanikləşdirilməsinin yüksək səviyyəsi, maşınla sağım – bir sözlə kalininçilərə sağımda yüksək göstəricilər və keyfiyyət təmin edən hər bir şey xüsusilə heyran etmişdi. H.Əliyev öz çıxışında daha bir mühüm məqamı qeyd etdi: "Biz burada heyvandarlıq və yem istehsalında çalışan hər bir adamın işinə necə məhəbbətlə, ruh yüksəkliyi ilə yanaşdığını, can yandırdığını, öz işini yaxşı bildiyini hiss etdik".

Ertəsi günü Kalinin adına kolxozda rayon rəhbərlərinin heyvandarlıq və yem istehsalı məsələləri ilə məşğul olan kənd təsərrüfatı nazirlik və idarələrinin, alimlərin, mütəxəssislərin iştirakı ilə seminar-müşavirəsi keçirildi. Seminarın başlıca məqsədi kalininçilərin heyvandarlıq və yem istehsalında qazandıqları müsbət təcrübəni respublikada yaymaq idi.

**İyulun 25-də** H.Əliyev İsmayıllı rayon partiya fəalları yığıncağını keçirdi.

**İyulun 26-da** H.Əliyev SSRİ Hərbi-Dəniz Donanması gününün bayram edilməsində iştirak etdi. Həmin gün Bakı buxtasında Qırmızı bayraqlı Xəzər Donanması gəmilərinin təntənəli hərbi paradı oldu.



**İyulun 27-də** H.Əliyev Sov.İKP-nin dəvəti ilə ölkədə olan MSFP MK-nın üzvü, Macarıstanın "Babolna" kənd təsərrüfatı kombinatının baş direktoru Robert Burgerti qəbul etdi.

**Həmin gün** H.Əliyev A.S.Qriboyedov adına Tbilisi Dram Teatrının "Əbədiyyət qanunu" ("Zakon veçnosti") tamaşasında oldu.

**Avqustun 1-də** H.Əliyev Azərbaycan Dövlət Universitetində və Politexnik İnstitutunda oldu, qəbul imtahanlarının gedişi ilə tanış oldu.

**Avqustun 29-da** respublika partiya aktivinin tələbələrlə ənənəvi görüşü oldu.

Respublika partiya rəhbərinin çıxışında təsiredici rəqəmlər səsləndi: bu il digər şəhərlərin ali məktəblərinə 853 nəfər, o cümlədən birinci kursa 720 nəfər göndərilmişdir. Kiyev Mülki Aviasiya İnstituna 42 nəfər qəbul olunmuşdur. Bütövlükdə 1981-ci ildə SSRİ-nin müxtəlif ali məktəblərində 244 ixtisas üzrə Azərbaycandan cəmi 3 min 600 gənc təhsil almalı idi.

**Avqustun 31-də** H.Əliyev Kuba Nazirlər Soveti sədrinin müavini Joel Domeneçe Benitesı qəbul etdi.

**Həmin gün** H.Əliyev məşhur Norveç alimi və səyahətçisi Tur Heyerdalı qəbul etdi.

Söhbət əsnasında Tur Heyerdal qeyd etmişdi: "Mən müxtəlif ölkələrdə olmuşam, lakin heç də hər yerdə Sovet İttifaqındakı kimi, eləcə də sizin respublikanızdakı kimi dövlətin elmin inkişafında bu dərəcədə maraqlı olmasını görməmişəm. Mən yüksək inkişaf etmiş qədim sivilizasiyanın izləri saxlanmış Qobustan qayaüstü yazılarının qorunması üçün necə böyük işlər görüldüyünü müşahidə etdim. Özü də təkcə qorunması üçün yox, bu kəşflərin dərin, yüksək ixtisaslı tədqiqat obyektinə çevrilməsi üçün".

**Sentyabrın 3-də** Bakıda "Gənclər, inkişaf və sülh" mövzusunda beynəlxalq gənclər konfransı açıldı. Konfransın işində Asiya, Afrika və Latın Amerikasının 38 ölkəsinin nümayəndə heyətləri, sosialist ölkələrinin, beynəlxalq gənclər təşkilatlarının, ÜİLKGİ-nin, SSRİ Gənclər Təşkilatları Komitəsinin (KMO) təmsilçiləri iştirak edirdilər. Konfransı BMT-nin baş katibi Kurt Valdhaym və YUNESKO-nun baş direktoru Amadu M.M'Boy salamladılır.

H.Əliyev konfransın açılışında çıxış etdi.

**Sentyabrın 4-də** Bərdə rayonunun partiya aktivinin yığıncağı oldu.

**Sentyabrın 5-də** H.Əliyev Sabirabad rayonunun aktivini keçirdi.

Həmin o günlər bu rayonlarda respublikanın pambıqçılıq rayonları rəhbərlərinin, Azərbaycanın digər pambıqçılıq rayonlarında vəziyyətlə tanış olmuş MK Bürosu üzvlüyünə namizədlərin iştirakı ilə zona müşavirələri oldu. Bu müşavirələrdə bütün rayonlar dövlətə "ağ qızıl" satılmasına dair sosialist öhdəliklərini artırmış, son nəticədə ölkəyə görünməmiş miqdarda – 1 milyon ton pambıq vermək qərara alınmışdı.

**Sentyabrın 11-də** H.Əliyev Cəlilabad rayonunda oldu və orada partaktiv keçirdi.

**Sentyabrın 12-də** H.Əliyev Şamaxıya gəldi, təsərrüfatları gəzdi, məşhur "Mədrəsə" üzümü yetişdirilən plantasiyalarda oldu, Sabir adına kolxozun dequstasiya salonu və şərab anbarlarındakı zəngin üzüm və Azərbaycan şərabları kolleksiyası ilə tanış oldu.

Həmin o günlərdə üzümçülük rayonları rəhbərlərinin zona müşavirələri keçirildi. Bu müşavirələrdə görünməmiş rəqəm səsləndirildi – Azərbaycan üzümçüləri dövlətə 1.600.000 ton üzüm satacaqlar! Üzümün şirinliyində də artım əldə ediləcəkdir – respublika üzrə onu orta hesabla 18 faizə çatdırmaq nəzərdə tutulurdu.



**Sentyabrın 18-də** H.Əliyev Tbilisidə Qırmızı bayraqlı Zaqafqaziya Hərbi Dairəsinin 60 illiyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi və nitq söylədi.

**Sentyabrın 21-də** Bakıda ümumi və tətbiqi kimya üzrə XXII Mendeleyev qurultayı açıldı.

Qurultayı açan SSRİ EA-nın vitse-prezidenti, akademik Y.Ovçinnikov aşağıdakı rəqəmləri səsləndirdi: SSRİ-nin bütün respublikalarından qurultaya 2 mindən çox alim və sənaye xadimi gəlmişdir. Forumda sosialist ölkələrinin kimya sənayesinin rəhbərləri, 20-dən çox ölkənin kimya elminin ən nüfuzlu nümayəndələri iştirak edirlər. H.Əliyev qurultayın açılışında çıxış etdi və Sov.İKP Baş katibi L.Brejnevin XXII Mendeleyev qurultayının ünvanına təbrik məktubunu oxudu.

**Sentyabrın 26-da** H.Əliyev M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun kollektivini 60 illik yubiley münasibəti ilə təbrik etdi və Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanını instituta təqdim etdi.

**Sentyabrın 27-də** H.Əliyev Xaçmaz rayonuna səfər etdi, həmçinin Xudat və Nabran istirahət zonaları ilə tanış oldu. O, bu zonanın turizmin inkişafı, sanatoriya və pansionatların tikintisi sahəsində böyük imkanlarını qeyd etdi, tövsiyə və məsləhətlərini verdi.

**Sentyabrın 29-da** H.Əliyev Beynəlxalq filosoflar assosiasiyası Rəyasət Heyəti iclasının iştirakçılarını qəbul etdi.

**Sentyabrın 30-da** H.Əliyev Bolqarıstan KP MK üzvü, Bolqarıstan Teleqraf Agentliyinin baş direktoru Boyan Traykovu qəbul etdi.

**Oktyabrın 2-də** H.Əliyev Əfqanıstanın ədliyyə işçilərini qəbul etdi.

**Oktyabrın 4-dən 6-sına** kimi respublikada dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 840 illiyinə həsr olunmuş yubiley tədbirləri keçirildi. Yubile-

yə SSRİ-nin bütün respublikalarından şair və yazıçılar dəvət olunmuşdu. Bayram vaxtı H.Əliyev ədəbiyyatçılarla, alim-şərqşünaslarla sıx təmasda oldu, təntənəli gecədə çıxış etdi, habelə qonaqlarla birlikdə mütəfəkkirin vətəni Kirovabadda (Gəncədə) oldu.

**Oktyabrın 6-da** H.Əliyev "Nərimanovneft" NQÇİ-də oldu.

**Həmin gün** V.İ.Lenin adına Sarayda dünya ədəbiyyatının klassiki, dahi Azərbaycan şair və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 840 illiyinə həsr olunmuş təntənəli gecə oldu. Gecədə H.Əliyev başda olmaqla Azərbaycanın bütün rəhbərliyi, həmçinin çoxsaylı qonaqlar – ittifaq respublikaları və xarici ölkə ədəbiyyatçıları iştirak etdi.

**Oktyabrın 9-da** H.Əliyev Azərbaycan rəssamlarının qurultayında iştirak etdi.

**Oktyabrın 10-da** H.Əliyev V.İ.Lenin adına Sarayda kənd təsərrüfatı işçiləri gününə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**Oktyabrın 12-də** KP MK-da kənd təsərrüfatına dair müşavirə oldu.

**Oktyabrın 21-də** H.Əliyev Mingəçevirdə oldu. Burada Zaqafqaziyada ən böyük istilik elektrik stansiyası, 300 min kilovatt gücündə Azərbaycan DRES-in birinci enerji bloku işə salınmağa hazırlanırdı. Cəmi 4 blokun işə salınması nəzərdə tutulurdu. O burada respublika energetiklərinin fəallar yığıncağını keçirdi, şəhərlə, tikilən obyektlərlə tanış oldu.

**Oktyabrın 23-də** Azərbaycan Mərkəzi Statistika İdarəsi respublikanın pambıqçılıq tarixində ilk dəfə olaraq dövlətə 1 milyon tondan artıq pambıq satıldığı barədə xəbər dərc etdi, bunun 400 min tonu plandan əlavə idi.

**Həmin gün** H.Əliyev Azərbaycanın xalq yazıçısı, respublika Yazıçılar İttifaqı idarə heyətinin sədri, Asiya və Afrika Ölkələri ilə Sovet Həmrəylik Komitəsinin sədri Mirzə İbrahimova Lenin ordeni və "Oraq və Çəkic" qızıl medalını təqdim etdi və anadan olmasının 70 illiyi münasibətilə təbrik etdi.



**Oktyabrın 30-da** H.Əliyev Almaniya Kommunist partiyası mətbuat xidmətinin rəhbəri Eberxard Veber başda olmaqla AFR-dən olan kommunist-redaktorlar qrupunu qəbul etdi.

**Həmin gün** respublika partiya təşkilatı L.Brejnevin 1981-ci ilin sosialist öhdəliklərini yerinə yetirmiş Azərbaycan zəhmətkeşlərinə təbrik məktubunu aldı. MSİ-nin yaydığı xəbərə görə respublika XI beşilliyin birinci ilində dövlətə 1 milyon 9 min ton pambıq və 1 milyon 602 min ton üzüm təhvil vermişdi. İlin yekunlarına görə Azərbaycan ölkədə ən iri üzüm istehsalçısı olmuşdur.

**Oktyabrın 31-də** V.İ.Lenin adına Sarayda bu münasibətlə zəhmətkeşlərin mitinqi oldu. H.Əliyev mitinqdə geniş nitqlə çıxış etdi.

**Həmin gün** "Pravda" qəzeti H. Əliyevin respublika zəhmətkeşlərinin kənd təsərrüfatının inkişafında və xalq təsərrüfatı planlarının yerinə yetirilməsində qazandıqları uğurlardan söhbət açan "Azərbaycan tarlalarından" adlı məqaləsini dərc etmişdir.

**Noyabrın 4-də** H.Əliyev Azərbaycan Dram Teatrında "Xurşidbanu Natəvan" tamaşasında oldu. Arif Məlikovun musiqi yazdığı tamaşada baş rolu Amaliya Pənahova ifa etdi.

**Noyabrın 6-da** H.Əliyev V.İ.Lenin adına Sarayda Böyük Oktyabr Sosialist inqilabının 64-ci ildönümünə həsr edilmiş təntənəli iclasda məruzə ilə çıxış etdi.

**Noyabrın 7-də** H.Əliyev Böyük Oktyabrın ildönümü münasibətilə hərbi paradda və Bakı zəhmətkeşlərinin nümayişində iştirak etdi.

**Noyabrın 11-də** H.Əliyev revmatoloqların respublika müşavirəsi iştirakçılarını qəbul etdi.

**Noyabrın 16-da** H.Əliyev Sov.İKP MK Plenumunda çıxış etdi. Plenumda SSRİ Nazirlər Soveti sədrinin müavini, SSRİ Dövlət Plan Komitəsinin sədri N.Baybakov "1981-1985-ci illər üçün SSRİ-nin iqtisadi və sosial inkişafı Dövlət planı və 1982-ci il üçün SSRİ-nin iqtisadi və sosial inkişafı Dövlət planı haqqında" və SSRİ maliyyə naziri V.Qarbuzovun "1982-ci ilin SSRİ Dövlət büdcəsi haqqında" məruzələri dinləndi.

**Noyabrın 17-də** Moskvada İttifaqlar Evinin Sütunlu salonunda dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 840 illiyinə həsr olunmuş təntənəli gecə oldu. Gecədə Sov.İKP MK katibləri M.Qorbaçov və M.Zimyanin də daxil olmaqla ölkənin partiya-siyasi elitası, müttəfiq respublikaların yazıçılır təşkilatlarının sədrləri, alimşərqşünaslar iştirak edirdilər. Məruzə ilə Azərbaycan KP MK-nın ideologiya üzrə katibi H.Həsənov çıxış etdi.

**Noyabrın 18-də** "Literaturnaya qazeta"da H.Əliyevin məşhur "Qoy həqiqət zəfər çalsın..." müsahibəsi dərc olundu.

**Noyabrın 19-da** Moskvada Mərkəzi Memarlar Evində Azərbaycan SSR-ə həsr olunmuş gecə oldu. Gecədə H.Əliyev və Azərbaycan KP MK Bürosunun üzvləri, tanınmış Rusiya memar və rəssamları, elm və mədəniyyət xadimləri iştirak edirdi. H.Əliyev Sovet Azərbaycanının son illərdə qazandığı nailiyyətlərdən gözəl və parlaq danışdı.

**Noyabrın 21-də** H.Əliyev Azərbaycan DRES-də oldu və Mingəçevir şəhər partiya fəalları yığıncağını keçirdi.

**Noyabrın 24-də** H.Əliyev respublikanın partiya-təsərrüfat fəallarının L.Brejnevin Sov.İKP MK-nın noyabr (1981-ci il) Plenumundakı çıxışında irəli sürülmüş vəzifələr işığında əsaslı tikinti üzrə plan və sosialist öhdəliklərinin yerinə yetirilməsi yollarını müzakirə edən yığıncağında çıxış etdi.

**Həmin gün** H.Əliyev M.F.Axundov adına Opera və Balet Teatrında dünya elminin klassiki, dahi Azərbaycan alim və mütəfəkkiri Nəsirəddin Tusinin anadan olmasının 780 illiyinə həsr olunmuş təntənəli gecədə iştirak etdi.



**Noyabrın 30-da** H.Əliyev Teatr cəmiyyətinin VII qurultayında iştirak etdi.

**Dekabrın 1-də** H.Əliyev M.Əzizbəyov adına Akademik Dram Teatrında görkəmli Azərbaycan aktyoru Hüseyn Ərəblinskinin anadan olmasının 100 illiyinə həsr olunmuş yubiley gecəsində iştirak etdi.

**Dekabrın 2-də** H.Əliyev Azərbaycan KP MK-nın plenumunda "Sov.İKP MK noyabr (1981-ci il) Plenumunun yekunları və respublika partiya təşkilatının Plenumun qərarlarından irəli gələn vəzifələri" adlı məruzə ilə çıxış etdi. Plenumda həmçinin XI beşillik və 1982-ci il üçün iqtisadi və sosial inkişaf planlarının layihələri müzakirə olundu.

**Dekabrın 3-də** H.Əliyev Almaniya Vahid Sosialist Partiyasının nümayəndə heyətini qəbul etdi.

**Dekabrın 4-də** F.Dzerjinski adına klubda Moskva ətrafında alman-faşist qoşunlarının darmadağın edilməsinin 40 illiyinə həsr olunmuş təntənəli iclas oldu. H.Əliyev və MK Bürosunun üzvləri rəyasət heyətində idilər.

**Dekabrın 5-də** H.Əliyev zəlzələdən ziyan çəkmiş İsmayıllı rayonunda oldu.

**Dekabrın 9-da** F.Dzerjinski adına klubda C.Naxçıvanski adına internat-məktəbin 10 illiyinə həsr olunmuş təntənəli iclas oldu.

H.Əliyev MK Bürosu üzvləri və üzvlüyə namizədlərlə birlikdə iclasda iştirak etdi, internatın kollektivinə Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanını təqdim etdi və nitqlə çıxış etdi:

"1971-ci ildə Azərbaycan KP MK-nın qərarı ilə ölkəmizdə ilk dəfə olaraq cavanların, birinci növbədə yerli millətdən olan cavanların ali hərbi tədris müəssisələrinə daxil olması və sonradan SSRİ Silahlı Qüvvələrinin zabit korpusunda xidmət etməsi üçün hazırlanması məqsədi ilə bu cür profilli internat-məktəb yaradılmışdır... Bu qısa müddətdə məktəbin kollekti-

vi şanlı yol keçmişdir. Ən əsası odur ki, bu tipli təhsil müəssisəsinin yaradılması ideyası özünü tam doğrultmuşdur və hazırda bu məktəb üzərinə düşən məsuliyyətli vəzifənin öhdəsindən uğurla gəlir.

Qətiyyətlə demək olar ki, nəticələr gözlədiyimizdən də artıq oldu. On il ərzində məktəbin 540 yetirməsi akademiyalara, hərbi məktəb və ya institutlara daxil oldu, indi onlar 47 hərbi təhsil müəssisəsində təhsil alırlar. Bu cavanlardan artıq 130 nəfəri zabitdir, Sovet Ordusu və Hərbi-Dəniz Qüvvələri sıralarında xidmət edirlər. Hazırda internat-məktəbdə beş yüzdən çox uşaq təhsil alır, onlardan 310 nəfəri bu il daxil olmuşdur.

... Məktəbin ərsəyə gəlib inkişaf etməsində qarşıya çıxan çətinlikləri də qeyd etmək lazımdır. Açığını deyək ki, keçilmiş yol asan olmamışdır. Aydın məqsədimizin olması ilə yanaşı, on il bundan qabaq biz müvafiq təcrübəyə, praktikaya malik deyildik. Bir çoxlarını ixtisaslaşdırılmış məktəbin vacibliyinə inandırmalı idik, orta məktəbdə olduğundan bir qədər fərqlənən müəllim kollektivi seçmək, müvafiq maddi-texniki baza yaratmaq lazım idi və s.

İlk çağlarda internat-məktəb üçün şagird yığmaq da əsas problemlər sırasında idi. Biz müdiriyyətin, müəllimlərin bu işdə çətinliklərini başa düşürdük, problemlərlə dərindən məşğul olurduq, köməklik göstərirdik. Elə bu ili götürək: 300 yerə 650 cavan oğlan namizəd idi. Əsl müsabiqə, ali məktəblərə qəbulda olduğu kimi! Şübhə yoxdur ki, gələcək illərdə bu müsabiqə daha da artacaqdır".

**Dekabrın 10-da** H.Əliyev şair S.Rüstəmə və şair B.Azəroğluna Dövlət mükafatları təqdim etdi.

**Dekabrın 12-də** H.Əliyev Bakı Dənizçilik məktəbinin 100 illiyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**Dekabrın 15-də** H.Əliyev Sov.İKP MK Baş katibi L.Brejnevin 75 illiyinə həsr olunmuş görüşdə 18-ci Ordunun veteranları ilə eyniadlı muzeydə çıxış etdi.



**Dekabrın 18-də** H.Əliyev Sov.İKP MK Siyasi Bürosunun digər üzvləri və üzvlüyə namizədləri ilə birlikdə Kremlin Böyük Sarayında Sov.İKP MK Baş katibi, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri L.Brejnevə anadan olmasının 75 illiyi ilə əlaqədar sosialist ölkələrinin yüksək mükafatlarını təqdimetmə mərasimində iştirak etdi. Həmin gün Brejnev Lenin ordeni və Sovet İttifaqı Qəhrəmanının dördüncü "Qızıl Ulduz" medalı ilə təltif edildi.

**Dekabrın 19-da** H.Əliyev Sov.İKP MK-nın, SSRİ Ali Soveti Rəyasət Heyətinin və SSRİ Nazirlər Sovetinin L.Brejnevin 75 illiyi münasibətilə Kremlin Georgiyevskiy zalında təşkil edilmiş qəbulda təbrik nitqi ilə çıxış etdi.

**Dekabrın 22-də** H.Əliyev M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Aşıq Alının anadan olmasının 180 illiyinə həsr olunmuş təntənəli gecədə iştirak etdi.

**Dekabrın 23-də** F.Dzerjinski adına klubda Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun 60 illiyinə həsr olunmuş təntənəli yığıncaq keçirildi. H.Əliyev institut kollektivini təbrik etdi və onun nümayəndələrinə Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanını təqdim etdi.

**Dekabrın 25-də** H.Əliyev M.Əzizbəyov adına Dram Teatrında Abdulla Şaiqin anadan olmasının 100 illiyinə həsr olunmuş ədəbi-bədii gecədə iştirak etdi.

**Dekabrın 29-da** H.Əliyev F.Dzerjinski adına klubda Azərbaycan televiziyasının 25 illiyinə həsr olunmuş təntənəli iclasda iştirak etdi.

# 1982

**Yanvarın 3-də** respublika qəzetlərində Bakıda benzinin katalitik riformasiyası və neftin ilkin emalı üzrə yeni texnoloji qurğular kompleksinin tikintisinin başa çatdırılması münasibətilə Sov.İKP MK Baş katibinin təbriki çap olundu.

**Yanvarın 4-də** Sov.İKP XXII qurultayı adına Bakı neftayırma zavodunda Bakı zəhmətkeşləri nümayəndələrinin Baş katibin təbrikinə həsr olunmuş mitinqi oldu.

1982-ci ilin əvvəli üçün Sov.İKP XXII qurultayı adına Bakı Neftayırma zavodunda ELOU-AVT qurğusunun yüklənməsini layihə səviyyəsinə çatdırmaq, bununla da açıq rəngli neft məhsullarının və yüksək keyfiyyətli motor yağlarının alınmasını xeyli artırmıq mümkün oldu. Vladimir İliç adına YBNZ-də benzinin katalitik riformasiyası kompleksinə gəldikdə isə, o yüksək keyfiyyətli etilləşməmiş benzinlərin istehsalını 3,5 dəfə artırmağa və əldə edilmiş bütün məhsulu yüksək kateqoriya ilə attestasiya etməyə imkan yaratdı.

Yeni komplekslər respublikanın neftayırma sənayesinin əsaslı surətdə yenidən qurulması və müasirləşdirilməsi üzrə 1970-ci ildə hazırlanmış böyük proqramın tərkib hissəsi idi. Bircə bunu demək kifayətdir ki, bu sahənin inkişafına 10 il ərzində 400 milyon manat vəsait qoyulmuşdur.

**Yanvarın 6-da** H.Əliyev Kommunist partiyasının bir qrup veteranına "50 il Sov.İKP sıralarında" nişanını təqdim etdi.



**Yanvarın 8-də** H.Əliyev gənc Azərbaycan şahmatçısı, qrossmeyster H.Kasparovu qəbul etdi.

**Yanvarın 15-də** H.Əliyev böyük bir qrup ədəbiyyat və incəsənət xadimləri ilə Şuşada, böyük Azərbaycan şairi Vaqifin abidəsinin açılışında oldu.

Həmin gün Azərinformun müxbirləri hadisə yerindən reportajda xəbər verirdilər: "Şairin dəfn olunduğu yerdə, qayalı təpənin üstündə onun möhtəşəm məqbərəsi ucalır (müəlliflər – arxitektorlar Azərbaycan SSR EA-nın müxbir üzvü Ə.Salamzadə və E.Kanukov, heykəltaraş A.Mustafayev). Bu, bayır tərəfdən qırmızımtıl Qarabağ qraniti, içəridən isə ağ mərmərlə örtülmüş dördbucaqlı qala tipli tikilidir. Şəbəkə çərçivələri arasından içəriyə, mərkəz hissəsində qara mərmərdən düzəldilmiş sərdabə yerləşən hissəyə işıq şüaları düşür. Zalın dərinliyindən isə içəriyə girənlərə Vaqifin ağ mərmər büstü baxır. Bu gündən etibarən məqbərə qədim və həmişəcavan Şuşanın simasının ayrılmaz hissəsi olacaqdır".

Həmin gün H.Əliyev yeni Poeziya evinin açılışında iştirak etdi, sonra isə Dağlıq Qarabağ Muxtar Vilayətinin partiya aktivini keçirdi.

Fəallar yığıncağında çıxış edən H.Əliyev, DQMV-də son zamanlar baş vermiş sosial-iqtisadi dəyişiklikləri qeyd etdi: "Bu gün iclasda çıxış edənlər Stepanakertə çəkilmiş dəmir yolundan, qaz kəmərindən minnətdarlıqla danışdılar. Yadımdadır, 1971-ci ildə mən vilayət partiya konfransının işində iştirak edən zaman vilayət üçün mühüm olan bu obyektlərin tikilməsindən həlli çətin olan problem kimi danışılırdı. Su xəttinin çəkilməsi, pedaqoji institutun yaradılması haqqında da bu cür danışılırdı. Ancaq indi bunların hamısı real gerçəklikdir.

Əlbəttə, bu məsələlərin həll olunması asan iş deyildi, böyük kapital qoyuluşu, respublika və ittifaq orqanlarının xeyli səylərini tələb etdi. Lakin bütün bunlar artıq həll olunub, biz bunlar haqqında muxtar vilayətimiz, Azərbaycan Respublikası üçün qürur hissi keçirərək danışırıq. Siz yaxşı yaşayırsınız.

Zəhmətkeşlərin rifah halı ilbəil artır... Söhbətlər zamanı (Stepanakert və Şuşa sakinləri ilə – *E.A.*) mən maraqlanırdım, bir şikayət, narazılıq varmı, cavabında isə yalnız təşəkkür və minnətdarlıq sözləri eşidirdim".

**Yanvarın 18-də** H.Əliyev N.Nərimanov adına Neft-Qazçıxarma idarəsində iki elmi kommunizm məktəbinin birgə məşğələsini keçirdi.

**Yanvarın 19-da** Bakıda ötən təsərrüfat ilinin yekunlarının müzakirə edildiyi, 1982-ci ilin və bütün XI beşilliyin sosializm öhdəliklərinin təsdiq olunduğu respublika partiya-təsərrüfat aktivi keçirildi. Yanvarın 22-də Azərbaycan zəhmətkeşlərinin sosialist öhdəlikləri bütün respublika qəzetlərində dərc olundu.

**Yanvarın 19-da** H.Əliyev SSRİ Bəstəkarlar İttifaqının sədri, SSRİ xalq artisti T.Xrennikovu qəbul etdi.

**Yanvarın 20-də** H.Əliyev M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Sosialist Əməyi Qəhrəmanı, Lenin, SSRİ və RSFSR Dövlət mükafatları laureatı, SSRİ xalq artisti T.Xrennikovun böyük uğurla keçən konsertində iştirak etdi.

**Yanvarın 22-də** H.Əliyev Anqola Xalq Respublikasının partiya-hökumət nümayəndə heyətini qəbul etdi.

**Yanvarın 23-də** H.Əliyev Sovet Ordusu Mərkəzi Teatrının tamaşasında oldu. Qastrollar "Dostluq" teatr mövsümü çərçivəsində keçirilirdi. Moskva aktyorları Bakıda Aleksandr Burdonskinin quruluşunda Amerika yazıçısı Nil Saymonun "Sonuncu dəlicəsinə vurulan" ("Posledniy pılko vlyublennıy") komediyasını göstərirdilər.

**Yanvarın 27-də** SSRİ Nazirlər Soveti sədrinin müavini N.Talızin Bakıda səfərdə oldu. Həmin gün H.Əliyev onu MK-da qəbul etdi, axşam isə "Gülüstan" sarayında sovet-macar Hökumətlərarası komissiyası iştirakçılarının şərəfinə dostluq naharı oldu.



**Yanvarın 30-da** H.Əliyev M.F.Axundov adına Opera və Balet Teatrında Cahangir Cahangirovun "Xanəndənin taleyi" operasının premyerasında iştirak etdi.

**Fevralın 5-də** H.Əliyev Azərbaycan həmkarlar təşkilatlarının XVI qurultayının açılışında iştirak etdi.

**Fevralın 6-da** H.Əliyev Azərbaycan həmkarlar təşkilatlarının XVI qurultayında nitqlə çıxış etdi.

**Fevralın 12-də** H.Əliyev Sumqayıtda Xalqlar dostluğu Sarayının açılışında iştirak etdi, Azərbaycan Boru Prokat zavodunda oldu, zəhmətkeşləri şəxsi məsələlərlə bağlı qəbul etdi, Lenin cümə gününü keçirdi.

**Fevralın 18-də** Azərbaycan KP MK-da ictimai rəyin öyrənilməsi və sosioloji tədqiqatların yaxşılaşdırılması yollarına həsr olunmuş müşavirə keçirildi.

**Fevralın 22-də** F.Dzerjinski adına klubda Gürcüstan, Ermənistan və Azərbaycan Kommunist partiyası Mərkəzi Komitələrinin, Şimali Qafqaz respublikalarının vilayət komitələrinin mühazirəçilərinin, SSRİ Silahlı Qüvvələrinin ideoloji işçilərinin zona seminar-müşavirəsi öz işinə başladı. Seminar Sov.İKP MK tərəfindən çağırılmışdı. Açılışda H.Əliyev nitqlə çıxış etdi.

**Martın 5-də** H.Əliyev M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında 8 mart Beynəlxalq Qadınlar gününə həsr olunmuş yığıncaqda iştirak etdi.

**Martın 5-6-da** Azərbaycan KP MK-nın heyvandarlığın daha da inkişafı və yem bazasının möhkəmləndirilməsinə həsr olunmuş plenumu oldu.

Bu plenumdan qabaq böyük hazırlıq işləri görülmüşdü: respublikanın heyvandarlıq və yem tədarükünə cavabdeh olan bütün partiya komitələri və təşkilatlarında müşavirə və aktivlər keçirilmiş, həmin problemlər mətbuatda, radio və televiziya verilişlərində müzakirə edilmiş, respublika zəhmətkeşlərinin tövsiyə və təkliflərini əks etdirən 3 minə yaxın mək-

tub alınmışdı. Görülmüş işləri ümumiləşdirib, problemi incəliklərinə qədər öyrənən H.Əliyev məsələni plenuma çıxardı.

Plenumda qoyulan əsas vəzifə belə idi – istehsal səviyyəsi ilə respublika əhalisinin ət və süd məhsullarına olan faktiki tələbatı arasındakı uyğunsuzluğu aradan qaldırmaq üçün heyvandarlığın intensivləşdirilməsini sürətləndirmək. H.Əliyev qeyd etdi ki, son on ildə respublikada ət istehsalını 48 faiz artırmaq mümkün olmuşdur, eyni zamanda adambaşına düşən ət istehlakı 6%, süd isə 31% artmışdır. Lakin həmin bu müddətdə respublika əhalisinin 1 milyon nəfər artması ilə bağlı, adambaşına düşən ət və süd istehlakının səviyyəsi yenə də orta ittifaq səviyyəsindən geri qalırdı.

**Martın 11-də** qəzetlərdə SSRİ Ali Soveti Rəyasət Heyətinin iki fərmanı dərc edildi – H.Əliyevin "Oktyabr inqilabı" ordeni ilə təltif olunması ("respublika kommunistlərini və bütün zəhmətkeşlərini 1981-ci ilin plan və sosialist öhdəliklərinin uğurla yerinə yetirilməsi üzrə səfərbər etməkdə böyük təşkilatçılıq və siyasi fəaliyyətə görə") və kənd təsərrüfatı istehsalı qabaqcıllarının bir qrupuna Sosialist Əməyi Qəhrəmanı adı verilməsi haqqında.

**Həmin gün** SSRİ Nazirlər Soveti sədrinin müavini N.Martınov respublika partiya aktivinin yığıncağında Azərbaycan SSR-ə Sov.İKP MK, SSRİ Nazirlər Soveti, ÜİHİMŞ və ÜİLKGİ-nin keçici Qırmızı bayrağını təqdim etdi.

H.Əliyevin məruzəsində ötən ilin bəzi göstəriciləri səsləndirildi: sənayenin artım sürəti 7% təşkil etmişdir, əmək məhsuldarlığı 5,7% artmışdır. 1,5 min adda yeni növ sənaye məhsulu mənimsənilmiş və seriya istehsalına buraxılmışdır. Azərbaycanda kənd təsərrüfatı məhsulunun ümumi həcmi ilk dəfə olaraq 2 milyard 590 milyon manata çatmış və 1981-ci il üçün müəyyən olunmuş tapşırıqdan 16% çox olmuşdur.



1 milyon 15 min ton pambıq, 1 milyon 707 min ton üzüm, 1 milyon 150 min ton taxıl, 850 min ton tərəvəz, 95 min ton bostan bitkiləri istehsal olunmuşdur.

**Martın 22-də** H.Əliyev Sumqayıt Dövlət Dram Teatrının quruluşunda "Qoy bütün Şərq bilsin" tamaşasında oldu. Baş rolda Məlik Dadaşov çıxış edirdi.

**Martın 23-də** böyük Azərbaycan dramaturqu Cəfər Cabbarlının abidəsinin açılışı oldu. Vağzalyanı meydana üzvi surətdə yaraşan heykəltəraşlıq-arxitektura ansamblı heykəltəraş, Azərbaycan SSR əməkdar incəsənət xadimi M.Mirqasımov və memar Y.Qədimovun layihəsi əsasında yaradılmışdır.

**Martın 26-da** H.Əliyev Bakı "Elektroştamp" sınaq zavodunda oldu, müəssisənin kollektivi ilə görüşdü, vətəndaşların şəxsi qəbulunu keçirdi. Xahişlərin çox hissəsi mənzil şəraitinin yaxşılaşdırılması, əhalinin ət və süddə təchiz olunması məsələləri ilə bağlı idi.

**Aprelin 3-də** H.Əliyev respublika Komsomolunun XXXI qurultayında nitqlə çıxış etdi.

**Aprelin 8-də** H.Əliyev paytaxtın partiya-təsərrüfat fəallarının yığıncağında çıxış etdi və Bakı şəhərinə 1981-ci ildə Ümumittifaq sosializm yarışındakı yüksək nəticələrə görə Sov.İKP MK, SSRİ Nazirlər Soveti, ÜİHİMŞ və ÜİLKGİ-nin keçici Qırmızı bayrağını təqdim etdi.

**Aprelin 9-da** H.Əliyev Azərbaycan SSR həmkarlar ittifaqları təşkilatının SSRİ həmkarlar ittifaqının XVII qurultayının tələblərindən irəli gələn vəzifələri müzakirə edən plenumunda çıxış etdi.

**Həmin gün** H.Əliyev "Bakıelekroştamp" zavodunda Lenin cümə günü keçirtdi.

**Həmin gün** H.Əliyev M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Q.Qarayevin yaradıcılığına həsr olunmuş konsertdə oldu.

**Aprelin 13-də** "Leninneft" NQÇİ-nin mədəniyyət və texnika Sarayında partiya-təsərrüfat aktivi və 1981-ci ilin sosializm yarışında qalib çıxmış Lenin rayonu zəhmətkeşləri nümayəndələrinin yığıncağı oldu. H.Əliyev yığıncaqda nitqlə çıxış etdi, rayonun bir sıra müəssisə və idarələrində oldu, zəhmətkeşlərlə görüşdü.

**Aprelin 20-də** Heydər Əliyevin başçılıq etdiyi SSRİ Ali Sovetinin nümayəndə heyəti Meksika Milli Konqresinin dəvəti ilə Moskvadan Mexikoya rəsmi dostluq səfərinə yola düşmüşdür. Bu barədə məlumat SİTA kanaları ilə yayılmışdır.

Respublika mətbuatı və mərkəzi qəzetlər səfərin və sovet nümayəndə heyətinin Meksikanın icra və qanunvericilik hakimiyyəti ilə danışıqlarının bütün gedişatını incəliklərinə qədər izləyirdi. Onlar H.Əliyevin çıxış və nitqlərindən, sovet parlament nümayəndə heyəti rəhbərinin yerli jurnalistlərlə söhbətlərindən parçalar gətirir, nümayəndə heyətinin muzeylərdə, memarlıq abidələrində, konsertlərdə olduğu barədə yazırdılar. H.Əliyev həm Meksika prezidenti X.Lopes Potilyo ilə mühüm beynəlxalq mövzuda söhbətlər zamanı, həm də ən iri Meksika bankı "Bankomer"in rəhbərliyi tərəfindən təşkil olunmuş iş adamları ilə naharda SSRİ ilə Meksika arasında iqtisadi əlaqələri müzakirə edən zaman özünü eyni dərəcədə sərbəst hiss edirdi. H.Əliyevi Kampeçe körfəzindəki dəniz neft hasilatı rayonuna səfər xüsusilə maraqlandırdı. O, "Akalxota" dəniz platformasında oldu, neftçilərin iş və yaşayış şəraiti, bu nəhəng neft yatağının kəşf olunmasının tarixi və neft hasilatının artırılması, həmçinin səmt qazından daha səmərəli istifadə olunması perspektivləri ilə tanış oldu. Bundan əlavə, H.Əliyev ölkənin Kankun şəhəri yaxınlığındakı kurort zonasında oldu. O, mehmanxanalara, turist komplekslərinə baxdı, administrasiya işçiləri, istirahət edənlərlə söhbət etdi, kurort işinin təşkili, turistlərə göstərilən xidmətlə tanış oldu.



Nümayəndə heyəti həmçinin Meksika Antropologiya və Tarix muzeyində, Çapultepek qəsrində yerləşən Milli Tarix muzeyində, məşhur Meksika rəngkarı D.Sikeyros tərəfindən işlənmiş "Poliforum" tarixi-memarlıq kompleksində oldu, İncəsənət Sarayında Meksika folklor baletinin tamaşasına baxdı.

Səfər bir həftədən sonra – aprelin 27-də başa çatdı.

**Mayın 5-də** H.Əliyev Moskvada, İttifaqlar Evinin Sütunlu salonunda "Pravda" qəzetinin 70 illiyinə və Mətbuat gününə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**Mayın 8-də** H.Əliyev Bakıda üç dəfə Sovet İttifaqı Qəhrəmanı B.Vannikovun abidəsinin açılışında iştirak etdi.

**Mayın 9-da** Büro üzvləri başda H.Əliyev olmaqla Bakının Nərimanov rayonunda sovet döyüşçülərinin qardaşlıq məzarındakı xatirə kompleksinə əklil qoydular, sonra isə ənənəyə uyğun olaraq C.Naxçıvanski adına ixtisaslaşdırılmış internat-məktəbdə oldular.

**Mayın 10-da** H.Əliyev Bakının "Neftçi" komandasının futbolçularını və məşqçilərini qəbul etdi.

**Mayın 15-də** H.Əliyev beşilliyin birinci ilində zərbəçi əməklə fərqlənənlərə yüksək dövlət mükafatlarını təqdim etdi. O həmçinin yazıçı Əli Vəliyevə "Oktyabr inqilabı" ordeni, rəssam Mikayıl Abdullayevə "Xalqlar dostluğu" ordeni təqdim etdi. Ümumilikdə XI beşilliyin birinci ilində respublikanın 4 min zəhmətkeşi SSRİ orden və medalları ilə təltif olundu.

**Mayın 17-də** H.Əliyev "Bilik" cəmiyyətinin X respublika qurultayında iştirak etdi.

**Həmin gün** o, SİTA-nın Bakıda sosialist ölkələrinin informasiya agentlikləri jurnalistləri üçün keçirdiyi Beynəlxalq seminar iştirakçılarını qəbul etdi.

**Mayın 18-də** Azərbaycan paytaxtı görkəmli bəstəkar Qara Qarayevlə vidalaşırdı. Azərbaycan Dövlət Filarmoniyası ma-

təm görkəmində idi. Zalda müttəfiq respublikaların, Moskvanın, Leninqradın nümayəndə heyətlərinin üzvləri əyləşmişdilər. H.Əliyev bəstəkarın tabutunu çıxaranlar arasındadır, ustadı son mənzilə yola salan insan karvanı Fəxri Xiyabana qədər uzandı. Matəm mitinqində H.Əliyev təsirli nitq söylədi.

**Mayın 24-də** H.Əliyev Sov.İKP MK-nın Plenumunda iştirak etdi və Sov.İKP MK Baş katibi L.Brejnevin "1990-cı ilə qədər olan müddətə SSRİ-nin ərzaq proqramı və onun yerinə yetirilməsi tədbirləri" mövzusunda məruzəsinin müzakirəsində çıxış etdi.

**Mayın 28-də** H.Əliyev SSRİ Prokurorluğunun 60 illiyinə həsr olunmuş yığıncaqda nitqlə çıxış etdi.

**Həmin gün** H.Əliyev İordaniya-Sovet dostluğu cəmiyyətinin nümayəndə heyətini qəbul etdi.

**Mayın 31-də** L.Brejnev Kremldə H.Əliyevə "Oktyabr inqilabı" ordenini təqdim etdi.

**Həmin gün** H.Əliyev L.Brejnevin "Sov.İKP MK may (1982-ci il) Plenumu qərarlarının həyata keçirilməsində Xalq Deputatları Sovetinin vəzifələri" mövzusunda əsas məruzə ilə çıxış etdiyi SSRİ Ali Soveti Rəyasət Heyətinin yığıncağında gündəlik məsələlərin müzakirəsində çıxış etdi.

**İyunun 4-də** H.Əliyev SSRİ Böyük Teatrının Bakıda qastrolda olan bir qrup aparıcı yaradıcı əməkdaşını qəbul etdi.

**İyunun 5-də** H.Əliyev S.Vurğun adına Rus Dram Teatrında Eldar Əliyevin "Ürək üzərində əməliyyat" tamaşasına baxdı.

**İyunun 7-də** H.Əliyev SSRİ-də akkreditə olunmuş bir sıra diplomatik nümayəndəliyin başçılarını qəbul etdi.

**Həmin gün** H.Əliyev Bakıda "Tümen torpağının rəşadəti" adlı sərgidə oldu.

**Həmin günün** axşamı "Gülüstan" sarayında SSRİ Böyük Teatrı kollektivinin şərəfinə qəbul oldu. H.Əliyev qəbulda iştirak etdi.



**İyunun 8-də** H.Əliyev SSRİ-də akkreditasiya olunmuş diplomatik nümayəndəliklərin başçılarının şərəfinə nahar verdi.

**İyunun 10-da** H.Əliyev görkəmli Azərbaycan müğənnisi Bülbülün xatirə ev-muzeyinin açılışında iştirak etdi.

**Həmin gün** H.Əliyev "Neftçi" futbol komandasının kollektivini qəbul etdi.

**Həmin gün** H.Əliyev V.İ.Lenin adına Sarayda SSRİ Böyük Teatrı artistlərinin yekun konsertində iştirak etdi.

**İyunun 15-16-da** SSRİ müdafiə naziri, marşal D.Ustinov Bakıda oldu.

**İyunun 18-də** H.Əliyev Azərbaycan KP MK-nın Sov.İKP MK may (1982-ci il) Plenumunun yekunlarına və L.Brejnevin "1990-cı ilə qədər olan müddətdə SSRİ Ərzaq proqramı və onun həyata keçirilməsi tədbirləri haqqında" məruzəsindən irəli gələn respublika partiya təşkilatının vəzifələrinə həsr olunmuş plenumunda nitqlə çıxış etdi.

Məruzədə respublika aqrar sənaye kompleksinin vəziyyəti, Ərzaq proqramının həyata keçirilməsinin yolları və vasitələri hərtərəfli təhlil edildi. Əsas diqqət istehsalın intensivləşdirilməsinə, kənd təsərrüfatı məhsullarının məhsuldarlığının artırılmasına və heyvandarlığın səmərəliliyinə yönəldildi.

**İyunun 20-də** H.Əliyev yerli Xalq Deputatları Sovetlərinə seçkilərdə iştirak etdi.

**İyunun 22-də** Bakıda SSRİ xalqlarının poeziya bayramı açıldı. Bayrama Sovet İttifaqının ən müxtəlif respublika və regionlarından şairlər gəlmişdi. H.Əliyev poeziya bayramının açılışında iştirak etdi və elə həmin gün MK-da onun bir qrup iştirakçısını qəbul etdi.

**İyunun 25-də** H.Əliyev Dəvəçi broyler fabrikində Lenin cümə gününü keçirdi.

**Həmin gün** H.Əliyev Böyük Britaniyanın SSRİ-dəki fövqəladə və səlahiyyətli səfiri Kertis Kibli onun xahişilə qəbul etdi.

**İyunun 26-da** H.Əliyev S.M.Kirov adına Qırmızı bayraqlı Xəzər Ali Hərbi-Dəniz məktəbində gənc zabitlərin buraxılışında iştirak etdi.

**İyulun 1-2-də** H.Əliyev Lənkəran və Astara rayonunun təsərrüfatlarında oldu, Lənkəranda şəhər partiya komitəsinin plenumunu keçirdi.

**İyulun 5-də** H.Əliyev Moskvada keçirilən "Müasir Asiyanan aktual problemləri" Beynəlxalq elmi-siyasi konfransı iştirakçılarının böyük bir qrupunu Bakıda qəbul etdi.

Qrupa SSRİ Elmlər Akademiyası Şərqşünaslıq institutunun direktoru Y.Primakov rəhbərlik edirdi.

**İyulun 10-da** Bakıda sovet işçilərinin respublika müşavirəsi oldu. H.Əliyev müşavirədə geniş nitqlə çıxış etdi, Sov.İKP-nin may Plenumunda qəbul edilmiş Ərzaq proqramının həyata keçirilməsində Xalq Deputatları Sovetlərinin qarşısında duran vəzifələri təhlil etdi.

H.Əliyev Sovet rəhbərlərini yardımçı təsərrüfatların, həmçinin vətəndaşların şəxsi yardımçı təsərrüfatlarının təşviq edilməsinə, hər bir kənd həyatində şəxçi mal-qaranın, o cümlədən bir ya bir neçə inəyin olmasına istiqamətləndirdi. O, Sovetlərdən kənd zəhmətkeşinin həyat şəraitinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirməyi, yaşayış, məktəb tikintisi, mədəni-məişət təyinatlı obyektlərin istifadəyə verilməsini xüsusi nəzarət altına götürməyi tələb etdi.

O, hələ həmin uğurlu vaxtlarda, respublikada qazlaşdırılmanın aşağı səviyyədə olduğundan, meşələrin vəhşicəsinə qırılmasından ürək ağrısı ilə danışırdı: "Təəssüf ki, bizim bir çox kəndlərimizdə bu işə məsuliyyətsiz yanaşırlar. Bəzi yerlərdə meşələri qırırlar, özü də amansızlıqla... Belə vəziyyətlə barışmaq olarmı, yoldaşlar! Axı gözümüzün qarşısında çoxəsrlik meşələr məhv olur. Biz hər bir ağacı böyük çətinliklə yetişdiririk, Bakıda ildən-ilə yaşıllığın artmasına sevinirik, o yalnız landşaftı zənginləşdirmir, atmosfer mühitinin yaxşılaşmasına da kömək edir. Meşəyə vəhşicəsinə münasibət isə bütün ekoloji sistemə ciddi ziyan vurur. Üstəlik Azərbaycanda digər müttəfiq respublikalarla müqayisədə meşələr çox azdır".



**İyulun ortalarından** H.Əliyev yenə rayonlara səfər etdi, Ağcabədi, Xanlar, Füzuli, Qasım-İsmayılov rayonlarının bir çox təsərrüfatlarında oldu, partiya-təsərrüfat fəallarının rayon və zona müşavirələrini keçirdi.

**İyulun 16-da** V.İ.Lenin adına Sarayda Ü.Hacıbəyov adına Dövlət Simfonik Orkestrinin 60 illiyinə həsr olunmuş təntənəli gecə keçirildi. H.Əliyev orkestrin bədii rəhbəri və baş dirijoru Niyaziyə respublikanın ali mükafatını – Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanını təqdim etdi. Tədbirdə Moskvadan və müttəfiq respublikalardan gəlmiş qonaqlar iştirak edirdilər.

**Həmin gün** H.Əliyev Fransa Kommunist partiyasının üzvü Jorj Seçini qəbul etdi.

**İyulun 23-də** Gürcüstan Dövlət Filarmoniyasının Böyük zalında Qırmızı bayraqlı Zaqafqaziya sərhəd dairəsinin 60 illiyinə həsr olunmuş təntənəli iclas oldu. H.Əliyev iclasda nitqlə çıxış etdi.

**İyulun 24-də** MK-da ali məktəblərə qəbula hazırlıq və qəbulun keçirilməsi məsələsinə həsr olunmuş müşavirə keçirildi. H.Əliyev bir sıra ali məktəblərin rektor və prorektorlarını vəzifələrindən sui-istifadə etdiklərinə, proteksionizmə və rüşvətxorluğa yol verdiklərinə görə tənqid etdi. Sonra dedi ki, bu günlərdə MK Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunda yol verilmiş ciddi nöqsanları müzakirə etmiş, rektor Ə.Məmmədovu vəzifədən azad etmiş, ona şiddətli töhmət elan etmişdir.

**İyulun 25-də** H.Əliyev SSRİ Hərbi Dəniz Donanması gününün bayram edilməsində iştirak etdi.

**İyulun 29-da** H.Əliyev böyük qrup Azərbaycan yazıçıları ilə birlikdə Vaqif poeziya günlərində iştirak etmək üçün Şuşaya gəldi.

**İyulun 30-da** H.Əliyev Azərbaycan KP MK bürosunun geniş iclasında çıxış etdi. İclasda Azərbaycan, Özbəkistan, Tacikistan və Türkmənistan pambıqçılarının sosialist öhdəliklərini yerinə yetirməsi gedişinin qarşılıqlı yoxlanmasının yekunları vuruldu.

**Avqustun 1-2-də** H.Əliyev respublika ali məktəblərinə qəbulun gedişini müşahidə etdi, N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunda, M.Əzizbəyov adına Azərbaycan Neft-Kimya İnstitutunda, AİMİ-də, V.İ.Lenin adına APİ-də oldu.

**Avqustun 29-da** H.Əliyev və MK Bürosu üzvlərinin tələbə gənclərlə ənənəvi görüşü oldu.

1982-ci ildə respublikanın ali məktəblərinə 21.450 tələbə qəbul olunmuşdu, digər şəhərlərə 850 nəfər göndərilmişdi.

H.Əliyev razılıqla qeyd etdi ki, getdikcə azərbaycanlı oğlanlar zabit sənətinə yiyələnməyə daha çox can atırlar. 1982-ci ildə ali hərbi məktəblərə 4 mindən çox adam daxil olmaq fikrində olmuşdur. Hərbi təyyarəçi olmaq qərarına gələn gənclərin sayı 1981-ci illə müqayisədə iki dəfədən çox artmışdır. 1982-ci ildə Azərbaycandan min nəfər gənc, o cümlədən 550 nəfər yerli millətin nümayəndəsi ölkənin ali hərbi məktəblərinin kursantı olmuşlar.

**Sentyabrın 3-də** H.Əliyev Bərdə rayonunda, sentyabrın 4-də isə Sabirabad rayonunda oldu, pambıq yığımının gedişatı ilə tanış oldu, bir sıra təsərrüfatları gəzdi, partiya-təsərrüfat fəalları yağıncağını, sonra isə pambıqçılıq rayonlarının zona fəallar müşavirəsini keçirdi.

Öz çıxışlarında H.Əliyev təsərrüfat rəhbərlərini plan və sosialist öhdəliklərini artıqlaması ilə yerinə yetirməyə çağırdı. Bunula belə, o, zona müşavirəsində qeyd etdi: "Ötən il siqnallar gəlirdi ki, bəzi təsərrüfatlar gündəlik hesabat göstəricilərinin təhrif edilməsi faktlarına yol verirlər. Bu mövsümdə belə neqativ halların qarşısı ciddi surətdə alınmalıdır".



**Sentyabrın 7-də** H.Əliyev Cəlilabad rayonunda, sentyabrın 8-də isə Şamaxı rayonunda oldu. Partiya-təsərrüfat fəallarının yığıncaqlarını və üzümçülük rayonlarının zona müşavirələrini keçirdi.

**Sentyabrın 24-də** Sov.İKP MK Baş katibi L.Brejnev Bakıya gəldi. Qarşılanma mərasimi olduqca təntənəli təşkil edilmişdi. Birinci gün Baş katib Lenin meydanına gəldi, burada onun şərəfinə möhtəşəm səhnələşdirilmiş tamaşa təşkil edilmişdi. Rəşid Behbudov L.Brejnevə Bakının Fəxri vətəndaşı medalını təqdim etdi. Həmin gün Baş katib SSRİ Xalqları Dostluğu Sarayında oldu, S.Kirovun heykəli önündəki meydançadan Bakını seyr etdi.

**Sentyabrın 25-də** Baş katib 26 Bakı komissarı memorialı önünə əklil qoydu, XI Qızıl Ordu abidəsinə, Dənizkənarı bulvarda Azərbaycan SSR Xalq Təsərrüfatının Nailiyyətləri Sərgisinə baxdı. Sonra o, H.Əliyevlə "Şelf-2" qazma qurğusunda oldu. Həştərxan gəmiqayırma birliyinin tərsanələrində quraşdırılmış bu nəhəng platforma, Sverdlovsk, Volqoqrad, Qroznı zavodlarında istehsal olunmuş avtomatika, cihaz və avadanlıqla təchiz edilmişdi. Qurğu dənizin suyun qalınlığı 200 metrədək olan sahələrində 6 min metr dərinlikli quyularda qazma işləri aparmaq iqtidarında idi.

**Sentyabrın 26-da** Azərbaycan KP Mərkəzi Komitəsinin və respublika Ali Sovetinin Azərbaycan SSR-in üçüncü Lenin ordeni ilə təltif edilməsinə həsr olunmuş təntənəli iclası oldu. İndi respublikanın beş ordeni var idi: "Oktyabr inqılabı" ordeni, "Xalqlar dostluğu" ordeni və üç Lenin ordeni.

H.Əliyev və L.Brejnev yığıncaqda nitqlə çıxış etdilər.

L.Brejnev öz nitqində Azərbaycanın uğurları ilə yanaşı hələ həll olunmalı bir sıra problemləri də diqqətə çəkdi: neft ha-

silatının aşağı düşməsinin qarşısının alınması, neft emalı sənayesinin təchizat vasitələrinin yeniləşdirilməsi, yeni energetika obyektlərinin işə salınması, Azərbaycan və Şamxor elektrik stansiyalarının, Dərin Özüllər zavodunun vaxtında tikilib qurtarması. Mənzil tikintisində, mənzillərin bölüşdürülməsində nöqsanlar. Heyvandarlıqda və yem istehsalında səmərəliliyin artırılmasının vacibliyi. O, suvarılan torpaqlarda ildə iki-üç dəfə məhsul götürülməsinin mümkünlüyü və zəruriliyini qeyd etdi. L.Brejnev sentyabrın 27-də Azərbaycan rəhbərliyi ilə görüşdə də tənqidi fikirlərini bildirdi.

Brejnev bəyan etdi ki, respublikada kurort və turizm sahəsinin inkişafı haqqında Azərbaycan KP MK-nın təşəbbüsü diqqətlə öyrəniləcəkdir və qeyd etdi: "Bu işə lazımi vüsət vermək, ümumittifaq əhəmiyyətli daha bir cənub kurort zonasının yaradılması barədə düşünmək lazımdır. Bu işə ÜİHİMŞ və SSRİ Səhiyyə Nazirliyinin qoşulması da gərəkdir".

**Həmin gün** H.Əliyev Azərbaycan SSR-in Lenin ordeni ilə təltif olunması münasibətilə Azərbaycan KP MK, Ali Soveti və Nazirlər Soveti tərəfindən təşkil edilmiş qəbulda çıxış etdi.

**Sentyabrın 27-də** L.Brejnev Moskvaya yola düşdü.

**Oktyabrın 1-də** H.Əliyev Yerevana Zaqafqaziya hərbi dairəsi Hərbi şurasının iclasına yola düşdü. Sonra Demirçyan və Şevardnadze ilə bir yerdə "Masis" ayaqqabı istehsalat birliyində dostluq mitinqində oldu.

**Oktyabrın 2-də** H.Əliyev Naxçıvan MSSR partiya-təsərrüfat fəalları yığıncağında çıxış etdi. Yığıncaqda L.Brejnevin Azərbaycan SSR-ə Lenin ordeni təqdim olunmasına həsr olunmuş təntənələrdəki çıxışında irəli sürülən vəzifələrin həyata keçirilməsi üzrə əməli tədbirlər müzakirə olundu.

**Oktyabrın 5-də** H.Əliyev Azərbaycana "Lenfilm" kinostudiyası günlərinə gəlmiş bir qrup leninqradlı kino işçisini qəbul etdi.



**Oktyabrın 9-da** H.Əliyev F.Dzerjinski adına klubda Azərbaycan rəssamlarının IX qurultayında iştirak etdi.

**Oktyabrın 10-da** F.Dzerjinski adına klubda kənd təsərrüfatı işçiləri gününə həsr edilmiş iclas oldu.

İclasda H.Əliyev çıxış etdi, pis hava şəraiti ilə əlaqədar respublika kənd təsərrüfatının üzləşdiyi çətinliklərdən danışdı. Sentyabrın 11-dən başlayaraq respublika leysan yağışlarına məruz qalmışdır. Son 90 ildə Azərbaycanda bu qədər yağıntı yağmamışdı. Nəticədə cənub rayonlarına böyük ziyan dəymişdir: kənd təsərrüfatı bitkiləri əkilən sahələri su basmışdır, torpağın münbit qatı yuyulub aparılmışdır, yetişdirilmiş pambıq, üzüm, tərəvəz məhsullarında xeyli itki olmuşdur, heyvandarlıq fermalarını su basmışdır, sel axınları xeyli malqara və quş məhv etmişdir. H.Əliyev kənd təsərrüfatı əməkçilərini təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılması üçün daha qətiyyətlə mübarizə aparmağa, plan və sosialist öhdəliklərinin yerinə yetirilməsini təmin etməyə çağırdı. Oktyabrın 22-də plenumda H.Əliyev ziyanın miqyasını göstərən bəzi rəqəmləri səsləndirəcək: təxminən 80 min hektar torpaq suyun altında qalmışdır, 45 min hektar üzüm sahəsi ziyan çəkmişdir, üzüm məhsulunun itkisi 200 min ton təşkil etmişdir. Pambıq plantasiyalarının böyük sahələrini su basmışdır, bu da təxminən 100 min ton pambıq itkisinə gətirib çıxarmışdır. Min başa yaxın qaramal, 10 min baş qoyun, 100 min quş tələf olmuşdur.

**Həmin gün** H.Əliyev respublika rəssamlarının bir qrupunu qəbul etdi.

**Oktyabrın 12-də** KP MK-da H.Əliyev Azərbaycan rəssamlarının IX qurultayının iştirakçıları ilə görüşdü.

**Oktyabrın 17-də** H.Əliyev Azərbaycan Dram Teatrında A.Sofronovun "Vaxtın ötməsi" ("Srok davnosti") tamaşasında oldu.

**Oktyabrın 18-də** H.Əliyev V.İ.Lenin adına Sarayda M.F.Axundovun anadan olmasının 170 illiyinə həsr olunmuş təntənəli gecədə iştirak etdi.

**Oktyabrın 22-də** Bakıda Azərbaycan KP MK-nın plenumu oldu. Plenum Sov.İKP MK Baş katibi L.Brejnevin Bakıdakı təntənələrdə açıqladığı təklif və iradların həyata keçirilməsi istiqamətində respublika partiya təşkilatının vəzifələrini müzakirə etdi. H.Əliyev plenumda məruzə etdi.

**Oktyabrın 23-də** Bakıda Azərbaycan sahə həkimlərinin I-ci qurultayı oldu. Qurultayda H.Əliyevlə yanaşı Azərbaycanda ümumittifaq kurort zonasının yaradılması ilə bağlı respublikada olan ÜİHİMŞ sədri S.Şalayev və SSRİ səhiyyə naziri S.Burenkov da iştirak edirdilər. H.Əliyev qurultayda nitq söylədi.

**Oktyabrın 26-da** Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitutunun 60 illiyi ilə əlaqədar təntənəli iclasda H.Əliyev institut kollektivinə Qırmızı Əmək Bayrağı ordeni təqdim etdi.

**Oktyabrın 28-də** H.Əliyev Azərbaycan, Gürcüstan və Ermənistan Akademiyaları alimlərinin iştirakı ilə keçirilən SSRİ Elmlər Akademiyası fəlsəfə və hüquq bölməsi Bürosunun səyyar iclasında çıxış etdi.

**Oktyabrın 29-da** H.Əliyev SSRİ EA geologiya, geofizika və geokimya şöbəsinin səyyar iclasının iştirakçılarını qəbul etdi.

**Həmin gün** H.Əliyev bir qrup görkəmli iqtisadçı-alimi, eləcə də Sov.İKP MK yanında Marksizm-Leninizm İnstitutunun direktoru, akademik A.Yeqorovu qəbul etdi.

**Noyabrın 2-də** Bakıda Gürcüstan, Ermənistan və Azərbaycan partiya komitələri katiblərinin Sov.İKP MK Təbliğat şöbəsi tərəfindən təşkil olunuş elmi-praktiki konfrans işə başladı. Konfrans ictimai rəyin, kütlələrin əhval-ruhiyyəsinin, insanları narahat edən kəskin məsələlərin öyrənilməsi təcrübəsinə həsr olunmuşdu.



H.Əliyev konfransın açılışında çıxış etdi və ictimai rəyin öyrənilməsi təcrübəsindən, xalqla, əhali ilə qarşılıqlı əlaqə yaradılmasının təşkilindən danışdı:

"Bizdə Azərbaycan KP MK-nın nəzdində ictimai rəyin öyrənilməsi və sosioloji tədqiqatlar üzrə xüsusi Mərkəz vardır. Respublikanın yüzdən artıq təşkilatında xüsusi tədqiqatlar aparan xidmət mövcuddur. Bütün rayon, şəhər, vilayət partiya komitələrində, ilk partiya təşkilatlarında sosioloji tədbirlər keçirmək yolu ilə ictimai rəyin dərindən öyrənilməsi sahəsində ciddi iş aparılır".

Bu konfransda H.Əliyev bəyan etdi ki, respublika partiya təşkilatının kütlələrlə apardığı işin ən mühüm prinsipi aşkarlıqdır: "Azərbaycan partiya təşkilatının iş təcrübəsi göstərir ki, burada müxtəlif vasitələri bacarıqla birləşdirmək vacibdir, yəni həm sosioloji tədqiqatları, həm də əhalinin müxtəlif təbəqələri arasında keçirilən sorğuları, bundan başqa həyata keçirilən tədbirlərin, xüsusilə onların nəticələrinin geniş aşkarlığını təmin etmək lazımdır...

Biz insanlardan heç nəyi gizlətmirik, Mərkəzi Komitənin, Nazirlər Sovetinin ictimaiyyət üçün mühüm əhəmiyyət kəsb edən, o cümlədən ayrı-ayrı təşkilatların fəaliyyətindəki neqativ tərəfləri, vəzifəli şəxslər tərəfindən buraxılmış nöqsanları və səhvləri, sui-istifadə faktlarını, cinayət təzahürlərini əks etdirən bir çox mühüm qərarlarını açıq elan edirik. Bu, insanların siyasi və əmək fəallığının artmasında müstəsna rol oynayır, qarşılıqlı etibarlılıq mühiti yaradır, bu və ya digər məsələylə bağlı insanların əsl fikirlərinin üzə çıxması və ifadə olunmasına kömək edir".

**Noyabrın 5-də** H.Əliyev Böyük Oktyabr Sosialist inqilabının 65-ci ildönümünə həsr olunmuş təntənəli iclasda iştirak etdi. Məruzə ilə Azərbaycan SSR Nazirlər Sovetinin sədri H.Seyidov çıxış etdi.

**Noyabrın 6-da** V.İ.Lenin adına Sarayda zəhmətkeş nümayəndələrinin dövlətə taxıl, pambıq, üzüm, tərəvəz və digər

kənd təsərrüfatı məhsullarının satışına dair beşilliyin ikinci ilinin sosialist öhdəliklərinin yerinə yetirilməsinə həsr olunmuş mitinqi oldu.

Son dərəcə mürəkkəb hava şəraitinə, şiddətli yağışlara baxmayaraq, pambıqçılar dövlətə 840 min ton (plan 134% yerinə yetirilmişdir) pambıq, 720 min ton üzüm (154%) təhvil verilmişdir. Taxılın ümumi yığımı 1 milyon 200 min ton təşkil etmiş, 700 min tona yaxın tərəvəz təhvil verilmişdir. Bu əmək qələbəsi ilə Azərbaycan zəhmətkeşlərini əvvəllər olduğu kimi Sov.İKP MK Baş katibi L.Brejnev təbrik etmişdir.Bu onun sonuncu təbriki oldu. Bir neçə gündən sonra L.Brejnev dünyasını dəyişdi.

**Noyabrın 7-də** H.Əliyev Böyük Oktyabrın şərəfinə hərbi paradda və Bakı zəhmətkeşlərinin nümayişində oldu.

**Həmin gün** H.Əliyev Qırmızı bayraqlı Xəzər Donanmasında oldu.

**Noyabrın 12-də** Moskvada Sov.İKP MK-nın növbədənkənar Plenumu oldu. Plenum Y.V.Andropovu Sov.İKP MK-nın yeni Baş katibi seçdi.

**Noyabrın 15-də** H.Əliyev Moskvada, Qızıl meydanda Siyasi Büronun digər üzvləri ilə birlikdə L.Brejnevin dəfn mərasimində iştirak etdi.

**Noyabrın 22-də** Sov.İKP MK-nın plenumu oldu. Plenum H.Əliyevi namizədlikdən Siyasi Büronun üzvlüyünə keçirdi.

**Həmin gün** bütün qəzetlər H.Əliyevin bioqrafiyasını dərc etdilər:

"H.Ə. Əliyev yoldaş 1923-cü ildə fəhlə ailəsində anadan olmuşdur. 1945-ci ildən Sov.İKP-nin üzvüdür. S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. Naxçıvan MSSR Xalq Deputatları Sovetində şöbə



müdiri işləmişdir. Sonra dövlət təhlükəsizliyi orqanlarında çalışmışdır – sıravi əməliyyat işçisindən Azərbaycan SSR Nazirlər Soveti yanında DTK sədrinə qədər yol keçmişdir.

1969-cu ilin iyulunda Azərbaycan KP MK-nın birinci katibi seçilmişdir.

Sov.İKP XXIV, XXV , XXVI qurultaylarında Sov.İKP MK üzüvü seçilmişdir. 1976-cı ilin martından Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəddir.

Sosialist Əməyi Qəhrəmanıdır. Bir neçə çağırış SSRİ Ali Sovetinin deputatıdır.

Y.Andropov bu plenumda öz ilk böyük çıxışını etdi və ən yaxın prioritet vəzifələr sırasında nəqliyyatın işinin yaxşılaşdırılmasını göstərdi. Eyni zamanda o dedi ki, bu sahə ilə ciddi surətdə təkcə nazirliyin özü deyil, həm də SSRİ Nazirlər Soveti və Sov. İKP MK məşğul olacaqdır.

**Noyabrın 23-də** onuncu çağırış SSRİ Ali Sovetinin yeddinci sessiyası oldu. H.Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olundu.

**Dekabrın 3-də** Azərbaycan KP MK-nın təşkilat məsələsini nəzərdən keçirən plenumu oldu. Plenum H.Əliyevi SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olunması ilə əlaqədar Azərbaycan KP MK-nın birinci katibi vəzifəsindən və Büro üzvlüyündən azad etdi. Azərbaycan KP MK-nın birinci katibi K.Bağırov seçildi.

H.Əliyev plenumda geniş nitqlə çıxış etdi. O Azərbaycan Kommunist partiyası Mərkəzi Komitəsinin 1-ci katibi vəzifəsində 13 illik fəaliyyətinə yekun vurur və həmkarları ilə vidalaşırdı.

Sovet Azərbaycanının rəhbəri vəzifəsində onun son çıxışından bəzi parçalar:

"Əllinci-altmışıncı illərdə bütün göstəricilərə görə çox geridə qalan Azərbaycan iqtisadiyyatı artıq üçüncü beşillikdir ki,

dinamik, davamlı, orta ittifaq göstəricisini qabaqlayan sürətlə inkişaf edir. Sənaye və kənd təsərrüfatının bütün əsas sahələri, sosial inkişaf üzrə nəinki dövlət planları, həmçinin sosialist öhdəlikləri də ilbəil artıqlaması ilə yerinə yetirilir. Sənayenin strukturunda köklü dəyişikliklər baş vermişdir, burada elmi-texniki tərəqqini müəyyən edən sahələr hesabına onun sürətli inkişaf tendensiyası özünü aydın büruzə vermişdir. Əmək məhsuldarlığı, məhsulun keyfiyyəti və istehsalın digər mühüm göstəriciləri durmadan artır. Yaxın keçmişdə bərbad vəziyyətdə olan kənd təsərrüfatı əsaslı surətdə intensivləşdirmə, ixtisaslaşma, əkinçilik və heyvandarlıq mədəniyyətinin yüksəldilməsi yoluna qoyulmuşdur.

Keçdiyimiz yolun yekunları statistik göstəricilərdə aydın görünür. Yalnız bəzilərini söyləyim. İstifadə olunan milli gəlir doqquzuncu, onuncu və onbirinci beşilliyin ilk iki ili ərzində 2,5 dəfə artmışdır. Bu dövrdə respublikada sənaye istehsalı 2,7 dəfə artmışdır. 13 il ərzində 101,5 milyard manatlıq və ya bundan əvvəlki 50 ildə olduğu qədər məhsul istehsal olunmuşdur.

Kənd təsərrüfatının ümumi məhsulu 13 il ərzində 2,7 dəfə artmışdır. Kənd təsərrüfatında əmək məhsuldarlığı 2,2 dəfə artmışdır. Su təsərrüfatı tikintisinə 2 milyard manat vəsait qoyulmuşdur, ötən 50 ildə isə bu sahəyə cəmi 800 milyon manat sərf olunmuşdur.

13 ildə xalq təsərrüfatının inkişafına 21,3 milyard manat kapital qoyuluşu yönəldilmişdir, bu da bundan əvvəlki 50 ildə olduğundan 1,4 dəfə çoxdur. 250 iri müəssisə, sex və istehsal yeri tikilmişdir. Əsas fondlar 18,6 milyard manat artmışdır. Bu, əvvəlki 25 ildə olduğundan 1,6 dəfə çoxdur.

13 il ərzində 18,5 milyon kvadratmetr mənzil tikilmişdir. Başqa sözlə desək, miqyasına görə bütün Bakının mənzil fonduna bərabər şəhər ucaldılmışdır. 2 milyon 200 min nəfər, başqa cür desək, respublikanın hər üç sakinindən biri yeni mənzilə köçmüş və ya mənzil şəraitini yaxşılaşdırmışdır".



Azərbaycanın son onilliklərdə qazandığı uğur və nailiyyətləri sadalayan H.Əliyev bu uğurların qazanılmasında digər amillər sırasında partiya və dövlət intizamının möhkəmləndirilməsi, Azərbaycanda sağlam mənəvi-siyasi mühitin yaradılması, obyektivliyin, nöqsanlara və neqativ hallara qarşı barışmaz münasibətin bərqərar olmasını qeyd etmişdir.

O bildirmişdir ki, "respublika partiya orqanlarının, Azərbaycan KP MK-nın, Büro və katibliyin ahəngdar işi sağlam, işgüzar, prinsipial və xeyirxah mühitdə, səmimi və qarşılıqlı tələbkarlıq şəraitində keçir. Keçmişdə rəhbər işçilər arasında yer alan və ümumi işə böyük ziyan vuran intriqa, dedi-qodu, qruplaşma kimi qeyri-sağlam hallara çoxdan və birdəfəlik son qoyulmuşdur. MK-nın Bürosunda işgüzar şərait, əsl partiyalılıq, prinsipiallıq, məsuliyyətlilik ruhu bərqərar olmuşdur. Bu şəraiti, bu normaları hər vasitə ilə qorumaq və möhkəmləndirmək lazımdır".

Əliyev diqqətə çatdırır ki, son illər respublikada öz aktiv həyat mövqeyini "partiya və dövlət intizamının pozulmasına, kommunist əxlaqının antipodlarına, vəzifəli şəxslərin vəzifələrindən sui-istifadə etməsinə qarşı qəti, barışmaz mübarizə şəraitində" formalaşdıran yüksəkixtisaslı kadrlar dəstəsi meydana gəlmişdir.

Rəhbər işçinin mühüm mənəvi keyfiyyətlərini sadalayan Heydər Əliyev xüsusi vurğulamışdır: "... Təkcə başqalarını düzgün və obyektiv tənqid etmək yox, eyni zamanda qüvvə və cəsarət tapıb öz işini və hərəkətlərini də tənqidi təhlil edib qiymətləndirmək, ümumiyyətlə öz işinə tənqidi yanaşmaq olduqca vacibdir. Tutduğu vəzifə nə qədər yüksəkdirsə, vəzifəli şəxs öz fəaliyyətinə, iş yerində, məişətdə davranışına bir o qədər məsuliyyətlə yanaşmalı, qazandığı nailiyyətlərdən arxayınlaşmamalıdır. Vəzifəli şəxslərin öz vəzifə səlahiyyətlərindən sui-istifadə faktlarına qarşı amansız mübarizə də işimizin mühüm amilidir. Yalnız bu yolla insanlara rəhbərlik etmək, onları tərbiyə etmək, bu və ya digər sahəyə başçılıq etmək üçün mənəvi ixtiyar qazanılır".

H.Əliyev qəbul edilmiş qərar və həyata keçirilən tədbirlərin aşkarlığı, ictimai rəyin daim öyrənilməsi, ideoloji işə, kütlələrin mənəvi və beynəlmiləlçilik ruhunda tərbiyəsinə diqqətin artırılmasının partiya və dövlət aparatının bütün qollarında işin yaxşılaşdırılması naminə oynadığı rolu bir daha yada salmışdır.

O respublikanın yeni rəhbərliyindən SSRİ-nin aparıcı ali məktəblərində Azərbaycan üçün kadr hazırlanması xəttini davam etdirməyi xahiş edərək qeyd etmişdir ki, "bu, mühüm ictimai-siyasi məsələdir, çünki söhbət Azərbaycanın gələcəyindən, onun etibarlı, möhkəm əllərdə olmasından gedir".

H.Əliyevin çıxışının yekun hissəsi çox emosional idi:

"Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin avqust (1969-cu il) plenumundan sonra ötən illər, özünüz bilirsiniz və bunları yaşamısınız, çətin və gərgin olmuşdur. Bu mürəkkəb, lakin gözəl illər idi... O vaxtdan keçən on üç il Sovet Azərbaycanının iqtisadiyyat, elm və mədəniyyətinin sürətli inkişafı, nüfuz və şöhrətinin yüksəlişi dövrü olmuşdur. Kommunistlər, respublikanın zəhmətkeşləri qazanılmış nailiyyətlərlə haqlı olaraq fəxr edirlər. Mən də xoşbəxtəm ki, bütün bu şərəfli illər ərzində Azərbaycan Kommunist Partiyası MK-sının birinci katibinin məsuliyyətli vəzifələrini icra etmişəm. Respublikanın uğurlarında şəxsi iştirakım olduğuna görə dərin məmnunluq hissi keçirirəm.

İndi partiya mənə yüksək etimad göstərib: mən namizədlikdən Sov.İKP MK Siyasi Bürosunun üzvlüyünə keçirilmişəm və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olunmuşam. Bu etimadı mən tamamilə, məni böyüdüb tərbiyə etmiş Azərbaycan partiya təşkilatının, Azərbaycan xalqının xidməti hesab edirəm... Daima kömək və etimad göstərdiklərinə, məni başa düşdüklərinə, birgə işə görə mən səmimi qəlbdən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə, MK-nın Bürosuna, kommunistlərə, Azərbaycan xalqına



çox sağ ol deyirəm. Əmin ola bilərsiniz ki, əziz yoldaşlar, yeni vəzifədə də mən Azərbaycan partiya təşkilatının etimadını qırmayacağam. Elə işləyəcəyəm ki, onun şərəf və şöhrəti daha da yüksəlsin".

**Dekabrın 6-da** Azərbaycan rəhbərliyi Bakı aeroportunda Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini H.Əliyevi Moskvaya yola saldı.

**Birinci hissənin sonu**

# Moskva – Kreml

## 1982

**Dekabrın 13-də** SSRİ Nazirlər Soveti sədrinin birinci müavini H.Əliyevin rəhbərliyi altında Nəqliyyat Nazirliyi kollegiyasının dəmir yolları, metropolitenlər, sənaye dəmiryol nəqliyyatı birlikləri rəislərinin, ETİ direktorları və s. iştirakı ilə geniş iclası oldu.

SİTA-nın məlumatından: "Sov.İKP MK noyabr (1982-ci il) Plenumunun qərarlarının dəmir yolunda yerinə yetirilməsi barədə məruzə ilə nəqliyyat naziri N.S.Konarev çıxış etdi. Kollegiya iclasında dəmiryol nəqliyyatında vəziyyət təhlil edilmiş, Plenumda göstərilən ciddi nöqsanlar araşdırılmış, onların tez bir zamanda aradan qaldırılması üçün zəruri olan işlər nəzərdə tutulmuşdur".

**Dekabrın 14-də** H.Əliyev Kremldə Macarıstan Xalq Respublikası Nazirlər Sovetinin sədri Y.Maryaini qəbul etdi. Qarşılıqlı maraq doğuran məsələlər müzakirə edildi.

**Dekabrın 17-də** H.Əliyev Meksikanın SSRİ-dəki səfiri Q.Romero Kolbeki onun xahişi ilə qəbul etdi.

**Dekabrın 18-də** H.Əliyev aeroportda SSR İttifaqının yaradılmasının 60 illiyi təntənələrinə gələn partiya-dövlət nümayəndə heyətlərini qarşıladı.

**Dekabrın 20-də** H.Əliyev SSRİ rəhbərləri ilə birlikdə Naməlum əsgərin məzarı və V.İ.Leninin mavzoleyi önünə çələng qoyulmasında iştirak etdi.

**Həmin gün** H.Əliyev Kremldə SSRİ Olimpiya Komitəsinin dəvəti ilə Sovet İttifaqında olan Beynəlxalq Olimpiya Komitəsinin sədri X.A.Camarançı qəbul etdi.

**Dekabrın 21-i və 22-də** H.Əliyev Kremlin Qurultaylar sarayında SSRİ-nin yaradılmasının 60 illiyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**1982-ci ildə** "Politiçeskaya literatura" nəşriyyatında H.Əliyevin "Sovet Azərbaycanı" kitabı işıq üzü gördü. Kitabda Azərbaycan zəhmətkeşlərinin Sovet hakimiyyətinin 60 ili ərzində keçdiyi böyük və parlaq yol haqqında söhbət açılır.



## 1983

**Yanvarın 18-də** Dəniz Donanması Nazirliyi kollegiyasının və dəniz və çay nəqliyyatı fəhlələrinin həmkarlar ittifaqı MK-nın Rəyasət Heyətinin geniş iclası oldu. İclasda H.Əliyev çıxış etdi. O, dəniz donanması qarşısında elmi-texniki tərəqqinin daha da inkişaf etdirilməsi, qabaqcıl nəqliyyat-texnologiya sistemlərinin tətbiq olunması, bir-birinə bağlı olan nəqliyyat növləri arasında əlaqələrin təkmilləşdirilməsi və s. vəzifələri qoydu.

**Yanvarın 19-da** H.Əliyev Kremldə SSRİ-yə büro sessiyasının yeddinci iclasına gəlmiş Ümumdünya meteorologiya təşkilatı (ÜMT) İcraiyyə komitəsinin büro üzvlərini qəbul etdi. Görüşün gedişində hidrometeoroloji informasiya mübadiləsinin təkmilləşdirilməsi, ətraf mühitin qorunmasında ÜMT-nin təsirinin gücləndirilməsi məsələlərinə toxunuldu.

**Yanvarın 24-də** müttəfiq respublikaların rabitə nazirlərinin, muxtar respublika, diyar, vilayət rabitə idarələri rəislərinin, ölkənin ən iri rabitə müəssisə və təşkilatları rəhbərlərinin iştirakı ilə SSRİ Rabitə Nazirliyi kollegiyasının iclası oldu.

H.Əliyev iclasda çıxış etdi, sovet rabitəçiləri qarşısında bu sahədə işlərin təşkilinin yaxşılaşdırılması üzrə konkret tədbirlər proqramını açıqladı.

**Yanvarın 28-də** H.Əliyev Nəqliyyat Tikintisi Nazirliyi kollegiyasının dəmiryol və nəqliyyat tikintisi fəhlələri həmkarlar ittifaqı, avtomobil nəqliyyatı və şose yolları fəhlələri

həmkarlar ittifaqı MK-nın rəyasət heyətləri ilə birgə keçirilən geniş iclasında çıxış etdi.

**Fevralın 3-də** H.Əliyev SSRİ ilə Rumıniya Sosialist Respublikası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə imzalanmasının 35 illiyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**Fevralın 8-də** Moskvada H.Əliyevin sədrliyi ilə RSFSR Çay Donanması Nazirliyi kollegiyasının və dəniz və çay nəqliyyatı fəhlələrinin həmkarlar ittifaqı MK-nın Rəyasət Heyətinin geniş iclası oldu.

Çay nəqliyyatında işlərin vəziyyəti təhlil olundu. Əsas diqqət həll olunmamış problemlərə, sahənin işinin səmərəliliyinin artırılmasına, yüklərin əlavə olaraq dəmir yolundan çay nəqliyyatına keçirilməsinə, limanlarda gəmi və yüklərin emal olunma vaxtının qısaldılmasına, daşımaların keyfiyyətinin artırılmasına, əmək intizamının gücləndirilməsinə yönəldilmişdi.

**Fevralın 25-də** H.Əliyevin sədrliyi ilə müttəfiq respublikaların səhiyyə nazirlərinin, respublikaların tibb işçiləri həmkarlar ittifaqı sədrlərinin, tibb alimlərinin iştirakı ilə SSRİ Səhiyyə Nazirliyi kollegiyasının və səhiyyə işçiləri həmkarlar ittifaqı MK-nın Rəyasət Heyətinin geniş iclası oldu.

**Martın 5-də** H.Əliyev SSRİ Böyük Teatrında 8 Mart Beynəlxalq Qadınlar gününə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**Martın 15-də** Kremldə SSRİ Ali Soveti Rəyasət Heyətinin iclası oldu. H.Əliyev iclasda onuncu çağırış SSRİ AS-nin yeddinci sessiyasında 1983-cü ilin plan və büdcəsinin müzakirəsi zamanı SSRİ Ali Sovetinin daimi komissiyaları və deputatlarının səsləndirdikləri təklif və iradlara baxılmasının nəticələrinə dair məruzə ilə çıxış etdi.

**Martın 29-da** H.Əliyevin sədrliyi ilə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin geniş kollegiya iclası oldu. İclasda ali və orta ixtisas məktəblərində mütəxəssis hazırlanması keyfiyyətinin daha da yaxşılaşdırılması, ali məktəbin elmi potensialından daha geniş istifadə olunması və ictimai istehsalın intensivləşdirilməsi məsələləri müzakirə edildi.



**Martın 30-da** mərkəzi qəzetlərdə Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin "Əhaliyə göstərilən məişət xidmətinin daha da yaxşılaşdırılması haqqında" qərarı dərc olundu. Qərar Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini H.Əliyevin təşəbbüsü və bilavasitə iştirakı ilə hazırlanmışdı.

**Həmin gün** H.Əliyev SSRİ Böyük Teatrında Karl Marksın anadan olmasının 165 illiyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**Aprelin 14-də** H.Əliyev İttifaqlar Evinin Sütunlu salonunda görkəmli Azərbaycan bəstəkarı və dirijoru Niyazinin 70 illiyinə həsr olunmuş təntənəli gecədə iştırak etdi.

**Aprelin 22-də** H.Əliyev Kremlin Qurultaylar sarayında V.İ.Leninin anadan olmasının 113-cü ildönümünə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**Mayın 1-də** H.Əliyev Sov.İKP MK Siyasi Bürosunun üzvləri ilə birlikdə Qızıl meydanda 1 May nümayişində iştirak etdi.

**Mayın 7-də** H.Əliyev Kremldə Vyetnam Sosialist Respublikasının SSRİ-dəki səfiri Din Nyo Liemi qəbul etdi.

**Həmin gün** SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə H.Əliyev Lenin ordeni və ikinci "Oraq və çəkic" qızıl medalı ilə təltif olundu.

**Mayın 10-da** H.Əliyev Kremldə ADR-in SSRİ-dəki səfiri E.Vinkelmanı qəbul etdi.

**Həmin gün** H.Əliyevin 60 yaşı tamam oldu.

**Mayın 11-də** qəzetlərdə Sov.İKP MK, SSRİ Ali Soveti Rəyasət Heyəti və SSRİ Nazirlər Soveti adından Heydər Əliyevə təbrik dərc olundu:

"Sov.İKP MK, SSRİ Ali Soveti Rəyasət Heyəti və SSRİ Nazirlər Soveti Sizi, Kommunist partiyası və Sovet dövlətinin

görkəmli xadimini, altmış yaşınızın tamam olduğu gündə hərarətlə təbrik edir.

Sizə, Heydər Əliyeviç, möhkəm can sağlığı, uzun ömür və sovet xalqının xoşbəxtliyi, ölkəmizdə kommunizmin təntənəsi naminə bundan sonra da məhsuldar fəaliyyət arzulayırıq".

SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanında deyilirdi: "Kommunist Partiyası və Sovet dövləti qarşısında böyük xidmətlərinə görə və anadan olmasının altmış illiyi ilə əlaqədar Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, Sosialist Əməyi Qəhrəmanı yoldaş Əliyev Heydər Əliyeviç Lenin ordeni və ikinci qızıl "Oraq və çəkic" medalı ilə təltif olunsun".

Moskva, Kreml. 7 may 1983-cü il".

**Mayın 16-da** H.Əliyev Böyük Kreml sarayında Sovet-Anqola sənədlərinin imzalanmasında, həmçinin Böyük Kreml sarayında Sov.İKP MK, SSRİ Ali Soveti Rəyasət Heyəti və sovet hökuməti adından MPLA – Əmək partiyasının sədri, Anqolanın prezidenti Joze Eduardu duş Santuşun şərəfinə verilən naharda iştirak etdi.

**Mayın 24-də** H.Əliyev SSRİ Nəqliyyat Nazirliyinin geniş kollegiyasının və dəmiryol nəqliyyatı və nəqliyyat tikintisi fəhlələri həmkarlar ittifaqı MK-nın Rəyasət Heyətinin iclasında iştirak etdi.

Kollegiyada dəmiryol nəqliyyatında sərnişin daşımalarının təşkilinin yaxşılaşdırılması tədbirləri müzakirə olundu. H.Əliyev bilet satışının təşkilindəki qüsurları, vaqonların qeyri-qənaətbəxş hazırlanmasını, yol boyu və vağzallarda sərnişinlərə göstərilən yarıtmaz xidməti tənqid etdi. Sərnişin daşımalarının yaxşılaşdırılması, elmi-texniki nailiyyətlərin tətbiqi, Nəqliyyat Nazirliyində bu sahə ilə məşğul olan işçilərin məsuliyyətinin artırılması üzrə kompleks tədbirlər müzakirə edilərək nəzərdə tutulmuşdur.



**Mayın 31-də** dövlətin digər rəhbərləri ilə birlikdə H.Əliyev Sov.İKP MK Siyasi Bürosunun üzvü, Sov.İKP MK yanında Partiya Nəzarəti Komitəsinin sədri A.Pelşe ilə vida mərasimində iştirak etdi.

**Həmin gün** Bolqarıstan KP MK-nın birinci katibi, Bolqarıstan Xalq Respublikası Dövlət Şurasının sədri Todor Jivkov sovet rəhbərlərinə "Georgi Dimitrovun anadan olmasının 100 illiyi" yubiley medalını təqdim etdi. Sov.İKP MK Siyasi Bürosunun üzvü H.Əliyev təltif olunanlar sırasında idi.

**İyunun 1-də** H.Əliyev Qızıl meydanda A.Pelşenin dəfnində iştirak etdi.

**Həmin gün** "Pravda" qəzetində H.Əliyevin onu yubileyi və Vətənin yüksək mükafatına layiq görülməsi münasibətilə təbrik etmiş partiya və sovet təşkilatlarına, ictimai təşkilatlara, müəssisə və idarələrin kollektivlərinə, bütün sovet və xarici yoldaşlara təşəkkürü dərc olundu.

**İyunun 2-də** H.Əliyev SSRİ Nazirlər Sovetinin sədri N.Tixonovla birlikdə "Avtomatlaşdırma – 83" beynəlxalq ixtisaslaşdırılmış sərgisində oldu.

**İyunun 16-da** Moskvada onuncu çağırış SSRİ Ali Sovetinin səkkizinci sessiyası öz işinə başladı. Həmin sessiyada Y.Andropov SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri seçildi.

Sessiyada muzakirə olunan digər məsələlərlə yanaşı "Əmək kollektivlərinin və onların müəssisə, idarə və təşkilatların idarə olunmasında rolunun yüksəldilməsinə dair SSRİ Qanununun layihəsi haqqında" məsələ də gündəmə çıxarılmışdı. Bu məruzəni Y.Andropov H.Əliyevə tapşırmışdı.

**İyunun 17-də** H.Əliyev Böyük Kreml sarayında yuxarıda adı çəkilən məruzə ilə çıxış etdi.

Qanun layihəsi əmək kollektivlərinin dövlət hakimiyyət orqanları ilə qarşılıqlı əlaqələrini və onların idarəçilikdə iştirakı prinsiplərini müəyyən edirdi. O əmək kollektivlərinin xüsusilə

də əməyin idarə olunması sahəsində səlahiyyətlərini genişləndirən bir sıra yeni müddəaları ehtiva edirdi.

H.Əliyev auditoriyaya inkişaf etmiş sosializm dövründə əmək kollektivlərinin mahiyyətinin və spesifik xüsusiyyətlərinin dərin analitik təhlilini təqdim etdi, sonra isə əmək kollektivləri fəaliyyətinin Qanunda nəzərdə tutulmuş əsas istiqamətlərini və səlahiyyətlərini canlı, anlaşıqlı tərzdə açıqladı.

Qanunun prinsipial yeniliklərindən biri planların yalnız əmək kollektivləri tərəfindən baxıldıqdan sonra təsdiq edilmək üçün dövlət orqanlarına təqdim edilməsi haqqında müddəa oldu. Qanun əmək kollektivlərini intensiv iş metodlarına keçməyə, əmək məhsuldarlığının sürətinin artırılmasına istiqamətləndirirdi. Üzərlərinə düşən funksiyaların necə və hansı sayda işçi ilə yerinə yetirilməsini müəyyənləşdirmək ixtiyarı əmək kollektivlərinin özlərinə verilirdi. Qanunda əsas yeri əmək intizamının gücləndirilməsi, həmçinin əməyin təşkilinin briqada formasının hər vasitə ilə tətbiq olunması məsələləri tuturdu.

Əməyə və onun ödənilməsinə nəzarət sahəsində kollektivin hüquqları əhəmiyyətli dərəcədə genişləndirilirdi. Qanunun həvəsləndirmə fondlarının əmək kollektivinin razılığı olmadan götürülə bilməməsi haqqında müddəaları mühüm əhəmiyyət kəsb edirdi.

Qanuna uyğun olaraq əmək kollektivləri mənzil tikintisi planlarına baxmaq və bəyənmək, onların yerinə yetirilməsinə dair hesabatları dinləmək, müəssisələrin fondları hesabına mənzil tikilməsi haqqında qərar qəbul etmək hüququ qazanırdılar.

"Mənzil verilməsi məsələlərində ədalət, aşkarlıq, əməli nəzarət xüsusilə vacibdir. Bütün bunlar Qanunda öz aydın əksini tapdı (H.Əliyev məruzəsində sevimli sözü olan "aşkarlığ"ı əmək kollektivlərinin idarəetmə məsələlərində iştirakını yaxşılaşdırmaq üçün təsirli vasitə qismində bir neçə dəfə işlətdi – ***E.A.***)".

H.Əliyev əmək kollektivlərində ideya-siyasi, mənəvi, beynəlmiləlçi tərbiyə, kadr siyasəti məsələlərinə də toxundu. Qanunda ilk dəfə olaraq əmək kollektivi tərəfindən vəzifəli şəxslərin və kollektivin digər üzvlərinin fəaliyyətinin qiymətləndirilməsi prinsipi təsbit edildi. Müəssisə və idarələrdə rəhbər işçilərin vəzifəyə təyin olunması və işdən azad edilməsi əmək kollektivinin rəyini nəzərə almaqla həyata keçirilməli idi.



H.Əliyev Qanun layihəsinin üzərində gedən işdən danışdı. Ümumxalq müzakirəsində 110 milyondan çox sovet vətəndaşı iştirak etmişdi. Layihənin baxılmasına əmək kollektivlərinin bir milyon iki yüz otuz min iclası həsr olunmuşdu. İclaslarda 5 milyon nəfərdən çox adam çıxış etmişdi. Qanun layihəsi ilə bağlı mərkəzi orqanlara təqribən 130 min yazılı təklif və irad daxil olmuşdu. Onların hamısı SSRİ Ali Sovetinin İttifaq Soveti və Millətlər Sovetinin qanunvericilik komissiyalarında öyrənilmişdi. Bununla əlaqədar layihənin 23 maddəsindən 21-i dəyişikliklərə məruz qaldı, 70-dən çox düzəliş və əlavələr daxil edildi.

Bu Qanunun qəbul edilməsi cəmiyyətdə demokratik əsasların inkişafında, sosialist özünüidarə praktikasının təkmilləşdirilməsində ciddi addım oldu.

*H.Əliyevin məruzəsinin tam mətni 18 iyun 1983-cü il tarixli "Pravda" qəzetində çap olundu.*

Həmin gün Kremldə Y.Andropov H.Əliyevə Lenin ordeni və Sosialist Əməyi Qəhrəmanının ikinci qızıl ulduzunu təqdim etdi, öz qısa çıxışında onu "partiya və Sovet hökumətinin görkəmli xadimi" adlandırdı.

**İyunun 20-də** H.Əliyev Böyük Teatrda RSFSR-də Gürcüstan SSR Ədəbiyyat və İncəsənəti günlərinin açılışında oldu.

**İyunun 24-də** H.Əliyev RSFSR Ali Sovetinin yeddinci sessiyasının açılışında iştirak etdi.

**İyunun 30-da** H.Əliyev şəhərə "Oktyabr inqilabı" ordeni təqdim olunması münasibətilə təntənələrdə iştirak etmək üçün Voloqdaya gəldi.

**İyulun 1-də** H.Əliyev şəhər partiya komitəsi, şəhər Xalq Deputatları Soveti icraiyyə komitəsinin zəhmətkeşlərin nümayəndələri ilə birgə təntənəli yığıncağında çıxış etdi. O SSRİ Ali Soveti Rəyasət Heyətinin Voloqda şəhərinin zəhmətkeşlərinin təsərrüfatda və mədəni quruculuqda qazandıqları nailiyyətlərə, inqilabi xidmətlərinə və Böyük Vətən müharibəsində alman faşistləri üzərində qələbənin təmin olunmasına böyük töhfələrinə görə "Oktyabr inqilabı" ordeni ilə təltif olunması barədə Fərmanı oxudu və mükafatı şəhərin bayrağına sancdı. Öz nitqində H.Əliyev vilayətin kənd təsərrüfatında, ictimai istehsal sahələrində, nəqliyyatda yaranmış vəziyyəti hərtərəfli təhlil etdi, vilayət və şəhər rəhbərliyinin diqqətini zəif cəhətlərə yönəltdi. O, həmçinin Sov.İKP-nin xarici siyasət məsələləri, müasir beynəlxalq vəziyyətin xüsusiyyətləri üzərində dayandı.

**İyulun 2-də** H.Əliyev Sov.İKP Voloqda vilayət komitəsində partiya və təsərrüfat aktivi ilə görüş keçirdi. Görüşdə Sov.İKP MK iyun (1983-cü il) Plenumunun qərarlarınının, Y.V.Andropovun Plenumdakı nitqində yer almış müddəa və tapşırıqların yerinə yetirilməsinə yönələn praktik işin təşkili məsələləri müzakirə olundu.

**Həmin gün** H.Əliyev podşipnik və optik-mexaniki zavodlarında, kətan kombinatında, "Rodina" kolxozunda, "Snejinka" birliyində oldu, fəhlələrlə, kolxozçularla, müəssisələrin partiya və təsərrüfat rəhbərləri ilə söhbət etdi.

H.Əliyev həmçinin SSRİ-nin 50 illiyi adına Çerepovetsk Metallurgiya zavodunda oldu, "2000" yayma maşınına, soyuq prokat sexinə baxdı, 5 nömrəli domna peçinin tikintisinin gedişi ilə tanış oldu, onun üçün konstruksiya və avadanlığın göndərilməsi, zavod fəhlələrinin iş və məişət şəraiti ilə maraqlandı.

**İyulun 18-də** H.Əliyev A.Qromıko və M.Qorbaçovla birlikdə Vnukovo aerodromunda Macarıstan Sosialist Fəhlə partiyası MK-nın birinci katibi Yanoş Kadarı qarşıladı.



**Həmin gün** H.Əliyev Kremldə MXR Nazirlər Sovetinin sədri D.Lazar ilə danışıqlar apardı.

**İyulun 20-də** H.Əliyev Kremldə Macarıstan Sosialist Fəhlə partiyasının birinci katibi Yanoş Kadara Lenin ordeninin təqdim olunması mərasimində iştirak etdi.

**İyulun 21-də** Əliyev yüksək səviyyədə Sovet-Macarıstan danışıqlarında iştirak etdi.

**İyulun 22-də** H.Əliyev Kremldə Yanoş Kadarın yolasalınma mərasimində iştirak etdi, sonra A.Qromıko və M.Qorbaçovla birlikdə aeroportda MXR rəhbərini yola saldı.

**İyulun 23-də** H.Əliyev Lujnikidə SSRİ xalqlarının VIII yay Spartakiadasının açılışında iştirak etdi.

**İyulun 25-də** H.Əliyev Latın Amerikasının görkəmli siyasi və dövlət xadimi Simon Bolivarın anadan olmasının 200 illiyi münasibətilə keçirilən qəbulda iştirak etdi.

**İyulun 26-da** H.Əliyev Kremldə Meksika Birləşmiş Ştatlarının SSRİ-dəki səfiri O.Flores de la Penyanı onun xahişi ilə qəbul etdi.

**İyulun 29-da** H.Əliyev Kremldə RSDFP-nin II qurultayının 80 illiyinə həsr olunmuş iclasda iştirak etdi.

**Avqustun 2-də** H.Əliyev Kremldə deputatlar palatasının xarici işlər üzrə Komissiyasının sədri L.Danton Rodriqesin başçılıq etdiyi Meksika Milli Konqresinin nümayəndə heyətini qəbul etdi. Nümayəndə heyəti səfər çərçivəsində Azərbaycanda da olmuşdu. Söhbətdə əsasən xarici siyasət məsələlərinə, Mərkəzi Amerikada və Karib hövzəsində vəziyyətin nizama salınmasına toxunuldu. H.Əliyev SSRİ-nin silahlanmanın məhdudlaşdırılmasına və nüvə müharibəsinin qarşısının alınmasına yönəlmiş sülh təşəbbüslərindən danışdı.

**Avqustun 5-də** H.Əliyevin sədrliyi ilə SSRİ Texniki-Peşə Təhsili Dövlət Komitəsinin geniş kollegiya iclası oldu. Təhsil müəssisələrinin işində olan nöqsanların aradan qaldırılması istiqamətində tədbirlər nəzərdə tutulmuş, texniki-peşə təhsilində islahatlar aparmaq üçün təkliflər irəli sürülmüşdür.

**Avqustun 6-dan 16-na** kimi PASV Rəhbərliyinin üzvü, SƏR Xalq Şurasının sədri Mahmud Zuabi başda olmaqla Suriya Ərəb Respublikası Xalq şurasının nümayəndə heyəti Sovet İttifaqında rəsmi dostluq səfərində oldu. **Avqustun 15-də** nümayəndə heyətini Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini H.Əliyev qəbul etdi.

**Avqustun 12-də** H.Əliyev Yəmən Ərəb Respublikasının səhiyyə naziri M.Kababı qəbul etdi. Söhbətdə ikitərəfli münasibətlərə və Yaxın Şərqdəki vəziyyətlə bağlı məsələlərə toxunuldu.

**Avqustun 25-də** H.Əliyev ABŞ kənd təsərrüfatı naziri C.Blok başda olmaqla Amerika hökumət nümayəndə heyətini qəbul etdi. Söhbətin gedişində o cümlədən ticari-iqtisadi sahədə Sovet-Amerika münasibətləri müzakirə olundu.

**Avqustun 26-da** Sov.İKP MK Siyasi Bürosunun iclasında H.Əliyevin Suriya Xalq şurasının nümayəndə heyəti ilə söhbəti bəyənildi.

**Avqustun sonu – sentyabr ayını** H.Əliyev doğma torpaqda məzuniyyətdə keçirdi.

**Sentyabrın 5-də** M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Şərq xalça sənətinə dair Beynəlxalq simpoziumun açılışı oldu. H.Əliyev Azərbaycan Dövlət Rəsm Qalereyasında açılmış Xalça sərgisində oldu. O, həmçinin Azərbaycan Tarixi muzeyində və İçərişəhərdə xalça bayramında oldu.

**Sentyabrın 9-da** Sov.İKP MK Siyasi Bürosunun iclasında H.Əliyevin ABŞ-ın kənd təsərrüfatı naziri C.Blok ilə söhbəti bəyənildi.

**Sentyabrın 24-də** H.Əliyev böyük Azərbaycan şairi və dramaturqu H.Cavidin 100 illiyinə həsr olunmuş "İblis" tamaşasında oldu.

**Oktyabrın 1-də** M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Ü.Hacıbəyov adına Dövlət simfonik orkestrinin Beynəlxalq Musiqi gününə həsr olunmuş konserti oldu. H.Əliyev konsertdə oldu.



**Oktyabrın 15-də** Kremlin Qurultaylar sarayının səhnəsində F.Əmirovun 60 illiyi şərəfinə bəstəkarın "Min bir gecə" baleti göstərildi. H.Əliyev tamaşada oldu.

**Oktyabrın 26-da** H.Əliyev partiya-dövlət nümayəndə heyətinin başçısı kimi Vyetnama rəsmi dostluq səfərinə yola düşdü. Nümayəndə heyətinin tərkibinə həmçinin Sov.İKP MK katibi N.Rıjkov, Sovet qadınları Komitəsinin sədri V.Tereşkova, SSRİ-nin Vyetnamdakı səfiri B.Çaplin daxil idi.

SSRİ nümayəndə heyətinin səfəri Sovet-Vyetnam dostluğu və əməkdaşlığı barədə Müqavilənin imzalanmasının beşilliyi ilə eyni vaxta düşdü, H.Əliyevin Vyetnam rəhbərləri ilə çoxsaylı görüşləri və danışıqları isə o vaxt SSRİ-də böyük önəm verilən Sovet-Vyetnam münasibətlərinin inkişafı üçün, heç şübhəsiz, mühüm əhəmiyyət kəsb edirdi. 70–80-ci illərdə Vyetnam Laos və Kampuçiya ilə birlikdə Cənub-Şərqi Asiyada sovet siyasətinin satellitləri idi, Çin və ABŞ-ın ekspansionist cəhdlərinə fəal müqavimət göstərirdilər.

Vyetnama səfər çox uğurlu olmuşdu, H.Əliyevi böyük hörmətlə qarşılayırdılar, başda VKP MK Baş katibi Le Zuan olmaqla Vyetnamın bütün rəhbərləri sovet nümayəndə heyətinin şərəfinə verilən ziyafətdə iştirak etmişlər. H.Əliyev Sovet İttifaqının xarici siyasəti, aktual beynəlxalq məsələlər üzrə geniş bəyanatla çıxış etdi. Vyetnama səfəri zamanı onun bütün çıxış və bəyanatları SSRİ-nin əsas partiya qəzetində – "Pravda"da müfəssəl işıqlandırılmış, həmçinin xarici mətbuat və radiosəslərdə şərh edilmişdi.

H.Əliyev, onun sözlərinə görə, dünyanın bir çox regionlarında, o cümlədən Cənub-Şərqi Asiyada gərginliyin artmasının əsas səbəbkarı olan Vaşinqton administrasiyasının fəaliyyəti barədə olduqca kəskin fikirlər söylədi. Vyetnamın ali rəhbərliyi ilə danışıqlar zamanı o dövrdə Asiya qitəsində Sovet

İttifaqının maraqlarının ən fəal ötürücüsü olan üç dövlətinin – Laos, Vyetnam və Kampuçiyanın siyasi ittifaqının möhkəmləndirilməsi məsələlərinə xüsusi diqqət yetirildi. Danışıqların mərkəzində həmçinin Vyetnama iqtisadi və elmi-texniki yardım göstərilməsi məsələləri də dururdu.

**Oktyabrın 27-də** H.Əliyev və onun rəhbərlik etdiyi partiya-hökumət nümayəndə heyəti Hanoya gəldi.

**Həmin gün** H.Əliyev hökumət iqamətgahında VKP MK Siyasi Bürosunun üzvü, VSR Nazirlər Sovetinin sədri Fam Van Donqla görüşdü və hər ikisi qısa nitq söylədilər.

**Oktyabrın 28-də** H.Əliyev VKP MK Siyasi Bürosunun üzvü, VSR Nazirlər Sovetinin sədri Fam Van Donqla danışıqlar apardı. Danışıqların yekununa əsasən Sovet-Vyetnam birgə bəyanatı qəbul edildi.

VKP MK Baş katibi Le Zuan, VKP MK Siyasi Bürosunun üzrü, VSR Dövlət Şurasının sədri Çıonq Tin və VKP MK Siyası Bürosunun üzvü, VSR Nazirlər Sovetinin sədri Fam Van Donqla görüş oldu.

Axşam VKP Mərkəzi Komitəsi tərəfindən sovet partiya-hökumət nümayəndə heyətinin şərəfinə təşkil edilmiş qəbul oldu, H.Əliyev və Fam Van Donq nitq söylədilər.

**Oktyabrın 29-da** H.Əliyev Xo Şi Minin mavzoleyini ziyarət etdi və nümayəndə heyəti adından əklil qoydu. Sonra nümayəndə heyəti Xo Şi Minin ev-muzeyində oldu. H.Əliyev fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

**Həmin gün** nümayəndə heyəti Sovet İttifaqının köməkliyi ilə Cənub-Şərqi Asiyada 2 milyon kilovat gücündə ən böyük hidroenergetika kompleksinin tikildiyi Xoabin şəhərində oldu. H.Əliyev tikintinin rəhbərləri və mühəndisləri ilə söhbət etdi. Sonra bəndə, sol sahildə dolama kanala, mərkəzi dispetçer məntəqəsinə baxdı, sovet mütəxəssislərinin şəhərciyində oldu.



**Oktyabrın 31-də** H.Əliyev Sovet İttifaqı adından SSRİ ilə Vyetnam arasında uzunmüddətli iqtisadi və elmi-texniki əməkdaşlığın inkişafı proqramını imzaladı.

H.Əliyevin təşkil etdiyi qəbulda iştirak edən VKP MK Siyasi Bürosunun üzvü, VSR Nazirlər Sovetinin sədri Fam Van Donqla qarşılıqlı dostluq sağlıqları söylədilər.

"Badin" zalında SSRİ və VSR arasında Dostluq və Əməkdaşlıq haqqında Sazişin beşilliyinə və Böyük Oktyabr Sosialist inqilabının 66-cı ildönümünə həsr olunmuş təntənəli mitinqdə çıxış etdi.

Sovet nümayəndə heyəti adından VKP Mərkəzi Komitəsinə və VSR hökumətinə xatirə hədiyyəsi – V.İ.Leninin farfordan hazırlanmış barelyefini təqdim etdi.

Hanoyda "Txanqlonq" körpüsündə dostluq bayramında iştirak etdi, VSR hökumətinin sədri və VSR nəqliyyat naziri ilə birlikdə üzərində "Txanqlonq körpüsü – Sovet-Vyetnam dostluğunün obyektidir" sözləri yazılmış xatirə lövhəsini açdı. Sovet və Vyetnam körpütikənləri qarşısında çıxış etdi.

Vyetnam xalq ordusu müzeyinin ekspozisiyasına baxdı, fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

**Noyabrın 1-də** SSRİ-nin partiya-hökumət nümayəndə heyəti Hanoydan ölkə boyu səyahətə yollandı.

H.Əliyev nümayəndə heyətinin başında Xoşimin şəhərinə gəldi. Xo Şi Minin xatirə muzeyində oldu, fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

İxrac edilən malların sərgisində oldu, şəhərlə tanış oldu.

VKP şəhər komitəsinin və Xoşimin xalq komitəsinin rəhbərləri ilə görüşdü.

VKP şəhər komitəsi və Xoşimin xalq komitəsi adından Sovet nümayəndə heyətinin şərəfinə təşkil olunmuş qəbulda sağlıq söylədi.

**Noyabrın 2-də** SSRİ və VSR arasında Dostluq və Əməkdaşlıq haqqında Sazişin beşilliyinə həsr olunmuş mitinqdə çı-

xış etdi və nümayəndə heyəti adından Xoşimin şəhərinə xatirə hədiyyəsi təqdim etdi.

**Həmin gün** H.Əliyev Donqnay əyalətindəki Byenxoa Sənaye zonasında oldu. Bədii Keramika zavodunun, Prokat-Metallurgiya zavodunun, "Vyettxanq" Toxuculuq kombinatının və Xoşimin şəhərində "Başon" tərsanəsinin istehsalat sexlərinə baxdı.

**Noyabrın 3-də** H.Əliyev Şərq dənizinin sahilində yerləşən Vunqtau şəhərində oldu. Burada bu rayonun Vyetnamın neft-qaz sənayesinin ən böyük bazasına çevrilməsi üzrə proqramı həyata keçirən sovet mütəxəssislərinin köməyi ilə müştərək "Vyetsovpetro" müəssisəsi yaradılmışdır. H.Əliyev Sovet və Vyetnam neftçiləri ilə, sonra isə SSRİ-dən olan mütəxəssislərlə görüşdə çıxış etdi.

Axşam nümayəndə heyəti VKP komitəsi və Vunqtau-Kondao xüsusi rayonunun xalq komitəsi tərəfindən Sovet nümayəndə heyətinin şərəfinə təşkil olunmuş qəbulda iştirak etdi. Nümayəndə heyəti adından H.Əliyev rayon rəhbərliyinə xatirə hədiyyəsi – V.İ.Leninin barelyefini təqdim etdi.

**Həmin gün** nümayəndə heyəti Xoşimin şəhərinə döndü.

**Noyabrın 4-də** Hanoyda Sovet-Vyetnam birgə bəyanatı imzalandı. Ertəsi gün bəyanat SSRİ-nin mərkəzi qəzetlərində çap olundu.

**Noyabrın 5-də** H.Əliyev Kremldə Böyük Oktyabr Sosialist inqilabının 66-cı ildönümünə həsr olunmuş təntənəli iclasda iştirak etdi. Məruzə ilə Sov.İKP MK Siyasi Bürosunun üzvü, Leninqrad vilayət partiya komitəsinin birinci katibi Q.Romanov çıxış etdi.

**Noyabrın 7-də** H.Əliyev partiya və Sovet dövlətinin digər rəhbərləri sırasında hərbi parad və Moskva zəhmətkeşlərinin nümayişi zamanı Mavzoleyin tribunasında idi.

**Noyabrın 10-da** Sov.İKP MK Siyasi Bürosunun iclasında SSRİ partiya-hökumət nümayəndə heyətinin Vyetnama səfərinin nəticələri bəyənildi. Səfərin özü və onun gedişində imzalanmış müqavilələr "Sovet İttifaqının və sosialist Vyetnamının birliyi və qardaşlıq dostluğunun möhkəmlənməsi istiqamətində daha bir mühüm addım kimi" qiymətləndirildi *(SİTA-nın xəbərlərindən).*



**Noyabrın 14-də** H.Əliyev Sov.İKP MK Siyasi Bürosunun ümumtəhsil məktəbləri və texniki-peşə təhsili sisteminin islahatı üzrə Komissiyasının üzvü qismində K.Çernenkonun sədrliyi ilə keçən komissiyanın işində iştirak etdi.

**Noyabrın 19-da** H.Əliyev Kremldə Demokratik Sosialist Partiyası mərkəzi icraiyyə komitəsinin sədri R.Sasaki başda olmaqla Yaponiyanın dörd siyasi partiyasının və Ümumyapon Əmək Konfederasiyasının (DOMEY) nümayəndə heyətini qəbul etdi.

**Noyabrın 20-də** H.Əliyev xalq istehlakı malları istehsalının və əhaliyə xidmət sisteminin inkişafına dair Kompleks proqramının işlənməsinə rəhbərlik və nəzarət üzrə Sov.İKP MK Siyasi Bürosu Komissiyasının iclasını keçirdi.

**Dekabrın 9-da** H.Əliyevin sədrliyi ilə SSRİ Nazirlər Sovetinin Baykal-Amur magistralının tikintisi üzrə Komissiyasının iclası oldu.

SİTA-nın xəbərlərində deyildiyi kimi, iclasda mövcud nöqsanların aradan qaldırılması yolları müəyyən edilmiş, müvafiq idarələrə əsas dəmiryol xəttinin salınmasını 1984-cü ildə başa çatdırmaq, yolun istismara hazırlanması işini yaxşılaşdırmaq tapşırılmışdı.

**Dekabrın 10-da** H.Əliyev Sov.İKP Bauman rayon təşkilatının hesabat-seçki konfransının işində iştirak etdi.

**Dekabrın 26-27-də** Sov.İKP MK-nın Plenumu oldu. Plenumda Sov.İKP MK Baş katibi Y.Andropovun çıxışının mətni oxunmuşdur.

O, əsas vəzifələr kimi intizamın və əmək təşkilinin gücləndirilməsini, məhsulların göndərilməsində müqavilə öhdəliklərinə əməl edilməsini, elmi-texniki tərəqqinin sürətləndirilməsini, Ərzaq proqramının yerinə yetirilməsini göstərmişdi.

Baş katib nəqliyyatın qarşısında xüsusi vəzifələr qoymuşdu: "Nəqliyyatın işi təsərrüfat, partiya və sovet orqanlarının daimi diqqətini tələb edir. Əlbəttə, burada son zamanlar müsbət tendensiyalar müşahidə olunur. Lakin nəqliyyatda başqa yerlərdə olduğundan daha çox qısa vaxtda hərəkətə gətirmək mümkün olan ehtiyat və istifadə olunmamış imkanlar vardır".

**Dekabrın 28-də** H.Əliyev Siyasi Büro üzvləri ilə birlikdə onuncu çağırış SSRİ Ali Sovetinin doqquzuncu sessiyasının işində iştirak etdi. Sessiya İttifaq Soveti və Millətlər Sovetinin birgə iclası ilə açıldı.

**Həmin günlərdə** H.Əliyev Bereznikov və Novqorod seçki dairələrindən SSRİ Ali Sovetinə deputatlığa namizəd göstərildi.



## 1984

**Yanvarın 4-də** bütün mərkəzi qəzetlərdə "Ümumtəhsil və peşə məktəbinin islahatının əsas istiqamətləri" haqqında Sov.İKP MK-nın Layihəsi dərc olundu. Layihə K.Çernenkonun rəhbərliyi altında Sov.İKP MK Siyasi Bürosunun Komissiyası tərəfindən hazırlanmışdı. Bu çox mühüm partiya sənədini əsas işləyib hazırlayan SSRİ Nazirlər Soveti sədrinin birinci müavini H.Əliyev idi.

Layihədə deyildiyi kimi, islahatın başlıca vəzifələri bunlar idi:

– təhsilin keyfiyyətini yüksəltmək, tədris plan və proqramlarını, dərslikləri və dərs vəsaitlərini təkmilləşdirmək, şagirdlərin həddən artıq yüklənməsini aradan qaldırmaq (bu məqsədlə ibtidai məktəbdə tədrisin müddəti bir il uzadılırdı – 1-4 siniflər, tədrisə bir il əvvəl, 6 yaşından başlamaq, orta ümumtəhsil məktəbini isə 11 illik etmək nəzərdə tutulurdu);

– ümumtəhsil məktəbində əmək tərbiyəsi, təlim və peşə yönümü işini kökündən yaxşılaşdırmaq, tədrisin politexnik, praktik yönümünü gücləndirmək, gənclərin ümumi peşə təhsilinə keçməsini həyata keçirmək (bu vəzifənin yerinə yetirilməsi üçün yuxarı sinif şagirdlərinin şagird istehsalat briqadalarının tərkibində məktəblərarası tədris-istehsalat kombinatlarında, müəssisələrin tədris sexlərində və istehsalat sahələrində işləməsi nəzərdə tutulurdu. Həftədə bir gün bilavasitə iş yerlərində əmək təliminə ayrılırdı);

– müəllimin ictimai nüfuzunu və hörmətini qaldırmaq, müəllim və istehsalat təlimi ustalarının məvacibini artırmaq, onların mənzil-məişət şəraitini yaxşılaşdırmaq;

– ümumtəhsil və peşə məktəbinin strukturunu və xalq təhsilinin idarə olunmasını təkmilləşdirmək.

İslahat layihəsi ümumxalq müzakirəsinə çıxarılmışdır.

**Yanvarın 6-da** H.Əliyev 1984-cü il üçün respublika büdcəsini müzakirə edən RSFSR Ali Soveti sessiyasının işində iştirak etdi.

**Yanvarın 10-da** H.Əliyev Kuba Respublikasının səfirliyində oldu və qəbulda iştirak etdi.

**Yanvarın 17-də** Moskvada Nəqliyyat Nazirliyinin geniş kollegiyasının və dəmiryol nəqliyyatı və nəqliyyat tikintisi fəhlələri həmkarlar ittifaqı MK-nın Rəyasət Heyətinin iclası oldu. Kollegiyada ötən il dəmiryol nəqliyyatında özünü göstərən müsbət tendensiyalar qeyd olundu: əsas həcm və keyfiyyət göstəriciləri yaxşılaşmış, yük dövriyyəsinin bütün artımı əmək məhsuldarlığının artırılması hesabına olmuşdur. Bununla yanaşı, yeni texnika, mütərəqqi texnologiyaların tətbiqinin, sahənin sosial problemlərinin həll olunmasının, əmək intizamının artırılmasının vacibliyi barədə danışılmışdır.

**Yanvarın 21-də** H.Əliyev Sov.İKP Moskva vilayət komitəsinin XXV partiya konfransında iştirak etdi.

**Yanvarın 23-də** H.Əliyevin sədrliyi ilə Nəqliyyat Tikintisi Nazirliyinin dəmiryol və nəqliyyat tikintisi fəhlələri həmkarlar ittifaqı, avtomobil nəqliyyatı və şose yolları fəhlələri həmkarlar ittifaqı MK-nın rəyasət heyətlərinin iştirakı ilə geniş kollegiya iclası oldu. İclasda Baykal-Amur magistralının, Qərbi-Sibir neft-qaz, Ekibastuz yanacaq-enerji və Həştərxan qaz komplekslərinin tikintisi kimi qlobal məsələlərə baxıldı. Sahənin sosial problemlərinin həllinə böyük diqqət yetirildi.



**Yanvarın 25-də** SSRİ Nazirlər Sovetinin iclası oldu. Xalq təsərrüfatındakı müsbət irəliləyişlər sırasında dəmiryol nəqliyyatının "daha dayanıqlı" işi qeyd olundu.

**Yanvarın 27-28-də** H.Əliyev Siyasi Büronun üzvləri ilə birlikdə XXV Moskva şəhər partiya konfransında iştirak etdi. Həmin o günlərdə qəzetlərdə Sov.İKP MK Siyasi Bürosu üzvlərinin və üzvlüyünə namizədlərin bu və ya digər seçki dairələrindən SSRİ Ali Sovetinə seçilmək haqqında razılıqlarını bildirən məktubları dərc edildi. H.Əliyev Bakı şəhəri Lenin seçki dairəsindən seçilmək haqqında razılıq vermişdi.

**Yanvarın 28-də** H.Əliyev Bakı – Lenin seçki dairəsindən deputatlığa namizəd qeydə alındı.

**Fevralın 8-də** Sov.İKP MK Siyasi Bürosunun ümumtəhsil və peşə məktəbinin islahatı üzrə Komissiyasının növbəti iclası oldu. "Ümumtəhsil və peşə məktəbinin islahatının əsas istiqamətləri" haqqında Sov.İKP MK-nın layihəsinin ümumxalq müzakirəsinin gedişatı məsələsi müzakirə olundu. H.Əliyev layihəni əsas işləyib hazırlayanlardan biri kimi müzakirədə çıxış etdi.

**Fevralın 9-da** Sov.İKP MK Baş katibi, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri Yuri Vladimiroviç Andropov vəfat etdi. Fevralın 11-dən 14-ə kimi ölkədə matəm elan olundu. Y.Andropovla vidalaşma İttifaqlar Evinin Sütunlu salonunda keçirilirdi.

**Fevralın 13-də** Sov.İKP MK-nın Plenumunda K.Çernenko yeni Baş katib seçildi.

**Fevralın 14-də** Moskva Y.Andropovla vidalaşırdı. Bu günlərdə SSRİ-yə Y.Andropovun dəfninə gələn bir sıra xarici nümayəndə heyətlərinin başçıları ilə danışıqlar aparmaq H.Əliyevə tapşırılmışdı.

**Fevralın 22-də** Azərbaycan paytaxtı görkəmli sovet bəstəkarı, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan SSR Dövlət mükafatları laureatı, SSRİ xalq artisti Fikrət Əmirovla

vidalaşırdı. H.Əliyev M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında vida mərasimində və Fəxri Xiyabanda matəm mitinqində iştirak etdi.

**Həmin gün** H.Əliyev SSRİ Ali Sovetinə deputatlığa namizədliyi irəli sürülmüş Bakı – Lenin seçki dairəsinə daxil olan Kirov rayonunda oldu. Bir sıra müəssisələri gəzdi, fəhlə və mütəxəssislərlə söhbət etdi. Sonra H.Əliyev Azərbaycan Dəmir yolu işçiləri aktivinin iclasında çıxış etdi və nəhayət V.İ.Lenin adına Sarayda respublikanın partiya, sovet, təsərrüfat fəalları ilə görüşdü.

**Fevralın 23-də** V.İ.Lenin adına Sarayda Bakı – Lenin seçki dairəsi zəhmətkeşlərinin SSRİ Ali Soveti İttifaq Sovetinə deputatlığa namizəd, Sov.İKP MK Siyasi Bürosunun üzvü Heydər Əliyevlə görüşü oldu.

Bu, faktiki olaraq Moskvaya gedəndən sonra H.Əliyevin respublika zəhmətkeşləri ilə ilk görüşü idi. Buna görə də onun çıxışı ötən ildə görülmüş işlər, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini postunda fəaliyyətinin əsas istiqamətləri barədə bir növ hesabat idi.

Hökumətin nəqliyyat kompleksinin işinin yaxşılaşdırılması, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, işdə dəqiqliyin və mütəşəkkilliyin artırılması istiqamətində görülmüş tədbirlərdən ətraflı danışan H.Əliyev qeyd etdi ki, son illərdə ilk dəfə olaraq dəmir yolu nəqliyyatında tərəqqi əldə olunmuşdur. Belə ki, "o nəinki beşilliyin üçüncü ilinin əsas göstəricilərini yerinə yetirmiş, hətta 1981 və 1982-ci illərdə yol verilən geriliyi aradan qaldırmışdır. Yəqin ki, bunun nə demək olduğunu başa salmağa ehtiyac yoxdur, çünki ölkədə bütün yük dövriyyəsinin 50%-i, sərnişin daşımalarının isə üçdəbirindən çoxu dəmir yolu nəqliyyatının payına düşür". Sonra H.Əliyev BAM-ın tikintisinin gedişindən danışdı və əmin etdi ki, bu ilin sonuna qədər bütün yol boyu qatarların birbaşa hərəkəti açılacaqdır (o vaxt üçün əsas yolun 2.756 kilometri çəkilmişdi, daha 300 kilometr yol çəkmək qalırdı). O təsərrüfatın intensiv mənimsənilməsi rayonlarında yol şəbəkələrinin, boru və qaz kəmərlərinin sürətlə inkişaf etdirilməsinin zəruriliyindən, avtomobil və çay nəqliyyatının daha da inkişaf etdirilməsindən danışırdı.



Bundan əlavə, Nazirlər Soveti sədrinin müavini sosial-mədəni sahə, orta təhsil və səhiyyə məsələlərinin – yəni hökumətdə bilavasitə kuratorluq etdiyi sahələrin üzərində dayandı. Məsələn, səhiyyədən danışarkən, H.Əliyev qeyd etdi ki, bu gün ən başlıcası onun prafilaktik yönümünün yaxşılaşdırılması və əhalinin tibbi maariflənməsidir. Natiq vurğuladı ki, bu məqsədlə sovet səhiyyəsinin strateji inkişaf proqramı işlənib hazırlanmışdır. Burada bütün ölkə əhalisinin ildə bir dəfə dispanserizasiyasının tətbiq olunması ən əsas aspektlərdən biridir.

H.Əliyevin nitqinin geniş xülasəsi "Pravda" qəzetində dərc edilmişdi.

**Həmin gün** H.Əliyev "Leninneft" və "Orconikidzeneft" neft-qazçıxarma idarələrində, "Bakinski raboçi" və F.Dzerjinski adına Maşınqayırma zavodlarında, Dərin Dəniz Özülləri zavodunda, evtikmə kombinatında, tikilməkdə olan Makaron fabrikində, 5 nömrəli Bakı taksomotor parkında oldu.

H.Əliyev 23 nömrəli yeni şəhər xəstəxanasının tibbi personalı ilə görüşdü.

**Fevralın 24-də** H.Əliyev Bakıdan Moskvaya yola düşdü.

**Martın 1-də** H.Əliyev Böyük Teatrda seçicilərin SSRİ Nazirlər Sovetinin sədri N.Tixonovla görüşündə iştirak etdi. Yeri gəlmişkən, ötən ilin uğurlarından danışarkən hökumət rəhbəri "nəqliyyatda işlərin düzəlməyə başlamasını" qeyd etdi.

**Martın 2-də** Kremlin Qurultaylar sarayında Moskvanın Kuybışev dairəsi seçicilərinin öz namizədləri – Sov.İKP MK Baş katibi K.Çernenko ilə görüşü oldu. Görüşdə bütün Siyasi Büro üzvləri, o cümlədən H.Əliyev iştirak edirdilər.

Çıxışı zamanı K.Çernenko qeyd etdi ki, Y.Andropovun neqativ hallarla mübarizə xəttini davam etdirəcəkdir. Baş katibin söylədikləri son 13 il ərzində H.Əliyevin respublika aktivinin qarşısında, Azərbaycan KP MK-nın müxtəlif plenumlarında dəfələrlə dediklərini xatırladır: "Xüsusilə bunu demək istəyirəm. Partiya və dövlət, bildiyiniz kimi, dövlət vəsaitinin dağıdılması, gözdən pərdə asma və xidməti vəzifədən sui-istifadə, oğurluq və rüşvət kimi biabırçı hallara qarşı mübarizəni gücləndirmişdir. Bu, müvəqqəti kampaniya deyildir. Bu – daimi və danışıqsız aparılacaq xəttdir. Burada heç kimə güzəşt yoxdur və olmayacaq da. Bu barədə heç kim xam xəyallara düşməməlidir".

**Martın 7-də** H.Əliyev Siyasi Büronun üzvləri ilə birlikdə Böyük Teatrda Beynəlxalq Qadınlar gününə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**Martın 10-da** H.Əliyev Suriya Ərəb Respublikası rəhbərliyinin dəvəti ilə Moskvadan Dəməşqə qısamüddətli işgüzar səfərə yola düşdü.

**Martın 11-də** H.Əliyev Suriya Ərəb Respublikası baş nazirinin müavini, xarici işlər naziri Ə.H.Həddamla danışıqlar apardı. Ə.H.Həddamın onun şərəfinə təşkil etdiyi naharda çıxış etdi.

Suriya prezidenti H.Əsəd, həmçinin Suriyanın baş naziri Ə.R.Kasma ilə görüşdü.

**Martın 12-də** H.Əliyev Suriya prezidenti H.Əsədlə danışıqlar apardı.

SKP MK Baş katibi Y.Feysəl başda olmaqla Suriya kommunist partiyası nümayəndə heyəti ilə görüş keçirdi.

LKP MK Baş katibi J.Haui başda olmaqla Livan kommunist partiyası nümayəndə heyəti ilə görüşdü.

**Həmin gün** "Pravda" qəzetində H.Əliyevin Suriyaya səfəri haqqında SİTA-nın müfəssəl məlumatı dərc edildi.



**Martın 14-də** "Pravda" və "İzvestiya" qəzetlərində Sovet-Suriya kommunikesi dərc olundu. Sənəddə BMT Təhlükəsizlik Şurasının İsrail qoşunlarının Livandan təcili və qeyd-şərtsiz çıxarılması haqqında qətnamələrinin dəstəkləndirildiyi ifadə olunurdu. Yaxın Şərqdə sülh uğrunda mübarizədə Fələstin amilinin mühümlüyündən, Fələstin müqavimət hərəkatının qorunmasının vacibliyindən danışılır, hər iki tərəfin bütün sahələrdə strateji münasibətlərin möhkəmləndirilməsinə çalışması qeyd olunurdu.

**Martın 20-də** H.Əliyev İttifaqlar Evinin Sütunlu salonunda Taras Şevçenkonun 170 illiyi münasibətilə təntənəli gecədə iştirak etdi.

**Martın 22-də** Sov.İKP MK Siyasi Bürosu H.Əliyevin Suriya Ərəb Respublikasına səfərinin yekunlarını müzakirə edib bəyəndi.

**Martın 23-də** Sov.İKP MK Siyasi Bürosunda BAM inşaatçıları kollektivlərinin əsas dəmiryol xəttinin düzülməsini vaxtından qabaq, Böyük Oktyabrın 67-ci ildönümü ərəfəsində bitirmək və bütün magistral boyu qatarların hərəkətini nəzərdə tutulan müddətdən bir il tez açmaq təşəbbüsünə baxıldı. Siyasi Büro bu təşəbbüsə, eləcə də ümumiyyətlə BAM-ın çəkilib qurtarmasına böyük əhəmiyyət verirdi. İclasda qeyd olundu ki, "qatarların hərəkətinin vaxtından qabaq açılması Sibir və Uzaq Şərqin məhsuldar qüvvələrinin inkişafını sürətləndirəcək, daş kömür, meşə və digər təbii resursların təsərrüfat mübadiləsinə qoşulmasına xidmət edəcəkdir".

Elə həmin iclasda H.Əliyevin Suriyaya səfərinin yekunları bəyənildi.

**Həmin gün** H.Əliyevin sədrliyi ilə 1986-2000-ci illər üçün xalq istehlakı malları istehsalının və əhaliyə xidmət sisteminin inkişafına dair Kompleks proqramının işlənib hazırlanmasına rəhbərlik və nəzarət üzrə Sov.İKP MK Siyasi Bürosu Komissiyasının iclası oldu.

İclasda proqramın işlənib hazırlanmasının gedişi ilə bağlı məsələlər müzakirə olundu.

**Martın 26-27-də** H.Əliyev aqrosənaye kompleksinin problemləri üzrə Ümumittifaq iqtisadi müşavirəsinin iclasında iştirak etdi.

**Martın 29-da** H.Əliyev yüksək səviyyədə Sovet-Efiopiya danışıqlarında iştirak etdi.

**Martın 30-da** H.Əliyev Kremldə Sosialist Efiopiyasının Müvəqqəti Hərbi Administrasiya Şurasının sədri Menqistu Xayle Mariamı qəbul etdi, onunla ikitərəfli iqtisadi-ticarət məsələlərini müzakirə etdi.

**Aprelin 3-də** SSRİ Nazirlər Sovetinin sədri N.Tixonov və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini H.Əliyev beynəlxalq "Metal emalı-84" sərgisində oldular.

**Aprelin 10-da** Sov.İKP MK-nın Plenumu oldu. Plenum ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətlərinə dair məsələni müzakirə etdi və onu 11-ci çağırış SSRİ Ali Sovetinin birinci sessiyasına çıxarmağı qərara aldı.

**Aprelin 11-də** Kremldə 11-ci çağırış SSRİ Ali Sovetinin birinci sessiyası işə başladı. Sessiya K.Çernenkonu SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri seçdi.

**Aprelin 12-də** sessiyada ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətlərinə dair məruzə ilə H.Əliyev çıxış etdi.

Məruzə quru müddəalar və partiya çıxışlarının çeynənmiş sözçülüyündən uzaq idi. O olduqca canlı, emosional, gözəl rus dilində yazılmışdı və yüksək natiqlik ustalığı ilə oxunmuşdu.

Həmin məruzədən bəzi parçalar:

"Tədrisi məhsuldar əməklə birləşdirmək gənclərimizin sosial püxtələşməsi prosesi üçün müstəsna əhəmiyyət kəsb edəcəkdir. Çünki əməksevərliyin tərbiyəsi – insan şəxsiyyətinin başlıca keyfiyyətinin tərbiyə olunmasıdır, cəmiyyətin və fərdin həyatı üçün bünövrənin yaradılmasıdır. Bugünki məktəbli hansı istedad sahibi olursa olsun, hansı sənəti seçmək istəyirsə seçsin – əkinçi ya kosmonavt, inşaatçı ya rəssam, metallurq ya həkim – seçdiyi məqsədə doğru yolu o hər şeydən əvvəl öz əməyi sayəsində açmalıdır. Yalnız xalqın, Vətənin səadəti naminə çalışmaqla o, vətəndaş kimi özünü təsdiq edə bilər. Sosializm – zəhmətkeşlərin cəmiyyətidir və yalnız əmək – istər fiziki, istərsə də əqli olsun – burada insanların həm şərəfini, həm ləyaqətini müəyyən edir".



İslahatda nəzərdə tutulmuş və müəllimlərin ixtisaslarının artırılmasına yönəlmiş tədbirlərə toxunan H.Əliyev, müəllimin ideal portretini yaradır: "Nə vaxta qədər ki müəllim öyrənir – o yaşayır, nə vaxta qədər ki müəllim yaşayır – o öyrənir" – bu köhnə həqiqət heç də öz mənasını itirməmişdir. Bir qədər də dərinə gedək: müəllim nəinki zəmanə ilə ayaqlaşmalıdır, hətta, əgər bilmək istəyirsinizsə, onu qabaqlamalıdır. O, əsaslarını tədris etdiyi elmin qızğın təbliğatçısı və dərin bilicisi olmalıdır, oradakı ən yeni məlumatlardan xəbərdar olmalıdır...

Lakin tərbiyəçi şagirdlərini yalnız biliklə silahlandırmır. Həm də onlara öz davranışı, həyat tərzi, bütün siması ilə təsir göstərir. Onun intellekt və mədəniyyəti, düzgünlüyü və insanpərvərliyi, onun mənəvi keyfiyyətləri şagirdlər tərəfindən bir etalon kimi qəbul edilir. Buna görə də müəllim, hansı fənni aparmasından asılı olmayaraq, gənclər üçün sosializm mənəviyyatının tərbiyəçisi, yüksək nümunə olmalıdır".

H.Əliyev mədəniyyət xadimlərini xalq maarifinin islahatına öz töhfələrini verməyə çağırır: "Məktəb yazıçılar, rəssamlar, bəstəkarlar, teatr və kino xadimləri ilə görüşləri gözləyir, uşaq və gənclərin mənəvi və vətəndaşlıq təşəkkülünə kömək edən yüksək ideyalı, bədii cəhətdən kamil, məktəb həyatını, müəllimlərin nəcib missiyasını dolğun və düzgün əks etdirən əsərlər gözləyir".

Məruzədə cəmi bir neçə rəqəm səsləndi, lakin onların təsir qüvvəsi böyük idi: "Gələn beşillikdə 7 milyon şagirdlik yeni məktəb, təxminən 800 texniki-peşə məktəbi kompleksinin

tikilməsi nəzərdə tutulmuşdu. İslahatların həyata keçirilməsi üçün dövlət büdcəsi tərəfindən 11 milyard manat ayrılır, onların 3,5 milyardı təhsil işçilərinin maaşlarının artırılmasına yönəldiləcəkdir".

Onun məruzəsi sessiya iştirakçılarının böyük marağına səbəb oldu. Ümumtəhsil və peşə məktəbi islahatının Əsas istiqamətləri isə SSRİ Ali Sovetinin xüsusi qərarı ilə bəyənildi.

Həmin gün deputatlar SSRİ Nazirlər Sovetinin – hökumətin yeni tərkibini formalaşdırdılar. H.Əliyev, A.Qromıko və İ.Arxipov N.Tixonovun birinci müavinləri təsdiq olundular.

**Aprelin 18-də** SSRİ Nazirlər Sovetinin iclası oldu. İclasda 1984-cü ilin birinci rübündə SSRİ-nin iqdisadi və sosial inkişafı Dövlət planının yerinə yetirilməsinin yekunları müzakirə olundu. Müsbət amillər sırasında dəmiryol nəqliyyatının işinin yaxşılaşdırılması da qeyd olundu.

"Dəmir yolunda yük dövriyyəsi planı 101,7 faiz yerinə yetirilmişdir, 1983-cü ilin müvafiq dövrü ilə müqayisədə yük dövriyyəsi 2,9 faiz artmışdır, daşınma işlərinin bütün artımı əmək məhsuldarlığının artması hesabına təmin olunmuşdur".

**Aprelin 19-da** Siyasi Büroda kinofilmlərin ideya-bədii səviyyəsinin bundan sonra da artırılması və kinematoqrafiyanın maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı məsələlər müzakirə olundu. Bu, H.Əliyevin cavabdeh olduğu sahə idi. O , Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin müvafiq qərarını Siyasi Büro üzvlərinin diqqətinə təqdim etdi. Qərarda kinostudiyaların və digər kino müəssisələrinin yenidən qurulması və texniki cəhətdən yenidən təchiz olunması, təzə kinoteatrların tikilməsi və s. hesabına kinematoqrafiyanın maddi-texniki bazasının möhkəmləndirilməsi nəzərdə tutulurdu.

**Aprelin 20-də** H.Əliyev Kremlin Qurultaylar sarayında V.İ.Leninin anadan olmasının 114-ci ildönümü ilə əlaqədar təntənəli yığıncaqda oldu.



**Mayın 1-də** H.Əliyev digər Siyasi Büro üzvləri ilə birlikdə Qızıl meydanda zəhmətkeşlərin 1 May nümayişi iştirakçılarını salamladı.

**Mayın 4-də** H.Əliyev Böyük Kreml sarayında SSRİ ilə Polşa Xalq Respublikası arasında 2000-ci ilə qədər olan dövr üçün iqtisadi və elmi-texniki əməkdaşlığın inkişafına dair Uzunmüddətli proqramın imzalanması, həmçinin Polşa Birləşmiş Fəhlə Partiyasının birinci katibi V.Yaruzelskiyə Lenin ordeninin təqdim olunması mərasimində iştirak etdi.

**Mayın 17-də** H.Əliyev Kremldə Suriya Ərəb Respublikası vəqflər naziri M.Hatibi onun xahişi ilə qəbul etdi.

**Mayın 18-də** Moskvada, "Oktyabr" kinokonsert zalında kino işçilərinin Ümumittifaq müşavirəsi açıldı. Müşavirə kino təşkilatının Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin "Kinofilmlərin ideya-bədii səviyyəsinin yüksəldilməsi və kinematoqrafiyanın maddi-texniki bazasının möhkəmləndirilməsi barədə" qərarının yerinə yetirilməsi məsələlərinə həsr olunmuşdu. H.Əliyev sovet kinematoqrafçılarının vəzifələri barədə geniş nitqlə çıxış etdi. Bu məruzənin müfəssəl ifadəsi mayın 19-da "Pravda" və "Sovetskaya kultura" qəzetlərində, sonradan təkrarən "Literaturnaya qazeta"da dərc edildi *(23 may, № 21).*

Parlaq emosional, bədii cəhətdən ifadəli, ideoloji baxımdan dərin məruzədə o vaxtın tələblərindən çıxış edərək sovet kinosunun bütün növ və janrlarının vəzifələri dürüst ifadə olunmuşdu. Məruzə böyük və tərkibcə müxtəlif olan kinematoqrafçı auditoriyasına güclü təsir etmişdi.

Məruzənin bir çox müddəaları öz əhəmiyyətini dövrümüzə qədər itirməmişdir. Yalnız iki sitat gətirək:

"Kinematoqrafın təcrübəsi göstərir ki, film ilk növbədə qəhrəmanlarının dolğun şəxsiyyəti, əməllərinin nəcibliyi, mənəvi və intellektual cəlbediciliyi ilə insanların qəlbində iz buraxır, tamaşaçıya təsir edir... Qəhrəmanın şəxsiyyətinin ma-

raqlı olması, onun miqyası, xarakterinin dərindən açılması – filmin uğurunun və təsir qüvvəsinin vacib şərtləridir. Söhbət süni, həyatda olmayan, ona görə də tamaşaçının inanmadığı, bir vaxt deyildiyi kimi, "çəhrayı" qəhrəmandan getmir. Biz sovet kinematoqrafından real, sovet adamına yaxın olan və başa düşülən müsbət qəhrəman gözləyirik, elə qəhrəman ki, onlar bu qəhrəmanda öz iş yoldaşlarının, öz müasirlərinin cizgilərini görə bilsinlər. Şübhəsiz ki, bu gün həm ssenariçi, həm rejissor, həm də aktyor üçün belə qəhrəmanı yaratmaq, deyək ki, 30-cu – 40-cı illərin kinematoqrafında olduğundan çətindir. İndi insanlar mənəvi, maddi, intellektual cəhətdən zəngindirlər, həyat daha dinamik və mürəkkəb olmuşdur, tamaşaçıların zövqü və tələbatı artmışdır. Lakin müsbət qəhrəman – parlaq, güclü, cəlbedici, fəal, cəsur insan – ekranlarda son dərəcə vacibdir".

Bu isə natiqin tarixi mövzuda olan filmlər haqqında fikridir: "Hesab edirəm siz razılaşarsız ki, tarixi mövzu xüsusi diqqət, faktlara münasibətdə, ilk növbədə də tarixi hadisələri və şəxsiyyətləri işıqlandırarkən, şərh edərkən son dərəcə dəqiqlik, və bəlkə də vasvasılıq tələb edir. Bu barədə ona görə danışmaq lazım gəlir ki, bəzi filmlərdə, elə ədəbi əsərlərdə də, sənətkarın müəyyən hadisələrə və xarakterlərə "əlavə" etmək ixtiyarına istinad etmək, bəzən tarixi faktlara və şəxsiyyətlərə münasibətdə ifrat sərbəstliyə gətirib çıxarır".

Sov.İKP-nin qərarına gəldikdə isə, H.Əliyevin qeyd etdiyi kimi, "qərarda ideya-bədii səpkidə vəzifə və tələblər kinematoqrafiyanın ümumi maddi-texniki bazasının möhkəmləndirilməsinə, onun ən vacib təşkilati, maliyyə və təsərrüfat məsələlərinin həllinə yönəlmiş geniş kompleks tədbirlərlə sıx uzlaşdırılmışdır. Kinematoqrafçıların bu sahədə demək olar ki, bütün təklif və arzuları təmin edilmişdlir. Yəni ki, bu baxımdan da qərar sovet kinosu tarixində ən əhatəli və miqyaslıdır, onun inkişafı üçün möhkəm maddi-maliyyə bazası yaradır".



**Mayın 28-də** H.Əliyev Siyasi Büronun üzvləri ilə birlikdə Böyük Kreml sarayında ümumittifaq ordu komsomol təşkilatları katiblərinin müşavirəsində iştirak etdi.

**İyunun 3-dən 10-na** kimi H.Əliyev Baykal-Amur dəmir yolu magistralı tikintisinin trassasında oldu.

**İyunun 7-də** BAM-da işlərin gedişi SSRİ Nazirlər Sovetinin Baykal-Amur magistralının tikintisi üzrə Komissiyasının Tındada səyyar iclasında müzakirə olundu.

SİTA-nın "Pravda" qəzetində dərc olunmuş məlumatında deyilirdi: "Komissiya magistralı tikənlərin yüksək əzmkarlığını qeyd etmişdir. Bütövlükdə yolun tikintisi yüksək templə aparılır, tikinti-quraşdırma planları ilbəil artıqlaması ilə yerinə yetirilir. Tikilməkdə davam edən BAM, beşilliyin xeyrinə getgedə daha enerjili işləyir. Baykal-Amur dəmir yolu təşkil edilmişdir, yalnız ötən il onun vasitəsilə 18,6 milyon ton xalq təsərrüfatı yükü daşınmışdır. Yol boyu, hələ bu yaxınlaradək keçilməz tayqa olan yerlərdə rahat, dinamik inkişaf edən qəsəbə və şəhərlər ucaldılmışdır.

Bununla yanaşı, BAM-da işlərin uğurla başa vurulmasını ləngidən bir sıra nöqsan və çatışmayan cəhətlər tənqidi baxımdan təhlil edildi, çətin dağ-süxur şəraitində tikilən Şimali-Muysk və Kodar tunellərinin inşasını sürətləndirmək istiqamətində konkret tədbirlər irəli sürüldü. Lokomotiv, vaqon və yardımçı təsərrüfat obyektlərinin tikintisində, magistralın mühəndis təminatında müəyyən geriliklər müşahidə olunurdu. Baykal tunneli ilə qatarların hərəkətinin açılması üzrə işlər yolverilməz dərəcədə uzadılmışdı. Magistralın kompleks şəkildə tikilməsinin, yüksək məhsuldarlıqlı maşınların, mexanizmlərin və işçi qüvvəsinin daha səmərəli istifadə edilməsinin zəruriliyi vürğulanırdı.

Səyyar komissiyanın işində Amur, Buryatiya, İrkutsk, Yakutiya vilayət partiya komitələrinin birinci katibləri, SSRİ nazirləri N.Konarev, İ.Sosnov, SSRİ Dövləttikinti Komitəsinin

sədri S.Başilov, SSRİ Dövlət Plan Komitəsi sədrinin müavini V.Biryukov, nazirlik və idarə rəhbərləri, SSRİ Nazirlər Sovetinin, SSRİ Dövlət Plan və Dövlət Təchizat Komitələrinin, ÜİHİMŞ və ÜİLKGİ-nin məsul işçiləri iştirak edirdi.

**İyunun 11-də** "Pravda"da H.Əliyevin Baykal-Amur magistralı boyu səfəri barədə qısa hesabat dərc olundu. Hətta quru protokol hesabatı bu səfərdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavininin gördüyü işlərin möhtəşəm miqyasını təsəvvür etməyə imkan verir.

*SİTA müxbirinin hesabatından:*

"H.Ə.Əliyev BAM xətti ilə Lena stansiyasından Komsomolsk-na-Amure şəhərinə qədər getdi, əsas dəmir yolunun son kilometrləri çəkilən Taksimo-Vitim zərbəçi pereqonunda oldu, magistral boyu salınmış yeni qəsəbə və şəhərlərə baxdı, Şimali Muysk tunelində tikintinin gedişi ilə tanış oldu. Quyu dibləri və mədən dəhlizlərində qazmaçılarla söhbət etdi, iş və məişət şəraiti ilə maraqlandı. Fəhlə və mütəxəssislərlə görüşərkən BAM kollektivinin Böyük Oktyabrın 67-ci ildönümü ərəfəsində bütün magistral boyu qatarların hərəkətini açmaq kimi məsul öhdəlikləri sözsüz yerinə yetirməsi məsələsinə xüsusi diqqət yetirildi.

H.Ə.Əliyev həmçinin nəqliyyat konveyerinin digər hissələrində yaranmış vəziyyətlə tanış oldu – Lena çayı üzərindəki Osetrovo, Vrangel buxtasındakı Şimal limanlarında, Vladivostok ticarət limanında oldu.

Bratsk HES-də, Lenin komsomolu adına Gəmiqayırma zavodunda, Komsomolsk-Amur şəhərindəki Y.A.Qaqarin adına Təyyarə zavodunda və regionun digər müəssisələrində olan zaman elmi-texniki nailiyyətlərin istehsala tətbiq olunması, əmək kollektivlərinin sosial inkişafı proqramları ilə maraqlandı.

H.Ə.Əliyev Qırmızı bayraqlı Sakit okean Donanmasının matrosları ilə görüşdü, iri "Petropavlovsk" qayıq əleyhinə gəmisində oldu. Sakit okean dənizçiləri əmin etdilər ki, böyük



Sovet İttifaqının sərhədlərini möhkəm qoruyacaqlar, sülhün keşiyində sayıq dayanacaqlar.

Xabarovsk və Primorsk diyarlarının partiya-təsərrüfat aktivi ilə görüş olmuşdur. Görüşdə Sov.İKP MK-nın fevral və aprel (1984-cü il) Plenumları qərarlarının tələblərinə uyğun ictimai istehsalın səmərəliliyinin artırılması, ideya-tərbiyə işinin gücləndirilməsi məsələləri müzakirə olunmuşdur".

**İyunun 13-də** H.Əliyev Niderlandın nəqliyyat və su təsərrüfatı naziri N.Smit-Krusu qəbul etdi.

**İyunun 15-də** H.Əliyev Bolqarıstan Xalq Respublikasının Maşınqayırma texniki Mərkəzinin açılışında oldu.

**İyunun 18-də** H.Əliyev SSRİ Ali Soveti Rəyasət Heyətinin iclasında onuncu çağırış SSRİ Ali Sovetinin doqquzuncu sessiyasında 1984-cü ilin plan və büdcəsinin müzakirəsi zamanı daimi komissiyalar və deputatlar tərəfindən edilmiş təklif və iradlara baxılmasının nəticələri barədə məruzə etdi.

**Həmin gün** H.Əliyev Kremldə Sandinist Milli Azadlıq Cəbhəsi Milli rəhbərliyinin üzvü, Nikaraqua Milli Dirçəliş hökuməti Rəhbər Şurasının koordinatoru D.Orteqa ilə görüşdü və iqtisadi-ticarət əməkdaşlığının inkişafı məsələlərini onunla muzakirə etdi.

**İyunun 19-20-də** H.Əliyev SSRİ Ali Sovetinin növbəti sessiyasının işində iştirak etdi.

**İyunun 20-də** H.Əliyev partiya və dövlətin digər rəhbərləri sırasında (A.Qromıko, V.Kuznetsov, P.Demiçev, İ.Arxipov) Fransa Respublikasının prezidenti Fransua Mitteranın Kremldə qarşılanması mərasimində iştirak etdi.

**İyunun 21-də** H.Əliyev yüksək səviyyədə Sovet-Fransa danışıqlarında iştirak etdi.

**Həmin gün** H.Əliyev Fransanın nəqliyyat naziri Ş.Fittermanı qəbul etdi.

**İyunun 23-də** H.Əliyev F.Mitteranın Kremldə yolasalınma mərasimində iştirak etdi.

**İyunun 28-də** Sov.İKP MK Siyasi Bürosunun iclasında H.Əliyev Fransa Respublikasının prezidenti F.Mitteranın SSRİ-yə səfəri vaxtı onun Fransa nümayəndə heyətinin üzvləri ilə danışıqlarının nəticələri barədə məlumatla çıxış etdi.

**İyulun 5-də** H.Əliyev Siyasi Büroda BAM-a səfərinin yekunları barədə məruzə etdi.

SİTA xəbər verir ki, onun məruzəsi əsasında "Sov.İKP MK Siyasi Bürosu müvafiq nazirlik və idarələrin rəhbərlərinə Baykal-Amur magistralının buraxılış obyektlərinin vaxtlı-vaxtında istismara verilməsi üçün tədbirlər görülməsini, texnika, avadanlıq, konstruksiya və materialların ahəngdar çatdırılmasına nail olunmasını, yaşayış evləri və mədəni-məişət təyinatlı obyektlərin tikilməsi planına ciddi riayət edilməsini təklif etdi. BAM zonasında yerləşən təbii resursların mənimsənilməsi templərinin artırılmasının zəruriliyi, avtomobil yolları şəbəkəsinin genişləndirilməsi və yolların keyfiyyətinin yaxşılaşdırılması, magistralın normal işini təmin edən köməkçi xidmətlərin yaradılması vurğulandı".

**İyulun 9-da** H.Əliyev Kremldə Sovet-Çexoslovakiya sənədlərinin imzalanmasında iştirak etdi.

**Avqustun 1-də** Sov.İKP MK-nın "Kommunist" nəzəri və siyasi jurnalında H.Əliyevin "Sovet insanlarının təsirli tərbiyə vasitəsi" məqaləsi dərc olundu.

**Avqustun 13-də** H.Əliyev Vyetnam Sosialist Respublikasının SSRİ-dəki fövqəladə və səlahiyyətli səfiri Din Nyo Liemi qəbul etdi. Görüşdə Sovet-Vyetnam iqtisadi və elmi-texniki əməkdaşlığının bəzi məsələlərinə toxunuldu.

**Sentyabrın 6-7-də** H.Əliyev Bakının orta və texniki-peşə məktəblərində işlərin gedişi ilə tanış oldu.

**Sentyabrın 19-da** respublika zəhmətkeşləri Azərbaycan KP MK üzvü, Azərbaycan SSR Ali Sovetinin deputatı, respublikanın rabitə naziri, general-leytenant Hüseyn Rəsulbəyovu son mənzilə yola saldılar. H.Əliyev vida mərasimində iştirak etdi.



**Sentyabrın 25-də** H.Əliyev Böyük Kreml sarayında SSRİ Yazıçılar İttifaqının idarə heyətinin yazıçılar təşkilatının 50 illiyinə həsr olunmuş yubiley plenumunda iştirak etdi.

**Oktyabrın 3-də** H.Əliyev SSRİ Böyük Teatrında RSFSR-də Türkmənistan SSR-in Ədəbiyyat və İncəsənəti günlərinin açılışında iştirak etdi.

**Oktyabrın 4-də** H.Əliyev Siyasi Büroda bir daha BAM-da işlərin gedişi barədə məruzə etdi. Baykal-Amur magistralında əsas dəmir yolu xəttinin vaxtından qabaq düzülməsinin və qatarların iş hərəkətinin açılmasının böyük siyasi və xalq təsərrüfatı əhəmiyyəti kəsb etdiyi xüsusi vurğulandı.

H.Əliyev aşağıdakı rəqəmləri açıqladı: 10 il ərzində magistral boyu böyük həcmdə inşaat-quraşdırma işləri görülmüşdür. Yer yatağına 570 milyon kubmetrdən çox torpaq tökülmüş, 4.200-ə yaxın körpü və digər süni qurğu tikilmiş, 5 min kilometrdən çox əsas və stansiya dəmir yolu xətləri çəkilmişdir. Yeni şəhərlər və rahat qəsəbələr tikilir. 400 milyon manat məbləğində ümumi sahəsi 570 min kv.metr olan əsaslı yaşayış binaları və xeyli sayda sosial-məişət obyektləri istismara verilmişdir. Bununla belə, Şimali-Muysk tunelinin tikilməsi və maqistralın tikintisinin yekunlaşdırılması haqqında məsələyə yenidən baxılmış və müvafiq qərar qəbul edilmişdir.

**Oktyabrın 5-də** H.Əliyev xalq nəzarətçilərinin Ümumittifaq müşavirəsinin işində iştirak etdi.

Həmin müşavirədə çıxış edən Sov.İKP MK Baş katibi K.Çernenko bəyan etdi: "Son illərdə biz evimizdə qayda-qanun yaratmağa möhkəm girişmişik. Vəzifə dəqiq qoyulmuşdur: rüşvətxorluğa və möhtəkirliyə, sosialist əmlakının dağıdılmasına və oğurlanmasına, vəzifədən sui-istifadəyə son qoymaq. Biz qanunçuluğun möhkəmləndirilməsi, bizim hü-

quq–mühafizə orqanlarının işinin yaxşılaşdırılması, rəhbər işçilərin məsuliyyətinin artırılması, ümumi mütəşəkkillik və nizam-intizam uğrunda mübarizəni kəskin surətdə artırmışıq. Bu istiqamətdə partiyanın və dövlətin mərkəzi orqanları, xeyli praktik ölçü götürmüşdür. Bəzi hallarda, özü də kəskin hallarda, məsələn, Krasnodar diyarı, Özbəkistan, Rostov vilayətində bir sıra işçilər barəsində olduğu kimi".

**Oktyabrın 9-da** H.Əliyev N.Tixonov və V.Vorotnikovla Vnukovo aerodromunda Yəmən Ərəb Respublikasının prezidenti Əli Abdulla Salehi qarşıladı.

**Həmin gün** Kremldə o SSRİ ilə Yəmən Ərəb Respublikası arasında dostluq və əməkdaşlıq barəsində Müqavilə imzalanmasında iştirak etdi.

**Oktyabrın 11-də** H.Əliyev Yəmən prezidenti Ə.A.Salehin yolasalınma mərasimində iştirak etdi.

**Oktyabrın 13-də** H.Əliyev Moskvada keçirilən Sovet və yapon ictimaiyyətinin IV "dəyirmi stol" konfransında iştirak edən Yaponiya nümayəndə heyəti rəhbərlərini qəbul etdi.

SİTA-nın məlumatında deyilirdi ki, söhbət zamanı beynəlxalq vəziyyətin aktual problemlərinə, Sovet-Yaponiya münasibətlərinin hazırki vəziyyəti və perspektivlərinə toxunulmuşdur. Söhbət, məsələn, Yaponiya ilə mehriban qonşuluq və əməkdaşlıq əlaqələrinin, Uzaq Şərqdə inamı artıran birgə tədbirlərin işlənməsi, SSRİ ilə Yaponiya arasında ictimai, parlament və digər xətlərlə əlaqə və təmasların inkişafına dair müqavilənin bağlanması haqqında Sovet İttifaqının irəli sürdüyü təkliflərin həyata keçirilməsi yollarından gedirdi.

**Oktyabrın 16-da** H.Əliyev Kremldə SSRİ-də rəsmi səfərdə olan İsveçin nəqliyyat və kommunikasiyalar naziri K.Bustremi qəbul etdi.

**Oktyabrın 23-də** H.Əliyev Sov.İKP MK-nın "Uzunmüddətli Meliorasiya proqramı, ölkənin ərzaq fondunu davamlı surətdə artırmaq məqsədi ilə meliorasiyalaşdırılmış torpaqların səmərəli istifadəsi barədə" məsələyə həsr olunmuş Plenumunda iştirak etdi.



**Oktyabrın 25-də** Sov.İKP MK Siyasi Bürosunun iclasında H.Əliyevin Yaponiya ictimaiyyəti nümayəndə heyətinin rəhbərləri ilə görüşü barədə məlumatı dinlənildi.

**Oktyabrın 27-də** ölkənin bütün mərkəzi qəzetlərində Sov.İKP MK-nın Baykal-Amur dəmiryol magistralının tikintisində və istismarında iştirak edən fəhlələrə, mühəndis-texniki işçilərə və qulluqçulara, həmkarlar və komsomol təşkilatlarına, bütün inşaatçılara müraciəti dərc olundu.

Sov.İKP MK BAM inşaatçılarını əsas dəmir yolu xəttinin qurulmasının başa çatması və qatarların bütün dəmiryol magistralı boyu hərəkətinin açılması münasibətilə təbrik etdi.

Müraciətdə deyilirdi: "Baykal-Amur dəmiryol magistralı haqlı olaraq sovet xalqının böyük nailiyyətləri salnaməsinə yazılacaqdır. Yeni nəhəng nəqliyyat arteriyası ölkəmizin, xüsusilə Şərqi Sibir və Uzaq Şərqin iqtisadiyyatının inkişafı, bu regionlarda iri ərazi-istehsalat komplekslərinin yaradılması, zəngin təbii resursların xalq təsərrüfatı dövriyyəsinə qoşulması üçün böyük əhəmiyyət daşıyır".

**Noyabrın 6-da** H.Əliyev Böyük Oktyabr Sosialist inqilabının 67-ci ildönümünə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi. Məruzə ilə Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ xarici işlər naziri A.Qromıko çıxış etdi.

**Noyabrın 7-də** H.Əliyev partiya və hökumətin digər rəhbərləri ilə birlikdə Qızıl meydanda parad qəbul etdi. Axşam Kremlin Qurultaylar sarayında Oktyabrın 67-ci ildönümü ilə bağlı qəbulda iştirak etdi.

**Noyabrın 13-də** H.Əliyev Kremldə öz ölkələrinin nümayəndə heyətlərinin başçısı kimi atom energetikası və atom maşınqayırması məsələləri üzrə Hökumətlərarası komissiya-

nın on birinci iclasına gəlmiş QİYŞ ölkələri sədrlərinin müavinlərini qəbul etdi.

**Noyabrın 19-da** H.Əliyev SSRİ Parlament qrupunun dəvəti ilə Sovet İttifaqında səfərdə olan Yaponiyanın dörd siyasi partiyasının (Demokratik sosialist, Komeyto, Yeni liberal klub və Sosial demokratik ittifaq partiyaları) və DSP mərkəzi icraiyyə komitəsinin sədri R.Sasakinin başçılıq etdiyi Ümumyapon əmək konfederasiyası – DOMEY-in nümayəndə heyətlərini qəbul etdi.

**Noyabrın 27-28-də** H.Əliyev on birinci çağırış SSRİ Ali Sovetinin ikinci sessiyasının işində iştirak etdi. Sessiya 1985-ci il üçün Dövlət planı və SSRİ Dövlət büdcəsini qəbul etdi.

**Dekabrın 5-də** H.Əliyev "Mitsui bussan" ticarət şirkətinin prezidenti T.Yaxironun rəhbərlik etdiyi "Mitsui" yapon qrupunun nümayəndə heyətini qəbul etdi.

**Dekabrın 5-6-da** H.Əliyev onuncu çağırış RSFSR Ali Sovetinin onuncu sessiyasında iştirak etdi.

**Dekabrın 14-də** H.Əliyev SSRİ Tibb Akademiyasına Lenin ordeni təqdim etdi və İttifaqlar Evinin Sütunlu salonunda keçirilən təntənəli yığıncaqda fundamental tibb və sovet səhiyyəsinin vəzifələri və perspektivləri barədə geniş nitqlə çıxış etdi. Ədəbi cəhətdən parlaq, məzmunlu çıxış "Pravda", "İzvestiya", "Sovetskaya Rossiya" qəzetlərində *(15 dekabr 1984-cü il)* müfəssəl şərh olundu, nitqin tam mətni isə "Meditsinskaya qazeta"da dərc olundu *(19 dekabr 1984-cü il).*

**Dekabrın 19-da** müttəfiq respublikaların ali qanunvericilik orqanlarına namizədlərin irəli sürülməsi başlandı. H.Əliyevin RSFSR Ali Sovetinə deputatlığa namizədliyi Mərkəzi seçki dairəsi üzrə Altayın "Barnaulski" sovxozu tərəfindən, Zavodskoy seçki dairəsindən SSRİ-nin 50 illiyi adına Qroznı Kimya kombinatının əməkçiləri tərəfindən, Smolensk vilayətinin Yartsevo seçki dairəsindən yerli Pambıq-Parça kombinatının zəhmətkeşləri tərəfindən irəli sürüldü. Eyni zamanda



H.Əliyevin Azərbaycan SSR Ali Sovetinə deputatlığa namizədliyi Bakının Vağzalyanı seçki dairəsindən Oktyabr inqilabı adına Vaqon Təmiri zavodunun əməkçiləri tərəfindən irəli sürüldü.

**Dekabrın 22-də** H.Əliyev İttifaqlar Evinin Sütunlu salonunda SSRİ müdafiə naziri, marşal D.Ustinov ilə vida mərasimində iştirak etdi.

**Dekabrın 24-də** Siyasi Büronun üzvləri ilə birlikdə H.Əliyev marşal D.Ustinovun Qızıl meydanda dəfn mərasimində iştirak etdi.

**Dekabrın 26-da** H.Əliyev Bolqarıstan Xalq Respublikası Nazirlər Soveti sədrinin müavini T.Bojinovu qəbul etdi. Söhbət əsnasında Sovet-Bolqarıstan iqtisadi əməkdaşlığı məsələləri müzakirə olundu.

# 1985

**Yanvarın 3-də** Barnaulda Mərkəzi seçki dairəsi zəhmətkeşləri nümayəndələrinin seçkiqabağı müşavirəsi oldu. Müşavirə iştirakçıları bu dairədən RSFSR Ali Sovetinə deputat seçilməsi xahişi ilə H.Əliyevə müraciət etdilər.

Həmin bu günlərdə Bakı şəhəri Vağzalyanı seçki dairəsi zəhmətkeşləri nümayəndələrinin seçkiqabağı müşavirəsi oldu. Müşavirə iştirakçıları bu dairədən Azərbaycan SSR Ali Sovetinə deputat seçilməsi xahişi ilə H.Əliyevə müraciət etdilər.

**Yanvarın 14-də** Kremldə SSRİ Ali Soveti Rəyasət Heyətinin iclası oldu. SİTA-nın məlumatında deyilirdi: "Beynəlxalq Millətlər Təşkilatı tərəfindən 1985-ci ilin Beynəlxalq Gənclər ili elan edilməsi ilə əlaqədar, SSRİ Ali Soveti Rəyasət Heyəti Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini H.Ə.Əliyevin sədrliyi ilə komissiya yaratmışdır".

**Yanvarın 19-da** H.Əliyev Barnaul şəhəri Mərkəzi seçki dairəsi üzrə RSFSR Ali Sovetinə deputatlığa namizəd kimi qeydə alınmışdır.

**Yanvarın 23-də** SSRİ Nazirlər Sovetinin 1986-1990 və 2000-ci ilə qədər olan dövr üçün SSRİ-nin iqtisadi və sosial inkişafının Əsas istiqamətləri layihəsini müzakirə edən iclası oldu.

Bu iclasda ötən 1984-cü ilin yekunları təhlil edildi. Qeyd olundu ki, 1983 və 1984-cü illər "xalq təsərrüfatının praktik





*H.Əliyev və tibb institutunun rektoru Z.Quliyeva ATİ-yə qəbul imtahanları zamanı. 1 avqust 1982-ci il.*



*H.Əliyev böyük qrup Azərbaycan və erməni yazıçıları ilə Stepanakertdə. 29 iyul 1982-ci il.*




*Sov.İKP MK Baş katibi L.Brejnevin Bakıya son səfəri. Sentyabr, 1982-ci il.*



*H.Əliyev partiya və hökumət üzvləri ilə birlikdə L.Brejnevin dəfn mərasimində. Noyabr, 1982-ci il.*



*H.Əliyev respublikanın partiya fəalları ilə vidalaşır. 3 dekabr 1982-ci il.*



*H.Əliyev, Niyazi və onun xanımı görkəmli Azərbaycan bəstəkarı və dirijorunun İttifaqlar Evinin Sütunlu salonunda yubiley konsertindən sonra. 14 aprel 1983-cü il.*



*H.Əliyevin partiya-dövlət nümayəndə heyətinin başçısı kimi Vyetnama səfəri. H.Əliyevdən solda Sov.İKP MK katibi N.Rijkov. 26 oktyabr—4 noyabr 1983-cü il.*



*H.Əliyev yüksək səviyyədə Sovet-Macarıstan danışıqlarında Y.Andropovun yanında. 21 iyul 1983-cü il.*



*Voloqda şəhərində. 1 iyul 1983-cü il.*



*Kremldə Sosialist Efiopiyasının Müvəqqəti Hərbi Administrasiya Şurasının sədri Menqistu Xayle Mariamın qəbulu. 31 mart 1984-cü il.*




*Mavzoleyin tribunasında. 1 may 1984-cü il.*



*Barnaul şəhərinin (Altay diyarı) ali məktəblərində. 15-16 fevral 1985-ci il.*




*H.Əliyev SSRİ Tibb Akademiyasına Lenin ordeni təqdim edir. 14 dekabr 1984-cü il.*



*Atom energetikası üzrə Hökumətlərarası komissiya üzvlərinin qəbulu. 13 noyabr 1984-cü il.*



*BAM-a səfər. Buryatiya MSSR. Severobaykalsk şəhəri. 7 iyun 1984-cü il.*



*İspaniyanın nəqliyyat, turizm və rabitə naziri E.Baronenin qəbulu. 30 mart 1985-ci il.*



*H.Əliyev Kremlin Qurultaylar sarayında V.İ.Leninin anadan olmasının 115-ci ildönümünə həsr olunmuş təntənəli yığıncaqda çıxış edir. 22 aprel 1985-ci il.*



*Pxenyanda Koreyanın azad edilməsinin 40-cı ildönümünün bayram edilməsində. 12-17 avqust 1985-ci il.*



*Koreyanın yapon militarizmindən azad edilməsinin 40-cı ildönümünün bayram edilməsi. Avqust, 1985-ci il.*



MXR Nazirlər Sovetinin sədri D.Lazar ilə SSRİ və Macarıstan arasında iqtisadi və elmi-texniki əməkdaşlığın inkişafının 2000-ci ilə qədər olan dövr üçün uzunmüddətli Programının imzalanması. 2 aprel 1985-ci il.



*Vnukovoda başda respublikanın prezidenti, Sandinist Milli Azadlıq Cəbhəsi milli rəhbərliyinin üzvü D.Orteqa olmaqla Nikaraqua nümayəndə heyətinin qarşılanması. 28 aprel 1985-ci il.*



*«Səhiyyə-85» sərgisinin açılışında. 28 may 1985-ci il.*



*Görkəmli rus yazıçısı M.Şoloxovun anadan olmasının 80 illiyinə həsr olunmuş təntənəli gecədə. 24 may 1985-ci il.*

olaraq bütün sahələrində irəliləmələrlə əlamətdar oldu. İqtisadi artım templəri nəzərəçarpacaq dərəcədə sürətlənmiş, istehsalın səmərəliliyi artmış, milli gəlir yüksəlmiş, əhalinin yaşayış səviyyəsinin artması üçün geniş proqram həyata keçirilir.

1983-cü illə müqayisədə 1984-cü ildə milli gəlir 2,6, sənaye istehsalının həcmi -4,2 faiz, o cümlədən "B" qrupu üzrə – 4,3 faiz, bütün növ nəqliyyatın yük dövriyyəsi – 2,9, dövlət kapital qoyuluşu hesabına əsas fondların istismara verilməsi – 3 faiz artmışdır. 200-ə yaxın iri sənaye müəssisəsi istismara verilmişdir. Baykal-Amur magistralının bütün uzunluğu boyu hərəkət vaxtından qabaq açılmışdır.

...Dövlət ticarətinin və kooperativ ticarətin pərakəndə əmtəə dövriyyəsi müqayisə edilən qiymətlərlə 4,2 faiz, əhaliyə məişət xidmətlərinin göstərilməsi – 5,8 faiz artmışdır".

*(SİTA-nın məlumatından. "Pravda", 24 yanvar 1985-ci il)*

**Yanvarın 25-də** H.Əliyevin sədrliyi ilə Nəqliyyat Tikintisi Nazirliyinin və dəmiryol nəqliyyatı və nəqliyyat tikintisi fəhlələri həmkarlar ittifaqı, avtomobil nəqliyyatı və şose yolları fəhlələri həmkarlar ittifaqı MK-nın rəyasət heyətlərinin geniş kollegiya iclası oldu. İclasda 1984-cü ildə nazirliyin fəaliyyətinin yekunları və 1985-ci ilin və bütövlükdə beşilliyin planının K.Çernenkonun 15 noyabr 1984-cü ildə Siyasi Büronun iclasındakı nitqindən irəli gələn vəzifələrə müvafiq olaraq yerinə yetirilməsini təmin etmək üçün tədbirlər müzakirə olundu.

**Yanvarın 29-da** H.Əliyevin sədrliyi ilə Nəqliyyat Nazirliyinin və dəmiryol nəqliyyatı və nəqliyyat tikintisi fəhlələri həmkarlar ittifaqı MK-nın Rəyasət Heyətinin geniş kollegiya iclası oldu. İclasda 1984-ci ildə nazirliyin fəaliyyətinin yekunları və 1985-ci ilin və bütövlükdə beşilliyin planının K.Çernenkonun 15 noyabr 1984-cü ildə Siyasi Büronun iclasındakı nitqindən irəli gələn vəzifələrə müvafiq olaraq yerinə yetirilməsini təmin etmək üçün tədbirlər müzakirə olundu.

**Yanvarın 31-də** SSRİ-də Beynəlxalq Gənclər ilinin keçirilməsinə dair komissiyanın iclası oldu. Məruzə ilə komissiyanın sədri, Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini H.Əliyev çıxış etdi.

**Fevralın 1-də** H.Əliyev ümumtəhsil və peşə məktəbinin islahatı üzrə komissiyanın iclasında iştirak etdi.

**Fevralın 6-da** H.Əliyev QİYŞ maşınqayırma sahəsində əməkdaşlıq üzrə Komitəsinin birinci iclasının keçirilməsi ilə bağlı Moskvada olan Macarıstan Sosialist Fəhlə Partiyası MK Siyasi Bürosunun üzvü, Macarıstan Nazirlər Sovetinin sədri L.Marotini qəbul etdi. Sovet-Macarıstan əməkdaşlığının inkişafı və möhkəmləndirilməsi məsələləri ətrafında fikir mübadiləsi oldu.

**Fevralın 13-də** Barnaulda (Altay diyarı) Mərkəzi seçki dairəsi seçicilərinin RSFSR Ali Sovetinə deputatlığa namizəd H.Əliyevlə görüşü oldu.

**Fevralın 14-də** "Pravda" qəzeti bu görüşə və H.Əliyevin çıxışına, demək olar ki, bütün ikinci səhifəni həsr etdi ("Hər şey xalqın rifahı naminə" adlı məqalə). H.Əliyev ölkədə partiyanın təşəbbüsü ilə "inkişaf etmiş sosializm qurulması məsələlərini həll etmək istiqamətində böyük və mürəkkəb dönüş başlanması", iqtisadiyyatın inkişafının ana xətti kimi xalq təsərrüfatının intensivləşdirilməsi və elmi-texniki tərəqqinin sürətləndirilməsinin zəruriliyi barədə bəyanatlarla çıxış etdi.

Buradaca o ilk dəfə olaraq Sov.İKP Siyasi Bürosunun qərarı ilə xalqın rifahının artırılmasına yönəldilmiş mühüm sənədin – 1986-2000-ci illər üçün xalq istehlakı mallarının istehsalının və əhaliyə xidmət sisteminin inkişafına dair Kompleks proqramının hazırlanması barədə danışdı. Proqram onun rəhbərliyi altında işlənib hazırlanırdı.

**Fevralın 15-də** "Pravda" və "İzvestiya" qəzetləri H.Əliyevin Altayda olması barədə qısa hesabat dərc etdilər. Seçicilərlə görüşlərdən savayı H.Əliyev diyarın həyatı ilə tanış oldu, bir sıra müəssisə və idarələrə getdi, ucqar kənd yerlərinə baş çəkdi.

Məsələn, Barnaul Nəqliyyat Maşınqayırma zavodunda H.Əliyev burada həyata keçirilən iqtisadi eksperimentin praktik nəticələri, onun istehsalatın intensivliyinə təsiri ilə maraqlanmışdır. O Barnaul müəssisələrində xalq istehlakı mallarının buraxılması ilə tanış olmuş, şəhər bazarlarının birində, mağazalarda, yarımfabrikat kombinatında olmuşdur. Fəhlələrə göstərilən tibbi xidmətin vəziyyətini öyrənmək üçün hətta Altay Mühərrikqayırma istehsalat birliyinin tibb məntəqəsinə baş çəkmişdir. Daha sonra H.Əliyev kəndləri gəzmiş, "Barnaulski", "Novoaltayski", "Magistralnı" sovxozlarının, "Sibirskaya" quşçuluq fermasının rəhbərləri və fəhlələri ilə söhbət etmişdir. Altay universitetində və Barnaul şəhər 42 saylı orta məktəbində olmuşdur. Sonda H.Əliyevin diyarın partiya, sovet və təsərrüfat aktivi ilə görüşü olmuşdur.

**Fevralın 21-də** Siyasi Büroda əhalini yaxşı və müasir ayaqqabı ilə daha dolğun təchiz etmək məsələsinə baxıldı. H.Əliyevin rəhbərliyi ilə SSRİ Nazirlər Sovetində 1986-1990-cı illərdə ayaqqabı istehsalının artırılması, keyfiyyətinin yaxşılaşdırılması və assortimentinin genişləndirilməsi üzrə kompleks tədbirlər işlənib hazırlanmışdı. Bu tədbirlər Siyasi Büro tərəfindən bəyənildi. Məsələn, ayaqqabı sənayesinin maddi-texniki bazasının möhkəmləndirilməsi, 123 zavod və fabrikin yenidən qurulması, texniki avadanlığın dəyişdirilməsi və tikilməsi nəzərdə tutulurdu. Ayaqqabı sənayesi işçiləri üçün mənzil və sosial təyinatlı obyektlərin tikilməsi üzrə xüsusi proqram müəyyən olunmuşdu ki, bu da kadrların möhkəmlənməsinə xidmət etməli idi.

**Fevralın 21-də** H.Əliyev paytaxtın Frunze rayonunu seçki dairəsi seçicilərinin RSFSR Ali Sovetinə deputatlığa namizəd, SSRİ Nazirlər Sovetinin sədri N.Tixonovla görüşündə iştirak etdi.

**Fevralın 26-da** H.Əliyev Polşa Xalq Respublikasının SSRİ-dəki səfiri S.Koçoleki qəbul etdi və onunla Sovet-Polşa iqtisadi əməkdaşlıq məsələlərini müzakirə etdi.

**Martın 4-də** H.Əliyev İttifaqlar Evinin Sütunlu salonunda "Kalevala" karelo-fin eposunun 150 illiyinə həsr olunmuş təntənəli gecədə iştirak etdi.

**Martın 7-də** Siyasi Büroda SSRİ Nazirlər Soveti sədrinin birinci müavini H.Əliyevin səlahiyyətlərinə aid olan bir sıra məsələlərə baxıldı. Belə ki, 1985-1995-ci illərdə BAM-ı Yakutsk şəhəri ilə birləşdirən dəmiryol xəttinin tikilməsi haqqında təklif bəyənildi, mənzillərin tikintisi, təmiri, kollektiv bağ sahələrində tikililərin inşası, şəxsi nəqliyyat vasitələri üçün qaraj və dayanacaqların qurulması ilə bağlı məsələ müzakirə olundu.

Siyasi Büro H.Əliyevin rəhbərliyi altında işlənib hazırlanmış elektrostimulyasiya üsulu ilə cərrahiyyə müalicəsinin tibbi təcrübədə daha geniş tətbiq edilməsini bəyəndi. Bu məqsədlə böyük şəhərlərin xəstəxanalarında ixtisaslaşdırılmış şöbələrin təşkil edilməsi, ölkəmizdə buraxılan elektrokardiostimulyatorların sayının artırılması, onların istehsalı üçün əlavə istehsal obyektlərinin yaradılması, ürək ritminin pozulmasının diaqnostikası və müalicəsi ilə məşğul olan kadrların hazırlanması işinin yaxşılaşdırılması planlaşdırıldı.

**Həmin gün** H.Əliyev SSRİ Böyük Teatrında Beynəlxalq Qadınlar gününə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**Martın 10-da** Sov.İKP MK Baş katibi, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri K.U.Çernenko vəfat etdi.

**Martın 11-də** H.Əliyev Sov.İKP MK-nın Plenumunda M.S.Qorbaçovun Sov.İKP MK Baş katibi seçilməsinə səs verdi.

Plenumda çıxış edən M.Qorbaçov "Mərkəzi Komitəni əmin etdi ki, o partiyamıza, xalqımıza, böyük Leninin işinə sədaqətlə xidmət etmək, Sov.İKP-nin proqram məqsədlərinin həyata keçirilməsi, SSRİ-nin iqtisadi və müdafiə qüdrətinin durmadan güclənməsi məsələlərinin həllində ardıcıllığın təmin olunması, sovet xalqının rifah halının yüksəldilməsi, Kommunist Partiyası və Sovet dövlətinin Lenin daxili və xarici siyasətinin qətiyyətlə həyata keçirilməsi üçün var qüvvəsini sərf edəcəkdir".



**Martın 12-də** partiya və hökumət rəhbərləri İttifaqlar Evinin Sütunlu salonunda K.Çernenko ilə vidalaşdılar.

**Martın 13-də** H.Əliyev Qızıl meydanda K.Çernenkonun dəfn mərasimində iştirak etdi.

**Martın 22-də** H.Əliyev ittifaq respublikaları MK katibləri, diyar, vilayət komitələri katibləri, nazirlik, idarə və s. rəhbərlərinin müşavirəsində iştirak etdi. Tikintidə əməyin təşkili, ödənilməsi və stimullaşdırılmasına yönəlmiş tədbirlərin həyata keçirilməsi məsələləri müzakirə olundu.

**Martın 23-də** H.Əliyevin sədrliyi ilə SSRİ-də Beynəlxalq Gənclər ilinin keçirilməsi və Moskvada tələbə və gənclərin XII Ümumdünya festivalının keçirilməsinə hazırlıqla bağlı komissiyanın iclası oldu.

**Martın 26-27-də** H.Əliyev on birinci çağırış SSRİ Ali Sovetinin birinci sessiyasının işində iştirak etdi.

**Martın 29-da** H.Əliyev İspaniyanın nəqliyyat, turizm və rabitə naziri E.Baronu qəbul etdi.

**Martın 31-də** H.Əliyev Sov.İKP MK katibi N.Rıjkovla birlikdə MXR Nazirlər Soveti sədri D.Lazar başda olmaqla Macarıstan Xalq Respublikasının partiya-hökumət nümayəndə heyətini qəbul etdi. Nümayəndə heyəti Moskvaya Macarıstanın faşizmdən azad olmasının 40 illiyinə həsr olunmuş yubiley sərgisinin açılışına gəlmişdi.

**Aprelin 1-də** XTNS-də "Macarıstan sosializm yolunda" sərgisi açıldı. Sərginin açılışında SSRİ-nin siyasi rəhbərliyindən bir çoxları, sovet və macar hökumətinin nümayəndələri iştirak edirdilər. H.Əliyev və D.Lazar nitqlə çıxış etdilər.

**Aprelin 2-də** H.Əliyev və D.Lazarın çıxışları "Pravda" qəzetində çap olundu.

**Həmin gün** H.Əliyevlə D.Lazarın görüşü oldu, tərəflər ikitərəfli iqtisadi və elmi-texniki əməkdaşlıq məsələlərinin geniş spektrini müzakirə etdilər, sonra isə Böyük Kreml sarayında SSRİ ilə Macarıstan arasında iqtisadi və elmi-texniki əməkdaşlığın inkişafının 2000-ci ilə qədər olan dövr üçün uzunmüddətli proqramını imzaladılar.

**Aprelin 10-da** H.Əliyev SSRİ yaradıcılıq ittifaqları və təşkilatlarının idarə heyətlərinin sovet xalqının Böyük Vətən Müharibəsində qələbəsinin 40 illiyinə həsr olunmuş birgə plenumunda iştirak etdi.

**Aprelin 15-də** H.Əliyevin həyat yoldaşı – Zərifə Əziz qızı Əliyeva 62 yaşında vəfat etdi. H.Əliyevə ona üz vermiş itki ilə əlaqədar başsağlığı bütün qəzetlərdə dərc olunmuşdu, "Meditsinskaya qazeta"nın 17 aprel nömrəsində isə nekroloq çap olunmuşdu.

Nekroloqda deylirdi:

"Z.Ə.Əliyeva 1947-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb institutunu bitirmiş, sonra isə Moskvada Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşma kursunu başa vurmuşdur. 1949-cu ildən Azərbaycan oftalmologiya ETİ-də çalışmağa başlamış, ordinatordan baş elmi işçiyə qədər böyük əmək yolu keçərək tanınmış mütəxəssisə çevrilmişdir. Praktik həkim işi ilə bərabər dərin elmi tədqiqatlarla məşğul olaraq o, 1959-cu ildə namizədlik dissertasiyası, 1976-cı ildə isə Qelmqolts adına Moskva Göz Xəstəlikləri ETİ-də doktorluq dissertasiyası müdafiə etmişdir.

Uzun illər Z.Ə.Əliyevanın fəaliyyəti dosent, daha sonra professor, göz xəstəlikləri kafedrasının müdiri işlədiyi Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu ilə bağlı olmuşdur. İnstitutda işlədiyi müddətdə o özünü elmi-tədqiqat işlərinin istedadlı təşkilatçısı, görmə orqanlarının professional patologiyası üzrə, sənaye oftalmologiyası sahəsində güclü



mütəxəssis, dərin klinik təfəkkürə və pedaqoji təcrübəyə malik alim kimi göstərmişdir. Onun tərəfindən ölkədə ilk dəfə olaraq sənaye istehsalının müxtəlif sahələrində göz xəstəliklərinin profilaktikası üzrə geniş tədqiqatlar aparılmışdır. Onun təşəbbüsü ilə Bakı Məişət Kondisionerləri zavodunun bazasında ömrünün son günlərinə qədər rəhbərlik etdiyi Azərbaycan EA A.Qarayev adına Fiziologiya İnstitutunun görmə orqanının fiziologiyası və professional patologiyası üzrə unikal laboratoriyası yaradılmışdır.

Z.Ə.Əliyeva tibb elminə və praktikasına, yüksək ixtisaslı tibbi kadrlar hazırlanmasına əvəzsiz töhfələr vermişdir. Onun çoxşaxəli elmi axtarışlarının nəticəsi olaraq 130 elmi əsəri çap edilmişdir. Onların sırasına beş monoqrafiya, həkimlər üçün bir çox tədris vəsaiti, rezin və yod sənayesində gözün zədələnməsinin profilaktikası üzrə metodik tövsiyə daxildir. Kimya sənayesində gözün zədələnməsinin öyrənilməsi və profilaktikası üzrə silsilə orijinal elmi işlərə görə SSRİ Tibb Elmləri Akademiyası onu akademik M.İ.Averbax adına mükafata layiq görmüşdür. Z.Ə.Əliyevanın Azərbaycan SSR Elmlər Akademiyasının akademiki seçilməsi onun böyük xidmətlərinin, səmərəli elmi-tədqiqatlarının təsdiqi olmuşdur".

Baş katib M.Qorbaçov başda olmaqla partiya və hökumət rəhbərləri H.Əliyevin adına başsağlığı ünvanlamışlar:

"Əziz Heydər Əliyeviç, Sizə üz vermiş böyük itki – həyat yoldaşınız və dostunuz Zərifə Əzizovna Əliyevanın vaxtsız vəfatı münasibətilə dərin kədərimizi və başsağlığımızı bildiririk.

Biz hamımız Zərifə Əliyevanı görkəmli alim, Kommunist Partiyasının işinə sədaqətli, xeyirxah və təvazökar insan kimi yaxşı tanıyırdıq".

**Aprelin 22-də** Kremlin Qurultaylar sarayında V.İ.Leninin anadan olmasının 115-ci ildönümünə həsr olunmuş təntənəli yığıncaq oldu. H.Əliyev yığıncaqda "Leninin ideya və işinin tarixi həqiqəti" adlı məruzə ilə çıxış etdi.

**Aprelin 23-də** Sovet İttifaqı Kommunist partiyası Mərkəzi Komitəsinin Plenumu oldu. M.Qorbaçov "Növbəti XXVII qurultayın çağırılması və onun hazırlanması və keçirilməsi ilə bağlı vəzifələr haqqında" məruzə ilə çıxış etdi. O partiyanın baş xəttini elan etdi – istehsalın intensivləşdirilməsi və elmi-texniki tərəqqinin sürətləndirilməsi, idarəetmənin və planlaşdırmanın yenidən qurulması, hər sahədə mütəşəkkilliyin və əmək intizamının yüksəldilməsi.

**Aprelin 27-də** "Politiçeskaya literatura" nəşriyyatında H.Əliyevin Kremlin Qurultaylar sarayında V.İ.Leninin anadan olmasının 115-ci ildönümünə həsr olunmuş təntənəli yığıncaqda "Leninin ideya və işinin tarixi həqiqəti" adlı məruzəsi ayrıca kitabça şəklində dərc olundu.

**Aprelin 28-də** H.Əliyev Vnukovoda başda respublikanın prezidenti, Sandinist Milli Azadlıq Cəbhəsi milli rəhbərliyinin üzvü D.Orteqa olmaqla Nikaraqua nümayəndə heyətini qarşıladı.

**Aprelin 29-da** H.Əliyev ölkənin siyasi rəhbərliyinin Nikaraqua nümayəndə heyəti ilə danışıqlarında iştirak etdi.

**Həmin gün** Kremldə H.Əliyevin sədrliyi ilə SSRİ-də Beynəlxalq Gənclər ilinin keçirilməsi üzrə komissiyanın növbəti iclası oldu.

**Aprelin 30-da** H.Əliyev aerodromda Nikaraqua prezidenti D.Orteqanı yola saldı.

**Mayın 1-də** H.Əliyev partiya və hökumət rəhbərləri ilə birlikdə Qızıl meydanda zəhmətkeşlərin 1 May nümayişində oldu.

**Mayın 7-də** H.Əliyev Siyasi Büronun üzvləri ilə birlikdə Moskvaya sovet xalqının Böyük Vətən Müharibəsində qələbəsinin 40 illiyinin bayram edilməsinə gələn sosialist ölkələrinin nümayəndə heyətlərini qarşıladı.

**Mayın 8-də** H.Əliyev Kremlin Qurultaylar sarayında sovet xalqının Böyük Vətən Müharibəsində qələbəsinin 40 illiyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.



"Sovet xalqının əbədi rəşadəti" alı məruzə ilə M.Qorbaçov çıxış etdi.

**Mayın 9-da** H.Əliyev sovet dövlətinin rəhbərləri ilə birlikdə Mavzoleyin tribunasından sovet xalqının Böyük Vətən Müharibəsində qələbəsinin 40 illiyi münasibətilə hərbi paradı qəbul etdi.

**Mayın 13-də** H.Əliyev İttifaqlar Evinin Sütunlu salonunda görkəmli Ukrayna şairi, Sosialist Əməyi Qəhrəmanı Mikola Bajanın anadan olmasının 80 illiyinin bayram edilməsində iştirak etdi.

**Mayın 14-də** H.Əliyev Moskva zəhmətkeşləri və SSRİ Silahlı Qüvvələri nümayəndələrinin Varşava Müqaviləsinin 30 illiyinə həsr olunmuş təntənəli yığıncağında iştirak etdi.

**Mayın 20-də** H.Əliyev Kremldə başda Liberal-Demokrat partiyasının görkəmli xadimi İ.Xatoyama olmaqla Yaponiya parlamentinin deputatlar qrupunu qəbul etdi.

**Mayın 21-də** H.Əliyev SSRİ-də Vyetnam Sosialist Respublikasının Mədəniyyət günlərinin açılışında iştirak etdi.

**Mayın 22-də** H.Əliyev Kremldə Sovet-Hindistan sənədlərinin imzalanmasında iştirak etdi.

**Mayın 24-də** H.Əliyev görkəmli rus yazıçısı M.Şoloxovun anadan olmasının 80 illiyinə həsr olunmuş təntənəli gecədə iştirak etdi.

**Mayın 27-də** H.Əliyev beynəlxalq "Səhiyyə-85" sərgisinə həsr olunmuş təntənəli yığıncaqda nitqlə çıxış etdi.

**Həmin gün** Kremldə H.Əliyevin sədrliyi ilə SSRİ-də Beynəlxalq Gənclər ilinin keçirilməsi üzrə komissiyanın növbəti iclası oldu. İclasda 1985-ci ilin yayında tələbə dəstələrinin Sov.İKP MK aprel (1985-ci il) Plenumunun tələblərinə uyğun məhsuldar iş, məişət və istirahəti üçün zəruri şəraitin yaradılması üzrə nazirlik və idarələrin fəaliyyəti məsələsi müzakirə olundu.

**Mayın 28-də** H.Əliyev "İndiki və gələcək nəsillərə – sağlamlıq və sülh" devizi altında keçən "Səhiyyə-85" sərgisinin açılışında nitqlə çıxış etdi. Sərgidə dünyanın 24 ölkəsindən mindən artıq sovet və xarici şirkətlərin, təşkilat və müəssisələrin nümayəndələri iştirak edirdi.

**Mayın 31-də** H.Əliyev Kremldə SSRİ və ÇSSR arasında 2000-ci ilə qədər olan dövr üçün iqtisadi və elmi-texniki əməkdaşlığın uzunmüddətli Proqramı – Sovet-Çexoslovakiya sənədinin imzalanmasında iştirak etdi.

**İyunun 4-də** H.Əliyev Moskva zəhmətkeşləri nümayəndələrinin Y.Sverdlovun anadan olmasının 100 illiyinə həsr olunmuş təntənəli yığıncağında iştirak etdi.

**İyunun 5-də** H.Əliyev Kremldə Macarıstan Xalq Respublikası Nazirlər Soveti sədrinin müavini Y.Çexakı qəbul etdi və onunla mədəni və sosial siyasət sahəsində Sovet-Macarıstan əməkdaşlığı məsələlərini müzakirə etdi.

**İyunun 7-də** H.Əliyev Kremldə Bolqarıstan KP MK Baş katibi T.Jivkova Lenin ordeninin təqdim olunması zamanı və 2000-ci ilə qədər dövrdə SSRİ və BXR arasında iqtisadi və elmi-texniki tərəqqinin inkişafına dair uzunmüddətli Proqramın imzalanmasında iştirak etdi.

**İyunun 11-12-də** H.Əliyev Sov.İKP MK-da elmi-texniki tərəqqinin sürətləndirilməsi məsələləri üzrə müşavirədə iştirak etdi.

**İyunun 21-23-də** H.Əliyevin Kazan istiqamətində dəmiryol magistralı boyu işgüzar səfəri oldu.

SİTA-nın iyunun 24-də bu barədə mərkəzi qəzetlərdə dərc olunmuş məlumatında deyilirdi: "Vladimir vilayətinin Murom şəhərində H.Əliyev yol ötürücüləri zavodunda rekonstruksiya və genişlənmə işlərinin gedişatı ilə tanış oldu. İşlər yekunlaşandan sonra müəssisə sahə üzrə qatarların təhlükəsizliyinə və sürətinə böyük təsir göstərən yol ötürücülərinin ən böyük istehsalçısı olacaqdır. Ölkənin polad magistrallarının bu məhsula böyük ehtiyacı vardır, lakin Murom



zavodunun ikinci növbəsinin tikinti müddəti dəfələrlə pozulmuşdur. H.Ə.Əliyevin keçirdiyi müşavirədə yaranmış vəziyyətin düzəldilməsi üçün konkret tədbirlər müəyyən olundu...

H.Əliyev ritmik işin təmin olunması və bütün istiqamət boyu daşınmaların həcminin artırılmasına yönəlmiş Moskva-Kazan-Sverdlovsk xəttinin elektrikləşdirilməsi məsələsinə böyük diqqət yetirdi. O, Arzamas dəmiryol qovşağında və Qorki vilayətinin Bobılskaya stansiyasında, Kazan yaxınlığındakı Yudino tərtibat stansiyasında və deposunda oldu, dəmiryolçu fəhlələrlə söhbət etdi, əmək və məişət şəraiti ilə maraqlandı. Az qala min beş yüz kilometr uzanmış tikintidə işlərin vəziyyəti Kazanda keçən müşavirədə təhlil olundu. H.Əliyev həmçinin Volqa üzərindən avtomobil körpüsünün tikintisində və Kazan çay limanında oldu".

Bundan əlavə, səfər zamanı H.Əliyev xalq istehlak mallarının istehsalının perspektivləri, keyfiyyətinin yüksəldilməsi ilə maraqlandı. O, Muromda "Krasnıy luç" Pambıq-Parça kombinatında və Orconikidze adına zavodda, Tatarıstan Xəz birliyində oldu, Kazanın mağaza və bazarlarını gəzdi. O, V.İ.Ulyanov-Lenin adına Kazan Dövlət Universitetinin professor-müəllim heyəti ilə görüşdü və ali məktəb sisteminin təkmilləşdirilməsi yolları, ali məktəblərin elmi-texniki potensialının səmərəliliyinin artırılması barədə söhbət apardı. Sonra Murom və Kazanın partiya-sovet aktivi ilə görüşlər oldu.

**İyunun 25-də** H.Əliyev Kremldə Dünya səhiyyə təşkilatının baş direktoru doktor X.Maleri qəbul etdi.

**İyunun 26-da** Kremldə H.Əliyevin sədrliyi ilə SSRİ-də Beynəlxalq Gənclər ilinin keçirilməsi üzrə komissiyanın növbəti iclası oldu.

**İyunun 27-də** H.Əliyev Kremldə Vyetnam Kommunist Partiyası MK-nın Baş katibi Le Zuanın qarşılanma mərasimində iştirak etdi. Lakin hökumətlərarası danışıqlarda o iştirak etmirdi, baxmayaraq ki, Vyetnama səfərdən sonra onun Vyetnam rəhbərliyi ilə çox gözəl münasibətləri yaranmışdı.

Sovet hökuməti tərəfindən danışıqlarda Nazirlər Sovetinin sədri N.Tixonov və onun müavini N.Talızin iştirak edirdilər. Y.Andropov və K.Çernenkodan fərqli olaraq M.Qorbaçov açıq-aşkar H.Əliyevi SSRİ-nin beynəlxalq siyasəti ilə bağlı məsələlərə qoşmaq istəmirdi. H.Əliyev yalnız **iyunun 28-də** Sovet-Vyetnam bəyannaməsinin imzalamasında və Vyetnam liderinin şərəfinə naharda iştirak etdi.

**İyulun 1-də** H.Əliyev Sov.İKP MK Plenumunun işində iştirak etdi. Plenum Q.Romanovu Siyasi Büro üzvü və Sov.İKP MK katibi vəzifəsindən azad etdi, E.Şevardnadzeni Siyasi Büro üzvlüyünə namizədlikdən üzvlüyünə keçirdi və B.Yeltsin və L.Zaykovu Sov.İKP MK katibi seçdi.

**Həmin gün** H.Əliyev VKP MK Baş katibi Le Zuanı yolasalma mərasimində iştirak etdi.

**İyulun 2-də** H.Əliyev on birinci çağırış SSRİ Ali Sovetinin üçüncü sessiyasının açılışında iştirak etdi. Bu sessiyada A.Qromıko SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və SSRİ xarici işlər naziri vəzifələrindən azad edildi və SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri seçildi. Eyni zamanda Ali Sovet E.Şevardnadzenin SSRİ xarici işlər naziri təyin edilməsini təsdiq etdi.

**İyulun 3-də** sessiya öz işini davam etdirdi. "Sovet qanunlarının tələblərinin yerinə yetirilməsi, hüquq qaydalarının möhkəmləndirilməsi, vətəndaşların hüquq və qanuni maraqlarının qorunması üzrə SSRİ Prokurorluğunun fəaliyyəti haqqında" məruzə ilə SSRİ Baş prokuroru A.Rekunkov çıxış etdi.

O, hüquq-mühafizə orqanlarının son vaxtlar müxtəlif nazirlik və idarələrdə çoxlu sayda pripiska faktı aşkar etdiyindən, oğurluq və rüşvətxorluqla mübarizə aparıldığından danışdı. Qeyd etdi ki, prokurorluq kadrları dövləti aldatmağın hər cür cəhdlərinin, xalqın malına qəsd edilməsinin, şəxsi varlanmaq naminə vəzifədən sui-istifadə edilməsinin qarşısının alınmasında heç bir güzəştə getməməlidirlər.



Onun nitqi H.Əliyevin plenum və respublika partaktivlərindəki çıxışlarını xatırladırdı. Nəhayət ki, ittifaq miqyasında Azərbaycanda hələ yetmişinci illərdə ardıcıl mübarizə aparılan problemlərdən açıq danışmağa başladılar.

**İyulun 11-də** "Moskovskiye novosti" qəzetində H.Əliyevin Moskvada keçiriləcək tələbə və gənclərin Ümumdünya festivalına həsr olunmuş "Partiya gənclərə inanır" adlı müsahibəsi dərc olundu.

**İyulun 27-də** H.Əliyev Moskvada tələbə və gənclərin XII Ümumdünya festivalının təntənəli açılışında iştirak etdi. Bayrama dünyanın 150 ölkəsindən 20 min nümayəndə yığışmışdı. Bu möhtəşəm aksiyanın hazırlanmasına SSRİ Nazirlər Soveti sədrinin birinci müavini H.Əliyev rəhbərlik edirdi və mütəxəssislərin fikrincə, festivalın keçirilməsi və gedişi texniki mükəmməllik və olduqca yüksək təşkilat səviyyəsi ilə seçilirdi. Bu işdə öz respublikasında buna bənzər irimiqyaslı tədbirlərin təşkilində qazandığı səriştə H.Əliyevin çox karına gəldi.

**Avqustun 12-də** Koreyanın azad edilməsinin 40-cı ildönümünün bayram edilməsində iştirak etmək üçün H.Əliyevin başçılıq etdiyi sovet partiya-dövlət nümayəndə heyəti Moskvadan Pxenyana yola düşdü.

Pxenyanda olduqları birinci gün KXDR Administrasiya Şurasının başçısı Kan Sen San sovet nümayəndə heyətinin üzvlərinə "Koreyanın azad edilməsinin 40 ili" yubiley medalları təqdim etdi. Sonra sovet nümayəndə heyəti 1950-1953-cü illərdə həlak olmuş Koreya xalq ordusu döyüşçülərinin abidəsi önünə, həmçinin Koreyanın azad olması uğrunda döyüşlərdə həlak olmuş Sovet Ordusu əsgərlərinin dəfn olunduğu qəbiristanda əklillər qoydu.

**Avqustun 14-də** sovet nümayəndə heyətini Koreya Əmək partiyası MK-nın Baş katibi, KXDR prezidenti Kim İr Sen qəbul etdi.

**Həmin gün** Pxenyanda Koreyanın azad edilməsinin 40 illiyinə həsr olunmuş təntənəli yığıncaq oldu. H.Əliyev yığıncaqda Sovet-Koreya münasibətlərinin tarixi və perspektivləri, SSRİ-nin sülh xarici siyasət təşəbbüsləri, müasir beynəlxalq vəziyyət haqqında böyük nitqlə çıxış etdi. H.Əliyevin nitqi "Pravda" qəzetində ixtisarsız çap olunmuşdu *(15 avqust 1985-ci il).*

**Avqustun 15-də** H.Əliyev Pxenyanda hərbi paradda iştirak etdi, sonra qırx illik yubiley ərəfəsində yeniləşdirilmiş və koreyalılarla çiyin-çiyinə yapon militaristlərinə qarşı vuruşmuş Sovet Ordusu əsgər və zabitlərinin qəhrəmanlığını əks etdirən möhtəşəm "Qurtuluş" abidəsinin açılışında iştirak etdi. Həmin gün başda H.Əliyev olmaqla sovet nümayəndə heyəti Kim İr Senin təşkil etdiyi Koreyanın azad olmasının 40 illiyinə həsr olunmuş təntənəli qəbulda iştirak etdi.

**Avqustun 16-da** H.Əliyevin başçılıq etdiyi sovet nümayəndə heyəti KXDR-in Qərb sahillərində yerləşən iri sənaye və liman şəhəri Nampxoya səfər etdi. Şəhər stadionunda sovet qonaqlarının iştirakı ilə zəhmətkeşlərin mitinqi oldu.

**Həmin gün** SSRİ partiya-dövlət nümayəndə heyətinin başçısı Koreya Əmək partiyası MK-nın Baş katibi Kim İr Sen və ölkə rəhbərliyinin üzvlərinin iştirak etdiyi nümayəndə heyətini qəbul etdi.

**Avqustun 17-də** nümayəndə heyəti Moskvaya qayıtdı.

**Avqustun 18-də** H.Əliyev Tuşinoda sovet xalqının Böyük Vətən Müharibəsində qələbəsinin 40 illiyinə həsr olunmuş aviasiya-idman bayramında iştirak etdi.

**Avqustun 20-də** H.Əliyev SSRİ-də rəsmi səfərdə olan Finlandiya Respublikasının müdafiə naziri V.Pixlayamyakini Kremldə qəbul etdi.

**Avqustun 23-də** H.Əliyev Sov.İKP MK-da 1986-ci il və on ikinci beşillik üçün SSRİ-nin iqtisadi və sosial inkişaf planının hazırlanması məsələləri üzrə müşavirədə iştirak etdi.



**Avqustun 26-da** H.Əliyev Vnukovo aerodromunda Moskvaya işgüzar səfərə gəlmiş Laos Xalq-İnqilab partiyasının Baş katibi, LXDR Nazirlər Sovetinin sədri Keyson Fomvihanı qarşıladı.

**Avqustun 27-də** H.Əliyev Kremldə K.Fomvihanın şərəfinə verilən naharda iştirak etdi.

**Avqustun 29-da** H.Əliyev Kremldə SSRİ və Monqolustan arasında iqtisadi və elmi-texniki əməkdaşlığın uzunmüddətli inkişafı Proqramının imzalanmasında iştirak etdi.

**Həmin gün** H.Əliyev Laos Xalq-İnqilab partiyasının Baş katibi, LXDR Nazirlər Sovetinin sədri K.Fomvihanın yola salınması mərasimində iştirak etdi.

**Sentyabrın 3-də** H.Əliyev Çin Xalq Respublikasının SSRİ-dəki səfiri Li Tzıvanın Yaponiya ilə müharibədə qələbənin 40-cı ildönümü münasibətilə təşkil etdiyi qəbulda iştirak etdi.

**Sentyabrın 10-da** SSRİ XTNS-də Moskva beynəlxalq "Kitab sülh və tərəqqinin xidmətində" sərgi-yarmarkası açıldı. H.Əliyev sərginin açılışında iştirak etdi.

**Sentyabrın 12-də** H.Əliyev İttifaqlar Evinin Sütunlu salonunda Özbəkistanın xalq yazıçısı Aybəkin anadan olmasının 80 illiyinə həsr olunmuş təntənəli gecədə iştirak etdi.

**Sentyabrın 18-də** H.Əliyev Kremldə İtaliyanın SSRİ-dəki səfiri C.Miluolonu onun vətənə qayıtması ilə əlaqədar qəbul etdi.

**Sentyabrın 25-də** H.Əliyev Kremldə Macarıstan Sosialist Fəhlə Partiyasının Baş katibi Y.Kadarın şərəfinə səhər yeməyində iştirak etdi.

**Oktyabrın 2-də** M.Qorbaçov Fransaya rəsmi səfərə yola düşdü. H.Əliyev Siyasi Büronun digər üzvləri sırasında yolasalma mərasimində iştirak etdi. 1985-1987-ci illərdə, H.Əliyev Siyasi Büronun üzvü olduğu zaman Sov.İKP MK Baş katibi xaricdə tez-tez olacaq. Lakin bir dəfə də olsun H.Əliyevi

rəsmi nümayəndə heyətinə daxil etməyəcək. Məsələn, Fransaya Qorbaçovla birlikdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini İ.Arxipov getmişdi.

Ümumiyyətlə, M.Qorbaçov hakimiyyətə gələndən sonra H.Əliyevi açıq-açığına beynəlxalq siyasət məsələlərindən və dövlət danışıqları aparılmasından kənarlaşdırmışdılar. Bundan sonra o yalnız protokol xarakterli tədbirlərdə – ali qonaqların qarşılanmasında və ya yola salınmasında, həmçinin dövlətlərarası sənədlərin imzalanması zamanı iştirak edəcəkdir.

Məsələn, **1986-cı ilin mayında** MPLA – Əmək partiyasının sədri, Anqola prezidenti Joze Eduardu duş Santuş Moskvaya rəsmi dostluq səfərinə gəlmişdi. H.Əliyev Anqola lideri ilə 1985-ci ilin dekabrında bu ölkəyə rəsmi səfəri zamanı tanış olmuşdu, bundan əlavə Anqola prezidenti Azərbaycan Neft-Kimya İnstitutunda oxuyarkən Azərbaycan paytaxtında düz 6 il keçirmişdi. Məntiqə görə M.Qorbaçovla danışıqlar stolunun arxasında məhz H.Əliyev əyləşməli idi. Lakin o yalnız naharda və dövlətlərarası sənədlərin imzalanması mərasimində oldu, danışıqlarda isə Nazirlər Soveti adından N.Talızin iştirak edirdi.

Bu vəziyyət **1987-ci ilin aprelində** H.Əliyevi Suriya Ərəb Sosialist Dirçəliş Partiyasının baş katibi Hafis Əsədlə görüş və danışıqlardın kənarlaşdırdıqları vaxt təkrar olundu. Onların arasında yaxşı şəxsi münasibətlər hələ 1984-cü ilin martında H.Əliyev Suriyada səfərdə olan vaxtdan qurulmuşdu. Ən nümayişkaranə addım isə **1986-cı ilin iyulunda,** Türkiyənin baş naziri Turqut Özal Moskvaya rəsmi səfərə gəldiyi zaman baş vermişdi. SSRİ rəhbərliyində türk dünyasının yeganə nümayəndəsi olan Heydər Əliyev ümumiyyətlə bu səfərə cəlb edilmədi, nahar və ya dövlətlərarası sənədlərin imzalanması kimi protokol tədbirlərində iştirak etməyə də dəvət olunmadı.



**Oktyabrın 4-də** H.Əliyev Dövlət Mərkəzi konsert salonunda Müəllim gününə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**Oktyabrın 5-də** Kremldə H.Əliyevin sədrliyi ilə SSRİ-də Beynəlxalq Gənclər ilinin keçirilməsi üzrə komissiyanın növbəti iclası oldu. İclasda SSRİ Traktor və Kənd Təsərrüfatı Maşınqayırma və Əlvan Metallurgiya nazirliklərinin yataqxanalarda yaşayan gənc fəhlə və qulluqçular üçün zəruri mədəni-məişət şəraitinin yaradılması üzrə fəaliyyəti məsələsinə baxıldı.

**Oktyabrın 10-da** H.Əliyev A.Qromıko və E.Şevardnadze ilə birlikdə Vnukovo aerodromunda Liviya inqilabının lideri M.Kaddafini qarşıladı.

**Oktyabrın 14-də** H.Əliyev Sovet-Liviya sənədlərinin imzalanmasında, sonra isə M.Kaddafinin yolasalma mərasimində iştirak etdi.

**Oktyabrın 15-də** Sov.İKP MK-nın Plenumu oldu. Gündəlikdəki əsas məsələ: "Sov.İKP Proqramının yeni redaksiyası layihəsi, Sov.İKP Nizamnaməsində dəyişikliklər, 1986-1990 və 2000-ci ilədək SSRİ-nin iqtisadi və sosial inkişafının Əsas istiqamətləri haqqında" idi.

Plenum təşkilati məsələyə də baxdı. N.Tixonov Siyasi Büronun tərkibindən kənarlaşdırıldı. N.Rıjkov Nazirlər Sovetinin sədri seçildiyi üçün Sov.İKP MK katibi vəzifəsindən azad edildi. Bundan əlavə, SSRİ Dövlət Plan Komitəsinin sədri N.Talızin Siyasi Büro üzvlüyünə namizəd seçildi.

**Oktyabrın 21-də** H.Əliyev Siyasi Büronun üzvləri ilə birlikdə Baş katib M.Qorbaçovu Varşava müqaviləsi ölkələrinin Siyasi Məsləhət komitəsinin iclasında iştirak etmək üçün Sofiyaya yola saldı, **oktyabrın 25-də** isə onu qarşıladı.

**Noyabrın 1-də** H.Əliyev Kremldə Laosun müdafiə naziri, general K.Sipxandonu qəbul etdi.

**Noyabrın 5-də** H.Əliyev Moskvada Oktyabr meydanında V.İ.Leninin abidəsinin açılışında iştirak etdi.

**Noyabrın 6-da** H.Əliyev Kremlin Qurultaylar sarayında Böyük Oktyabr sosialist inqilabının 68-ci ildönümünə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi. Məruzə ilə SSRİ DTK-nın sədri V.Çebrikov çıxış etdi.

**Noyabrın 7-də** H.Əliyev dövlətin digər rəhbərləri ilə birlikdə Qızıl meydanda hərbi paradı və zəhmətkeşlərin nümayişini müşahidə etmiş, axşam isə Kremlin Qurultaylar sarayında Oktyabrın 68-ci ildönümü münasibətilə qəbulda olmuşdur.

**Noyabrın 10-da** H.Əliyev Moskvanın Mərkəzi sərgi salonunda "Sovet Ukraynasının incəsənəti" sərgisində oldu.

**Noyabrın 14-dən 17-nə** kimi H.Əliyev Kurqanda oldu.

O, Cənubi Ural dəmir yolunun Kurqan qovşağının işi ilə tanış oldu, Kurqan stansiyasında, lokomotiv deposunda oldu, bölmənin səmərələşdiriciləri və ixtiraçıları tərəfindən yaradılmış yolları təmir etmək üçün istifadə olunan texnika sərgisinə baxdı.

İnqilab və Əmək Şöhrəti muzeyində veteranlarla görüşdü, dəmiryolçuların yaşayış massivində bir neçə mənzildə oldu, sakinlərlə söhbət etdi.

V.İ.Lenin adına Maşınqayırma zavodunda, şəhər xalq istehlak mallarının ixtisaslaşdırılmış sərgisində oldu, Kurqan sakinləri ilə söhbət etdi.

Bir sıra mağazada, "Sintez" tibbi preparat və ləvazimatlar kombinatında, Kurqan elmi-tədqiqat eksperimental və klinik ortopediya və travmatologiya institutunda, vilayət xəstəxanasının qastroenterologiya problem laboratoriyasında oldu.

Kurqan vilayət partiya komitəsində müşavirə keçirdi.

**Noyabrın 16-da** H.Əliyev Cənubi Ural dəmir yolunun Kurqan qovşağının hesabat-seçki partiya konfransında iştirak etdi.

O ötən illərdə görülən işlərdən danışdı:

"Beşilliyin ilk iki ilində dəmiryol nəqliyyatında işlər qaydasında deyildi. Dəmir yolunun inkişafına xeyli sərmayə qoyulmasına baxmayaraq, göstəricilər ildən-ilə aşağı düşürdü.

1983-1984-cü illərdə sahənin işçiləri yük daşımaları üzrə geriləmələri aradan qaldıra bilmişlər. Lakin cari ilin birinci rübündə göstəricilər, təəssüf ki, yenidən aşağı enməyə başlamışdır. Əlbəttə, ötən qışın sərt şəraitini nəzərə almamaq olmaz. Dəmiryolçuların qarşısında vəzifə qoyulmuşdur – vəziyyəti qısa müddətdə düzəltmək.

Nəqliyyata göstərilən irimiqyaslı yardım, dəmiryolçu kollektivlərinin Sov.İKP MK aprel (1985-ci il) Plenumunun qərarlarının yerinə yetirilməsinə səfərbər edilməsi nəticəsində onların işində dönüş yaranmışdır. Oktyabrda yüklərin yola salınmasında olan borc ödənilmiş, doqquz ay ərzində plandan əlavə 7,5 milyon ton xalq təsərrüfatı məhsulu daşınmışdır. Daşınmalarla məşğul olan işçilərin əmək məhsuldarlığı üzrə plan tapşırığı yerinə yetirilmişdir. Dəmiryolçuların gördüyü iş – əsl əmək qəhrəmanlığıdır".

Daha sonra H.Əliyev dəmiryolçular qarşısında XII beşillikdə yerinə yetirilməsi perspektiv vəzifələr qoydu: daşıma prosesinin sürətləndirilməsi, bütün texniki vasitələr kompleksinin etibarlılığının artırılması, ağır və zəhmət tələb edən proseslərin mexanikləşdirilməsi və avtomatlaşdırılması, hesablayıcı texnikadan geniş istifadə, dəmiryol nəqliyyatının inkişafında olan qeyri-nisbiliyin aradan qaldırılması.

**Noyabrın 18-də** H.Əliyev Siyasi Büro üzvləri ilə birlikdə M.Qorbaçovu Jenevaya yüksək səviyyədə Sovet-Amerika görüşünə yola saldı, **noyabrın 22-də** isə onu aeroportda qarşıladı.

**Noyabrın 26-27-də** H.Əliyev on birinci çağırış SSRİ Ali Sovetinin dördüncü sessiyasında iştirak etdi. Bu sessiyada N.Rıjkovun SSRİ Nazirlər Sovetinin sədri təyin olunması və N.Tixonovun həmin vəzifədən azad olunmasına dair SSRİ Ali Soveti Rəyasət Heyətinin 1985-ci il 27 sentyabr tarixli Fərmanı təsdiq edildi.

Sessiyada çıxış edən M.Qorbaçov Nazirlər Soveti qarşısında bir neçə əsas vəzifə qoydu: partiyanın ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi, elmi-texniki tərəqqinin genişləndirilməsini nəzərdə tutan xəttinin daha enerjili həyata keçirilməsi; planlaşdırmanın təkmilləşdirilməsi, maliyyə sisteminin möhkəmləndirilməsi; dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi. Yəni, ümumi xarakterli, yəqin ki, hər zaman, hər bir dövlət, hər bir ictimai quruluş üçün aktual olan vəzifələr.

**Beləliklə, H.Əliyevə ümid edənlərin, onun irəli çəkilməsinə çalışanların gözlədikləri kimi olmadı. Y.Andropovun H.Əliyevi SSRİ Nazirlər Sovetinin başında qoymağa vaxtı çatmadı, ancaq sözsüz ki, belə plan barədə götür-qoy edirdi. K.Çernenko bu addımı atmağa ürək etmədi. M.Qorbaçov isə bilə-bilə daha çox üzüyola və xalq arasında daha az populyar olan rəhbərə üstünlük verdi.**

**Noyabrın 30-da** MPLA – Əmək partiyasının II qurultayında iştirak etmək üçün H.Əliyevin başçılıq etdiyi Sov.İKP nümayəndə heyəti Moskvadan Anqolanın paytaxtı Luandaya yola düşdü.

Luanda aeroportunda H.Əliyev KİV nümayəndələri üçün bəyanat verdi.

**Dekabrın 2-də** Luandada MPLA – Əmək partiyasının II qurultayı açıldı.

**Dekabrın 3-də** H.Əliyev qurultayda geniş nitqlə çıxış etdi.

O, Sov.İKP MK-nın MPLA – Əmək partiyasının II qurultayına təbrikinin mətnini qurultayın Rəyasət Heyətinə çatdırdı və Sov.İKP MK-nın xatirə hədiyyəsini – üzərində V.İ.Leninin əksi olan xalçanı təqdim etdi.

SSRİ o vaxtlar 10 il əvvəl müstəqillik və sosializm yoluna qədəm qoymuş bu Afrika ölkəsinə böyük yardım və dəstək göstərirdi. Anqolada yüzlərlə sovet mütəxəssisi çalışırdı –



energetik və liman işçiləri, geoloq və aqronomlar, iqtisadçı və müəllimlər. Mindən çox Anqola vətəndaşı SSRİ-də diplom almış, sovet ali məktəblərində oxumuşdular. SSRİ həmçinin hərbi mütəxəssis və silahla yardım edirdi, çünki CAR Anqolanın cənub rayonlarının bir hissəsini işğal altında saxlamaqda davam edirdi, Vaşinqton isə hökumətə qarşı çıxan UNİTA qüvvələrini birbaşa dəstəkləyirdi. H.Əliyev sovet rəhbərliyi adından əmin etdi ki, bu kömək və dəstək davam edəcəkdir.

**Dekabrın 4-də** H.Əliyev Anqola Xarici Dövlətlərlə Dostluq və Həmrəylik Liqasında, həmçinin rus dilinin öyrənilməsi üzrə Sovet mərkəzində oldu. Axşam H.Əliyev Anqolada işləyən sovet mütəxəssisləri ilə görüşdü. Anqolaya səfəri zamanı H.Əliyev MPLA – Əmək partiyasının sədri, AXR prezidenti Joze Eduardo duş Santuş ilə, Anqolanın digər rəhbərləri ilə danışıqlar apardı.

**Dekabrın 5-də** H.Əliyev Luandadan Moskvaya yola düşdü. Luandadan yola düşməzdən öncə H.Əliyev mətbuat üçün bəyanat verdi.

**Dekabrın 11-də** H.Əliyev Böyük Kreml sarayında Rusiya yazıçılarının VI qurultayının açılışında iştirak etdi.

**Dekabrın 12-də** Sov.İKP MK Siyasi Bürosunun iclasında H.Əliyevin Sov.İKP nümayəndə heyətinin MPLA – Əmək partiyasının II qurultayının işində iştirakı və Anqola rəhbərləri ilə söhbətləri barədə məlumatı bəyənildi.

**Dekabrın 13-də** Kremldə H.Əliyevin sədrliyi ilə SSRİ-də Beynəlxalq Gənclər ilinin keçirilməsi üzrə komissiyanın SSRİ nazirlik və idarələrinin gənclərin elmi-texniki yaradıcılığının inkişafı üzrə fəaliyyəti müzakirə olunan iclası oldu.

**Dekabrın 14-də** Moskvanın 17 rayonunda hesabat-seçki partiya konfransları oldu. H.Əliyev paytaxtın L.Brejnev rayonunda Sov.İKP Moskva şəhər partiya təşkilatının XXVI konfransına nümayəndə seçildi.

**Dekabrın 18-də** H.Əliyev SSRİ hökumətinin Qarşılıqlı İqtisadi Yardım Şurasının 41-ci sessiyası iştirakçılarının şərəfinə təşkil etdiyi qəbulda iştirak etdi.

**Dekabrın 20-də** H.Əliyev Anqola səfirliyində AXR elan olunmasının 10-cu ildönümü münasibətilə qəbulda oldu.

**Dekabrın 24-də** H.Əliyev Moskvaya rəsmi dostluq səfərinə gəlmiş Koreya Xalq Demokratik Respublikası Administrasiya Şurasının başçısı Kan Sen Sanı qarşıladı.



## 1986

**Yanvarın 11-də** H.Əliyev Sov.İKP-nin XXVII qurultayına həsr olunmuş "Sovet Rusiyası" VII respublika rəsm sərgisində oldu.

**Yanvarın 24-də** H.Əliyev XXVI Moskva şəhər partiya konfransının açılışında iştirak etdi.

**Yanvarın 28-də** H.Əliyev Sov.İKP MK Siyasi Bürosunun İtaliya kommunist partiyasının Baş katibi A.Nattanın şərəfinə təşkil etdiyi naharda iştirak etdi.

**Həmin gün** H.Əliyev Kremldə Yəmən Ərəb Respublikası Baş nazirinin müavini, inkişaf naziri M.S. əl-Əttarı qəbul etdi. Qonaq YƏR prezidenti A.Salehin Sov.İKP MK baş katibi M.Qorbaçova məktubunu çatdırdı.

**Yanvarın 31-də** H.Əliyev Beynəlxalq Gənclər ilinin keçirilməsi üzrə komissiyanın yekun iclasında məruzə ilə çıxış etdi.

O, 1985-ci ildə gənclərin rifahı, iş şəraiti və təhsilinin yaxşılaşdırılması, gənclərin aktual problemlərinin həlli istiqamətində görülən işlərdən danışdı. Belə ki, 1985-ci ildə təhsilin maddi bazasının möhkəmləndirilməsinə xərclənən vəsaitin miqdarı 2,7 milyard manat təşkil etmişdir. Yüzlərlə ümumtəhsil məktəbi, texniki-peşə məktəbi, məktəbəqədər müəssisə tikilmiş, iki yeni ali məktəb və 34 orta ixtisas məktəbi açılmışdır. Sosial proqramı həyata keçirən Sov.İKP MK və SSRİ Nazirlər Soveti yeni evlənənlərə mənzil şəraitinin yaxşılaşdırıl-

ması və təsərrüfat təminatı üçün kreditlərin verilməsini, uşaqlara görə əlavə ödənişləri, həqiqi xidmətdə olan hərbi qulluqçuların uşaqlarına müavinətlərin məbləğinin artırılması və s. nəzərdə tutan qərarlar qəbul etmişdir. Minlərlə oğlan və qız təsərrüfat, partiya və sovet rəhbər işlərinə irəli çəkilmişlər. Fəaliyyəti müddətində komissiya 31 mərkəzi nazirlik, idarə və təşkilatın məlumatını dinləmişdir. Müzakirələrin nəticəsi olaraq SSRİ Nazirlər Soveti tərəfindən 11 qərar və göstəriş qəbul etmiş, nazirlik və idarələrə gənclərin problemlərinin həlli ilə bağlı 70-dən çox konkret tapşırıq verilmişdir.

Ümumtəhsil və peşə məktəbinin islahatı məsələləri komissiyanın əhatə dairəsində olmuş, məktəblərin kompüterləşdirilməsinə daha çox fikir verilməyə başlanmışdır.

XII Ümumdünya gənclər festivalına gəldikdə isə bu forum festival hərəkatının bütün tarixi ərzində oğlan və qızların ən möhtəşəm beynəlxalq görüşünə çevrilmişdir.

**Fevralın 3-də və 5-də** H.Əliyevin və Sov.İKP MK katibi B.Ponomaryovun Efiopiya Fəhlə partiyasının nümayəndə heyəti ilə görüşləri olmuş, beynəlxalq vəziyyətin aktual problemləri müzakirə edilmişdir.

**Fevralın 5-də** H.Əliyev N.Dobrolyubovun anadan olmasının 150 illiyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**Fevralın 18-də** H.Əliyev Sov.İKP MK-nın Plenumunun işində iştirak etdi. Plenum Sov.İKP MK-nın XXVII qurultaya siyasi məruzəsini, Sov.İKP Proqramının yeni redaksiyasının, partiyanın dəyişilmiş Nizamnaməsinin və 1986-1990-cı illərə və 2000-ci ilə qədər olan dövr üçün SSRİ-nin iqtisadi və sosial inkişafının əsas istiqamətlərinin layihələrini bəyəndi.

Plenum B.Yeltsini Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd seçdi və Moskva şəhər partiya komitəsinin birinci katibi vəzifəsinə keçməyi ilə əlaqədar Sov.İKP MK katibi vəzifəsindən azad etdi.



"Köhnə qvardiya"nın daha bir üzvü – V.Qrişin təqaüdə göndərildi. K.Rusakov da təqaüdə çıxdı.

**Fevralın 18-də** H.Əliyev N.Rıjkovla birlikdə aeroportda Moskvaya rəsmi dostluq səfərinə gələn Polşa Xalq Respublikası Nazirlər Sovetinin sədri Zbiqnev Messneri qarşıladı.

**Fevralın 19-da** H.Əliyev Kremlin Böyük sarayında SSRİ hökumətinin yüksək polşalı qonağın şərəfinə verdiyi naharda iştirak etdi.

**Fevralın 20-də** H.Əliyev Polşanın hökumət başçısının yola salınmasında iştirak etdi.

**Fevralın 23-ü və 24-də** H.Əliyev Siyasi Büronun digər üzvləri ilə birlikdə aeroportda Sov.İKP XXVII qurultayına gələn xarici nümayəndə heyətlərinin qarşılanmasında iştirak etdi.

**Fevralın 25-dən martın 6-na kimi** H.Əliyev Sov.İKP XXVII qurultayının işində iştirak etdi.

**Fevralın 27-də** Siyasi Büro üzvlərindən təkcə H.Əliyev XXVII qurultayın mətbuat mərkəzində sovet və xarici jurnalistlərlə görüşdü. O, MK-nın siyasi məruzəsini, xüsusilə də onun hökumətdə kuratorluq etdiyi sosial siyasətin yeni aspektlərini müfəssəl şərh etdi. Daha sonra o, sovet və xarici jurnalistlərin çoxsaylı suallarını cavablandırdı.

**Martın 2-də** "Olimpiyski" idman kompleksində partiyanın və sovet dövlətinin digər rəhbərləri ilə birlikdə H.Əliyev partiya qurultayının şərəfinə möhtəşəm bədii-idman bayramında iştirak etdi.

**Martın 6-da** Sov.İKP XXVII qurultayı öz işini bitirdi.

XXVII qurultayın qətnaməsində 70-ci illər 80-ci illərin əvvəlində sosial-iqtisadi inkişafda özünü göstərmiş çətinliklər və neqativ proseslərdən danışılırdı. O vaxt Qorbaçov komandası "durğunluqdan" çıxış yolunu iqtisadiyyatı intensiv inkişaf yoluna keçirməkdə, elmi-texniki tərəqqini sürətləndirməkdə, xalq təsərrüfatının əsaslı şəkildə yenidən qurulmasında gö-

rürdü. Eyni zamanda heç bir prinsipial yenilik və əsl konstruktiv təklif irəli sürülmürdü: təsərrüfat mexanizminin yenidən qurulması, idarəetmənin təkmilləşdirilməsi, intizamın gücləndirilməsinə və s. dair ənənəvi sözlər səsləndirilmişdi.

İkinci hissənin 6-cı bəndində deyilirdi ki, "qurultay fəal, hərtərəfli sosial siyasət aparılmasına, 12-ci beşillikdə və perspektivdə xalqın rifah halının yüksəldilməsini nəzərdə tutan proqramın həyata keçirilməsinə mühüm əhəmiyyət verir... Mərkəzdə və yerlərdə partiya, dövlət, təsərrüfat orqanları bazarı keyfiyyətli mal və xidmətlərlə doldurmaq məsələlərinə münasibəti kökündən dəyişməli, xalq istehlakı məhsulları və xidmət sahəsinin inkişafına dair Kompleks proqramının şərtsiz yerinə yetirilməsini təmin etməli, bu mühüm vəzifənin həllinə hər bir respublikanın, diyarın, vilayətin, xalq təsərrüfatının hər bir sahəsinin, əmək kollektivlərinin töhfəsini artırmalıdır". Bu SSRİ Nazirlər Soveti sədrinin birinci müavini H.Əliyevin bilavasitə kuratorluq etdiyi sahə idi.

XXVII qurultayın qətnaməsinə hələ on-on beş il əvvəl Azərbaycanda səslənən, başlıcası isə həyata keçirilən fikirlər daxil edilmişdi. Məsələn: "Yaxın vaxtlarda tüfeylilərə, sosialist mülkiyyətini talayanlara, rüşvətxorlara qarşı əlavə tədbirlər həyata keçirmək". Və ya: "Harada ki tənqid və özünütənqidin səsi kəsilir, orada partiya işi deformasiya olur, işdə durğunluğa, işçilərin simasını itirməsinə aparıb çıxaran arxayınlıq və cəzasızlıq şəraiti yaranır". Və nəhayət: "Bəzi təşkilatlarda özünə yer tapmış cəzasızlıq və hər şeyi bağışlamaq ətaləti, partiya və dövlət intizamının, etika və mənəviyyatın pozulması faktları ilə mübarizəni gücləndirmək... Partiya bizə yad olan proteksionizm, işçilərin şəxsi sədaqət və yerliçilik əlamətlərinə görə irəli çəkilməsi praktikası ilə barışmayacaqdır". Bütün bu göstərişlər H.Əliyev rəhbərlikdə olan zaman Azərbaycan partiya təşkilatı üçün həyat və fəaliyyət norması idi.

**Martın 6-da** Sov.İKP MK-nın Plenumu oldu. Plenum Sov.İKP MK Siyasi Bürosunu, Sov.İKP MK Katibliyini seçdi,



Sov.İKP MK yanında Partiya Nəzarəti Komitəsinin sədrini təsdiq etdi.

Siyasi Büronun XXVII qurultayda seçilmiş tərkibi:

**Siyasi Büronun üzvləri:** M.Qorbaçov, H.Əliyev, V.Vorotnikov, A.Qromıko, L.Zaykov, D.Kunayev, Y.Liqaçov, N.Rıjkov, M.Solomentsev, V.Çebrikov, E.Şevardnadze, V.Şşerbitski.

**Siyasi Büro üzvlüyünə namizədlər:** P.Demiçev, V.Dolqix, B.Yeltsin, N.Slyunkov, S.Sokolov, Y.Solovyov, N.Talızin.

**Sov.İKP MK katibləri:** M.Qorbaçov – Baş katib, A.Biryukova, A.Dobrının, V.Dolqix, L.Zaykov, M.Zimyanin, Y.Liqaçov, V.Medvedev, V.Nikonov, Q.Razumovski, A.Yakovlev.

Plenum M.Solomentsevi Sov.İKP MK yanında Partiya Nəzarəti Komitəsinin sədri təsdiq etdi.

**Martın 7-də** H.Əliyev SSRİ Böyük Teatrında 8 mart Beynəlxalq Qadınlar gününə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**Həmin gün** H.Əliyev Kremldə ƏSDP Baş katibinin müavini A.əl-Əhmar başda olmaqla Suriya Ərəb Sosialist Dirçəliş Partiyasının nümayəndə heyətini qəbul etdi.

**Həmin gün** H.Əliyev partiya və dövlətin digər rəhbərləri ilə birlikdə Sov.İKP XXVII qurultayının işində iştirak etmiş partiya-hökumət nümayəndə heyətlərinin yola salınmasında iştirak etdi.

**Martın 27-də** H.Əliyev Sovet-Əlcəzair sənədlərinin imzalanmasında iştirak etdi. M.Qorbaçov və Əlcəzair prezidenti Ş.Bencədid SSRİ və ƏXDR arasında iqtisadi-ticarət və elmi-texniki əməkdaşlıq haqqında Uzunmüddətli proqram imzaladılar.

**Aprelin 1-də** H.Əliyev bəstəkarların VII Ümumittifaq qurultayının açılışında iştirak etdi.

**Aprelin 9-da** H.Əliyev Nəqliyyat Nazirliyinin dəmiryol nəqliyyatı işçilərinin XXVII qurultayın qərarlarının yerinə ye-

tirilməsi üzrə vəzifələrinin müzakirə olunduğu geniş kollegiya iclasında çıxış etdi.

**Aprelin 11-də** H.Əliyev İttifaqlar Evinin Sütunlu salonunda Kosmonavtika gününə və insanın kosmosa ilk uçuşunun 25 illiyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**Aprelin 12-də** H.Əliyev RSFSR-in sovet, partiya və təsərrüfat orqanlarının xalq istehlakı malları istehsalının artırılması, onların keyfiyyətinin yüksəldilməsi və xidmət sahəsinin daha da inkişaf etdirilməsi üzrə vəzifələri müzakirə edilən respublika müşavirəsində iştirak etdi.

**Aprelin 15-də** H.Əliyev Böyük Kreml sarayında Sovet hökuməti adından İsveçin baş naziri İ.Karlssonun şərəfinə verilən naharda iştirak etdi.

**Aprelin 18-də** SSRİ Nazirlər Sovetinin iclası oldu. İclasda 1986-cı ilin birinci rübündə SSRİ-nin iqtisadi və sosial inkişafı Dövlət planının və SSRİ Dövlət büdcəsinin yerinə yetirilməsinin yekunları müzakirə olundu.

İclasda plandan əlavə 35,7 milyon ton yük daşınmış dəmiryol nəqliyyatının işinin yaxşılaşması, həmçinin onikinci beşilliyin sosial proqramının uğurla həyata keçirilməsinə başlanması qeyd olundu *(yəni H.Əliyevin kuratorluq etdiyi sahələr).*

**Aprelin 21-də** H.Əliyev sovet hökuməti adından Əfqanıstan Demokratik Respublikası Nazirlər Sovetinin sədri Sultan Əli Keştmandın şərəfinə verilən naharda iştirak etdi.

**Aprelin 22-də** Kremlin Qurultaylar sarayında V.İ.Leninin anadan olmasının 116-cı ildönümünə həsr edilmiş təntənəli yığıncaqda iştirak etdi. Məruzə ilə Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ xarici işlər naziri E.Şevardnadze çıxış etdi.

**Aprelin 24-də** H.Əliyevin bilavasitə təşəbbüsü ilə hazırlanmış iki məsələnin müzakirə olunduğu Siyasi Büronun iclası oldu. Birinci – Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin xalq istehlakı və yüngül sənaye malları istehsalının idarə olunmasının yaxşılaşdırılmasına dair qərarının müzakirəsi.



Qərarda sahənin iqtisadi fəaliyyət mexanizminin yenidən qurulması, birlik və müəssisələrin idarə olunmasında iqtisadi metodların inkişafı, yüngül sənaye sistemində iri, orta və xırda təsərrüfatlardan ahəngdar istifadə edilməsi, xalq təsərrüfatı mallarının istehsalında sosialist ölkələri ilə əməkdaşlığın inkişaf etdirilməsi üzrə səmərəli tədbirlər nəzərdə tutulurdu.

H.Əliyev tərəfindən qaldırılmış ikinci məsələ – "Gözün mikrocərrahiyyəsi" sahələrarası elmi-texniki kompleksin təşkil edilməsi təklifi idi. H.Əliyevin xeyir-duası ilə S.Fyodorovun məşhur institutunun bünövrəsi qoyuldu.

**Həmin gün** H.Əliyev Kremldə Vyetnam Sosialist Respublikası Nazirlər Sovetinin sədr müavini, VSR nəqliyyat naziri Donq Şi Nquyeni qəbul etdi. Sovet-Vyetnam iqtisadi və elmi-texniki əməkdaşlığı məsələləri müzakirə olundu.

**Aprelin 26-da** Çernobıl AES-də qəza baş verdi.

**Mayın 1-də** H.Əliyev Qızıl meydanda zəhmətkeşlərin nümayişində iştirak etdi.

**Mayın 7-də** H.Əliyev Böyük Kreml sarayında Sov.İKP və MPLA – Əmək partiyası arasında partiya əlaqələri planının imzalanmasında, həmçinin Sov.İKP MK, SSRİ Ali Sovetinin Rəyasət Heyəti və Sovet hökumətinin Anqola Xalq Respublikasının prezidenti Joze Eduardu duş Santuşun şərəfinə verdiyi naharda iştirak etdi.

**Mayın 13-də** H.Əliyev Siyasi Büronun üzvləri ilə birlikdə SSRİ kinematoqrafçılarının V qurultayında iştirak etdi.

**Mayın 16-da** H.Əliyev Kremldə SSRİ və Rumıniya Sosialist Respublikası arasında 2000-ci ilə qədər olan dövr üçün Uzunmüddətli iqtisadi və elmi-texniki əməkdaşlığın inkişafı proqramının imzalanmasında, habelə Rumıniya prezidenti N.Çauşeskunun şərəfinə səhər yeməyində iştirak etdi.

**Mayın 19-da** H.Əliyev Böyük Kreml sarayında Sovet hökuməti adından İspaniya hökumətinin sədri F.Qonsalesin şərəfinə verilən naharda iştirak etdi.

**Mayın 23-də** SSRİ Ali Soveti Rəyasət Heyətinin iclası oldu. H.Əliyev seçici tapşırıqlarının yerinə yetirilməsinin gedişi, SSRİ Ali Sovetinin dördüncü sessiyasında daimi komissiyaların və deputatların verdikləri təklif və iradlara baxılmasının nəticələri barədə məruzə ilə çıxış etdi.

**İyunun 5-7-də** H.Əliyev Çuvaşiya MSSR-də oldu. Bu dövrdə ona sosial siyasət məsələləri, xalq istehlakı məhsullarının kompleks inkişafı proqramının gedişi ilə sıx məşğul olmaq lazım gəlirdi, ona görə də o, xalq üçün məhsul istehsal edən müəssisələrdə olmağı, mövcud problemlərlə yerində tanış olmağı zəruri hesab edirdi.

**İyunun 7-də** H.Əliyev Çeboksarı Pambıq-Parça kombinatında Çuvaşiya yüngül sənaye işçiləri aktivinin iclasında iştirak etdi.

Aktivdə çıxış edən H.Əliyev məlumat verdi ki, yanvarın 1-dən bütün yüngül sənaye müəssisələri tam təsərrüfat hesabı və özünüdoğrultma şərtlərinə keçiriləcəkdir. Bununla əlaqədar o diqqəti bir sıra problemlərə cəlb etdi: zavod və fabriklərin təchizat vasitələrinin ləng yeniləşdirilməsi, "mühüm xalq təsərrüfatı sahəsini yeni ideyalara həsrət qoymuş" sahə elmi müəssisələrinin, H.Əliyevin obrazlı ifadə etdiyi kimi, "xroniki qısırlığı", bir çox yüngül sənaye məhsullarının aşağı keyfiyyəti. Onun çıxışı həmişə olduğu kimi faktlarla, ümumiyyətlə yüngül sənayedəki, o cümlədən Çeboksarı müəssisələrindəki vəziyyətin dərin, işin mahiyyətinə sirayət edən təhlili ilə zəngin idi.

H.Əliyev məhsulun keyfiyyət məsələsini belə şərh etdi: "Bəli, bu gün biz artıq paltarı olanları geyindirməli, ayaqqabısı olanları ayaqqabı ilə təmin etməli oluruq. Ümumi mədəniyyətin artması, moda sahəsində məlumatın olması, dizayn, gözəllik, rahatlıq barədə yeni düşüncənin yaranması səbəbindən bizim yüngül sənayemiz xaricdəki mal istehsalçıları ilə çətin yarışa girməli olur. Gizli deyil ki, hələlik alıcılar çox vaxt "firma" nişanlı xarici mallara üstünlük verirlər. Bəs bizim sovet firmalarının eləcə də səlahiyyətli nümayəndələri bu zalda toplaşanların professional şərəf-ləyaqəti haradadır? Keyfiyyət ətrafında söhbətdən nəinki tələbatın ardınca gedə bilən, həm də ağlabatan istəkləri formalaşdıran, yaxşı zövq, istehlak mədəniyyəti tərbiyə etməklə insanların arzularını qabaqlayan savadlı iqtisadi fəaliyyətə keçək".

H.Əliyev təəssüflə qeyd edir ki, üç il bundan qabaq qəbul edilmiş əmək kollektivləri haqqında Qanun pis işləyir, müəssisə rəhbərləri köhnə üsullarla rəhbərlik edirlər, kollektivlər isə təcrübədə qanunun onlara verdiyi hüquqlardan istifadə etmirlər.

Partaktivdə H.Əliyev öz sevimli, nəhayət ki ümumittifaq səviyyəsində də müzakirə olunmağa başlayan mövzuya toxunmağı unutmadı – zəhmətsiz qazanclarla mübarizə mövzusunu: "Rüşvətxorların, oğruların, möhtəkirlərin, cəmiyyət hesabına varlananların ətrafında ümumi nifrət atmosferi yaratmaq, onların cəzanın labüd olmasını bilmələri əmək kollektivinin borcu və hüququdur" *("İzvestiya", 7 iyun 1986-cı il).*

Kombinatda olarkən H.Əliyev bütün sexləri gəzdi, fəhlə və mütəxəssislərlə xeyli söhbət etdi, Corab-Trikotaj fabrikinin qarşısında isə onu yüzlərlə çeboksarlı qarşıladı. İşçilərin əmək və məişət şəraiti, gələcək perspektivlər, ölkədəki vəziyyət barədə səmimi söhbət getdi.

"Tekstilmaş" istehsalat birliyində H.Əliyev zavodun muzeyinə, kitabxanasına, İdman sarayına baş çəkdi, fəhlələrə göstərilən məişət xidmətinin təşkili ilə tanış oldu. Eksperimental və yığma sexlərində, əsas konveyerdə buraxılan və mənimsənilməyə hazırlanan məhsullarla tanış oldu. Nazirlər Soveti sədrinin birinci müavini həmçinin "Çeboksarets" mağazasında, şəhərin digər mağazalarında, balneoloji palçıq müalicəxanasında oldu. Şöhrət abidəsinin önünə əklil qoydu, Qələbə xiyabanında ağac əkdi. Yekunda Siyasi Maarif Evində vilayət partiya-təsərrüfat fəalları yığıncağı keçirdi.

**İyunun 9-da** H.Əliyev Kremldə AFR biznes dairələrinin nüfuzlu nümayəndəsi, "Doyçe bank"ın idarə heyətinin sədri F.V.Kristiansı onun xahişi ilə qəbul etdi.

**İyunun 12-də** H.Əliyev Yuqoslaviya elm və texnikası günləri çərçivəsində SSRİ XTNS-də təşkil olunmuş sərgidə oldu.

**Həmin gün** o SSRİ Böyük Teatrında Tibb işçisi gününə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**İyunun 18-19-da** H.Əliyev onbirinci çağırış SSRİ Ali Sovetinin beşinci sessiyasında iştirak etdi.

**İyunun 24-də** H.Əliyev Siyasi Büronun digər üzvləri ilə birlikdə Böyük Kreml sarayında SSRİ Yazıçılar İttifaqının VIII qurultayının açılışında iştirak etdi.

**İyunun 19-da** M.Qorbaçov Kremldə bir qrup yazıçını qəbul etdi, lakin Nazirlər Soveti xətti ilə mədəniyyət məsələlərinə cavabdeh olan H.Əliyevi bu görüşə dəvət etmədi. Görüşdə Qorbaçov "favoritləri" Y.Liqaçov və A.Yakovlev iştirak edirdilər.

**İyunun 26-da** H.Əliyevin rəhbərlik etdiyi Sov.İKP nümayəndə heyəti Yuqoslaviya Kommunistlər İttifaqının XIII qurultayında iştirak etmək üçün Belqrada gəldi.

H.Əliyev Yuqoslaviya Kommunistlər İttifaqı MK-nın Rəyasət Heyətinin sədri V.Jarkoviç tərəfindən qəbul edildi.

**Həmin gün** nümayəndə heyəti "Beko" ticarət-sənaye birliyində, M.Pupin adına elmi-tədqiqat institutunda, İvo Lola Ribar adına Maşınqayırma zavodunda, "Beoqrad" Yuqoslaviya univermaqları birliyində və onların ən irisi – "Beoqradjanka"da oldu.

**İyunun 27-də** H.Əliyev Yuqoslaviya Kommunistlər İttifaqının XIII qurultayının işində iştirak etdi.

**Həmin gün** H.Əliyev Smederevoya – Dunay sahilində qədim şəhərə səfər etdi. Şəhərin görməli yerləri ilə tanış oldu, SSRİ-nin texniki dəstəyi ilə tikilmiş Metallurgiya kombinatında oldu.



İcma partiya komitəsinin üzvləri ilə görüşdü.

İ.Broz Titonun xatirə kompleksində oldu və əklil qoydu. Fəxri qonaqlar kitabında ürək sözlərini yazdı.

YKİ-nin XIII qurultayında iştirak edən nümayəndə heyətlərinin şərəfinə Yuqoslaviya Kommunistlər İttifaqı MK Rəyasət Heyətinin təşkil etdiyi qəbulda oldu.

**İyunun 30-da** H.Əliyev müttəfiq respublika, diyar və vilayət kommunist partiyası komitələrinin katibləri, müttəfiq respublikaların Nazirlər Soveti sədrlərinin müavinləri, maarif və professional texniki təhsil orqanları rəhbərlərinin müşavirəsində iştirak etdi. Müşavirədə ümumtəhsil və texniki-peşə məktəbi islahatının həyata keçirilməsi məsələləri müzakirə olundu.

**İyulun 1-2-də** H.Əliyev on birinci çağırış RSFSR Ali Sovetinin üçüncü sessiyasında iştirak etdi.

**İyulun 2-də** H.Əliyev Sov.İKP MK, SSRİ Ali Soveti Rəyasət Heyəti və Sovet hökumətinin SSRİ və KXDR arasında dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilənin 25 illiyinə həsr olunmuş təntənələrdə iştirak etmək üçün başda Koreya Əmək partiyası MK Siyasi bürosunun üzvü, KƏP MK katibi Kim Xvan olmaqla Moskvaya gəlmiş nümayəndə heyətinin şərəfinə təşkil etdiyi naharda çıxış etdi.

**İyulun 3-də** H.Əliyev KXDR-in SSRİ-dəki səfirliyində KXDR ilə SSRİ arasında dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilənin 25 illiyi ilə əlaqədar qəbulda iştirak etdi. Qəbulda Kvon Zi Gen və Heydər Əliyev nitqlə çıxış etdilər.

**İyulun 4-də** H.Əliyev Moskva zəhmətkeşləri nümayəndələrinin KXDR ilə SSRİ arasında dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilənin 25-ci ildönümü ilə əlaqədar təntənəli yığıncaqda iştirak etdi.

**İyulun 5-də** H.Əliyev Lujnikidə Lenin adına Mərkəzi stadionda Xoşməramlı oyunların açılışında oldu.

**İyulun 14-də** H.Əliyev A.Qromıko ilə birlikdə Moskvaya rəsmi dostluq səfərinə gəlmiş Mali Respublikasının prezidenti Musa Traore və onun xanımını Vnukovo aeroportunda qarşıladılar.

**Həmin gün** H.Əliyev ölkənin digər rəhbərləri ilə birlikdə Vyetnam Sosialist Respublikasının SSRİ-dəki səfirliyində oldu və Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi Le Zuanın vəfatı münasibətilə Vyetnam xalqına başsağlığı verdi.

**İyulun 18-də** SSRİ Nazirlər Sovetinin iclası oldu. İclasda 1986-cı ilin birinci yarısında Dövlət planının və Dövlət büdcəsinin yerinə yetirilməsinin yekunlarına baxıldı. İclasda qeyd olundu ki, "bütün növ nəqliyyatda yükdaşıma planlarının yerinə yetirilməsi yaxşılaşmışdır".

**İyulun 22-də** H.Əliyev SSRİ Böyük Teatrında SSRİ-də Monqolustan Xalq Respublikası günlərinin təntənəli açılışında iştirak etdi.

**İyulun 31-də** Naxçıvan MSSR-in paytaxtında təntənəli şəraitdə iki dəfə Sosialist Əməyi Qəhrəmanı, Sov. İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini H.Əliyevin bürünc büstü açıldı.

**Avqustun 1-də** H.Əliyev Dəmiryolçular gününə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**Avqustun 8-də** H.Əliyev Sov.İKP MK-nın istehsal olunan maşın və avadanlıqların texniki səviyyəsinin, keyfiyyətinin və rəqabət qabiliyyətinin kökündən yaxşılaşdırılmasına həsr olunmuş müşavirəsində iştirak etdi.

**Avqustun 11-də** Dehlidən Mexikoya yollanan Hindistanın baş naziri Raciv Qandi təyyarəsinin mühərriklərindən birində texniki nasazlıq üzündən qısa müddət Moskvada dayandı. H.Əliyev baş naziri aerodromda qarşıladı. Onların arasında Sovet-Hindistan münasibətləri, beynəlxalq problemlər üzrə səmimi və açıq söhbət oldu.



**Avqustun 31-də** "Admiral Naximov" teploxodunda faciə baş verdi, nəticədə yüzlərlə insan həlak oldu. Lakin bu faciə ilə bağlı iki gündən sonra "Pravda" və "İzvestiya" qəzetlərində yalnız bir neçə quru cümlə çap edildi:

**"Sov.İKP Mərkəzi Komitəsi, SSRİ Ali Soveti Rəyasət Heyəti, SSRİ Nazirlər Sovetindən.**

Avqustun 31-də gecə Novorossiysk yaxınlığında yük gəmisi ilə toqquşması nəticəsində "Admiral Naximov" sərnişin gəmisi batmışdır. İnsanları xilas etmək üçün tədbirlər görülmüşdür. Zərərçəkənlərə lazımı yardım göstərilir. İnsan tələfatı vardır. Qəzanın səbəblərini araşdırmaq üçün Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini H.Əliyev yoldaş başda olmaqla hökumət komissiyası yaradılmışdır".

Qəzadan altı gün keçəndən sonra – 1986-cı il avqustun 5-də – qəzetlərdə Sov.İKP MK, SSRİ Ali Soveti Rəyasət Heyəti və SSRİ Nazirlər Soveti adından başsağlığı dərc olunur. Cəmi bir cümlə: "Admiral Naximov" sərnişin gəmisinin qəzaya uğraması nəticəsində insanların faciəli ölümü ilə bağlı Sov.İKP MK, SSRİ Ali Sovetinin Rəyasət Heyəti və SSRİ Nazirlər Soveti həlak olanların ailəsi, qohumları və yaxınlarına dərin hüznlə başsağlığı verir". Ölkənin ali rəhbərlərindən heç kəs: nə baş nazir N.Rıjkov, nə M.Qorbaçov Novorossiykə getməyə ürək etmədilər. Həlak olanların yaxınlarının bütün ağrı və qəzəbinin qarşısında Heydər Əliyev durdu. Və onun iki həftə ərzində Novorossiyskdə gördüyü işi mübaliğəsiz qəhrəmanlıq adlandırmaq olar.

**Sentyabrın 4-də** "Pravda" qəzetinin sonuncu səhifəsində dənizçilərin, sərhədçilərin adamları necə xilas etdikləri barədə yazı dərc olundu. Həmin məqalədən bir neçə parça: "Körpüdə növbə çəkən miçman A.Qusev növbətçinin məlumatını döyüş həyəcanı kimi qəbul etdi: "Limanın on beş kilometrliyində "Admiral Naximov" gəmisi fəlakətə uğramışdır. Kömək lazımdır..."

Altı dəqiqədən sonra sərhədçi kateri tam sürətlə Semes buxtasının dalğaları ilə şütüyürdü. Daha 11 dəqiqədən sonra dənizçilər qəza nöqtəsində idilər. Lakin adətən parlaq işıq saçan gəmi yox idi. Batmışdı. Təxminən səkkiz yüz metr aralıda sərnişin gəmisi ilə toqquşan "Pyotr Vasyev" yükdaşıyan gəmisinin qara kölgəsi görünürdü.

Sərhədçilər gördüklərindən əvvəlcə özlərini itirdilər. Dalğaların üstündə, taxta-tuxta, çəllək və başqa tullantıların arasında yüzlərlə insan üzürdü. Bəzilərini suyun üzərində xilasetmə kəmərləri, o birilərini gecənin qaranlığında yanıb sönən işıqları olan xırda sallar saxlayırdı, hələ gücdən düşməmiş bir başqaları isə özləri üzürdülər.

Bir qədərdən sonra qəza rayonuna 60-dan çox kater, qayıq, xırda gəmi gəldi. Kapitan köməkçisi V.Belovolın idarə etdiyi losman kateri də onların arasında idi. O, gəmilərin toqquşması barədə xəbəri birincilər sırasında almışdı. Və fırtına haqqında xəbərdarlıq almasına, küləyin bərkiməsinə baxmayaraq, balaca gəmi dalğaların qoynuna atıldı. Onun göyərtəsinə 84 sərnişin və batmış gəminin ekipaj heyəti üzvlərini qaldırmaq mümkün oldu...

Bəli, xilasedicilər qüvvələrini əsirgəmədən hər bir nəfərin həyatı uğrunda mübarizə aparırdılar. Lakin qurbanlarsız ötüşmək mümkün olmadı. Burada bir çox səbəblər öz sözünü dedi. Fəlakət gecə vaxtı, açıq dənizdə baş vermişdi. "Admiral Naximov"un bortuna dəymiş zərbə gözlənilməz və o dərəcədə güclü olmuşdu ki, təxminən doxsan kvadratmetr ölçüdə dəlik əmələ gəlmişdi.

Əlbəttə, indi hamını bir sual maraqlandırır: bu necə baş verə bilərdi? Nə üçün aralarında rabitə olan, bir-birinin işıqlarını görən iki gəmi vaxtında aralana bilmədi? Məsələni araşdıran istintaq orqanları israr edirlər: səbəb – hər iki gəmi kapitanının gəmiçilik təhlükəsizliyi qaydalarını pozmasındadır.

Dünən hökumət komissiyasının sədri, Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini H.Əliyev xilasedicilərlə görüşmüş, xəstəxanada qəza vaxtı zərərçəkənlər və onların qohumları ilə söhbət etmişdir".

*(K.Aksyonov. "Pravda", 4 sentyabr 1986-cı il).*

**"İzvestiya" qəzeti isə həmin günlər yazırdı:**

"Semes buxtasında baş vermiş gəmi qəzasının nəticələrinin ləğv olunması üzrə əslində şəhər-qərargaha çevrilmiş Novorossiysk gərgin günlər yaşamaqda davam edir.

Adi, gündəlik işlər sanki arxa plana çəkilib, əsas vəzifə – zərərçəkənlərə, onların qohumlarına yardım etməkdir. Xilas olanların çoxu artıq dağılışıb evlərinə gedib. Novorossiyskdə xəstələr və batan "Admiral Naximov" gəmisindən olan əlliyə yaxın turist qalıb. Onlar getmirlər – qohum və yaxınlarının axtarışını aparan dalğıcların işi haqqında məlumat gözləyirlər. Bundan başqa, xilas etmək mümkün olmayan sərnişinlərin 400-dən çox qohumu şəhərə gəlmişdir. Onlarla iş aparmaq üçün hökumət komissiyasının tərkibindən məsul şəxslər ayrılmışdır, Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini H.Əliyev gündə iki dəfə həlak olmuş turistlərin qohumları ilə görüşür..."

*(A.Derqaçov. "İzvestiya", 4 sentyabr 1986-cı il).*

**Sentyabrın 4-də** SSRİ Xarici İşlər Nazirliyinin mətbuat mərkəzində keçirilən mətbuat konfransında Sov.İKP MK təbliğat şöbəsi müdirinin birinci müavini S.Vlasov çıxış etdi.

Bu barədə **SİTA-nın məlumatında** deyilirdi:

"Gəmidə 1.234 nəfər olub – 888 sərnişin və 346 heyət üzvü. Gəmi "Pyotr Vasyev" yükdaşıyan gəmisi ilə toqquşan zaman Novorossiysk limanının 14-15 kilometrliyində, sahildən 3,5 kilometr aralıda olub. Gəmi aldığı zədə nəticəsində 7-8 dəqiqədən sonra batmışdır.

Ekstremal şəraitdə – qaranlıqda, küləkdə və dalğalı dənizdə – xidmətlərin birgə səyi nəticəsində 836 adamı xilas etmək mümkün olmuşdur. Xilasetmə işləri üçün cəmi 60 üzən vasitə, 20 vertolyot və 80 dalğıc cəlb olunmuşdu. Bu günə qədər həlak olanların 116 nəfəri qaldırılmışdır. Həlak

olanlara yardım göstərilməsi haqda hökumət qərar qəbul etmişdir.

Avqustun 31-dən sentyabrın 1-nə keçən gecə Sov.İKP MK Siyasi Bürosunun üzvü H.Əliyevin başçılığı ilə hökumət komissiyası təyyarə ilə Novorossiyskə yollanmışdır. Onun tərkibi – Sov.İKP MK, Ukrayna KP MK, RSFSR Nazirlər Soveti, SSRİ Səhiyyə Nazirliyi, ÜİHİMŞ, Krasnodar vilayət partiya və vilayət icraiyyə komitəsinin nümayəndələrindən ibarətdir. SSRİ Prokurorluğunun nümayəndələri də qəza yerindədirlər".

"İzvestiya" qəzetinin müxbiri A.Derqaçov növbəti oçerkində yazırdı: "Dövlət nəinki şəhərlərarası danışıqların, teleqramların ödənilməsini , hətta hər iki tərəfə yol xərclərini, mehmanxanada yaşamanı, gündəlik ödəmələri, pulsuz xidmətlərin göstərilməsini də öz üzərinə götürdü. Həkimlər də daimi növbə çəkirlər...

Bu diqqət müəyyən mənada insanların dərdini nisbətən yüngülləşdirir, ən çətin dəqiqələrdə özlərini ələ almağa kömək edir.

– Bizim sizinlə bu söhbətlərimiz asan deyildir, lakin onlar ona görə lazımdır ki, biz işimizdə sizin bütün iradlarınızı nəzərə alaq. Suallarınıza cavab olaraq əvvəl dediklərimi bir daha təsdiqləmək istəyirəm – axtarışları indi hələ itkin düşmüş turistlər və "Admiral Naximov" gəmisinin heyət üzvlərinin hamısı tapılmayana qədər davam etdirəcəyik".

*("İzvestiya", 5 sentyabr 1986-cı il)*

**Sentyabrın 19-da** H.Əliyev Kremldə Yəmən Sosialist partiyası MK Siyasi Bürosunun üzvü, Yəmən baş nazirinin müavini, daxili işlər naziri S.M. əs-Seyillini qəbul etdi.

**Sentyabrın 23-də** H.Əliyev Böyük Teatrda SSRİ-də Bolqar Mədəniyyəti günlərinin açılışında oldu.

**Sentyabrın 24-də** H.Əliyev Böyük Kreml sarayında Madaqasqar Demokratik Respublikasının prezidenti Didye Ratsirakinin şərəfinə verilən naharda iştirak etdi.



**Sentyabrın 26-da** H.Əliyev SSRİ-nin digər rəhbərləri ilə birlikdə Böyük Teatrda böyük rus epik abidəsi "İqor polku haqqında dastan"ın 800 illiyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**Həmin gün** H.Əliyev Kremldə Kuba Respublikası Nazirlər Sovetinin sədr müavini, nəqliyyat naziri D.Torralbası və Kuba Respublikasının SSRİ-dəki səfiri X.Kamaçonu qəbul etdi.

**Oktyabrın 1-də** H.Əliyev ictimai elmlər kafedraları müdirlərinin Ümumittifaq müşavirəsində iştirak etdi. Ali məktəb və ETİ-lərin ictimai elmlərin tədrisi sahəsində vəzifələri barədə məruzə ilə Y.Liqaçov çıxış etdi.

**Oktyabrın 5-də** H.Əliyev Sov.İKP MK-da qışa hazırlıq və xalq təsərrüfatının enerji ilə etibarlı təchiz olunması üzrə təxirəsalınmaz vəzifələrin müzakirə olunduğu müşavirədə iştirak etdi.

**Oktyabrın 10-da** H.Əliyev və Siyasi Büronun digər üzvləri M.Qorbaçovu Reykyavikə (İslandiya) yola saldılar, **oktyabrın 13-də** isə amerikalıların sovet təkliflərini qəbul etməkdən imtina etdikləri "biabırçı" danışıqlardan sonra qarşıladılar.

**Oktyabrın 14-də** H.Əliyev Ümumdünya qardaşlaşmış şəhərlər federasiyasının XXXI sessiyasının işində iştirak etmək üçün SSRİ-yə gələn ÜQŞF-nin prezidenti, görkəmli fransız dövlət və siyasi xadimi, Fransanın keçmiş baş naziri P.Moruanı qəbul etdi.

**Oktyabrın 15-də** H.Əliyev Kremldə Yaponiya xarici ölkələrlə mədəni əlaqələr assosiasiyasının prezidenti, Yaponiyanın tanınmış siyasi xadimi S.Matsumaeni qəbul etdi.

**Oktyabrın 18-də** H.Əliyev Ümumittifaq musiqi cəmiyyətinin təsis konfransında iştirak etdi.

**Oktyabrın 20-də** SSRİ Nazirlər Sovetinin cari ilin 9 ayı ərzində xalq təsərrüfatı sahəsində fəaliyyətə yekun vuran iclası oldu. İclasda H.Əliyevin cavabdehlik daşıdığı sahələrin

yaxşı göstəriciləri qeyd olundu. SİTA-nın bu barədə hesabatında ağızucu deyilirdi:

"Yüklərin daşınması planı nəqliyyatın bütün növləri üzrə artıqlaması ilə yerinə yetirilmişdir. Partiyanın siyasəti ardıcıllıqla həyata keçirilir".

**Oktyabrın 24-də** H.Əliyev Sov.İKP MK və SSRİ Ali Soveti Rəyasət Heyətinin Böyük Kreml sarayında Koreya Əmək partiyası MK-nın Baş katibi, Koreya Xalq-Demokratik Respublikasının prezidenti Kim İr Senin şərəfinə verdiyi naharda iştirak etdi.

**Oktyabrın 25-də** FRELİMO Partiyasının sədri, Mozambik Xalq Respublikasının prezidenti Samora Moyzes Maşelin dəfnində iştirak etmək üçün Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini H.Əliyev başda olmaqla sovet partiya-dövlət nümayəndə heyəti Moskvadan Maputuya yola düşdü. S.Maşel CAR-ın ərazisində, Mozambik sərhədinin yaxınlığında təyyarə qəzasında həlak olmuşdu. O günlər mətbuatda Pretoriyanın qəzada birbaşa əli olması, CAR ilə Mozambik sərhədi yaxınlığında Mozambik dövlətinin başçısının təyyarəsini kursdan yayındırmaq üçün quraşdırılmış güclü radiomayak-tələ haqqında xəbərlər dərc olunmuşdu.

**Həmin gün** sovet nümayəndə heyəti Yəmən Demokratik Respublikasının paytaxtında dayanacaq etdi. Ədən aeroportunda nümayəndə heyətini Yəmən Sosialist partiyası MK-nın Baş katibinin müavini S.Məhəmməd, YXDR-in baş naziri Y.Naoman, YSP-nin digər rəhbərləri və hökumət üzvləri qarşıladılar. Həmin gün H.Əliyevin başçılıq etdiyi nümayəndə heyətini Yəmən Sosialist partiyası MK-nın Baş katibi A.əl Beyd qəbul etdi.

**Oktyabrın 26-da** H.Əliyev Maputuya gəldi. Həmin gün onun FRELİMO Partiyasının rəhbərləri və hökumət üzvləri ilə söhbətləri başlandı. H.Əliyev Afrika milli-azadlıq hərəkatının tanınmış rəhbəri, dövlət və siyasi xadimi Samora Moyzes Maşelin faciəli ölümü ilə bağlı başsağlığı verdi. Sonra H.Əliyev S.Maşelin cənazəsi qoyulmuş Maputu icraiyyə komitəsinin binasında oldu və əklil qoydu. O həmçinin Samora Maşelin həyat yoldaşı Qras Maşel ilə də görüşdü.



**Oktyabrın 27-də** H.Əliyev Maputuda Nikaraquanın vitse-prezidenti S.Ramireslə görüşdü.

**Oktyabrın 28-də** H.Əliyev bir sıra danışıqlar apardı: MPLA – Əmək partiyasının sədri, Anqola Xalq Respublikasının prezidenti J.E. duş Santuş ilə, ADR Nazirlər Soveti sədrinin birinci müavini V.Krolikovski ilə, Efiopiya Müvəqqəti Hərbi Administrasiya Şurasının Baş katibi F.S.Voqderesslə, Kuba Kommunist partiyası MK-nın Siyasi Bürosu və Katibliyinin üzvü Xorxe Risket Valdeslə və b.

**Həmin gün** S.Maşelin dəfni oldu. Bir çox Afrika dövlətlərinin həmin gün milli matəm elan etməsi Mozambikin dünyasını dəyişmiş rəhbərinin populyarlığından xəbər verir.

**Oktyabrın 29-da** H.Əliyev və onun rəhbərlik etdiyi nümayəndə heyəti Moskvaya qayıtdı.

**Noyabrın 4-də** H.Əliyev Moskvada olan Hindistan Respublikasının dövlət müdafiə naziri A.Sinqxi qəbul etdi.

**Noyabrın 6-da** H.Əliyev Kremlin Qurultaylar sarayında Böyük Oktyabr Sosialist inqilabının 69-cu ildönümünə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi. Məruzə ilə Sov.İKP MK katibi Y.Liqaçov çıxış etdi.

Maraqlıdır ki, Liqaçovun məruzəsinin bir çox məqamları H.Əliyevin 70-ci – 80-ci illərin əvvəlindəki çıxışlarını xatırladırdı: şəxsiyyət və vəzifədən asılı olmayaraq tənqid və özünütənqidin inkişaf etdirilməsi haqqında, oğru və rüşvətxorlarla mübarizənin gücləndirilməsi haqqında. Bütün bunları Liqaçov Qorbaçov "yenidənqurmasının" nailiyyətləri kimi, ictimai həyatda əsl inqilab kimi təqdim edirdi.

**Noyabrın 7-də** H.Əliyev Siyası Büronun üzləri ilə birlikdə Qızıl meydanda parad qəbul etdi.

**Noyabrın 9-da** H.Əliyev Siyasi Büronun üzvləri və MK katibləri ilə birlikdə QİYŞ üzvü olan dövlətlərin rəhbərlərinin görüşündə iştirak etmək üçün Moskvaya gələn partiya və dövlət liderlərini qarşıladı.

**Noyabrın 10-da** H.Əliyev Sovet milisi gününə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**Noyabrın 11-də** Laos Xalq-İnqılab partiyasının dəvəti ilə LXİP-nın IV qurultayında iştirak etmək üçün H.Əliyev başda olmaqla Sov.İKP nümayəndə heyəti Moskvadan Vyentyana yola düşdü.

**Noyabrın 12-də** sovet nümayəndə heyətini LXİP MK Baş katibi, LXDR Nazirlər Sovetinin sədri Keyson Fomvihan qəbul etdi. Görüşdə bütün Laos rəhbərliyi iştirak edirdi. Qəbuldan sonra H.Əliyev "Sovet-Laos dostluğu tikintiləri"ndən birinə getdi (o vaxt sovet mütəxəssislərinin köməyi ilə inşa edilən obyektləri belə adlandırırdılar), Vyentyanda hospitalla tanış oldu.

**Noyabrın 13-də** H.Əliyev Laos Xalq-İnqilab partiyasının IV qurultayında Sovet-Laos əməkdaşlığının perspektivləri, müasir beynəlxalq vəziyyətin, o cümlədən Asiya-Sakit okean regionundakı durumun xüsusiyyətləri barədə geniş nitqlə çıxış etdi. Onun çıxışı "Pravda" və "İzvestiya" qəzetlərində dərc olundu.

H.Əliyev V.İ.Leninin Moskvanın Oktyabr meydanında ucaldılmış heykəlinin bürüncdən hazırlanmış surətini Sov.İKP MK-nın adından LXİP IV qurultayına hədiyyə etdi.

**Həmin gün** H.Əliyev VKP MK Siyasi Bürosunun üzvü, Vyetnam Sosialist Respublikası Nazirlər Sovetinin sədri Fam Van Donqla görüşdü.

**Noyabrın 14-də** H.Əliyev LXDR-də çalışan sovet mütəxəssisləri ilə görüşdü.



**Noyabrın 15-də** Vyentyanda H.Əliyev Kampuçiya Xalq-İnqilab partiyası MK-nın Baş katibi, KXR Dövlət Şurasının sədri Xink Samrinlə danışıqlar apardı.

**Həmin gün** Sov.İKP nümayəndə heyəti Vyentyanda Laos-Sovet dostluğu adına politexnik texnikumunda oldu, sonra akt zalında dostluq mitinqi keçirildi. İnqilab muzeyində olduqdan sonra H.Əliyev Laos-Sovet Dostluğu Cəmiyyətinin fəalları ilə görüşdü. Sonra sovet nümayəndə heyətinin üzvləri Vyentyanda gəzintidə oldular, Laos xalqının tarixi və mədəni abidələri ilə tanış oldular.

**Həmin gün** H.Əliyev LXİP IV qurultayının öz işini başa vurması ilə bağlı LXİP MK-nın təşkil etdiyi qəbulda iştirak etdi. O, qəbulda xarici qonaqlar adından çıxış etdi.

**Noyabrın 16-da** Laosun rəhbəri K.Fomvihan H.Əliyevin başçılıq etdiyi sovet nümayəndə heyətini bir daha qəbul etdi, qurultayda çıxışına görə təşəkkürünü bildirdi, yaxşı yol arzuladı. SSRİ Nazirlər Soveti sədrinin birinci müavinini ən yüksək səviyyədə yola saldılar.

**Noyabrın 17-19-da** H.Əliyev on birinci çağırış SSRİ Ali Sovetinin altıncı sessiyasının işində iştirak etdi. Sessiya 1987-ci il üçün SSRİ-nin iqtisadi və sosial inkişafı Dövlət planını və Dövlət büdcəsini, həmçinin fərdi əmək fəaliyyəti haqqında Qanunu müzakirə etdi.

**Noyabrın 20-də** Sov.İKP MK Siyasi Bürosunun iclasında Sov.İKP nümayəndə heyətinin Laos Xalq-İnqilab partiyasının IV qurultayının işində iştirakı haqqında H.Əliyevin məlumatı dinlənildi.

**Noyabrın 24-də** H.Əliyev və Siyasi Büronun üzvləri M.Qorbaçovu və onun həyat yoldaşını Hindistana yola saldılar.

**Dekabrın 2-3-də** H.Əliyev RSFSR Ali Sovetinin onbirinci çağırış dördüncü sessiyasının işində iştirak etdi.

**Dekabrın 5-6-da** H.Əliyev SSRİ Teatr Xadimləri İttifaqının təsis qurultayında iştirak etdi. Teatr Xadimləri İttifaqı İdarə heyətinin ilk sədri K.Lavrov seçildi.

**Dekabrın 10-da** H.Əliyev Sov.İKP MK-nın YKİ MK Rəyasət Heyətinin sədri Milanko Renovitsin başçılıq etdiyi Yuqoslaviya Kommunistlər İttifaqı nümayəndə heyətinin şərəfinə verdiyi naharda iştirak etdi.

**Dekabrın 12-də** M.Qorbaçovun Əfqanıstan Xalq-Demokratik partiyası MK-nın Baş katibi Nəciblə danışıqları oldu. Danışıqlarda sovet hökumətinin başçısı N.Rıjkov və onun birinci müavini N.Talızin iştirak edirdilər. H.Əliyev Əfqanıstan rəhbərinin şərəfinə verilən naharda iştirak etdi.

**Dekabrın 23-də** H.Əliyev Sovet hökuməti adından Macarıstan Xalq Respublikasının Nazirlər Sovetinin sədri D.Lazarın şərəfinə verilən naharda iştirak etdi.



## 1987

**Yanvarın 8-də** H.Əliyev Kremldə Polşa Xalq Respublikasının daxili ticarət və xidmətlər naziri E.Yuzvyakı qəbul etdi.

**Yanvarın 14-15-də** H.Əliyev dəmiryol və nəqliyyat tikintisi fəhlələri həmkarlar ittifaqının XXIV qurultayının işində iştirak etdi.

**Yanvarın 21-də** SSRİ Nazirlər Sovetinin ölkənin iqtisadi və sosial inkişafı Dövlət planının yerinə yetirilməsinin yekunlarına və 1986-cı il üçün SSRİ Dövlət büdcəsinə baxılan iclası oldu. H.Əliyev yığıncaqda çıxış etdi.

İlin nailiyyətləri sırasında yenə də H.Əliyevin cavabdehlik daşıdığı sosial sahədə tərəqqi qeyd olunmuşdu. SİTA-nın iclas barədəki hesabatında deyilirdi:

"Maarif, səhiyyə və sosial təminat sahəsi işçilərinin əmək haqqının artırılmasına dair tədbirlər görülmüşdür. İctimai istehlak fondlarından əhaliyə ödəniş və imtiyazlar artmışdır. Pərakəndə əmtəə dövriyyəsi 6,4 faiz, pullu xidmətlərin həcmi 10,2 faiz artmışdır. Mənzil tikintisinin, xüsusilə sosial-mədəni tikintinin miqyası xeyli genişlənmişdir".

**Yanvarın 27-29-da** H.Əliyev Sov.İKP MK-nın növbəti Plenumunun işində iştirak etdi. Plenuma "Yenidənqurma və partiyanın kadr siyasəti haqqında" məsələsi çıxarılmışdı.

Bu Plenumdan başlayaraq partiya və dövlət orqanlarında kütləvi kadr təmizlənməsi başladı. Plenumda təqaüdə getməsi ilə əlaqədar D.Ə.Kunayev Sov.İKP MK Siyasi Bürosu

üzvlüyündən azad edildi. Bir qədər sonra A.Qromıko və H.Əliyev də gedəcəkdir və beləliklə, Siyasi Büroda 1985-ci ilin martında Qorbaçovu hakimiyyətə gətirənlərdən, demək olar ki, heç kim qalmayacaq.

Plenumda Qorbaçov ilk dəfə olaraq ölkənin inkişafında bundan əvvəlki mərhələni hərtərəfli təhlil edəcək, 70-ci illəri "böhran və durğunluq" kimi səciyyələndirəcəkdir. Onun məruzəsindən bəzi parçalar:

"Sosializm sisteminin böyük üstünlükləri, ilk növbədə onun planlı olması, səmərəsiz istifadə olunurdu. Bu şəraitdə məsuliyyətsizlik genişlənir, ən müxtəlif bürokratik qayda və təlimatlar icad olunurdu. Canlı iş inzibatçılıq, gözəgirən fəaliyyət, kağız yaradıcılığı ilə əvəz olunurdu...

Əmtəə-pul münasibətləri və dəyər qanununun işləməsi haqqında yanlış fikirlər, əksər hallarda isə onların yad bir şey kimi sosializmə qarşı qoyulması, iqtisadiyyata volyuntarist yanaşmaya, təsərrüfat hesabını lazımi qədər qiymətləndirməməyə, əməyin ödənilməsində "bərabərçiliyə" gətirib çıxarırdı...

Neqativ proseslər sosial sahəyə ciddi təsir göstərmişdi. Son beşilliklərdə iqtisadiyyatın sosial yönümü nəzərəçarpacaq dərəcədə zəifləmişdi, sosial məsələlərə qarşı biganəlik yaranmışdı.

Zəhmətsiz gəlirlərlə mübarizə qətiyyətsiz aparılırdı. Yüksək məhsuldarlıqlı əməyin maddi və mənəvi təşviqi siyasəti ardıcıl aparılmırdı.

Qanunlara etinasız münasibət, gözdən pərdə asma və rüşvətxorluq cəmiyyətin mənəvi atmosferinə çox pis təsir göstərirdi... Rəhmdillik mühiti yaranırdı, tələbkarlıq, intizam, məsuliyyət aşağı düşürdü.

Durğunluq ideologiyası və psixologiyası mədəniyyət, ədəbiyyat və incəsənət sahələrində də özünü göstərirdi. Bədii yaradıcılığın qiymətləndirilməsi meyarları aşağı düşmüşdü".

Qorbaçov böhrandan çıxışı cəmiyyətdə demokratik əsasların dərinləşdirilməsində və xalqın özünüidarəetməsini inkişaf etdirməkdə görürdü. O, planlı əsasla tam təsərrüfat hesabını, müstəqillik və məsuliyyəti uzlaşdıran dövlət müəssisəsi haqqında Qanun layihəsini alqışlayır *(Əslində isə həmin Qanun xaosu dərinləşdirdi, çünki onun bütün müddəalarından təcrübədə ən çox müəssisə və təşkilat rəhbərlərinin əmək kollektivləri tərəfindən seçilməsi prinsipi tətbiq olundu).*



Baş katib bəyan etdi ki, kooperativ hərəkatının böyük gələcəyinə inanır və kooperatorlara hər cür kömək göstərməyə çağırdı.

O vaxt üçün proqressiv olan təkliflər də səsləndi: bir neçə namizəd sırasından seçmək alternativi haqqında, katiblərin, o cümlədən birinci katiblərin plenumlarda gizli səsvermə yolu ilə seçilməsi və s.

Eyni zamanda M.Qorbaçov partiya və dövlət kadrlarını, o cümlədən MK və hökumətin tərkibini də əsaslı surətdə dəyişməyin zəruri olduğunu bəyan etdi: "Sov.İKP MK, Siyasi Büro və MK katibliyi, partiya və dövlətin yüksək hakimiyyət eşelonu müxtəlif sahələrdən yeni qüvvələrin gəlməsinə hazır olmalıdır".

O, partiya komitələri katiblərinin, sovet və dövlət orqanlarının rəhbər heyətinin tərkibində bəzən onilliklərlə zəruri kadr dəyişiklikləri edilmədiyindən, ildən-ilə istehsal planlarını yerinə yetirməyən, sosial məsələləri başlı-başına buraxan, sözünün üstündə durmayan və intizamsız adamların öz yerlərində qaldıqlarından danışır.

Yekunda baş katib hamını aşkarlıq, tənqid və özünütənqidi hər vasitə ilə inkişaf etdirməyə çağırdı.

Plenumun qarşıya qoyduğu vəzifələri müzakirə etmək üçün Ümumittifaq partiya konfransının çağırılması qərara alındı.

**Fevralın 10-da** H.Əliyev SSRİ Böyük Teatrında A.S.Puşkinin anadan olmasının 150 illiyinə həsr olunmuş təntənəli gecədə iştirak etdi.

**Fevralın 24-28-də** H.Əliyev SSRİ Həmkarlar İttifaqlarının XXVIII qurultayında iştirak etdi.

**Martın 6-da** H.Əliyev SSRİ Böyük Teatrında 8 mart Beynəlxalq Qadınlar gününə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

**Martın 7-də** H.Əliyev SSRİ-də rəsmi dostluq səfərində olan Efiopiya Fəhlə Partiyası MK Siyasi Bürosunun üzvü, Sosialist Efiopiyasının milli müdafiə naziri general-leytenant Tesfaye Qebre Kidanı qəbul etdi.

**Martın 14-də** H.Əliyev SSRİ Jurnalistlər İttifaqının VI qurultayının işində iştirak etdi.

**Martın 15-dən 18-ə** kimi H.Əliyev Volqoqrad vilayətində oldu, zəhmətkeşlərlə bir sıra görüşlər keçirdi. O Kamışinsk Pambıq-Parça kombinatında, Corab-Toxuculuq və Ayaqqabı fabriklərində, Volqoqrad Traktor zavodunda oldu, Mərkəzi bazarı, mağazaları, ictimai iaşə müəssisələrini gəzdi. Təcili tibbi yardım klinik xəstəxanasının kollektivi ilə söhbət etdi, M.Qorki adına dəmiryol stansiyasında oldu, çay vağzalı kompleksinə baxdı, yolunun bir hissəsi yerin altı ilə keçən sürətli tramvayla gəzintiyə çıxdı.

4 saylı internat məktəbin müəllim və şagirdləri ilə görüşdü, orada yaradılmış Döyüş və Əmək Şöhrəti muzeyinə, eləcə də maşınqayıranların tikdiyi uşaq kombinatına, uşaq bağçası və körpələr evinə baş çəkdi.

Politexnik institutunda ali məktəb rəhbərləri ilə ali təhsilin yenidən qurulması problemlərini müzakirə etdi.

Vilayətin partiya, sovet və təsərrüfat fəalları ilə görüşdü. Görüşdə yenidənqurmanın, Sov.İKP MK yanvar (1987-ci il) Plenumunun qərarları işığında sürətləndirmə strategiyasının təcrübədə həyata keçirilməsinin gedişinə nəzər yetirildi.

Həlak olmuş döyüşçülər meydanında Böyük Vətən və vətəndaş müharibələri illərində Volqa istehkamı müdafiəçilərinin qardaşlıq məzarına əklil qoydu, Stalinqrad döyüşü



qəhrəmanlarına Mamayev Kurqanda qoyulmuş memorial ansamblı ziyarət edib, "Stalinqrad döyüşü" muzey-panoramına baxdı.

**Martın 17-də** H.Əliyev Volqoqradda yüngül sənaye, xalq istehlakı malları istehsal edən digər sahələrin müəssisələri, ticarət və xidmət sahəsi işçilərinin fəallar yığıncağını keçirdi. Yığıncaqda XXVII qurultayın, eləcə də Sov.İKP MK yanvar (1987-ci il) Plenumunun əhalinin xalq tələbatı malları və xidmətlərlə təminatının daha da yaxşılaşdırılması tələblərinin yerinə yetirilməsi üzrə vəzifələri müzakirə olundu.

H.Əliyevin aktivdə çıxışının şərhi "Pravda" və "İzvestiya" qəzetlərində dərc olundu. H.Əliyev vilayətdə yüngül sənaye sahəsindəki vəziyyəti müasir tələblər baxımından təhlil etdi, xüsusilə də sosial-mədəni sahədə həll olunmamış məsələləri qeyd etdi. Onun çıxışında dövlət müəssisəsi haqqında Qanunda əksini tapmış əhaliyə müasir xidmət sahəsinin inkişaf etdirilməsi problemi, yeni təsərrüfatçılıq üsullarının məğzı hərtərəfli nəzərdən keçirildi.

**Martın 21-də** Nəqliyyat Nazirliyində H.Əliyevin keçirdiyi selektor müşavirəsi oldu. Müşavirə soyuq keçən qış və yollarda qar yığını ilə əlaqədar dəmir yollarının yüklərin çatdırılmasında olan borcları məsələsinə həsr olunmuşdu.

**Martın 24-də** H.Əliyev Böyük Kreml sarayında "Bilik" cəmiyyətinin VIII qurultayının açılışında iştirak etdi.

**Aprelin 13-də** H.Əliyev KXDR səfirliyində Koreya Xalq Demokratik Respublikasının prezidenti Kim İr Senin 75 illiyi ilə əlaqədar qəbulda iştirak etdi.

**Aprelin 15-də** H.Əliyev SSRİ Nazirlər Sovetinin dəvəti ilə Sovet İttifaqında olan Xorvatiya (YSFR) Sosialist Respublikası soborunun icra veçesinin sədri A.Miloviçi Kremldə qəbul etdi.

**Aprelin 15, 16, 18-də** H.Əliyev dövlətin digər rəhbərləri ilə birlikdə ÜİLKGİ-nin XX qurultayında iştirak etdi.

**Aprelin 21-də** H.Əliyev Böyük Kreml sarayında Sov.İKP MK-nın PBFP MK-nın birinci katibi, Polşa Xalq Respublikası Dövlət Şurasının sədri V.Yaruzelskinin şərəfinə verdiyi səhər yeməyində iştirak etdi.

**Aprelin 22-də** H.Əliyev ideologiya, elm və mədəniyyət sahəsində Sovet-Polşa əməkdaşlığı haqqında Bəyannamənin imzalanmasında iştirak etdi.

**Aprelin 22-də** Kremlin Qurultaylar sarayında V.İ.Leninin anadan olmasının 117-ci ildönümünə həsr olunmuş təntənəli yığıncaqda iştirak etdi.

"Leninizm – yenidənqurmanın nəzəriyyə və siyasətinin əsasıdır" adlı məruzə ilə N.Rıjkov çıxış etdi.

**Aprelin 24-də** SSRİ Nazirlər Sovetinin iclası oldu. İclasda 1987-ci ilin I rübü üçün SSRİ iqtisadi və sosial inkişafı Dövlət planı və Dövlət büdcəsinin yerinə yetirilməsinin yekunları müzakirə olundu.

Bu iclas göstərdi ki, Qorbaçov tərəfindən elan olunmuş yenidənqurma və sürətləndirmə strategiyası, ölkə təsərrüfatı mexanizmində tələsik, çox vaxt düşünülməmiş islahatlar onun pozulmasına səbəb oldu və xalq təsərrüfatının bir çox sahələrində göstəricilərin aşağı düşməsinə gətirib çıxardı.

SİTA-nın məlumatında deyilir ki, "SSRİ Nazirlər Soveti birinci rüb üçün xalq təsərrüfatı inkişafını qiymətləndirərkən onu qeyri-qənaətbəxş hesab etmişdir. Qeyd etmişdir ki, əldə olunan nəticələr partiyanın iqtisadiyyatda əsaslı yenidənqurma haqqındakı tələblərinə cavab vermir".

*("Pravda" 25 aprel 1987-ci il).*

**Aprelin 27-də** H.Əliyev SSRİ hökuməti adından BKP MK Siyasi bürosunun üzvü, Bolqarıstan Xalq Respublikası Nazirlər Sovetinin sədri Q.Atanasovun şərəfinə verdiyi naharda iştirak etdi.



**Mayın 1-də** H.Əliyev Siyasi Büro üzvləri ilə birlikdə Qızıl meydanda zəhmətkeşlərin I May nümayişini salamladı.

**Mayın 7-də** Siyasi Büroda 1986-2000-ci illər üçün xalq istehlakı malları istehsalının və xidmət sahəsinin inkişafına dair Kompleks proqramının yerinə yetirilməsinin gedişi müzakirə olundu. SİTA-nın mayın 9-u "Pravda" qəzetində bu barədə dərc olunmuş məlumatında deyilir: "Qeyd olunmuşdur ki, bəzi istiqamətlər üzrə bu proqramın və onun həyata keçirilməsi ilə bağlı Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin qərarları qeyri-qənaətbəxş yerinə yetirilir".

**Mayın 8-də** H.Əliyev məktəb, texniki-peşə məktəbləri, klub və idman binalarının yeni layihələrinin sərgisi açılan Mərkəzi Memarlar Evində oldu.

**Mayın 11-də** H.Əliyev aerodromda Afinaya yola duşən Sov.İKP MK Siyasi Bürosunun üzvü, Sov.İKP yanında Partiya Nəzarəti Komitəsinin sədri M.Solomentsevin rəhbərlik etdiyi nümayəndə heyətini yola saldı. Qayıtdıqdan sonra, o özünü pis hiss etdi. Qısa müddət sonra öz iş kabinetində H.Əliyev infarkt keçirdi.

*Bu yerdə H.Əliyevin həyat və fəaliyyətinin Xronikasında xəstəlik və müalicə ilə bağlı fasilə əmələ gəlir (uzun illərdən bəri ilk dəfə!).*

Cəmi iki ay keçdikdən sonra, **avqustun 15-də** mərkəzi qəzetlərdə Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin "On ikinci beşillikdə və 2000-ci ilə qədər olan dövrdə əhalinin sağlamlığının qorunması və SSRİ səhiyyəsinin yenidən qurulmasının əsas istiqamətləri" Layihəsi dərc olundu.

Sovet səhiyyəsinin köklü surətdə yenidən qurulmasının əsasını müəyyən edən bu irimiqyaslı sənədi hələ xəstəlikdən tam sağalmayan H.Əliyev sözün tam mənasında xəstəxana palatasında hazırlamışdı.

Layihənin birinci bölməsi "Sovet səhiyyəsinin baş xətti olan profilaktikanın səmərəsini artırmaq" adlanırdı. Layihədə

profilaktika anlayışı dedikcə qlobal və müasir başa düşülürdü: təkcə əhalinin kütləvi dispanserləşdirilməsinin keçirilməsi kimi yox (baxmayaraq ki, bu da mühüm maddə idi), həm də təbiətin qorunmasının kompleks tədbirləri, müəssisələrdə sanitariya-gigiyena normalarına riayət olunması, əl əməyi və ağır fiziki əməyin payının azaldılması, emal prosesləri, ərzaq məhsullarının saxlanılması, daşınması və satılması üzərində sanitariya-gigiyena nəzarətinin sərtləşdirilməsi, qidalanma mədəniyyətinin yüksəldilməsi, insanın sağlam həyat tərzinin formalaşdırılması və s. kimi anlaşılırdı. Bu bölmədə əhalinin, xüsusilə böyüməkdə olan nəslin sağlamlığının qorunmasına münasibətdə çox məqamlar proqressiv, hətta inqilabi idi, məsələn, məktəbəqədər müəssisələrdə sağlamlığın möhkəmləndirilməsinin yeni müasir üsullarının tətbiqi, orta təhsil müəssisələrində bədən tərbiyəsi və idmanla gündəlik məşğul olunması, zəifləmiş və tez-tez xəstələnən uşaqlar üçün xüsusi sanator tipli müəssisələrin təşkili və s.

İkinci bölmə də az əhəmiyyət kəsb etmirdi – "Səhiyyənin əsas vəzifəsi – əhaliyə tibbi yardımın keyfiyyətini yüksəltməkdir". Burada o cümlədən hər respublikada, vilayətdə, diyarda mürəkkəb və yüksək səmərəli müasir avadanlığın və tibbi texnikanın cəmləşdiyi diaqnostika mərkəzləri şəbəkəsinin təşkil edilməsi, həmçinin bütün respublikalarda onkoloji mərkəzlərin yaradılması nəzərdə tutulurdu.

Digər bölmələrdə müasir şəraitdə tibbi kadrların hazırlanması və işinin təşkili məsələsinin yenidən qurulması, tibb elminin rolunun nədən ibarət olması, səhiyyə sahəsinin idarə olunmasını necə və hansı istiqamətlərdə təkmilləşdirmək və s. nöqtəbənöqtə təhlil olunurdu. Səhiyyə sahəsində elə bir istiqamət, elə bir məsələ qalmadı ki, layihədə öz əksini tapmamış olsun. Özü də bir çox istiqamətlər üzrə bu gün də aktuallığını itirməyən cəsarətli, perspektivli təkliflər irəli sürülürdü. Layihədə, məsələn, təklif olunurdu ki, tibbi ETİ-lərdə işin son nəticəsinə konkret töhfəsindən asılı olaraq elmi işçilərin əməyinin ödənilməsi diferensiallaşdırılsın, rəhbərlərə isə yerinə



yetirilən işlərin həcmini genişləndirərkən əməkdaşların əmək haqlarına əlavələr etmək hüququ verilsin. Layihədə elmi mərkəzlərdə və aparıcı ETİ-lərdə təcrübi-eksperimental istehsalatın təşkil olunmasının məqsədəuyğunluğu qeyd edilmişdir.

Mütəxəssislərin rəyinə görə, bu, Qorbaçov dövrünün "ilkin yenidənqurma" çağının ən əhəmiyyətli və seçilən sənədlərindən biri idi. Bu sənəd sovet səhiyyəsinin ümumi vəziyyətinə olduqca müsbət təsir göstərmiş, onun maddi-texniki bazasının sürətli inkişafına, tibbi müəssisələrin qabaqcıl avadanlıq və texnologiyalarla təchiz olunmasına kömək etmişdir.

**Sentyabrın 8-də** H.Əliyev XTNS-də keçən VI Beynəlxalq kitab yarmarka-sərgisinin açılışında oldu. Sərgidə 103 dövlətin 3 mindən çox şirkəti iştirak edirdi.

**Sentyabrın 17-də** H.Əliyev Kremlin Qurultaylar sarayında II Ümumittifaq xalq yaradıcılığı festivalının yekun konsertində oldu.

**Sentyabrın 18-də** H.Əliyev dünyanın bir çox ölkəsindən min beş yüzə yaxın birlik və şirkətin iştirak etdiyi "Kimya-87" beynəlxalq sərgisində oldu.

**Oktyabrın ilk günlərində** Sov.İKP MK-da Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin mədəniyyət və yaradıcı ittifaqların maddi bazasının möhkəmləndirilməsi haqqında qərarının yerinə yetirilməsinin gedişi müzakirə olunan müşavirə oldu. Müşavirəni Sov.İKP MK katibi Y.Liqaçov aparırdı, söhbətin axarını da o müəyyən edirdi. Mədəniyyət tikintilərini mənzil, məktəb, poliklinika və xəstəxana tikintiləri kimi təxirəsalınmaz və prioritet saymağın vacibliyindən danışır, Ukraynada, Gürcüstanda, Rusiya Federasiyasında klub və mədəniyyət evlərinin tikilməsinə qeyri-qənaətbəxş münasibəti tənqid edirdi. H.Əliyev bu sahənin kuratoru kimi müşavirədə iştirak edirdi.

**Oktyabrın 14-də** H.Əliyev Kremldə Küveytin neft naziri Əli-əl-Xəlifi qəbul etdi. SİTA-nın məlumatında deyilir ki, "söhbət əsnasında Sovet-Küveyt münasibətlərinin müxtəlif as-

pektləri, habelə İran-İraq münaqişəsi ətrafında vəziyyət müzakirə olundu".

**Oktyabrın 16-da** H.Əliyev Siyasi Büronun digər üzvləri ilə birlikdə SSRİ XTNS-də açılmış "Sənayenin ərzaq sahələri, ticarət və ictimai iaşə üçün texnoloji avadanlıq" sərgisinin eksponatları ilə tanış oldu.

**Oktyabrın 17-də** H.Əliyev Kremldə iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə Sovet-Yuqoslaviya komitəsinin XXV müşavirəsinin keçirilməsilə əlaqədar Moskvada olan YSFR İttifaq icraiyyə veçesi sədrinin müavini Y.Zemlyariçi qəbul etdi.

**Oktyabrın 19-da** Böyük Kreml sarayında onbirinci çağırış SSRİ Ali Sovetinin səkkizinci sessiyası açıldı. Sessiya 1988-ci il üçün SSRİ iqtisadi və sosial inkişafı Dövlət planı və Dövlət büdcəsini müzakirə etməli, həmçinin bir sıra digər məsələlərə baxmalı idi.

**Oktyabrın 21-də** Sov.İKP MK-nın Oktyabr inqilabının 70 illiyi ilə əlaqədar məsələləri müzakirə etmiş Plenumu oldu.

Plenumda həmçinin təşkilat məsələsinə də baxıldı. Plenum H.Əliyevin səhhəti ilə bağlı təqaüdə çıxması ilə əlaqədar Sov.İKP MK Siyasi Bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən azad olunması barədə xahişini yerinə yetirdi.

H.Əliyev SSRİ Nazirlər Soveti yanında dövlət müşaviri təyin olundu.

**1988-ci ilin noyabrında** H.Əliyev öz xahişi ilə SSRİ Nazirlər Soveti yanında dövlət müşaviri vəzifəsindən azad edilir.

**1989-cu il aprelin 24-də** təqaüd yaşına çatmış böyük qrup MK üzvləri ilə birlikdə H.Əliyev Sov.İKP MK-nın tərkibindən çıxır.

**İkinci hissənin sonu**



## Mündəricat

**Böyük ömrün xronikası** .......................... 3

**13 il Azərbaycan dövlətinin başında** ............... 7
1969 ........................................ 7
1970 ........................................ 18
1971 ........................................ 30
1972 ........................................ 46
1973 ........................................ 54
1974 ........................................ 64
1975 ........................................ 76
1976 ........................................ 90
1977 ........................................ 111
1978 ........................................ 127
1979 ........................................ 143
1980 ........................................ 167
1981 ........................................ 187
1982 ........................................ 208

**Moskva–Kreml** .............................. 233
1982 ........................................ 233
1983 ........................................ 235
1984 ........................................ 251
1985 ........................................ 272
1986 ........................................ 295
1987 ........................................ 317

**Axundova Elmira Hüseyn qızı**

# HEYDƏR ƏLİYEV
## Şəxsiyyət və Zaman

**Həyat və fəaliyyətinin xronikası**
**4-cü kitab**
**1969 – 1989-cu illər**


Tərcüməçi: **Yaşar Quluzadə,**
filologiya elmləri namizədi
Korrektor: **Gülarə Əmirxanova**
Texniki redaktor: **Cəsarət Qasımov**

Yığılmağa verilib: 20.06.2008. Çapa imzalanıb: 10.08.2008.
Formatı: 60x90 1/16. Ofset çapı. Həcmi: 22
Sifariş № 160. Tiraj: 2000.

CBS POLYGRAPHIC PRODUCTION

mətbəəsində çap olunmuşdur